AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASI
AZƏRBAYCAN ƏMƏK VƏ SOSİAL MÜNASİBƏTLƏR AKADEMİYASI

# “ƏMƏK və SOSİAL MÜNASİBƏTLƏR”

## Elmi-praktiki jurnal

№ 1 (01)

BAKI-2014

**BAŞ REDAKTOR:**
**Mobil Məcidov,** *iqtisad üzrə fəlsəfə doktoru, dosent*

**BAŞ REDAKTORUN MÜAVİNİ:**
**Sirac Məmmədov,** *biologiya üzrə fəlsəfə doktoru, dosent*

**MƏSUL KATİB:**
**Zeynəddin Şabanov,** *fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*

**REDAKSİYA HEYƏTİ:**

i.ü.e.d., professor Səttar Mehbalıyev - Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri

sos.ü.e.d. Hüseyn Qaraşov - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektoru

i.ü.e.d., professor Ramiz İsgəndərov - Azərbaycan Texniki Universitetinin “Sənaye iqtisadiyyatı və menecment” kafedrasının müdiri

i.ü.e.d., professor Tərbiz Əliyev - AMEA Elmi İnnovasiyalar mərkəzinin baş direktorunun elmi işlər üzrə müavini

i.ü.e.d., professor Sadıq Salahov - AMEA Elmi Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun direktoru

f.ü.e.d., professor İlham Məmmədzadə - AMEA Fəlsəfə və Hüquq İnstitutunun direktoru

p.ü.e.d., professor Fərahim Sadıqov - Bakı Elm-Təhsil Mərkəzinin direktoru

i.ü.e.d., professor Ramil Əliyev - Azərbaycan Dövlət İqtisad Universitetinin “İqtisadi təhlil və audit” kafedrasının müəllimi

t.ü.e.d., professor Vəkil Həsənov - Azərbaycan Dövlət İqtisad Universitetinin “Azərbaycan tarixi” kafedrasının müəllimi

b.ü.f.d., dos. Sirac Məmmədov - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının Tədris və tərbiyə işləri üzrə prorektoru, baş redaktorun müavini

i.ü.f.d., dos. Mobil Məcidov - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının Elmi işlər üzrə prorektoru, baş redaktor

i.ü.f.d., dos. Əsgər Əliyev - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının “Maliyyə” fakültəsinin dekanı

i.ü.f.d. Hicran Mirzəyeva - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının “İqtisadiyyat və inzibati idarəetmə” fakültəsinin dekanı

t.ü.f.d., professor Rafiq Zeynalov - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının “Ümumi humanitar və sosial fənlər” kafedrasının müdiri

i.ü.f.d., dos. Güloğlan İsmayılov - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının “Ümumi iqtisadiyyat” kafedrasının müdiri

fəl.ü.f.d., dos. Zeynəddin Şabanov - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının “Sosial tərəfdaşlıq və HİH” kafedrasının müdiri, məsul katib

*Azərbaycan Respublikası, Bakı şəhəri, Azadlıq pr.181, Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası*
*Tel.: 563-01-62; e-mail:aesma.elmi-jurnal@mail.ru.*
*Jurnal Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının Elmi Şurasının qərarı ilə çap olunur. (protokol № 9, 23.05.2014)*
*Jurnal Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir. Qeydiyyat № 3883. 07.05.2014*

# MÜNDƏRİCAT

**MÜNDƏRİCAT**…………………………………………………………………….....3

## HƏMKARLAR İTTİFAQI HƏRƏKATI VƏ SOSİAL TƏRƏFDAŞLIQ BÖLMƏSİ

**Hüseyn Qaraşov**
Həmkarlar ittifaqlarında motivin potensialı və fəaliyyətin effektivliyi..........................6

**Zeynəddin Şabanov**
Müasir dövrdə sosial tərəfdaşlıq prioritet məsələ kimi.............................................17

## HUMANİTAR VƏ SOSİAL ELMLƏR BÖLMƏSİ

**Rafiq Zeynalov**
M.Qorbaçovun milli siyasətinin iflası (Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi kontekstində).........................................................................................26

**Ramiz İsgəndərov**
Sosial problemlərin həllində dövlət siyasətinin əsas istiqamətləri..............................34

**Mətləb Mahmudov, Mehriban Zeynalova**
Qadınlara qarşı zorakılıqla mübarizədə qabaqlayıcı preventiv tədbirlər.....................41

**Arif Tağıyev**
Fəlsəfə və dünyanın elmi mənzərəsi (metodoloji analiz)...........................................50

**Aydın Şirinov**
Fəlsəfədə ümumbəşərilik və millilik.........................................................................60

**Günel Məlikli**

Azərbaycan Respublikasının sosial siyasətinin inkişafında beynəlxalq əməkdaşlığın rolu.....................................................................................................................70

## İQTİSADİYYAT VƏ İDARƏETMƏ BÖLMƏSİ

**Sadıq Salahov**

Azərbaycan Respublikasında kənd təsərrüfatının inkişaf meyilləri............................77

**Gülöğlan İsmayılov**

Dünya pul sisteminin yaranması və formalaşma xüsusiyyətləri.................................85

**Əsgər Əliyev, Sevda Məmmədova**

Azərbaycan iqtisadiyyatının inkişafında energetika sənaye sahəsinin rolu.................90

Hicran Mirzəyeva

**Kənd təsərrüfatında təkrar istehsal prosesinin dövlət tərəfindən dəstəklənməsi.........96**

**Ofeliya Yusupova**

Müəssisədə yaradılan ehtiyatların və onlardan istifadənin təhlili............................101

**Nürəngiz Mikayılova**

Şəki-Zaqatala iqtisadi rayonu iqtisadiyyatında aqrar sahənin rolu...........................105

**Натаван Исмайлова**

Проблемы оптимизации расходов государственного бюджета……………..…114

**Mobil Məcidov**

XX əsrin sonunda xarici ölkələrin ali təhsil sisteminə dövlət tərəfindən maliyyə dəstəyinin məhdudlaşdırıldığı bir şəraitdə həyata keçirilən islahatlar və onların nəticələri (Avropa və Amerika təcrübəsi)........................................................................118

***Hörmətli oxucular!***

*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının “Əmək və sosial münasibətlər” jurnalı nəşrə başlayır. Artıq jurnalın birinci nömrəsi Sizinlədir. Jurnalın nəşrinə zərurət bu günün tələbləri ilə bilavasitə bağlıdır. Belə ki, həmkarlar ittifaqı orqanlarında, sosial tərəfdaş təşkilatlarda çalışan işçilərin, mütəxəssislərin, müəllimlərin, doktorantların, tələbələrin respublikamızda sosial-iqtisadi sahədə gedən islahatlara, iqtisadiyyatın qloballaşma prosesinə, əmək münasibətlərinə marağı çox artmışdır.*

*Ümid edirəm ki, hər bir oxucu jurnalda onu maraqlandıran problemlərlə bağlı elmi-praktik məqalələrlə tanış ola biləcək.*

*Bu gün, elmi jurnalların bol olduğu bir zamanda, jurnalların qarşısında - təqdim edilən məqalələrdə elmi səviyyənin yüksək olması, intellektual potensialın yetişdirilməsi və möhkəmləndirilməsi, təhsilin keyfiyyətinin yüksəldilməsi, sosial-əmək münasibətləri problemlərinin öyrənilməsinə töhfə vermək və informasiya texnologiyaları sahəsində son illər əldə olunmuş uğurları beynəlxalq elmi əməkdaşlıqda tətbiq etmək və s. bu kimi mühüm vəzifələr durur. Jurnal intellektual diskussiyalar və elmi məsələlər ətrafında fikir mübadiləsi üçün həmişə açıq olacaqdır.*

*Cəmiyyətdəki köklü dəyişikliklər elm, təhsil, siyasət, hüquq, iqtisadiyyat kimi sahələrə mühüm təsir göstərib. Fikrimizcə, bütün bunlar redaksiya heyətinə və məqalə müəlliflərinə təhsildə yeniləşmə və modernləşmə metodlarının axtarılmasında, elmi tədqiqatların təşkilində, onların keyfiyyətli olması və müasirliyin tələblərinə cavab verməsində stimul verəcəkdir.*

*İnanıram ki, “Əmək və sosial münasibətlər” elmi-praktiki jurnalı həmkarlar ittifaqı hərəkatı, sosial problemlər və müasir elmin - iqtisadiyyat, sosiologiya, hüquq və s. inkişafı ilə bağlı olan aktual məsələlərin müzakirə meydanına çevriləcək.*

*Uğurlu yol!*

***Səttar Mehbalıyev***

*Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, iqtisad üzrə elmlər doktoru, professor, Rusiya Sosial Elmlər Akademiyasının həqiqi üzvü*

**HƏMKARLAR İTTİFAQI HƏRƏKATI VƏ SOSİAL TƏRƏFDAŞLIQ BÖLMƏSİ**

**UOT – 316.35**

**Hüseyn Qaraşov**
**AƏSMA, sos.ü.e.d.**

# HƏMKARLAR İTTİFAQLARINDA MOTİVİN POTENSİALI VƏ FƏALİYYƏTİN EFFEKTİVLİYİ

**Açar sözlər:** həmkarlar ittifaqı, motiv, işçi, əmək, stimul, fəaliyyət
**Ключевые слова:** профсоюз, мотив, работник, труд, стимул, деятельность
**Keywords:** trade union, motive, worker, labor, incentive, activities

Həmkarlar ittifaqları təşkilatının hər bir üzvü, xüsusilə lideri dərk edir ki, müasir mərhələdə həm dövlət, həm də ayrıca müəssisə miqyasında insan faktorundan səmərəli istifadə problemi müstəsna əhəmiyyət kəsb edir. Bu səbəbdən də həmin problemin tərkib hissəsi kimi motivasiya potensialı tədqiqatlarda mühüm yer tutur.

Bu baxımdan «motiv potensialı» anlayışının mahiyyətini nəzərdən keçirək. Mövcud araşdırmalardan aydın olur ki, «müəssisənin motiv potensialı» öz iqtisadi təbiətinə görə «əmək potensialına» yaxındır. Lakin burada prinsipial fərq bundan ibarətdir ki, əmək potensialının əsasında personalın müəyyən işin yerinə yetirilməsinə olan imkanları durur, motiv potensialının əsasını isə müəyyən işi görmək istəyi təşkil edir. Aydındır ki, əgər personalın öz öhdəliklərini məsuliyyətlə yerinə yetirmək həvəsi yoxdursa, onda müəssisədə müəyyən peşə vərdişləri, təhsil-ixtisas səviyyəsi, keyfiyyət və kəmiyyət xarakteristikaları bütün dəyərlərini itirmiş olur [1, s.48-53].

İşçinin fərdi və ictimai dəyər kimi münasibəti şəxsiyyətin istehsal sahəsində özünütəsdiq şərti olub, elə bir əmək fəaliyyəti prosesində formalaşa bilər ki, bu fəaliyyət insana onun potensialını tam aşkarlamaq və reallaşdırmaq imkanları vermiş olsun [2].

Beləliklə, motiv potensialı işçi üçün daha əhəmiyyətli əmək fəaliyyəti motivlərinin məcmusudur. Bu motivlər son nəticədə işçinin əməyə münasibətini müəyyən edir və onun istehsal davranışında zəruri təşkilati şəraitin olduğu təqdirdə reallaşır.

Başqa sözlə, motiv potensialı insanın öz işinə nəzərən mövcud resursların ölçüsüdür [3]. Motivasiya potensialı istehsalın tələbatına, daha doğrusu, idarəetmə aparatının tələbatlarına uyğun dərəcədə reallaşır. Motivasiya potensialı işçinin motivasiya səviyyəsini xarakterizə edir, yəni konkret təşkilatda hansı motivlərin insanı işləməyə sövq etdiyini bildirir.

Deyilənlərin kontekstində müasir əmək prosesində əməyin motivasiyasının idarə olunması problemi xüsusi aktuallıq kəsb edir. Əməyin motivasiyasının idarə olunmasına aşağıdakı prinsiplər daxildir: 1) əməyin motivatorlarının seçilməsi; 2) əmək haqqı siyasəti; 3) mükafatlandırma və xidmətlər siyasəti; 4) uğurla iştirak siyasəti; 5) personala çəkilən xərclər siyasəti.

Əməyin idarə olunmasının əsası əmək motivatorlarının seçilməsidir. Əməyin motivasiyası əməyin stimullaşdırılmasının təbiəti ilə sıx bağlıdır. «Tələbatlar-maraqlar-stimullar (motivlər) – mükafatlandırma» sxeminin qurulması insanın fəal əməyə sövq edilməsini, həyata keçirilməsini başa düşməyə kömək edir.

İnsanın hər bir hərəkətində sövqedici motiv var. İnsan müəyyən qərara gələrkən öz tələbatlarından, daxili fəallığı oyadan səbəblərdən çıxış edir. Qeyd edək ki, insanların tələbatları onlardan razı qalmağın səviyyəsindən asılıdır. Tələbatı reallaşdırmaq imkanlarını dərk etmək fəaliyyətin real səbəbi olan maraqları meydana gətirir. Marağın reallaşması stimulun, yəni insanın həvəsləndirilməsilə onun hərəkətləri arasında asılılığı yaradan alətin köməyi ilə baş verir. Beləliklə, əməyə olan stimul insanın maraqlarının reallaşdırılmasının obyektiv mövcud formasıdır. Əmək stimulu obyektiv şəraitdə meydana gələn subyektiv motiv kimi insanın, yaxud əmək kollektivinin ən yaxşı spesifik maraqlarından asılıdır.

Əməyin stimullaşdırılması seçilmiş stimulların təşkilatın məqsədlərini təmin edən müəyyən tabeçilik sisteminə gətirilməsidir. Belə yanaşmada fərdin sosial-psixofizioloji tələbatları cəmiyyətin iqtisadi dilinə çevrilir [4].

Bu kontekstdə onu da qeyd edək ki, «stimul», «motiv» anlayışına yaxındır. Bizim, yəni post-sovet məkanı tədqiqatlarında stimul anlayışı Qərb sosioloji fikrində «motiv» kateqoriyası kimi işlədilir. Təbii ki, bu anlayışlar arasında müəyyən fərqlər də mövcuddur: əgər «stimul» əsasən maddi və mənəvi həvəsləndirmə ilə bağlıdırsa, «motiv» anlayışı işçinin davranmasının bütün tərəflərini əhatə edərək, daha geniş aspektdə işlədilir. Əmək motivatorları əməyin sövqedici amilləri kimi çıxış edir. İşçinin motivasiyası davranışın motivlərinin fəallaşdırılması prosesidir. Bu, işçinin müəyyən hərəkəti gözləmək məqsədilə müxtəlif stimulların könüllü tətbiqidir.

Motivin mühüm dəyər əhəmiyyəti onun güclü sövqedici potensiala malik olmasıdır. Özünün potensialı ilə motiv yalnız insanın fəallığının səviyyəsinə deyil, daha çox bu fəallığın uğurlu təzahürünə, xüsusilə fəaliyyətin effektivliyinə təsir göstərir. Hər bir motivin mühüm xarakteristikası onun dayanıqlığıdır. O, aktual problemin həlli zamanı təzahür edirsə, bu məqamı psixoloqlar «inadlı» faktor sayırlar və yaxud dayanıqlıq motiv yönümlənməsini xarakterizə edirsə, bu zaman motivin təkidedici xüsusiyyətindən söhbət gedir. Sosial psixoloq M. Uinerbott yazır ki, güclü motivləşdirilmiş uşaqlar tapşırığın yerinə yetirilməsində böyük inadkarlıq nümayiş etdirirlər, halbuki zəif motivləşdirilmiş böyüklərdə bu hal fəal təzahür etmir.

Bu aspektlə bağlı biz bir qədər əməyin motivləşdirilməsi probleminə toxunmaq istərdik. Əməyin motivləşdirilməsi elə bir tədbirlər sistemidir ki, bunun məqsədi işçidə əməyə stimul yaratmaq və onu tam qüvvəsi ilə çalışmağa sövq etməkdir. Ümumiyyətlə, insanın davranışı çoxlu sayda motivlərlə müəyyənləşir. Bir daha qeyd edək ki, motiv insanda müəyyən hərəkəti oyadan fenomendir. Motiv insanın daxilində yetişib formalaşdığı üçün personal xarakter daşıyır və bu əmək prosesində çox mühüm amildir, insana nəzərən bir çox xarici və daxili faktorlardan asılıdır. İnsanda daxili sövqedici faktor tələbatdır. Müəyyən mənada demək mümkündür ki, insan müxtəlif tələbatlar sisteminin yaradıcısı və reallaşdırıcısıdır.

Əməyin motivi olmadıqda yüksək olmayan nəticələrin əldə edilməsinə gətirib çıxarır. Şəxsi, kollektiv və ictimai maraqlar əks səbəbləri və nəticələri meydana gətirir. Müxtəlif maraqların toqquşmasını, daha doğrusu, müxtəlif maraqların qovuşmasını nəzərə alan stimullar vasitəsilə problemi həll etmək mümkündür. Məsələn, işçinin şəxsi marağını əks etdirən əmək üçün mükafatlandırılması işəgötürən üçün lazım olan nəticə üzdə olduqda həyata keçirilir. Burada motiv müəssisənin tapşırığı yerinə yetirilərkən mükafatlandırmanın gözləntisidir, başqa sözlə, işçinin marağı vəd edilmiş mükafatı almaq üçün tapşırılan işin yerinə yetirilməsidir. Belə halda işçinin əsas tələbatı isə onun aldığı əmək haqqı ilə zəruri istehlak predmetlərini əldə etmək imkanıdır. Tələbatdan əlavə əmək prosesi özündə əməyə tələbatı, ünsiyyət, inkişaf tələbatını da ehtiva edə bilər.

Stimullar işçiyə təsir dərəcəsinə görə fərqlənir. Əməyin motivasiyası, əsasən, güclü stimulları axtarır və istifadə edir. Onlar çox zaman yüksək əmək fəaliyyətinin yekunu kimi əldə edilmiş gəlirdən istifadə etməklə bağlı olur.

Stimul əməyin motivasiyası sistemində həvəsləndirmə, yaxud cəzalandırma qismində iştirak edə bilər. Adətən, birinciyə üstünlük verilir, çünki, ümumiyyətlə həvəsləndirmə rəğbətlə qarşılanır.

Müasir əmək çox zaman sərbəstliyi ilə, məsuliyyətli olması ilə, işçi qüvvəsindən və intellektdən azad istifadə edilməsilə xarakterizə olunur və bir qayda olaraq, yüksək ixtisaslaşmanı, uzun müddət təlim keçməyi və təcrübəni tələb edir. Ona görə əmək münasibətlərinin inkişafı daha mürəkkəb əmək motivasiya sistemlərinin tətbiq olunmasını tələb edir. Məsələn, Qərb təcrübəsində işçilərin əməyinin stimullaşdırılması bunları nəzərdə tutur:

- əmtəələrin və bazarların öyrənilməsi və konyunkturanı bilmək;
- müştəriləri inandırmaq bacarığı;
- effektli şəxsiyyətlərarası kommunikasiyaların həyata keçirilməsi bacarığı;
- intuisiya, improvizə etmək bacarığı.

İxrac işçiləri üçün həvəsləndirmənin başlıca göstəricisi, ümumiyyətlə, yaxud konkret ərazidə malların reallaşdırılması üzrə biznesdir. Bir işçinin əmək haqqı (onun verdiyi töhfəyə və əməyinin nəticəsinə görə) başqasının əmək haqqından xeyli fərqlənir.

Beləliklə, əməyin motivasiyasının mahiyyəti əməyin stimullarının işçinin marağına təsirindən ibarətdir. İşçinin başlıca marağı işdən gəlir əldə etməkdir. Ona görə əmək haqqının ödənilməsi məhsuldar əmək naminə işçinin bütün motivasiya sistemlərinin əsasında yerləşir. Son illər işçi qüvvəsinə digər məsrəflər, məsələn, müəssisənin sosial xidmətləri ilə bağlı məsrəflər əhəmiyyətli dərəcədə artırmaqdadır. Belə olarsa, motivasiyanın idarə edilməsinin köməyi ilə əməyin nəticələrinə və əməyin ölçüsü ilə onun mükafatlandırılma dərəcəsinə təsir etmək olar.

Əməyin motivasiyasının idarə olunması əmək haqqı siyasətinə söykənir, yəni müəssisənin fəaliyyətində qoyulmuş məqsədlərə nail olmaq üçün iş şəraitinin daha effektli olan əməyin ödənilməsi sisteminin və onun əsaslandırılmış formalarının seçilməsinə söykənir [5, s.466-471]. Burada kollektivin işçilərinin həcminə, tərkibinə və dinamikasına təsir edən məqsədlər və tədbirlər sistemindən söhbət gedir. Əmək haqqı məvacibinin müxtəlifliyi növ və həcmli mükafatlandırılmanın təşkili elementlərinin müxtəlif variantlarından və kombinasiyalarından istifadə olunur.

Belə ki, kiçik müəssisələr elə bir əmək haqqı siyasətinin yeridilməsinə üstünlük verirlər ki, bu zaman məvacib böyük rol oynayır. Belə müəssisələrdə əmək haqqının ödənilməsinin həcmi işçinin şəxsi əmək nailiyyətlərindən və işdəki uğurlarından asılıdır.

Əmək haqqı siyasəti çox müxtəlifdir, bu da günəmuzd əmək haqqının müxtəlif modifikasiyalarının tətbiqi ilə bağlıdır. Məsələn, xarici müəssisələrdə günəmuzd əmək haqqının təşkili metodikası ilə seçilən günəmuzd sistemlər tətbiq edilir: 1) differensial, yaxud cərimə sistemləri (Teylorun, Merrikin, Qantın sistemləri); 2) günəmuzd reqressiv sistemlər, yaxud əlavə gəlirin bölünməsi sistemi (Xalsi, Bedo, Baum); 3) empirik sistemlər (Bigelin, Parkherst) və b.

Əmək haqqı siyasəti əmək haqqının təşkili elementlərinin müxtəlif kombinasiyalarını nəzərdə tuta bilər. Məsələn, Qərbin inkişaf etmiş ölkələrində ticarət agenti oxuduğu dövrdə yalnız vəzifə maaşı ala bilər. Sonradan isə o müstəqil işləməyə başlayanda ona komisyon əmək haqqı ödəyə bilərlər. Əgər agentin birinin yaşı artarsa, onu qarışıq əmək haqqı sahəsinə keçirə bilərlər, belə halda o, həm vəzifə, həm də komisyon əmək haqqı ala bilər.

Əməyin motivasiyasının idarə olunması mükafatlandırma və xidmətlər siyasətinə, yəni sosial xarakterli mükafatlandırmaya və ödəmələrə söykənir. Mükafatlandırma növünün seçilməsi fəaliyyətin şəraitindən asılıdır, lakin mükafatın həcminə müəyyənedici təsiri müəssisənin maliyyə vəziyyəti təsir edir.

İşçinin mükafatlandırılmasının etalonu onun şəxsi marağıdır. Belə ki, əgər işçinin ən böyük marağı karyeradırsa, onda onun mükafatlandırılması sistemində əmək adamının xidmətinin artmasına üstünlük verilməlidir. Başqa bir işçi üçün mükafatlandırma sistemində motivasiya yaşayış, iş rejimi funksiyalarının yerinə yetirilməsində sərbəstlik kimi məqamlar üstünlük təşkil edə bilər.

İnsanların fiziki və əqli qabiliyyəti fərqləndiyi kimi onların əməyinin stimulu da fərqlənməlidir. Mükafatlandırmanın ümumi növləri ilə yanaşı onun fərdiləşməsi əməyin motivasiyasının effektliyini artırır. Bu, müasir istehsalın qarşılıqlı əlaqəsinin, qarşılıqlı asılılığının yüksək səviyyəsi ilə bağlıdır. Bəzən qüsursuz iş ardınca qaçmaq işçini işi bir dəqiqədə görməyə sövq etsə də, onu rəhbər tapşırıqlarına kor-koranə əməl etməyə vadar edir. Belə yanaşma heç də həmişə təqdir olunmur. Hər halda kor-koranə əmri yerinə yetirən işçidənsə, yaradıcı işçiyə daha çox üstünlük verilməlidir. Lakin yaradıcı işçi həm də müvafiq inkişaf səviyyəsinə malik olmalıdır.

Motivasiyanın idarə olunması müəssisənin siyasəti personala könüllü xidmət göstərməklə bağlı məqsədləri və tədbirləri özündə ehtiva edir. Sosial xidmətlərin çoxluğu müəssisənin mədəniyyətindən asılıdır, bu faktor da öz növbəsində kollektivdə münasibətləri yaxşılaşdırır, konfliktlərin sayını azaldır, insanları iş yerinə bağlayır, müəssisənin müsbət imici hesabına yeni işçilərin cəlb olunmasına kömək edir. Bundan əlavə, respublikada kifayət qədər inkişaf etmiş qanunvericiliyin olduğu təqdirdə müəssisənin ağıllı və effektiv siyasəti vergilərin azaldılmasına gətirib çıxarır. Müəssisənin sosial xidmətlərinə bunları aid etmək olar: malların güzəştli şərtlərlə satışı, yeməkxanaların və kafelərin, istirahət evlərinin, idman qurğularının təşkili, işçilər üçün evlərin alınmasına yardım göstərmək, digər xidmətlər göstərmək, pensiya fonduna əlavə ayırma.

Qeyd edək ki, firmanın işinin nəticələri ilə əmək haqqının uzlaşması praktikası keçən əsrin 30-cu illərində tətbiq edilməyə başlanmışdır. Belə hesab edirlər ki, əgər muzdlu əmək işçilərinin əmək haqqının ödənilməsi və əsasən bazar konyunkturunun dəyişilməsindən asılı deyilsə, onda iş adamlarının, sahibkarların gəlirləri firmanın işinin əldə etdiyi nəticələrdən asılı olmalıdır. Bu barədə

başqa bir fikir də mövcuddur: təkcə sahibkarlar deyil, muzdlu əmək işçiləri də gəlirlərdə və firmanın işinin nəticələrində iştirak etməlidirlər. Bu gün B. Veytsmanın «iştirak iqtisadiyyatı» nəzəriyyəsi geniş yayılmışdır [6, s.28]. Bu təlimi meydana gətirən əmək stimullarının çərçivəsinin genişlənməsi olmuşdur. Gəlirlərdə iştirak birbaşa da, yəni işin nəticələrinə görə mükafatlandırılma əsasında, həm də dolayısı yolla, yəni firmanın kapitalında iştirak etmək əsasında da ola bilər. Bir çox ölkələrdə gəlirlərin iştirakında müxtəlif formalar mövcuddur. Məsələn, Almaniyada fəhlələrin 15%-i kapitalda iştirak vasitəsilə firmanın sahiblərindən biri olur, ABŞ-da isə bu qəbildən olan işçilər on faiz təşkil edir.

Uğurda iştirak siyasəti əmək motivasiyasının idarə olunması sistemində əsasən rəhbər personala nəzərən tətbiq edilir. Siyasətin əsasını müqavilədə göstərilmiş məbləğə əlavə olaraq, işəgötürənlərin təminat verdiyi müəssisənin gəlirinin bir hissəsinin muzdlu əmək işçiləri arasında bölünməsi təşkil edir. İştirak siyasi işçilərin marağını artırmaq, kollektivdə mikro ab-havanı yaxşılaşdırmaq və kadr axıcılığını azaltmaq məqsədilə həyata keçirilir. İştirakda əksini tapmış uğurun göstəriciləri bunlar ola bilər: yerinə yetirilmiş işin həcmi, gəlir, rentabellik, məsrəflərin qənaət edilməsi və s. İştirakın formaları müxtəlif ola bilər. Məsələn, xarici firma rəhbərlərinin şəxsi gəlirləri bunları özündə ehtiva edə bilər:

- rəsmi vəzifə maaşı;
- mükafat;
- birja kursundan aşağı olan qiymətə görə aksiya formasında mükafatlandırma;
- sığorta fondundan müxtəlif artırılmış ödəmələr;
- kampaniyanın müxtəlif güzəştləri və xidmətləri.

Uğurda iştirakın özünün, yaxud qarışıq müəssisənin pulsuz, yaxud güzəştli aksiyaların əldə edilməsi forması geniş yayılmışdır.

Məsələn, ABŞ-da korporasiyalar pensiya fondları yaradır və qənaət edilmiş pullar proqramını həyata keçirirlər, Fransada maddi maraqlandırma fondları və xüsusi iştirak ehtiyatları yaradılır.

Xarici praktikada hazırda personala edilən məsrəflərin idarə olunması iki meyilə məruz qalmışdır: 1) işçi qüvvəsinin dəyərinin artmasının və həmkarlar ittifaqlarının müvafiq tələbləri kimi obyektiv şəraitin yaratdığı məsrəflərin artması; 2) firmanın rentabelliyinin artması və inkişafı məqsədilə personalın saxlanmasına gedən xərclərin labüd olaraq aşağı düşməsi ilə bağlıdır. İqtisadiyyatı inkişaf etmiş ölkələrdə personalın saxlanması üçün bir adama hesablanan illik xərclər orta səviyyəli üç yeni minik avtomobilinin dəyərinə ekvivalentdir. Personalın saxlanması üçün xərclər işəgötürən işçi qüvvəsi üçün bütün xərcləri ehtiva edir. Buraya əmək haqqı, əlavə ödəmələr və müəssisənin könüllü sosial xidmətləri daxildir. Təbii ki, bu xərclər müəssisənin maliyyə imkanlarından asılıdır. Bütövlükdə bu xərclərin müasir səviyyəsi olduqca yüksəkdir. Müəssisənin könüllü məsrəfləri qocalığın təminatı üçün - 52 %, pul müavinəti - 25 %-dək, sosial xidmət vəsaitləri - 9 %-dək, təhsil və ixtisası artırmağa - 11%, digər xərclər - 3% vəsaitdən ibarət ola bilər.

Qərb təcrübəsində əmək haqqına məsrəfləri daxil edən gəlirin və zərərin məbləği hər il dərc olunur. Belə bir informasiya ictimaiyyətə imkan verir ki, müəssisələrin xərclərini nəzarətə götürsün və müqayisə etsin. Smeta özündə bu məlumatları daşıyır: əmək haqqına çəkilən xərclərin dinamikası, iş vaxtı, tarif münasibətinin dəyişməsi, müəssisədə əsas müqavilələr haqqında, müəssisənin sosial idarələrinin xərcləri və xidmətləri haqqında, sosial xarakterli digər könüllü xidmətlər, fəhlə və qulluqçu kollektivinin müəssisənin gəlirlərdə iştirakı, əməyin mühafizəsi və bədbəxt hadisələrin qarşısını almaq üçün tədbirlərin görülməsi haqqında.

Personalın saxlanılması üçün məsrəflər sosial fondlara məcburi dövlət ayırmalarının həcmindən asılıdır. Bu məsrəflərə ölkənin təbiəti mühafizə tədbirləri ilə bağlı qanunları təsir göstərə bilər.

Personalın məsrəflərinə, xərclərinə daxili təsir faktorları müəssisənin işçilərinin sayı, kadrların və əmək haqqının strukturlarıdır.

- Personala çəkilən xərclər iki formada idarə oluna bilər: mərkəzi idarəetmə – bu zaman rəhbərlik bütün bölmələr üçün vəsait büdcəsi müəyyən edir.
- funksional idarəetmə – belə halda müəssisənin xidmətləri personal üçün zəruri olan xərcləri müstəqil müəyyənləşdirir. Personala çəkilən xərclərin idarə olunmasına bu mexanizmlər daxildir: planlaşdırma, vəsaitdən istifadənin müxtəlif səviyyələrinin və mərhələlərinin həllinin razılaşdırılması, idarəetmə tədbirlərinin həyata keçirilməsi. Müəssisənin sayının sabit, yaxud artdığı təqdirdə, bir

qayda olaraq, personala çəkilən xərclər artır ki, bu da işçi qüvvəsinin dəyərinin artması ilə bağlıdır və yalnız işçilərin sayının azalması bu xərclərin dəyişməz məbləğini xarakterizə edə bilər [7, s.496].

Başlıca məsələ effektiv motivasiya sistemini yaratmaqdır. Ekspertlər hesab edirlər ki, motivlərə söykənən mütəxəssis öz işinin effektliyini 40% artıra bilər. Lakin motivləşdirmə sistemləri üzrə bəzi araşdırmalar zamanı buraxılan səhvlər ona gətirib çıxarır ki, əməkdaşların stimullaşdırılmasına sərf olunmuş xərclər nəinki gözlənilən nəticələri vermir, hətta kampaniyada vəziyyəti pisləşdirir.

Tədqiqatlarda stimullaşdırmanın lazımi effekt vermədiyi tipik vəziyyətlər dörd əsas qrupa bölünür: hədiyyə - mükafatların ödənilməsi; təminatlı mükafatlar; əlçatmaz bonusların müəyyənləşdirilməsi; başqasının işinin mükafatlandırılması. İndi bunlar barədə qısaca məlumatı qeyd edək.

Hədiyyə – mükafatın ödənilməsi. İqtisadiyyatın bir sıra sahələrində «hədiyyə – mükafatdan» istifadə olunur. Belə mükafatların fərqli cəhəti onların gözlənilməz xarakteridir. Tədqiqatçıların fikrincə, bu cür mükafatlandırmada məqsəd nəinki əməkdaşların loyallığını artırmaq, həmçinin onları sonrakı dövr ərzində fəal əməyə motivləşdirməkdir.

Lakin bir qayda olaraq, işin effektliyinin artırılmasına nail olunur. Mükafatlandırmanın real nəticə verməsi üçün hər bir əməkdaş mükafatı hansı işinə görə aldığını və gələcəkdə hesablanmaq üçün hansı vəzifələri yerinə yetirəcəyini dəqiq başa düşməlidir. Əks halda mükafatlandırmanı personal itkinin elementi kimi qəbul edir və rəhbərliyi motivasiyanın artmasına həvəsləndirmir. Bir sözlə, mükafatlandırma sistemi işçini inandırmalıdır ki, təşkilatda işçinin fəallığı onun əldə etdiyi nəticələrlə, öz tələbatlarını ödəmək imkanları arasında dəqiq əlaqə vardır [8].

Nəzərə alaq ki, motivasiya sisteminin əsas vəzifələrindən biri əməkdaşların gözləmələrinin idarə olunmasıdır. Səhv niyə baş verir? Çünki bir çox hallarda motivasiya sisteminin necə hərəkət etdiyini və mükafat almaq üçün nə etmək lazım gəldiyini əməkdaşlar başa düşmürlər.

Təminatlı mükafatla bağlı başqa bir situasiyanın şahidi oluruq. Bu zaman əməkdaşlar işin nəticələrinə görə mükafatı öz maaşlarının bir hissəsi hesab edirlər. Bu, sovet stimullaşdırma sistemini praktiki fəaliyyət üçün əsas götürmüş sənaye müəssisələrinin işində təzahür edir.

Neft hasilatı müəssisələrinin əməkdaşları arasında aparılmış sorğular göstərir ki, onların nə qədər məvacib almaları məsələsində əksəriyyəti mükafatı maaşın deyil, əmək haqqının dəyişən hissəsi kimi başa düşürlər. Bu o deməkdir ki, mövcud stimullaşdırma sistemi işçiləri hansısa nəticələr əldə etməyə yönəltmir. Mükafatı onlar yaxşı iş üçün bonus kimi deyil, öz aylıq gəlirlərinin ayrılmaz hissəsi kimi qəbul edirlər. Bununla belə müəssisə rəhbərləri dəyişən hissəni maaşla birləşdirməyə çalışmırlar, çünki müəyyən «qüsurlar» üçün cəzalandırma alətlərini itirmək istəmirlər. Qanunvericiliyə görə işəgötürənin əməkdaşın maaşını kəsməyə ixtiyarı yoxdur, lakin lazım bilərsə, onu mükafatdan məhrum edə bilər. Belə cəzalar heç də həmişə sistemli xarakter daşımır və deməli, stimullaşdırma ilə heç bir əlaqəsi yoxdur.

Belə bir təcrübəni qeyd edək. Bəzən hesab edirlər ki, idarəetmə personalı çox mühüm vəzifələri yerinə yetirirlər, deməli, onun üçün xüsusi şərait yaradılmalıdır. Məsələn, bir kampaniyada idarəetmə aparatının əməkdaşlarını işin nəticələrinə görə orta aylıq mükafatların həcmini artıraraq tam maaşa keçirtdilər, mükafatları isə ləğv etdilər. Yarım ildən sonra kampaniyanın rəhbərləri əmin oldular ki, idarəetmə personalı effektli işləməyib, odur ki, əvvəlki şərtləri bərpa etməli oldular.

Əlçatmaz bonuslar. Təcrübə göstərir ki, olduğundan çox tələbatlı stimullaşdırma personalın motivasiyasına ziyan vurur. Əgər rəhbərlik əməkdaşlara məsuliyyət daşımağa hazır olmayan öhdəlikləri zorla qəbul etdirməyə çalışarsa, arzu edilən nəticəyə nail olmaq mümkün deyil. Təcrübədən bu da məlumdur ki, əlçatmaz məqsədlər problemini həll etmək olar, əgər planlaşdırma aşağıdan-yuxarıya doğru prinsipi ilə həyata keçirilsə, belə halda bonus şkalalarından birgə istifadə etmək vacibdir. Qəbul edilmiş artıq planın hər iki faizi üçün əməkdaşın bonusu mütərəqqi şkala üzrə artır, planın artıqlaması ilə yerinə yetirilməsi 10%-ə çatanda, onda hər 2% artıqlaması ilə yerinə yetirildikdə bonus getdikcə azalmağa başlayır, başqa sözlə, belə halda reqressiv şkalaya meydan açılır. Deməli, başa düşülmək üçün biz deyirik: planı azaltmaq lazım deyil ki, sonradan onu formal olaraq artıqlaması ilə yerinə yetirmək lazım gəlsin. Belə halda aydındır ki, planın qoyuluşuna yuxarıdan nəzarət edilir. Belə sistem yaxşı nəticələrin əldə edilməsinə imkan verir.

Bir qrup Qərb tədqiqatçıları hesab edir ki, nəzərdə tutulmuş məqsədlərə nail olmamağın bir səbəbi də yalnız motivasiya sisteminin işlənilməsi prosesində buraxılan səhvlər deyil, həm də əməkdaşları seçən zaman buraxılan səhvlərdir. Məsələn, kampaniyaya satış üzrə maaşı 600 dollar olmaq-

la menecerlər lazımdır, söhbət zamanı məlum olur ki, firma nəzərdə tutub ki, ona orta aylıq 300 dollar məbləğində bonus da veriləcəkdir. Deməli, onun aylıq məcmu gəliri 900 dollar olacaqdır. Söhbət zamanı bonusun məbləği açıqlanmır. Səhv bundadır ki, ilk günlər o bilir ki, onun məvacibi 600 dollar olacaq, lakin bonusu nə qədər olacaq bilmir, ona görə də bu faktor onun işinin məhsuldarlığına kömək edə bilməz.

Özgəsinin işinə görə mükafat prinsipi özünəməxsus xüsusiyyətə malikdir. Bir sıra bölmələrin əməkdaşlarının işinin nəticələri ənənəvi olaraq, konsolidasiya olunmuş biznes-göstərici ilə əlaqədə götürülürlər. Belə halda çox zaman başqa bölgələrin fəaliyyətinin bu göstəricilərə təsiri nəzərə alınmır. Kampaniyaların birində rəhbərlik qarşısında satışın həcmini artırmaq vəzifəsi qoyulmuşdu. Bu məsələnin həlli üçün müvafiq şöbənin əməkdaşları elə bonuslarla həvəsləndirilir ki, bunların həcmi satışların həcmindən asılı olur. Bununla yanaşı fəaliyyəti bilavasitə satışın artmasına təsir göstərən digər şöbələrin əməkdaşlarına həvəsləndirmə şamil olunmurdu. Belə ki, marketoloqların aksiyaları verdikləri maliyyə nəticələri faktiki olaraq satış üzrə menecerləri mükafatlandırırdı. Son nəticədə hər iki əməkdaşlar qrupu motivləşmədən kənarda qalmış olurdu, satış şöbəsi əməkdaşları ona görə ki, qazandıqları pul asan başa gəlirdi, marketinq şöbəsi mütəxəssisləri isə ona görə ki, müvafiq mükafatlandırmanın olmaması ilə bağlı.

Bu kontekstdə həmkarlar ittifaqı təşkilatları üçün vacib məsələ belə hallarda baş verən səhvlərin səbəblərini bilməkdir. Təcrübə göstərir ki, yuxarıda bəhs etdiyimiz vəziyyətlər layihələndirmə mərhələsində buraxılan səhvlərdən irəli gəlir. Buna görə də müəssisədə stimullaşdırma sistemində baş verən səbəblər üzərində dayanmaq yerinə düşərdi.

Stimullaşdırmanın göstəriciləri biznesin məqsədləri ilə uzlaşdırılmır. Baxmayaraq ki, müxtəlif bölgələrdə müxtəlif stimullaşdırma sxemləri olur, vacibdir ki, bunlar kampaniyanın məqsədləri ilə uzlaşdırılsın [9]. Kompleks xidmətləri həyata keçirən müəssisələrin birində stimullaşdırma sistemini ayrı-ayrı bölmələrin gəlirlərinin göstəriciləri ilə uzlaşdırmağa qərar verilmişdi. Bu kampaniyada xidmət təklifetmə prosesinin texnologiyalarının pozulmasına gətirib çıxarmışdı, ona görə ki, bölgələr biznesin tələbatlarının zərərinə olaraq, öz xidmətlərini fəal şəkildə xarici bazarda satmağa səy göstərirdilər. Əslində isə elə həvəsləndirmə sistemindən istifadə etmək lazım idi ki, bu halda mükafatlandırma hər şeydən əvvəl müəyyən edilmiş planların yerinə yetirilməsinə yönümlənsin.

Müasir həmkarlar ittifaqı təşkilatlarının fəaliyyət göstərdiyi çoxlu müəssisədə bu problem idarə rəhbərliyini düşündürür. Məsələn, bir sənaye müəssisəsində sürücünün əmək haqqının ödənilməsi əmək məcəlləsinə uyğun olaraq, sürücü təmir səbəbindən işsiz dayanmağa görə sürücünün maaş dərəcəsindən üç dəfə az olan təmirçi-çilingərin maaşını alır. Bunu ona görə edirdilər ki, sürücülər qəza hallarını azaltsınlar.  Beləliklə,  məqsəd nəqliyyatdan maksimum səmərəli istifadə deyil, avtonəqliyyatdan istifadəni maksimum istifadə etmək idi. Rəhbərlik situasiyaya lazımınca nəzarət edə bilmədiyi üçün sürücülər hər vasitə ilə çalışırdılar ki, təmirlə əlaqədar maşınları işsiz dayanmasın. Onlar həm də planlı təmirlə əlaqədar işsiz qalmaq istəmirlər. Üstəlik də aydın olur ki, texnikanı da tezliklə bərpa etmək mümkün olmur. Halbuki, maşınlardan düzgün istifadə edildiyi təqdirdə nəqliyyatdan istifadə müddətini xeyli artırmaq və kapital qoyuluşuna xeyli qənaət etmək mümkündür.

Səbəblərdən biri əməkdaşların işinin nəticələrinin, məhsuldarlığının göstəricilərinin kəmiyyət qiymətləndirilməsinin olmamasıdır. Bəzən belə fakirləşirlər ki, fəaliyyətin bir çox növlərinin səmərəsi ölçülməyə gəlmir. Nəticədə əməkdaşların işinin effektliyini subyektiv qiymətləndirmə ilə ölçürlər ki, bu da motivasiyanın səmərəsinə təsir edir. Fəaliyyətin kəmiyyət göstəriciləri (mədaxil, istehsalın həcmi, müştərilərin sayı) yoxdursa, qiymətləndirmənin bal sistemindən istifadə etmək lazımdır. Əməkdaşın fəaliyyətinin səmərəlilik göstəricilərini ayırmaq, onları kateqoriyalara görə qruplaşdırmaq və bu və ya digər balın nə üçün baş verildiyini əvvəlcədən təsvir edərək, balla qiymətləndirmək həmişə mümkündür. Balların verilmə qaydasını təsvir etmədən, yəni belə prinsipə əsaslanaraq əməkdaşların və bölmələrin fəaliyyətini qiymətləndirmək, ekspertlərin fikrincə, mühüm səhvdir. Əmək bölgülərində ən yaxşı briqadalar arasında müsabiqə keçirilərkən belə bir vəziyyət yaranmışdı. Balla qiymətləndirilən bir neçə qiymətləndirmə meyarları (məhsuldarlıq, sanitariya və gigiyena, keyfiyyət və s.) tətbiq edilmişdi. Balvermə sisteminin təsvirinin olmaması qalib gəlməyən briqadanı məyus etmişdi. Effektiv əməyə stimul yaratmaq məqsədilə keçirilmiş tədbir isə sonrakı dövrlərdə keçirilən yarışa personalın loyallığını aşağı salmışdır. Yaranmış vəziyyət qiymətləndirmənin meyarlarını və prinsiplərini dəqiqləşdirmək problemini bütün ciddiliyi ilə ortaya qoydu. Beləliklə, alıcıla-

ra xidmət göstərmək keyfiyyəti bir çox rəhbərlər tərəfindən ölçüyəgəlməz və subyektiv göstərici kimi başa düşülür. Lakin onun qiymətləndirilməsi üçün keyfiyyətin ölçülməsinin bir sıra vasitələrinin tətbiq edildiyi ticarət kampaniyalarının təcrübəsindən istifadə etmək lazımdır. Məsələn, belə bir təcrübəni təsəvvür etmək olar: personala tanış olmayan mağazanın əməkdaşı buraya gəlir və anketi doldurur. Anketdə personalın davranışını (məs., sizə malı seçməkdə kömək üçün yaxınlaşan olubmu?) və ekspozisiyanın keyfiyyəti xarakterizə edən göstəricilər verilir. Hər bir göstərici tanış olmayan alıcı tərəfindən ekspertlərin hazırladığı bal şkalasına əsasən qiymətləndirilir. Belə halda balların mümkün sayı, bir qayda olaraq, eyni olmur, çünki göstəricinin mühümlüyü dərəcəsindən asılıdır. Əldə edilmiş məlumatlar əsasında mağazanın personalının işinin keyfiyyətini əks etdirən ümumi bal hesablanır.

Digər bir səbəb də fəaliyyətin effektliyinin planlaşdırılması, icrası və ona nəzarət bölmələr tərəfindən müstəqil həyata keçirilir. Neft hasilatı müəssisələrinin birində stimullaşdırma sistemi istehsal planlarının yerinə yetirilməsi üçün əməkdaşların aylıq mükafatlandırılması nəzərdə tutulmuşdu. Özü də planların tərtib olunması funksiyası, onun icrası və hesabat sənədlərinin hazırlanması bir bölməyə həvalə edilir. Aydındır ki, hesabata görə planlar hər ay 100% yerinə yetirilir və bütün əməkdaşlara mükafat verilir. Əməkdaşların fəaliyyətini təhlil edərkən qiymətləndirmə üzrə mütəxəssislər planların məzmununu onların reallaşdırılması hesabatları ilə müqayisə etməyə cəhd göstərmişlər. Aşkar edilmişdir ki, planlar heç mövcud olmamışdır. Görünür, stimullaşdırma sistemi yaradılarkən nəzarət, planlaşdırma və icra funksiyaları müxtəlif struktur bölmələri arasında paylanmalıdır [10].

Nəzarətsiz göstəricilər əsasında motivasiya sisteminin qurulması nümunəvi iri regional enerji kampaniyası ola bilər. Müəssisənin strukturuna üç tipli filial daxildir:

- istehsal – elektro və istilik-enerji;
- şəbəkə – elektroenerjinin ötürülməsi;
- satış – enerjinin satışı.

Bütün filialların əməkdaşlarına mükafat ödənişinə elektroenerji ödənişinə görə mükafat düşür. Əslində isə bu göstəricinin yerinə yetirilməsinə generasiya edən bölmələrin əməkdaşları real təsir göstərə bilər. Yerdə qalan filialların personalı bu göstəricini idarə edə bilmirdi, lakin hər rüb öz mükafat hissəsini alırdı. Mükafatlandırma sisteminin optimallaşdırıldığı şəraitdə bu göstərici belə bölmələrin fəaliyyətinin qiymətləndirmə sistemindən götürüldü.

Bu prosesdə bir səhv də cari prinsiplər üzrə proyekt fəaliyyətinin stimullaşdırılmasında üzə çıxa bilər. Belə bir səhvi əyani olaraq, fəaliyyəti layihə xarakteri daşıyan konsaltinq kampaniyasının nümunəsində göstərmək olar.

Əgər kampaniyada layihələrin rəhbərləri layihənin nəticələrinə görə deyil, hər rübə görə mükafatlandırılırlarsa, onda onlar layihələrin nəticələrində, onun yerinə yetirilməsi müddətində kampaniyanın pul əldə etməsində maraqlı olmurlar. Ona görə də olduqca vacibdir ki, əməkdaşların layihə fəaliyyəti yalnız nəticələrə görə mükafatlandırılsınlar, istehsal prosesinin dayanması üçün görülən cari fəaliyyət əməkdaşın fəaliyyət növündən asılı olaraq, tsiklik olaraq konkret aydan ilədək stimullaşdırılısın.

Təbii ki, hər bir müəssisə öz əmək həyatında üzə çıxan bu cür nöqsanları, səhvləri aradan qaldırmağa çalışır. Təcrübə göstərir ki, belə səhvləri aradan qaldırmaq mümkündür.

Bir qədər səhvlərin düzəldilməsi vasitələri barədə. Bir qayda olaraq, müasir firmaların fəaliyyəti göstərir ki, üzə çıxan problemlərin həllinə yönəlmiş stimullaşdırma sistemlərinin layihələndirilməsindəki səhvləri tez vaxtda aradan qaldırmaq vəziyyəti çətinləşdirir. Vəziyyətin keyfiyyətcə dəyişdirilməsi üçün stimullaşdırma sistemini tam, yaxud qismən yenidən layihələndirmək və onu təkrarən tətbiq etmək lazımdır. Belə halda aidiyyəti olan strukturlar buna hazır olmalıdırlar ki, stimullaşdırma sisteminin yenidən layihələndirilməsi olduqca uzun, mürəkkəb və baha başa gələn prosesdir, bu proses tətbiq olunan metodikaya hökmən riayət edilməsini və bölmələrdən birində aprobasiya olunmasını tələb edir. Ona görə də bu işə keçməzdən əvvəl firma rəhbəri əmin olmalıdır ki, problemin səbəbi düzgün başa düşülüb və problemin biznesə vurduğu ziyan qarşıdan gələn vaxt, maliyyə və əmək məsrəfləri ilə nə qədər uyğundur. Bölmə sisteminin pilot tətbiqi və biznesin uğurunu təmin edən personal qrupunu seçmək də vacibdir.

Təcrübə göstərir ki, motivasiya sistemini işləyib hazırlayarkən aşağıdakı əsas prinsiplərə riayət olunmalıdır:

- nəticəyə, yaxud uğura görə haqq ödənilməlidir;
- müxtəlif qrup və kateqoriyadan olan əməkdaşların gəlirlərinin fərqini tənzimləyən vahid şəffaf qaydalardan istifadə olunmalıdır;
- əməkdaşların gözləntilərini idarə etmək. Əgər işlənən motivasiya sistemi əməkdaşların gözləntisini doğrultmursa, belə sistem işləməyəcək.
- əmək bazarında rəqabət apararkən, kompensasiya paketi aparıcı rəqiblərin təkliflərini nəzərə almaqla formalaşdırılmalıdır.

Bütün prinsipial qərarlar qəbul ediləndən sonra pilot yenidən layihələndirməyə başlaya bilər. Bu prosesin addımbaaddım üç mərhələsi nəzərdə tutulur.

Birinci mərhələ. Sistemi olduğu kimi təsvir etmək. Birinci mərhələnin əsas vəzifəsi layihələndirmə üçün lazımi dəyişikliklərə əsas hazırlamaq məqsədilə əməkdaşların təcrübədə mövcud səlahiyyətlərinin, məsuliyyət və funksional borc sahələrinin təsvir edilməsidir. Bu mərhələdə mövcud stimullaşdırma sisteminin (sənədlərin və reqlamentlərin təhlili, faktiki istifadə olunan hesablama mexanizmlərini təsvir etmək, əldə edilmiş məlumatları əlaqələndirmək və mövcud ixtilaflar haqqında informasiyanı sistemləşdirmək) təhlili – bölmənin funksiyalarını və onun effektliyini təsvir etmək, bölmənin funksiyalarının reallaşdırılmasında hər bir əməkdaşın rolunu təsvir etmək.

İkinci mərhələ çərçivəsində bölmənin əməkdaşlarının əsas motivasiya prinsipləri işlənib hazırlanır. Bu vəzifəni aşağıdakılara riayət etməklə yerinə yetirmək olar:

- kampaniyanın personalı stimullaşdırmaq yolu ilə nail olmağı planlaşdırdığı üç-dörd orta təcili biznes-məqsədlərin müəyyənləşdirilməsi. Burada gəlirin artması, məhsuldarlığın və keyfiyyətin yüksəldilməsi nəzərdə tutulur. Hər bir əməkdaş üçün məqsədli davranış modeli işlənib hazırlanmalıdır. Məqsədli model əməkdaşın bölmədəki rolunu və onun yerinə yetirdiyi funksiyaları, məsuliyyət dərəcəsini, fəaliyyətinin planlaşdırılan nəticələri və göstəricilərini təsvir etməlidir;
- stimullaşdırmanın məqsədli göstəricilərini müəyyənləşdirmək;
- müvafiq stimullaşdırma alətlərini yaratmaq;
-bölmənin təşkilati fəaliyyətində dəyişikliklərin siyahısını müəyyənləşdirmək. Çox zaman aydın olur ki, əməkdaşların qarşılıqlı əlaqələrinə yenidən baxmaq və onlar arasında məsuliyyəti yenidən bölüşdürmək lazım gəlir.

Üçüncü mərhələdə yeni motivasiya sisteminin modelləşdirilməsinə və köklənməsinə xüsusi diqqət yetirilir. Başqa sözlə, burada əsas vəzifə yeni stimullaşdırma sistemində buraxılmış qeyri-dəqiqliyi aşkar etmək və aradan götürməkdir. Bunun üçün aşağıdakıları nəzərə almaq lazımdır:

1. Yeni stimullaşdırma sisteminin prinsiplərindən, mexanizmlərindən istifadə etməklə, ötən dövr (ay, il) üçün əməkdaşların əmək haqqını yenidən hesablamaq.
2. Fəaliyyətin planlaşdırılmış göstəricilərindən istifadə etməklə, gələcək dövr üçün əməkdaşların əmək haqqını hesablamaq. Aparılmış hesablamalar sistemin adekvatlıq səviyyəsini qiymətləndirməyə və lazım gəldikdə onda dəyişikliklər etməyə kömək edir.

Əgər motivasiya sistemi kampaniyanın işi haqqında tarixi məlumatlar əsasında testdən keçibsə, onda bu hal ciddi şəkildə kadr məsələsini ortaya çıxardar, o cümlədən mühüm dərəcədə kadr axıcılığına səbəb olar. Məsələn, əgər kampaniya satış üzrə menecerlərin qeydə alınmış maaşının əvəzinə mədaxilə «bağlanmış» bonusu həyata keçirirsə, bu, satışı azı 3-4 dəfə artıra bilər. Müvafiq olaraq, bu templə əmək haqqı da artır. Belə halda tarixi məlumatlar əsasında yeni motivasiya sisteminin işinin modelləşdirilməsi bu meyillərin nəzərə alınmasına imkan vermir. Ona görə də sonradan bir qayda olaraq, bir ildən sonra kampaniyanın rəhbərliyi bonusların həcmini azaldır, buna normallaşdırmanın effekti də deyirlər. Təbii ki, əməkdaşların ödəmə şərtlərinin pisləşməsinə reaksiyası onların yeni iş yeri axtarmasıdır.

Bunun məntiqi nəticəsi olaraq: 1) Əmək və vergi qanunvericiliyinin tələblərinə cavab verən firmadaxili normativ sənədlərində yeni stimullaşdırma mexanizmlərini təsbit etmək; 2) Yeni stimullaşdırma sisteminə keçid planını müəyyən etmək. Belə halda bölmələrin birində yeni sistemin pilot tətbiqi zamanı bəzən pilotsuz keçiddən istifadə olunur, yəni bölmənin bütün əməkdaşlarının yeni stimullaşdırma sisteminə birvaxtlı keçidi baş verir. Hətta bir bölmənin daxilində belə bu cür tətbiqetmə, əslində olduqca arzuedilməz sosial nəticələrə gətirib çıxardar. Buna görə də daha məsləhət bi-

linən tədrici keçiddir. Belə keçid zamanı iki-üç ay ərzində əməkdaşlara ödənişin yeni sisteminin adaptasiyası köhnə stimullaşdırma sisteminə uyğun həyata keçirilir, lakin paralel olaraq yeni sistemin prinsiplərinə və mexanizmlərinə uyğun olaraq hesablama təqdim edilir.

Başqa bir təcrübə göstərir ki, yaradılmış motivasiya sisteminin effektliyi üç parametrə görə qiymətləndirməyə üstünlük verir: personalın loyallığı, onun fəaliyyətinin məhsuldarlığı, kampaniyanın əmək bazarında cəlbediciliyi. Personalın loyallığı, axıcılıq əmsalına əsasən yeni motivasiya sxemlərinin tətbiqindən bir ay sonra qiymətləndirilir. Məsələn, kadr axıcılığının 50% çox təşkil etdiyi iri pərakəndə şəbəkəsində yeni motivasiya sistemi elan edildikdən sonra bu göstərici bir neçə həftə ərzində sıfra enmişdir. Məhsuldarlığın qiymətləndirilməsi üçün daha çox vaxt tələb olunur, bu isə motivasiya sisteminin məqsədlərindən asılıdır. Əgər əməkdaşları kampaniyanın dəyərinin artırılmasına yönəltmək vacibdirsə, nəticələri görmək üçün bir neçə il lazımdır, əgər satışın artırılmasından söhbət gedirsə, bir rüb, ya da yarım il lazımdır. Əmək bazarında cəlbedicilik vakant yerə namizədlərin sayı, yaxud kampaniyanın təklif etdiklərinə razılıq verən əməkdaşların faizi kimi göstəricilər əsasında qiymətləndirilir.

Bəzi firmaların menecerləri hesab edir ki, əgər kampaniyada «əməkdaş-menecment» əks rabitə mövcuddursa, qüvvədə olan motivasiya sisteminin effektliyini qiymətləndirmək çətin deyil. Motivləşdirmə yanaşmalarına nəzərən personala öz tənqidi fikirlərini bildirməsinə imkan vermək olduqca vacibdir. Mütəmadi olaraq, əməkdaşlara əməyin ödənilməsi şərtləri barədə razı qalıb-qalmamalarını aşkar etmək üçün anonim sorğuların keçirilməsi məqsədəuyğun olardı. Beləliklə, personaldan əks rabitə deyilərkən, əməkdaşlardan onların ovqatı, kampaniyada baş verənlərə və insanlara (yuxarı vəzifəlilər də daxil olmaqla) informasiyanın əldə edilməsi, kampaniyanın, onun bölmələrinin inkişafı haqqında ideyaların toplanması, tədbirlərin keçirilməsi barədə informasiyanın toplanması, yəni aşağıdan yuxarıya, sıravi əməkdaşlardan rəhbərliyə doğru istiqamətlənmiş yaxşı işləyən kommunikasiya başa düşülür [11]. Əks rabitə idarəetmə fəaliyyətinin vacib tərkib hissələrinlən biridir. Belə ki, bu tabedə olana ön davranışının nəticələrini göstərir, bununla da ona qeyri-effektiv hərəkətlərdən uzaqlaşmağa, yaxud komandanın qoyduğu məqsədlərə nail olmaq üçün fəaliyyətin davam etdirilməsinə imkan yaradır. Təcrübəli menecerlər və əməkdaşlar bilirlər ki, yeni stimullaşdırma sisteminə keçid planı reallaşdırılarkən stimullaşdırmanın yeni mexanizmləri operativ təshihə məruz qalır. Əməkdaşların pilot tətbiqinin gedişi barədə savadlı məlumatlandırılması irimiqyaslı tətbiq zamanı baş verən dəyişikliklərə müqavimət göstərilməsini xeyli yumşaldır.

Əgər pilot tətbiqi üçün seçilmiş bölgə, yaxud personal qrupu kampaniyada yeganədirsə, (məsələn, marketinq şöbəsi, yaxud mühasibat) onda yenidən layihələndirmə layihəsi başa çatmış hesab olunur və bir müddətdən sonra yeni stimullaşdırma sisteminin effektliyini qiymətləndirmək olar.

Lakin əksər hallarda pilot tətbiqinin ardınca digər analoji bölmələr və qruplara şamil olunan yeni sistemin tirajlanması gəlir. Bu cür irimiqyaslı tətbiq ərazicə bölünmüş və şaquli olaraq inteqrasiya olunmuş holdinqlər üçün xüsusi aktuallıq kəsb edir.

Effektiv motivasiya sisteminin yaradılmasının belə bir versiyası da mövcuddur. Belə bir effektiv sistemi yaratmaq üçün bu ideyalar təklif edilir:

- nail olunması nəzərdə tutulmuş məqsədlərin dəqiq başa düşülməsi;
- sistemin yaradılması, həm hazırlayanlar, həm də effektiv əməyə motivləşdirmək nəzərdə tutulanlardan ötrü aydın olmalıdır;
- motivləşdirici faktor mühüm olmalıdır, yəni mükafat əməkdaş üçün bir əhəmiyyət kəsb etməlidir;
- mükafatlandırma yalnız məqsədlərin yerinə yetirilməsindən sonra ödənilməlidir;
- kollektivdə əməkdaşlar üçün mehriban və komfort münasibətlər yaradılmalıdır. Bir sıra amerika kampaniyalarının tədqiqinin nəticələrinə görə aydın olmuşdur ki, kampaniyada iş üçün emosional planda rahat şərait olduqda o qədər də mehriban olmayan, əmək haqqının 30% az olduğu kampaniyaya getmirlər. Bu qeyri-maddi stimullaşmanın faydasını göstərir, belə olduqda kampaniya vəsaitinə xeyli qənaət etmiş olur.

Başqa bir nümunə. Kampaniyaların bəzisi motivasiya sistemini belə qurur:

- Məqsədlərin qoyuluşu. İnsanları nə üçün motivləşdirməyimizi dəqiq bilməliyik, çünki bütün motivasiya sistemi bundan asılıdır. Analoji sahə müəssisələrində toplanmış motivasiya təcrübəsini təhlil etmək:

- motivasiya sisteminin qurulmasına aparıcı əməkdaşları və müəssisə rəhbərlərini cəlb etmək;
- məhdudlaşdırılmış eksperimental müddət. Əgər motivasiya sistemi işləmirsə, ondan imtina etmək lazımdır. Eksperimental layihənin reallaşdırılmasını əməkdaşlara bildirmirlər. Sadəcə olaraq, yeni motivasiya alətlərinin işə salındığı müddəti elan edirlər. Əgər əməkdaşların mövcud stimullaşdırma sistemi özünü doğruldursa, onun fəaliyyət müddətini uzadırlar.

Təcrübə göstərir ki, motivasiya sisteminin yaradılması, həyata keçirilməsi və yenidən layihələndirmə prosesləri labüd olaraq, müəyyən xarakterli konfliktlərlə müşayiət olunur. Necə deyərlər, canlı iş olan yerdə konfliktlər də meydana çıxmalıdır. Motivasiya prosesində iki, yaxud daha çox subyekt iştirak etdiyi üçün hər bir iştirakçının fərdi – şəxsi xüsusiyyətləri istər-istəməz bütün qarşılıqlı əlaqə münasibətlərində iş qoymuş olur.

Motivasiya məqsədinə nail olmaqda xarakterin bu xüsusiyyətləri müəyyən əngəllik törədə bilər, başqa sözlə, bu eyni dərəcədə həm motivatora, həm də motivləşdirilənə aid ola bilər:

- həddən artıq coşqunluq;
- tələskənlik;
- inadkarlıq;
- lazımi qədər özünütənqid hissinin olmaması;
- konfliktlik.

Motivatorun motivləşəni nəyəsə inandırmaq məqsədilə gətirdiyi arqumentlər həmişə mövqelərin, tezislərin, başlıcası isə şəxsiyyətlərin konfliktliyidir. Motivasiyanın arqumentləşdirilməsi ilə bağlı konflikt tiplərinə nəzər salaq:

1. Şəxsi mülahizəni bildirmək tələbatından doğan konflikt.

Şəxsi fikir, mülahizə şəxsiyyətin müstəqilliyini bildirir, bu səbəbdən də dəlillərin və sübutların təsiri altında fikrin dəyişməsi şəxsiyyətin muxtariyyətinə təcavüz kimi qəbul edilir. Belə halda az qala mövcudluq uğrunda mübarizə gedir. Bu cür mübahisə tipi motivasiyanın əlamətlərinə çevrilir. «Siz məni inandıra bilmədiniz və inandıra bilməyəcəksiniz», «Öz dəlillərinizi nahaq yerə işlədirsiniz, mən onları dinləmək fikrində deyiləm». Bu cür mübahisədə qalib gəlmək olmaz. Odur ki, tədqiqatçılar personalla yersiz konfliktlərə yol verməmək üçün konfliktlərin təbiətinin psixoloji təhlili, sosial-psixoloji konfliktlərin mahiyyəti, konflikt vəziyyəti, qarşı tərəflər, konflikt obyekti, insident, konflikt vəziyyətinin aradan qaldırılması, konflikt vəziyyətinin məqsədləri, konfliktlərin qarşısının alınması, davranış vərdişlərinin təkmilləşdirilməsi və s. kimi problemləri araşdırırlar [12, s. 28].

Hər bir opponentin bir motivi olur: qalib gəlmək. Biz belə bir situasiyanı həmkarlar ittifaqında görürük. Hamı öz arqumentini zorla qəbul etdirmək istəyir.

2. Şəxsi tələbat konflikti və sosial norma.

Belə opponent hamı tərəfindən qəbul olunmuş motivasiya sistemini rədd etməyə çalışır. Bu psixoloji halın köklərini uşaqlıq yaşında axtarmaq lazımdır. Belə yaşda uşaq bir müstəqil şəxsiyyət kimi öz hisslərini kəskin etiraz formasında bildirir. Bu cür konflikt, bir qayda olaraq, işəgötürənlə həmkarlar ittifaqı arasında danışıqlar prosesinə zərbə vurur [13, s.40]. Üstəlik, belə bir konfliktli mövqe həmkarlar ittifaqları üzvləri ilə yerdə qalan digər işçilər arasında gərginlik yaradır. Ona görə də motivator insanları inandırmaq üsullarını mənimsəməli və onlardan istifadə etməyi bacarmalıdır. Qarşı tərəf də bilməlidir ki, konflikt həyat normasıdır [14, s.336]. İnandırma başqa bir fikirdə olan adamı nəyəsə inandırmaq, daha doğrusu, onun nəyəsə münasibətini dəyişmək böyük məharət tələb edir. Təqribən belə bir situasiyanı götürək: «Mən artıq nəinki həmkarlar ittifaqlarının əhəmiyyətini başa düşmüşəm, hətta özüm bu təşkilata üzv olmuşam və başqalarını da bu işə cəlb etməyə çalışıram». Təbii ki, bunun üçün istək və mövcud metodlardan məharətlə istifadə etmək lazımdır.

Nəzərdən keçirdiyimiz fikir və mülahizələr deməyə əsas verir ki, motivasiya sisteminin layihəsini yenidən yaratmaq və onu təshih etmək fasiləsiz olmasa da, tsiklik prosesdir. Kampaniyalar daim inkişafdadır, onların bazar əhatəsi dəyişir, biznes və ayrı-ayrı bölmələr qarşısında yeni vəzifələr qoyulur. Zaman keçdikcə stimullaşdırmanın mövcud mexanizmləri labüd olaraq, aktuallığını və effektliyini itirir. Ona görə də stimullaşdırma sisteminin qabiliyyətini və onun biznesin məqsəd və vəzifələrinə uyğunluğunu mütəmadi olaraq monitorinqini keçirmək lazımdır. Belə olduqda yenidən layihələndirmə prosesi ekstern, yəni təcrübə keçmək məqsədilə deyil, planlı xarakter daşımış olar. Hər halda reallıqlar göstərir ki, motivasiya sistemi əmək münasibətlərinin problemlərindən biri kimi aktuallığını saxlayacaqdır.

**İstifadə olunmus ədəbiyyat**

1.Бородина О. Людской капитал как основа зрелого экономического развития. // Экономика Украины. 2003, № 7
2. http://www.rusnauka.com/10_DN _2013/Economics/10_133295.doc.htm.
3. Ковач И.В. Мотивационный потенсиал. http://www.rusnauka.com
4. Quliyev T.Ə. Əməyin sosiologiyası. Bakı, “Maarif”, 1998
5. Экономика труда. М.; “Магистр”, 2010
6. Бобровский М.В. «Экономика участия» потенсиал и перспективы применения в России. Канд. диссертация. Волгоград, 2002
7. С.Н. Трунин. Экономика труда. М., “Экономика”, 2009
8. Системы премирования работников предприятия. Economic. samqtu. ru/node/22
9. Виды стимулирования. www. class.ru/stati/menejment1vidu_stimula html.
10. Типичные ошибки при создании системы мотивации. Iteam.ru/publiccations/human/section_48/article_2547/
11. Гулимова М.В. Для чего нужна обратная связь от персонала и как ее оптимизировать. //Управление персоналом продаж. Альманах. Изд-во «Имидж-Медиа». Март 2012 www.b 17.ru/article/feed back/
12. Федорова А.Н. Конфликты в коллективе. Автореф. канд. диссертации. Тверь. 2004
13. Новые подходы к мотивации профсоюзного членства. М.; 2010
14. Социальная конфликтология. Под редак. А.В. Морозовой. М.; 2002

**Гусейн Гарашов**

## ПОТЕНЦИАЛ МОТИВА И ЭФФЕКТИВНОСТЬ ДЕЯТЕЛЬНОСТИ В ПРОФСОЮЗАХ

**Резюме**

В статье анализируются основы эффективности деятельности и мотивация в процессе трудовой деятельности, выдвигаются новые идеи. При этом автор обращается к трудам известных исследователей, вносит ясность в некоторые противоречивые идеи. Обосновывается идея о том, что перепроектирование и корректировка системы мотивации - процесс если не непрерывный, то, по крайней мере, цикличный. Автор отмечает, что компании постоянно развиваются, меняется их рыночное окружение, перед бизнесом в целом и отдельными подразделениями ставятся новые задачи. С течением времени существующие механизмы стимулирования неизбежно теряют актуальность и эффективность. Поэтому очень важно периодически мониторить работоспособность системы стимулирования и ее соответствие целям и задачам бизнеса.

**Husseyn Qarashov**

## MOTIVE CAPACITY AND EFFICIENCY ACTIVITIES IN TRADE UNIONS

**Summary**

The article examines the effectiveness of the basis and motivation in the workplace, put forward new ideas. The author refers to the works of well-known researchers, brings clarity to some contradictory ideas. Substantiates the idea that the redesign and updating of motivation system - if the process is not continuous, then at least cyclical. The author notes that the company is constantly evolving, changing their market environment to the business in general and the individual units provides a new challenge. Over time, the existing incentive mechanisms inevitably lose relevance and effectiveness. Therefore it is very important to periodically monitor the performance incentive system and its compliance with the goals and objectives of the business.

**UOT - 316.34; 316:33**

**Zeynəddin Şabanov,**
**AƏSMA, fəl.ü.f.d, dosent**

## MÜASIR DÖVRDƏ SOSİAL TƏRƏFDAŞLIQ PRİORİTET MƏSƏLƏ KİMİ

**Açar sözlər:** sosial tərəfdaşlıq, həmkarlar ittifaqları, dövlət, yeni əmək münasibətləri, saziş, müqavilə

**Ключевые слова:** социальное партнёрство, профессиональные союзы, государство, новые трудовые отношения, соглашение, договор

**Keywords:** social partnership, trade unions, state, new labor relations, agreement, contract

Müasir dövrdə Azərbaycanda ictimai həyatın bütün sahələrində əsaslı islahatlar aparılır, ölkənin yüksək inkişaf etmiş dövlətlərlə bir sırada olması üçün zəruri tədbirlər həyata keçirilir, dünya standartlarına cavab verən qanunlar və qanunvericilik aktları qəbul edilir və qloballaşma və modernləşmə dövrünün tələblərinə uyğun olan dəyişikliklər yeni siyasətin prioritet istiqamətlərindən birinə çevrilir. Azərbaycan cəmiyyətində sosial sülhə nail olmaq üçün yeni əmək münasibətləri bir daha tərəflərin maraqlarını özündə əks etdirməklə ətraflı işlənir, yeni fikirlər və ideyalarla cilalanaraq insanların mühakiməsinə verilir. Bu münasibətlərin tərəqqisində mühüm və əvəzolunmaz rol isə sosial tərəfdaşlıq tərəfindən reallaşa bilər. Ölkədə demokratik, sivil cəmiyyətin qurulmasında, hüquqi dövlətin bərqərar olmasında, sosial rifah tərzinin təmin olunmasında sosial tərəfdaşlıq münbit şərait yaratmaqla Azərbaycanın dünya birliyinin beynəlxalq strukturlarına inteqrasiyasına stimul verir, yeni determinasiya qaydalarını əsaslandırır. Azad rəqabətə əsaslanan iqtisadi münasibətlərin formalaşmasının sürətləndiyi bir şəraitdə sosial tərəfdaşlıq prinsiplərinin həyata keçirilməsi qanunların qəbulu prosesinə təsirsiz ötüşmür, belə ki, son illər əldə olunmuş uğurların sosial tərəfdaşlıqla bağlılığı inkarolunmaz məsələlərdəndir.

Sosial tərəfdaşlığın formalaşmış sistemində, professor H.Qaraşov yazır, həmkarlar ittifaqı maraqlı tərəf kimi çıxış edir, belə ki, məhz bu orqan hərəkətli və eyni zamanda daha həssas olan işçi qrupun, yəni muzdlu işçilərin marağını ifadə edir. Həmkarlar ittifaqının sosial-əmək münasibətlərinin mühüm subyektləri ilə münasibətinin təşəkkül tapması, sosial tərəfdaşlığa dair bütün təsisatların inkişaf etdirilməsi və daha da təkmilləşdirilməsindən asılıdır. Sosial tərəfdaşlığı sosial əmək münasibətlərinin cəmiyyətdə sosial razılığın əldə edilməsinə yönəldilmiş muzdlu işçilər, sahibkarlar və dövlətin maraqlarının tarazlaşdırılması vasitəsiilə tənzimlənməsinin xüsusi tipi kimi müəyyən etmək mümkündür [1, s.125].

Ölkəmizdə sosial dialoqun təmin olunmasında sosial tərəfdaşlığın subyektləri - Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası məntiqli və düşünülmüş siyasət yeridir, bütün tərəflərin fövqündə duran və onların maraqlarına cavab verən mühüm bir vəzifəni həyata keçirirlər. Bu üç tərəf arasında bağlanmış Baş Kollektiv Sazişin uğurları və əldə olunmuş yüksək nəticələr tərəflər arasındakı münasibətlərin inkişaf edən xətt üzrə getdiyindən məlumat verir.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası 2012-2013-cü illər üçün Baş Kollektiv Sazişin həyata keçirilməsi üzrə işləri davam etdirmişdir. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının IV qurultayında bir daha vurğulanmışdır ki, Baş Kollektiv Sazişdə öz əksini tapan əmək, əmək münasibətləri, əhalinin məşğulluğu, əməkhaqqı və əhalinin gəlirləri, təhlükəsizlik və əməyin mühafizəsi, əməkçilərin sosial təminatları üzrə məsələlərin birgə həll edilməsi Tərəflərin maraqlarına cavab verir və onların yerinə yetirilməsi ölkənin sosial stabilliyinin qorunmasında əhəmiyyətli

amillərdən biridir. Tərəflər Sazişin prioritet məqsədlərini təşkil edən öhdəliklərin icrasına səylər göstərmiş, müəyyən uğurlu nəticələr əldə etmişlər. Bununla yanaşı, bəzi öhdəliklərin yerinə yetirilməsi davam etdirilir [2].

Ölkə iqtisadiyyatında islahatların, onların şaxələnməsinə yönəldilmiş kursun davam etdirilməsi yüksək makroiqtisadi göstəricilərin əldə olunmasını və onların Baş Kollektiv Sazişdə nəzərdə tutulan səviyyənin üstələnməsini təmin etməkdədir. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi tərəfindən verilən məlumatlara görə, ümumi daxili məhsulun istehsalı 2013-cü il ərzində əvvəlki illə müqayisədə 5,8 faiz artaraq 57,7 milyard manata çatmışdır. Əhalinin hər nəfərinə 6207,3 manatlıq (7912,5 ABŞ dolları) əlavə dəyər istehsal olunmuşdur. Sənaye istehsalı 1,8%, kənd təsərrüfatının ümumi məhsulu 4,9%, nəqliyyatda yük daşınması 3,4%, sərnişin daşınması 8,0%, rabitə xidmətləri 10,7% artmışdır. 2013-cü ildə xarici ölkələrlə 34,7 milyard ABŞ dolları məbləğində ticarət əməliyyatları aparılmışdır. Əmtəə mübadiləsinin dəyəri 6,3%, o cümlədən ixracın həcmi 5,1%, idxalın həcmi isə 9,1% artmışdır. Əhaliyə istehlak mallarının satışı 9,9%, pullu xidmətlərin həcmi isə 8,2% artmışdır [3].

Əsas makroiqtisadi göstəricilərin artımı ölkəmizdə iqtisadi və sosial tərəqqinin sürətlə davam etməsini bir daha sübut edir. Ötən il ərzində iqtisadiyyatın modernləşməsi, innovativ inkişaf modelinə keçidi, yüksək texnoloji və infrastruktur sahələrinin inkişafı, kiçik və orta sahibkarlıq subyektləri üçün dövlət yardımının göstərilməsi, regionların inkişafı, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi, ölkənin ərzaq təhlükəsizliyi baxımından kənd təsərrüfatının inkişaf etdirilməsi və digər öhdəliklərin icrası davam etdirilmişdir.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası sosial tərəfdaşlıqdan irəli gələn öhdəliklərin həyata keçirilməsi üçün həm müvafiq dövlət və hökumət orqanları ilə birgə, həm də üzv təşkilatları vasitəsilə zəruri tədbirlər həyata keçirmiş, iqtisadi inkişaf strategiyasının təməli olan iqtisadi qanunvericiliyin təkmilləşdirilməsində iştirak etmişdir. Yerlərdə bağlanmış tarif sazişlərdə və kollektiv müqavilələrdə Baş Kollektiv Sazişin məqsədləri əks olunmuş, onların icrası üçün tədbirlər işəgötürənlərlə birgə həyata keçirilmişdir.

Sosial tərəfdaşlıq prinsiplərinə əsasən əməkhaqqının artırılması, əhalinin həyat səviyyəsinin yüksəldilməsi sahəsində tədbirlər keçirilmiş, insanların rifah halının yaxşılaşdırılması istiqamətində müəyyən irəliləyiş əldə olunmuşdur. Ötən ilin avqust-sentyabr aylarında büdcə təşkilatlarında çalışan bütün işçilərin vəzifə maaşları orta hesabla 10 faiz, minimum əmək haqqının məbləği 12,3 faiz artırılmışdır. Pensiyaçıların təqaüdləri qaldırılmış, pensiyaların baza hissəsi 17,6 faiz artırılmışdır. Minimum əməkhaqqının və pensiyanın səviyyəsi yaşayış minimumunun səviyyəsinə daha da yaxınlaşmışdır.

Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, ölkənin iqtisadi və sosial sahələrində muzdla işləyənlərin orta aylıq əməkhaqqı 2013-cü ilin yanvar-dekabr aylarında əvvəlki ilin müvafiq dövrünə nisbətən 6,2 faiz artmışdır. Əhalinin gəlirləri əvvəlki illə müqayisədə 8,0 faiz, hər nəfərə düşən məbləği isə 6,6 faiz artmışdır. Yoxsulluğun səviyyəsi 5,3 faizə enmişdir.

2013-cü ildə iqtisadi əmək fəaliyyəti ilə məşğul əhalinin sayı 4521,2 min nəfər olmuş, iqtisadi fəal əhalinin 95 faizini təşkil etmişdir. Muzdla işləyənlərin sayı 2012-ci illə müqayisədə 32,4 min nəfər artmış və məşğul olan əhalinin ümumi sayında 1510,1 min nəfəri və yaxud 33,4 faizini təşkil etmişdir. 2013-cü ildə 110 min yeni iş yeri açılmışdır ki, onların 80 mini daimi iş yeridir. İşsizliyin səviyyəsi isə 5 faizə düşmüşdür [4].

Baş Kollektiv Sazişin sosial tərəfdaşlıq üzrə öhdəliklərinin əksəriyyəti icra olunur, sosial tərəfdaşlığın imkanlarından daha səmərəli istifadə olunur. Belə ki, sosial-iqtisadi siyasətin işlənməsi və həyata keçirilməsi məsələləri, əhalinin məşğulluğu, miqrasiya və sosial təminat sahəsində milli proqramlar, qanunlar, normativ-hüquqi aktların layihələri sosial tərəfdaşlar tərəfindən razılaşdırılıb birgə müzakirə edilir. Milli qanunvericiliyin təkmilləşdirilməsi üçün Avropa Şurasının, Beynəlxalq

Əmək Təşkilatının, MDB ölkələri Parlamentlərarası Assambleyasının model qanunlarının və digər normaların tətbiqi partnyorlar tərəfindən razılaşdırılaraq davam etdirilir [4].

AHİK və üzv təşkilatları işçilərin layiqli əməyini və yaşayışını təmin edən mühitin yaradılmasına, həmçinin qarşılıqlı əlaqələrin sosial tərəfdaşlıq əsasında inkişaf etdirilməsinə, əmək münasibətlərinin dialoq, kollektiv müqavilələr və sazişlər vasitəsilə tənzimlənməsinə səy göstərmişlər. Həmkarlar ittifaqlarının fəallığı sayəsində ötən il işəgötürənlərlə 13206 kollektiv müqavilə və 121 saziş bağlanmışdır.

Sosial tərəfdaşlığa eyni zamanda cəmiyyətin özünütəşkilinin yeni elementi kimi baxmaq olar. Real sosial təcrübədə baş vermiş öz-özünə əmələ gələn proseslərin nizama salınmasını güc ilə deyil, məlumat-ünsiyyət vasitəsilə sosial tərəfdaşlıq təsisatları təmin edir [1, s. 146].

Ümumiyyətlə, cəmiyyəti daim inkişafda olan və insanlar arasında müxtəlif münasibətlərin formalaşdığı mürəkkəb bir sistem kimi səciyyələndirmək olar. Sosiumdakı sosial qarşılıqlı fəaliyyətin müxtəlif səviyyələrində qərar tutmuş iştirakçıların tərkibi də rəngarəngdir və onların hər biri özü seçim edir: qərar qəbul edir və onun nəticələri ilə razılaşır. Bu zaman iştirakçılar arasında eyni vaxtda ziddiyyətli dəyərlərə əsaslanan vəziyyətlər yaranır: 1) maraqların qarşıdurması; 2) rəqabət; 3) sosial qeyri-bərabərlik [5, s.154]. Bu sosial təzahürlər də sosiumun universal əlamətlərini özündə əks etdirir, problem isə "birgə yaşamağ"ı və sosial proses və hadisələri onların baş verdiyi şəraitdə idarə etməyi öyrənməyin zəruriliyindən irəli gəlir.

Bu zaman formalaşan sosial vəziyyət isə elə bir dinamik haldır ki, burada ümumiləşdirilmiş formada insanların aktual həyatı, onların maddi və mənəvi rifah haqqında hissləri və əhvali-ruhiyyəsi ifadə olunur.

Davranış komponentinə malik olan kütləvi əhval-ruhiyyə iki amilin – insanların iddialarının, maraqlarının, ehtiyaclarının və onların ödənilməsi imkanlarının bir-birinə ziddiyyət təşkil etdiyi zaman yaranır. Bunun da nəticəsində sosial mühitdə əməkdaşlıqdan qarşıdurmaya qədər fərqli bir vəziyyət bərqərar olur.

Professor A.A.Şulus yazır ki, insanların, sosial qrupların öz əqidə və maraqlarında bir-birindən fərqli olması "birgə həyat" həqiqətinin axtarışı zərurətini şərtləndirir. Cəmiyyətdə əməkdaşlığa və sosial tərəfdaşlığa aparan barışdırıcı səbəbləri birləşdirən maraqların balansı lazımdır. Belə sosial qarşılıqlı fəaliyyətin tənzimlənməsi və ona nəzarət olunması mexanizmlərinə malik olmaq isə sosial mühitin harmoniyasının saxlanması və səmərəli idarə olunmasının həyata keçirilməsi imkanlarını yaradır. Əməkdaşlıq üçün tərəfdaşların ümumi məqsədə və vahid vəzifələrin həllinə nail olunması üzrə qarşılıqlı mənfəət əsasında sosial qarşılıqlı fəaliyyəti səciyyəvidir. Anlayış, qarşılıqlı anlaşma və etibarlı münasibətləri onun xarakterik əlaməti adlandıra bilərik [6, s.34].

Qarşıdurma üçün isə bir-birinə zidd olan maraqların toqquşması və məcburetmə ilə müşayiət olunan sosial qarşılıqlı fəaliyyət səciyyəvidir. O, fikir ayrılığı, rəqabət və münaqişə formalarında həyata keçirilir. Sonuncu forma özlüyündə qarşılıqlı fəaliyyət göstərən tərəflərin qarşıdurması zamanı təzahür edən bir-birinə zidd maraqların və dəyərlərin toqquşmasından yaranır. Burada əsas xüsusiyyət odur ki, o fəaliyyət zonasında qarşı tərəfin hərəkətlərini bilərəkdən bloklaşdırmaq imkanı olanda tərəflərin qarşılıqlı asılılığından doğur.

Münaqişələrin həllinin əsas yolları praqmatik sağlam düşüncə, başqa cür düşünənlərə qarşı tolerantlıq, onun daşıyıcılarına həqiqət axtarışları üzrə tərəfdaşlıq kimi hörmət olunması əsasında konsensus və konvergensiyadır. Sual oluna bilər ki, konsensus və konvergensiyaya hansı yolla nail olmaq olar, onların meyarları və ölçüləri, forma və hüdudları hansılardır və s. Onlara gətirib çıxaran mexanizmlərdən biri münaqişənin bütün tərəflərinin öz mövqe və iddialarından ümumi məqsədə çatmaq naminə könüllü olaraq güzəştə getməsi şəklində kompromisə getməkdir. Bununla da münaqişənin inkişaf imkanı azalır: yaranan maraqlar balansı özündə barışdırıcı və yaxınlaşdırıcı əsasları birləşdirən sosial vektor təşkil edir.

Kompromis əsasında sosial tərəfdaşlığa çevrilən əməkdaşlığa nail olunur. Bu, bir-birinə əks olan maraqların legitim könüllü razılaşdırılması olan bütövün ictimai münasibətlərinin sivil forması, müxtəlif sosial qrupların, onların ictimai birliklərin, təşkilatların və hakimiyyət strukturlarının müəyyən sosial-iqtisadi problemlərin həllində, danışıqlar, qarşılıqlı məsləhətləşmələr və müvafiq sazişlər bağlanması yolu ilə sosial konsensusa nail olunması üzrə səylərinin koordinasiyasıdır.

Sosial tərəfdaşlıq ideyası ictimai münasibətlərə mənəvi əsas və həyat stimulu verir ki, bu da onu cəmiyyəti dəyişdirən demokratik qüvvəyə çevirir.

Sosial tərəfdaşlığın subyektlərinə a) dövlətin nümayəndələri - hakimiyyətin icra orqanlarını; b) kapital nümayəndələri - sahibkarlar, səhmdarlar, işəgötürənlər və onların ictimai birliklərini; c) əmək nümayəndələri - işçilər və onların həmkarlar ittifaqları; d) sosial müdafiəyə ehtiyacı olan vətəndaşların qeyri-maddi tələbatlarının ödənilməsinə kömək edən qeyri-dövlət qeyri-maliyyə təşkilatları, qeyri-hökumət təşklatları daxildir. Tərəfdaşların tanınması və onlara hörmət onların sosial ümumiliyinin ilkin şərtlərindəndir.

Sosial tərəfdaşlıq: razılığa gələn bütün tərəflərin iştirakı ilə işlənib hazırlanmış qanunvericilik aktlarına; ümumi razılığın əldə olunmasına kömək edən sosial institutlar vasitəsi ilə üçtərəfli razılaşdırma komissiyalarına, kollektiv müqavilələrə; üzərlərinə götürdükləri öhdəliklərin həyata keçirilməsini təmin etməyə qabil olan tərəflərin bərabər məsuliyyətinə əsaslanır [7, s.39].

Sosial tərəfdaşlığın əsas istiqamətini funksional maraq qruplarının bütünlükdə iştirakı, vahid sosiomədəni məkanın yaradılması və ictimai münasibətlərdə sinfi münaqişələrdən uzaqlaşması mümkün edir. Bunlar olmadan sosial münaqişəni təşkilati münaqişəyə transformasiya etmək və onu regionlar, istehsal sahələri, müəssisələr, sosial qruplar və s. çərçivəsində qarşısını almaq mümkün olmaz. Razılaşma ideologiyası da elə tərəfdaşlıq normalarını, vətəndaş həmrəyliyinin, kompromisin, sosial müqavilənin, demokratik nizamın prioritetlərini maraqların fərqliliyinə baxmayaraq, ümumi hüquqlar və tərəflərin məsuliyyəti əsasında bərqərar edir.

Sosial tərəfdaşlıq aşağıdakı xüsusiyyətlərlə səciyyələnir:

1. Qarşılıqlı fəaliyyət göstərən tərəflərdə təkcə bir-birinə əks deyil, eləcə üst-üstə düşən hədəfləri izləyən “maraq qruplarının” mövcudluğu.

2. Qarşılıqlı fəaliyyət göstərən tərəflərin münasibətləri qarşıdurmaya deyil, anlaşmalar yolu ilə qarşılıqlı sərfəli “maraqlar balansının” əldə olunmasına istiqamətlənir.

3. Mübahisəli məsələlərin tərəflərin bilavasitə və bərabərhüquqlu iştirakı ilə sivil qaydada həlli.

4. Tərəflərin könüllü olaraq qəbul edilmiş qərarların yerinə yetrilməsi üzrə məcburi və bərabər məsuliyyəti.

5. Nümayəndələrin danışıqların aparılmasına, sazişlərin bağlanmasına və onların gerçəkləşdirilməsinə səlahiyyətlərinin olması.

6. Danışıqların aparılması və qəbul olunmuş qərarların, öhdəliklərin yerinə yetirilməsinə nəzarət üçün hüquqi bazanın olması [8, s. 73].

Bu xüsusiyyətlər iştirak edən tərəflərin sosial tərəfdaşlığın yaradılmasında, qarşılıqlı anlaşmanın və razılıq atmosferinin formalaşdırılmasında maraqlı olduqlarını əks etdirir. Onlar sosial nizamı, sabit sosial-iqtisadi inkişafı və hamının rifahı və firavanlığı naminə ictimai-həyati problemlərin sivil həllini təmin edirlər. Bununla belə qeyd etmək lazımdır ki, sosial qüvvələrin bu əməkdaşlığı məcburi və ya könüllü xarakter daşıya bilər. Sonuncusu mənfəət əsasında formalaşır: insanlar öz maraqlarını və həyatlarını ona görə bir-birinə bağlayırlar ki, bu onlara sərf edir. Sosial tərəfdaşlığın məcburi komponenti kimi sosial mübadilənin mahiyyəti elə burada gizlənir.

Sosial tərəfdaşlığın növlərindən biri də sosiomədəni sferada fəaliyyət göstərən və smeta qaydası ilə maliyyələşən büdcə təşkilatlarını əvəz edən qeyri-kommersiya təşkilatlarının (QKT) fəaliyyəti ilə bağlıdır. QKT-in fəaliyyəti tərəflərə iqtisadi qazanc əldə etmək məqsədilə deyil, alturist motivləri ilə xeyriyyə aksiyalarının, tibbi yardımın, təhsil proqramlarına dəstəyin, ətraf-mühitin müha-

fizəsinin və s. həyata keçirilməsi üçün sosial cəhətdən əhəmiyyətli olan xidmətlərin göstərilməsinə yönəlmişdir. Hakimiyyət strukturları üçün bu fəaliyyət büdcədənkənar vəsaitlərdən istifadə edərək müəyyən əhali qruplarına ünvanlı sosial yardım etmək qayğılarını öz üzərinə götürən həsəd aparılacaq bir tərəfdaşdır [9, s. 164].

QKT-in başlıca problemi özünün könüllü ictimai faydalı fəaliyyəti üçün zəruri olan vəsaitlərin axtarışıdır. Bu zaman maddi-maliyyə mənbələrinin uzlaşması gərəkdir. Bir tərəfdən bu, biznes strukturlarında, müxtəlif fondlarda, QKT-nin fəaliyyətinə gəlirsiz yatırım və ya öz səylərini edən fiziki şəxslər, könüllülər arasında güclü sponsorların axtarışıdır. Digər tərəfdən isə özünün gəlir gətirən fəaliyyətinin təşkilidir. Əldə olunmuş maddi-maliyyə vəsaitləri konkret QKT-lər qarşısında duran xüsusi nizamnamə məqsədlərinə, eləcə də onların stabil inkişafına nail olunmasını təmin edir.

Sosial tərəfdaşlığın qeyri-kommersiya növü qarşılıqlı fayda gətirir. Birincisi, QKT-lər sosial-yönümlü ictimai təşkilatlar kimi əhaliyə və dövlət strukturlarına yardım göstrərirlər: təşkilat üzvləri öz məqsədlərinə nail olanda sosial cəhətdən əhəmiyyətli yardım göstərilmiş şəxslərin cavab davranışından mənəvi məmnunluq alırlar. İkincisi, biznes strukturları QKT-lərin fəaliyyətinin sponsorluq etdklərinə görə özləri üçün uduşlu sosial xüsusiyyətlər - ictimai fikirdə və ictimaiyyətin onlara münasibətində etibar, hörmət, nüfuz qazanırlar: bu biznes-vahidin və onun məhsulunun ümumi dəyərinə əlavə edilmiş dəyərdir. Üçüncüsü, QKT-lərə və onların fəaliyyətinə maddi-maliyyə cəhətdən bütün yardım göstərənlərə dövlət dəstəyinin ən universal metodu - vergitutulması və qeyri-vergi rüsumları (gömrük, dövlət əmlakından istifadə və s.) üzrə güzəştlərdir. Onlar sponsor məqsədlərinin birbaşa əldə olunmasına yönəlmiş fəaliyyətdən gələn gəlirlərin bölüşdürülməsi olan tələblərə riayət olunması şərti ilə verilir [10, s. 260]. Dövlət bu ödəniş vasitəsini qeyri-kommersiya fəaliyyəti üçün ona görə verir ki, onun subyektləri, öz hədəflərinə çataraq eyni zamanda insanın vətəndaş hüquq və azadlıqlarının gerçəkləşdirilməsinə və onun özünün müvafiq sosial öhdəliklərini yerinə yetirməsinə kömək etsinlər.

Beləliklə, sosial tərəfdaşlığın başlıca məqsədi funksional maraq qruplarının müxtəlifliyinin nəzərə alınmasından və balanslaşdırılmasından ibarətdir. Onun əldə olunması siyasi sistemin həyat-qabiliyyətliliyinin və sabitliyinin, sosial-iqtisadi sferanın inkişafının, vətəndaş cəmiyyətinin formalaşdırılmasının ən vacib şərtidir.

Qeyd etdik ki, sosial tərəfdaşların əsas subyektlərindən biri işçilərin, iqtisadi fəal əhalinin böyük əksəriyyətinin maraq və mənafelərini təmsil və müdafiə edən işçilərin həmkarlar ittifaqlarıdır. Həmkarlar ittifaqları işəgötürənlər, dövlət və siyasi partiyalardan asılı olmayan, muzdlu işçilərin iqtisadi maraqlarını, hər şeydən əvvəl, işəgötürənlə münasibətdə müdafiə etmək üçün könüllü birlikdir. Həmkarlar ittifaqlarının başlıca funksiyası muzdlu işçilərin əsasən, iqtisadi maraqlarını müdafiə etməkdir. Bura daxildir: əmək haqqının artırılması, iş və sosial rifah şəraitinin yaxşılaşdırılması, eləcə də məşğulluq probleminin həllinə nail olmaq. Həmkarlar ittifaqları bu funksiyanı öz üzvlərinin kollektiv gücünə arxalanaraq, kollektiv müqavilə yolu və digər mütərəqqi üsullarla işçilərin işəgötürənlər qarşısında nümayəndəsi kimi yerinə yetirir.

Əgər həmkarlar ittifaqları ancaq öz üzvlərinin maraqlarının müdafiəsi ilə məhdudlaşarsa, onların təcrid olunması və vətəndaş cəmiyyətinin bütün digər sosial qruplarına qarşı duran məhdud korporativ təşkilatlarda yenidən yaranması labüddür. İşçilərin həmkarlar ittifaqları vətəndaş cəmiyyətinin təşəkkülündə mühüm rol oynayır. Onlar yarandığı vaxtdan muzdlu işçilərin vətəndaş azadlığının, onlara və bütün əhaliyə verilmiş vətəndaşlıq, siyasi-sosial və digər hüquqların əsas vasitəsi olmuşdur. Sahibkarın özbaşınalığını məhdudlaşdırıb, işçini iqtisadi cəhətdən müdafiə edərək həmkarlar ittifaqları fəhlələrin vətəndaş kimi, sosial subyekt kimi təşəkkülünə imkan yaratmışdır. Özünün mövcudluğunu və azad fəaliyyət hüququnu qoruyaraq, bununla həmkarlar ittifaqları eyni zamanda muzdlu işçilərin öz maraqlarının müdafiəsi üçün birləşərək, vətəndaş hüquqlarını müdafiə etməsi əsas şərtdir [11, s. 372].

Bəzi nəzəriyyəçilər, tədqiqatçılar və siyasi xadimlər həmkarlar ittifaqlarının tarixi dövrünün

artıq keçməsi, onlara sənayeləşmiş cəmiyyətdə yer olmaması fikrini irəli sürürlər. Onların "əsaslandırılması"nın nəticəsi budur: vətəndaş cəmiyyətində əmək və kapital arasında mübarizə üçün artıq səbəb yoxdur. Təcrübə göstərir ki, sosial münaqişələr, həm də müəssisə səviyyəsində, qrup halında və kollektiv halda qaçılmazdır. Sahibkarın bütün maraqları işçilərin maraqları ilə üst-üstə düşmür. Daha vacibi isə bazar münasibətləri və əmək bazarının xüsusiyyətlərinə diqqət etməkdir. "Alğı-satqı" çox vaxt satıcı və alıcının iqtisadi gücündən asılıdır. Sözsüz ki, əmək bazarında işçi özündən xeyli "güclü" olan işəgötürənlə görüşür. Lakin mədəni əmək bazarında sahibkarın göstəriş verməsi artıq mümkün deyil. Məhz həmkarlar ittifaqı hərəkatı sayəsində bazar iqtisadiyyatlı ölkələrdə minimum əmək haqqı, iş gününün müddəti, minimum sosial təminat haqqında qanunvericilik mövcuddur. Beləliklə, işçilərin həmkarlar ittifaqları və sahibkarlar arasında bağlanan kollektiv müqavilə və sazişlər muzdlu işçilər üçün əmək bazarında daha əlverişli şərait yaradır. Faktiki olaraq muzdlu işçi əmək bazarına tək gəlmir - onu həmkarlar ittifaqında minlərlə zəhmətkeş müdafiə edir [12, s.17].

Bu gün həmkarlar ittifaqlarının sosial tənzimləyici kimi rolu daha çox artır. Sosial idarəetmə üzrə mütəxəsislər tədqiq edirlər ki, müəssisənin münaqişəsiz inkişafı sadacə olaraq mümkün deyil. Münaqişədən deyil, onun destruktiv forma və üsullarından qorxmaq lazımdır. Burada isə həmkarlar ittifaqlarının rolu əvəzolunmazdır. Onlar olmadan sosial münaqişələr kortəbii siyasi çıxışlara çevrilər.

Zəhmətkeşlərin həmkarlar ittifaqlarının əsas sosial tərəfdaşı sahibkar, sahibkar təşkilatlarıdır. Sahibkarlar peşə birlikləri vasitəsilə dövlətlə də öz münasibətlərini tənzimləyir. Onlar sahibkarlıq fəaliyyətinə bilavasitə əlaqəsi olan dövlət qanunvericiliyi və sosial-iqtisadi siyasətin bir çox məsələləri üzrə ümumi rəy hazırlamağa maraqlıdır. Xüsusilə, söhbət əmək münasibətləri, vergi siyasəti və dövlət büdcəsindən dotasiya, daxili və xarici bazarda milli sahibkarlığın müdafiəsi və s. haqqında gedir.

Sahibkarlar özləri də fəaliyyətlərinin əlaqələndirilməsi və tənzimlənmənin zəruriliyni tədricən anlamağa başlamışlar. Dövlətin və həmkarlar ittifaqlarının hərəkətinə cavab olaraq sahibkarlar öz maraqlarını qorumağa kömək edən birlik yaratmağa başlayır. Müəssisə kimi fəaliyyət göstərən və gəlir əldə etmək üçün yaranmış istehsalat birliklərini və könüllü ictimai təşkilat kimi fəaliyyət göstərən sahibkarların birliklərini fərqləndirmək lazımdır.

İnkişaf etmiş bazar iqtisadiyyatlı öləkələrin əksəriyyətində sahibkarların birliyi həm iqtisadi, həm də sosial siyasətin aparılması və formalaşdırılmasında, həmkarlar ittifaqı və dövlətlə qarşılıqlı münasibətlərdə öz üzvlərının maraqlarını təmsil etməkdə kifayət qədər böyük təcrübəyə malikdir.

Sahibkarların birliyi normativ aktların hazırlanması, normativ əmək münasibətlərinin nizamlanması haqqında qanunvericiliyin təkmilləşdirilməsi üzərində işdə kifayət qədər fəal iştirak edir.

Tərəfdaşlıq münasibətləri sisteminin üçüncü tərəfi dövlətdir. Dövlət (icra hakimiyyəti orqanları) sosial tərəfdaşlıqda müxtəlif rollar oynamağa qadirdir: zəmanətçi, məsləhətçi, nəzarətçi, arbitır və s. Bəzi tədqiqatçılar sosial tərəfdaşların yalnız muzdlu fəhlələr və sahibkarlar olduğunu hesab edərək, "sosial tərəfdaşlıq" "üçtərəfli əməkdaşlıq" anlayışları arasındakı fərqə xüsusi əhəmiyyət verirlər. Onların fikrincə, əmək münasibətlərinin yüksək dərəcədə nizamlanması dövlətin müdaxiləsi olmadan, başqa sözlə, bu əlaqənin iştirakçıları arasındakı razılığın sərbəstliyi ilə təmin olunur. Yalnız dövlət danışıqların çıxılmaz vəziyyətə düşdüyü çarəsiz hallarda, hökümət ali arbitr rolunda onlara köməyə gələ bilər.

Müasir dövrdə dövlətin müdaxiləsinə böyük ehtiyatla yanaşmaq lazımdır. Beynəlxalq təcrübə sübut etmişdir ki, əmək münasibətləri sahəsində dövlət qəyyumluğu, xüsusən inzibati göstəriş - bu elə həmin məcburi üsuldan başqa əlavə bir şey deyildir.

Sosial tərəfdaşlığı yalnız üç tərəfin - hökumət, həmkarlar ittifaqları, işəgötürənlərin birlikləri – imzaladığı kollektiv sazişlərlə məhdudlaşdırmaq olmaz. Müəssisədə kollektiv müqavilələr və fərdi əmək müqavilələri bilavasitə işəgötürənlər və muzdlu işçilər arasında bağlanır. Dövlətin əmək münasibətlərinə inzibati müdaxiləsinə (həmkarlar ittifaqı hüquqlarının məhdudlaşdırılması, qanuni tə-

tillərə qadağa və s.) mənfi münasibət bildirmək olar. Lakin dövlətin sosial konsensusun zəruri iştirakçısı kimi mühüm rolunu etiraf etməmək olmaz.

Professor R.İsgəndərov yazır ki, müasir dövlətin yeni sosial funksiyasını anlamaq daha vacibdir. Dövlətin sosial məsuliyyəti özünü onda göstərir ki, o, bir sıra mühüm sosial funksiyaları yerinə yetirir:
- iş yerlərinin sayının artımına stimul yaradır;
- sərvətlərin qütbləşməsinin kortəbii proseslərini təshih edir, cəmiyyətdə sosial təbəqələşmənin mümkün ola bilən həddi keçməsinə yol vermir;
- əmək haqqı, təqaüd, işsizliyə görə müavinətin minumum miqdarı haqqında müəyyən olunmuş qanunlar vasitəsilə həyata keçirilən yaşayış minimumunu müəyyən edir;
- təhsil, səhiyyə, ekoloji təhlükəsizlik, mədəni nemətlər sahəsində vətəndaşları müəyyən kompleks pulsuz xidmətlə təmin edir;
- sosial sığorta və minimum təminat üçün lazımı şərait yaradır.

Bütün bunlar cəmiyyətdə ümumi sosial konteksti formalaşdırır və bütün səviyyələrdə sosial tərəfdaşlıq proseslərinə ciddi şəkildə təsir edir. Məsələn, müəssisələrdə kollektiv müqavilə bağlanarkən dövlət bilavasitə iştirak etmir. Ancaq o, görünmədən burada da iştirak edir . Dövlət öz qanunları ilə bu prosesdə iştirak edərək, onun qanunlarına riayət olunması tələbini qoyur. İşəgötürənlər və işçilər “sosial həddi” öz müəsisələrində ən yüksək səviyyəyə qədər ancaq bir vacib şərtlə - sosial tərəfdaşların qarşılıqlı razılığı ilə qaldıra bilərlər [11, s. 372].

Bu gün inkişaf etmiş sənaye ölkələrinin heç birində dövlət əmək bazarından kənar edilmir və orada tənzimləmə fuksiyasını yerinə yetirir. Bununla belə, əgər 80-ci illərin sonu və 90-ci illərin əvvəllərində guya tənzimləmə adlanan yəni, dövlətin bu rolunun zəifləməsi qeyd olunurdusa, son illər dövlətin əmək bazarında və bütövlükdə, iqtisadiyyatda itirilmiş hüquqların özünə qaytarılması ilə əks proses gedir və əhəmiyyətlidir ki, bu, işəgötürənlər daxil olmaqla bütün “tərəflərin” razılığı ilə əldə edilir.

Əmək münasibətlərinə dövlət təsirinin iki əsas üsulu fərqləndirilir. Birinci üsul-qanunvericilik vasitəsilə, bir çox inkişaf etmiş bazar iqtisadiyyatı ölkələrində əmək bazarında dövlətin “bazar qüvvələrinin azad oyununda” əsaslı müdaxiləsini göstərən qanunlar çıxarılır. Hələ İkinci Dünya müharibəsinə xeyli qalmış ABŞ-da, məsələn, sahibkarların öz müəssisələrinin işçilərini özbaşına azad etməsi hüququnu xeyli məhdudlaşdıran “Vaqner Qanunu” (1935-ci il) qəbul olunmuşdur.

Mahiyyətinə görə əmək bazarına münasibətdə dövlətin müdaxiləsini ifadə edən qanunvericilik aktlarının bütöv paketi Qərbi Avropa ölkələrində qəbul edilmiş və indi də fəaliyyət göstərir. Nəticədə, mübahisələrin əksər çoxluğunu tətillər olmadan hüquqi əsaslarla həll etmək olur.

Əmək münasibətlərinin dövlət tənzimlənməsinin ikinci üsulu üçtərəfli orqanların işi və üçtərəfli razılaşmalar vasitəsilədir. Burada dövlət hakimiyyəti əmək haqqı, məşğulluq və digər sahələrdə zəhmətkeşlərin (həmkarlar ittifaqlarının) tələblərinin məhdudlaşdırılmasını nəzərdə tutan müxtəlif “sosial müqavilələrin” təşəbüsçüsü kimi və ya fəal iştirakçısı kimi çıxış edir. Buna misal olaraq 70-ci illərdə Britaniyada və 70-80-ci illərdə Avstraliyada olan razılaşmaları göstərmək olar [13, s. 247].

Bir sözlə, sosial tərəfdaşlıq prosesi eyni vaxtda həm mübarizə, həm də əməkdaşlıqdır. Ancaq onda bir qalib və ya məğlub ola bilməz. Burada bütün tərəflər ya qalib gəlir, ya da sosial tərəfdaşlığın bütün sistemi məğlubiyyətə uğrayır, yəni konsensus mümkünsüz olur.

Həmkarlar ittifaqları ilə işəgötürənlər arasında razılıq əldə edilməsi yolunda razılıq əldə edilməsi yolunda çətinliklər qarşıya çıxanda dövlətin bu işə müdaxilə etməsi çox yerinə düşür (bəzi hallarda isə ikitərəfli sazişlər bağlanması daha münasibdir). Əsas məsələ budur ki, iştirakçılar kifayət qədər nüfuzlu olsun, dövlət isə öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirə bilsin.

Qarşıdurma, konfrantasiya və mübarizə sosial dialoqun təşkili zəruriliyinin dərk edilməsi və həmçinin münasibətlərinin tərəflər arasında mövcud olan maraqların balansına əsasən yaradılması

ilə əvəz olunur. Sosial təcrübə münasibətlərinin yeni tipini – inzibati sərəncamvericilikdən tədricən ictimai prosesin müqavilə ilə idarə edilməsini nəzərdə tutan sosial tərəfdaşlığı yaradır.

Sosial tərəfdaşlıq sistemi həmçinin özündə aşağıdakıları əks etdirir: tərəfdaşlığın (saziş, müqavilə) məqsədinin həyata keçirilmə mexanizmi, danışıq prosesinin qayda və prosedurasını, saziş və müqavilənin yerinə yetirilməsinə nəzarət, sosial tərəfdaşlığın tərəflərinin məsuliyyəti.

Məlum olduğu kimi, sosial tərəfdaşlıq münasibət və əlaqələr, rəsmi və qeyri-rəsmi qayda və prosedurların kifayət qədər mürəkkəb strukturlu elementlər olan sistemini ifadə edir. Qeyd etmək lazımdır ki, biz bu gün artıq cəmiyyətdə sosial qaydanın qorunub saxlanılmasına yönəldilmiş mühüm tənzimləyici funksiyaları yerinə yetirən təsisatları görürük. Sosial məqsədlərin digər məqsədlər üzərində üstünlük təşkil etməsi və dövlətin düzgün şəkildə aparılan sosial siyasəti bütün sosial təsisatların meyillərini ifadə edərək, daim ictimai nəzarət altında olur.

Sosial dövlət prinsip və məqsədlərinin konstitusiya ilə təsdiqi təkçə əlavə hüquqi imkanlar yaratmır, həm də sosial tərəfdaşlıq sisteminin yaradılmasını və funksiyalarını güclü şəkildə fəallaşdırır. İndi dövlət insanlar və təsisatlar üzərində hökmranlıq edən qüvvə kimi izah olunmur, onun digər sosial subyektlərlə hüquqlarının bərabərliyi, bunlar arasında ədalət və humanizmə əsaslanan böyük əlaqələr qurmağa şərait yaradır.

Ümumiyyətlə, sosial tərfdaşlığın mahiyyətinin dərindən dərk olunması üçün bir sıra məsələlərə aydınlıq gətirilməsi zəruridir:

1.Sosial tərədaşlığın mahiyyəti, obyekti və subyekti, subyektlərin əsas vəzifələri, kollektiv müqavilə və kollektiv saziş, Baş Kollektiv Saziş;

2.Sosial tərəfdaşlıqda sosial qarşılıqlı təsirin, sosial razılıq və konsensusun, sosial iştirakın təhlili;

3. Tərəfdaşlıq münasibətlərinin idarə olunmasının, sosial tərəfdaşlıqda tripartist mexanizmin, tərəfdaşlıq münasibətlərində dəyərlər, maraqlar və ehtiyacların öyrənilməsi, danışıqlar prosesinə üstünlük verilməsinin praktik əsasları;

4. İctimai münasibətlərdə sosial mübadilə, sosial mübadilənin prinsipləri, hakimiyyət və idarəetmə strukturlarında sosial mübadilə məsələsinin öyrənilməsi;

5. «Dövlət-minimum» vətəndaş cəmiyyətinin ideal tərəfdaşı kimi, sosial tərəfdaşlıq sosial idarəetmə aləti kimi, sosial tərəfdaşlığın gender aspektləri, sosial dövlətin müvafiq məsələlərinin təhlili;

6. Regional səviyyədə sosial tərəfdaşlığın meydana çıxmasının müqəddəm şərtləri və inkişafı, müqavilə münasibətlərinin reallaşma mexanizmləri, sosial əmək münasibətlərinin tənzimlənməsində regional təcrübənin təhlili;

7. Sosial dövlətin hüquqi aspektləri və prinsipləri, mübahisələrin tənzimlənməsinin araşdırılması, əmək mübahisələrinin qarşısının alınması yollarının axtarıb tapılması;

8. Əmək münasibətlərinin beynəlxalq hüquqi tənzimlənməsinin, BƏT-in konvensiyalarının öyrənilməsi,

9. Məşğulluqla bağlı məsələlər həmkarlar ittifaqları fəaliyyətinin əsas istiqamətlərindən biri olduğuna görə əmək bazarının inkişafı və əhalinin məşğulluğunun təminatlarına yönəldilmiş tədbirlərin həyata keçirilməsinin zəruriliyi;

10. Sosial tərəfdaşlığın nəzəri və praktik əsasları haqqında biliklərin geniş yayılması üçün onun bir fənn kimi tədrisə cəlb olunmasının zəruriliyi.

Fikrimizcə, sosial tərəfdaşlığın genişlənməsi və möhkəmlənməsi üçün ölkəmizdə sosial tərəfdaşlardan ibarət daimi fəaliyyət göstərən iqtisadi və sosial məsələlər üzrə üçtərəfli komissiyanın yaradılmasının vaxtı çatmışdır. Bu sosial tərəfdaşlıq sisteminin qanunverici bazasının təkmilləşdirilməsi və inkişafında mühüm addım ola bilər.

**İstifadə olunmuş ədəbiyyat**

1. Qaraşov H. Həmkarlar ittifaqları hərəkatının əsasları. Bakı, 2010
2. www. ulfet.com. 01/05/14
3. www. dsk.com. 13/02/14
4. Gənclərin məşğulluq siyasəti və həmkarlar ittifaqlarının rolu / “Ülfət”, 08 may 2014-cü il
5. Гайнуллина Ф.И. Международный опыт развития социального партнерства. М.; 2009
6. Шулус А.А. Российская модель социального партнерства. М.; 2007
7. Батин М.Т. Социальное парнерство: новый взгляд. М.; 2007
8. Крестьянинов А.Н. Социальный диалог профсоюзов и корпорации: мировая и отечественная практика. М.; 2012
9. Гаранкина Л.А. Роль профсоюзов в новой концепции справедливого распределение благ. М.; 2012
10. Каменецкий В.А. О партнерстве. М.; 2008
11. İsgəndərov R. Elmi-texniki tərəqqi:sosial-iqtisadi aspektlər. Dərslik. Bakı, 2010
12. Mehbalıyev S.S., İsgəndərov R. Sosial tərəfdaşlıq: beynəlxalq təcrübə və Azərbaycanda xüsusiyyətləri. Bakı, 2001
13. Mehbalıyev S.S., İsgəndərov R. Əmək bazarı. Bakı, 2004

**Зейнаддин Шабанов**

## СОЦИАЛЬНОЕ ПАРТНЕРСТВО КАК ПРИОРИТЕТНЫЙ ВОПРОС СОВРЕМЕННОСТИ

**Резюме**

В статье обосновывается необходимость в современном периоде выделять особое внимание в трудовых отношениях социальному партнерству. Анализируется необходимость соблюдения принципов социального партнёрства его субъектами и особо отмечается соблюдение равноправия как основного условия. В то же время в статье социальное партнёрство рассматриваеться как сложная система, выдвигаются предложения.

**Zeynaddin Shabanov**

## PRIORITY IN MODERN TIMES AS A MATTER OF SOCIAL PARTNERSHIP

**Summary**

Social partnership in labor relations in the modern era of the article is based on the need to give priority to. Analyze the importance of the principles of social partnership is to follow ed by his subjects, possessing equal rights stresses protection to the terms and conditions. complex system of social partnership is being considered at the same time, the proposals put forward.

**HUMANİTAR VƏ SOSİAL ELMLƏR BÖLMƏSİ**

**UOT – 327.3**

**Rafiq Zeynalov**
**AƏSMA, t.ü.f.d, professor**

# M.QORBAÇOVUN MİLLİ SİYASƏTİNİN İFLASI (ERMƏNİSTAN - AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ KONTEKSTİNDƏ)

**Açar sözlər:** milli siyasət, separatizm, “Krunk” təşkilatı, Daşnaksütyun, erməni xəstəliyi
**Ключевые слова:** национальная политика, сепаратизм, организация “Крунк”, Дашнакцутюн, армянская болезнь
**Keywords:** national politics, separatism, “Krunk” organization, Dashnaksutyun, armenian disease

Sovet dövrünün ən uğursuz partiya və dövlət başçısı olmuş M.Qorbaçovun milli münasibətlər sahəsində apardığı siyasətin SSRİ tərkibində olan bir sıra respublikalarda, o cümlədən Azərbaycanda iflasa uğramasından və hələ də öz həllini tapmamış konfliktlərdən – Dağlıq Qarabağ münaqişəsinin yaranmasına gətirib çıxarmışdır. Tarixi reallıq budur ki, məhz Dağlıq Qarabağ münaqişəsi SSRİ-nin dağılmasına səbəb olmuşdur.

Əyalət partiya komitəsinin I katibi vəzifəsindən rəhbərliyə gətirilən Qorbaçov fəaliyyətinin ilk dövründə rus millətçiliyini aparıcı qüvvə kimi görmüş, sonralar bu mövqedən bir qədər geri çəkilmişdir.

XXVII qurultaydakı siyasi məruzəsində Qorbaçov lovğalıqla qeyd edirdi ki, artıq Sovet İttifaqında milli əsarət və qeyri-bərabərlik bir dəfəlik aradan qaldırılmışdır.

Lakin XXVII qurultaydan sonra əhali arasındakı görüşlərində Qorbaçov açıq-aşkar ruspərəst, slavyanpərəst mövqeyini nümayiş etdirirdi. Məsələn, alkoqolizmə qarşı mübarizə kampaniyasında o rusları, ukraynalıları və belorusları qorumağa çağırır, onların aparıcı rolunu hər vasitə ilə təbliğ edirdi. 18 sentyabr 1986-cı ildə Krasnodardakı nitqinin dərc olunmamış hissəsində qeyd edirdi ki, o və arvadı Dostoyevskinin dediyi kimi “bütün rus adamlarının birliyinə” nail olmaq istəyirlər.

Qorbaçovun ikiüzlü siyasəti müsəlman respublikalarına münasibətdə açıq görünürdü, İslam dininə qarşı siyasət gücləndirilirdi. Kremlin bu siyasəti ilk növbədə Qazaxıstanda özünü biruzə verdi. Qorbaçov milli zəmində bu münaqişəni neqativ hal kimi qeyd etməyə məcbur oldu.

1987-ci ilin yanvarında keçirilən Plenumda Qorbaçov təəssüf hissi ilə qeyd edirdi ki, milli münasibətlərdə nəzəriyyə praktikadan geri qalır və ölkənin müasir inkişaf tempinə uyğun deyil.

1988-ci ilin fevral Plenumunda o bir daha milli məsələyə toxunaraq, bu məsələyə diqqəti artırmağa çağırırdı. Lakin onun bu sözləri adi boşboğazlıqdan başqa bir şey deyildi. Reallıq, həyat bunun əksini göstərdi. Onun bu qətiyyətsiz mövqeyindən istifadə edən erməni millətçiləri və Dağlıq Qarabağda olan separatçı qüvvələr hərəkətə keçdi. Dağlıq Qarabağın Azərbaycandan ayrılması prosesi 1988-ci il fevralın 13-də Stepanakertdə nümayiş və etiraz aksiyaları ilə başlandı. Beləliklə, SSRİ-nin dağılması prosesinə start verildi. Artıq elə ilk məqamlardan Qorbaçovun başçılıq etdiyi Siyasi Büronun riyakarlığı üzə çıxdı.

1921-ci ilin 5 iyununda Kafbüronun iclasında Orconikidze və Nazaretyan öz çıxışlarında qeyd edirdilər ki, ermənilər və müsəlmanlar arasında sülhə nail olmaq üçün, Yuxarı və Aşağı Qarabağın iqtisadi əlaqələrini, onların Azərbaycanla daimi əlaqələrini nəzərə alaraq onun Azərbaycanın tərkibində qalması məqsədə uyğundur. İclasda Rusiya Kommunist partiyasını (bolşevikləri) təmsil edən Stalindən başqa Kirov, Fiqatner, Oraxelaşvili, Orconikidze, Maxaradze, Myasnikov, Nazaretyan, Nərimanov və dəvət olunmuş Azərbaycanın xarici işlər naziri Hüseynov da iştirak etmişlər.

Qorbaçovun uğursuz milli siyasəti Azərbaycana qarşı 20 Yanvar faciəsinə, Xocalı qırğınına gətirib çıxardığı və, nəhayətdə, SSRİ-nin dağılması ilə bitməsi dünya siyasətçiləri tərəfindən reallıq kimi qəbul edilir.

1988-ci il 18 fevral plenumunda M.Qorbaçov milli məsələyə yenidən qayıdaraq qeyd etmişdir ki, müasir mərhələdə milli siyasətlə əsaslı şəkildə məşğul olmaq lazımdır və bu iş həm nəzəri, həm də praktik şəkildə aparılmalıdır. O, bu məsələnin cəmiyyətimiz üçün prinsipial xarakter daşıdığını israrla qeyd edirdi. Lakin reallıq onu göstərirdi ki, bu, boşboğazlıqdan başqa bir şey deyildi.

Sovet İttifaqı müxtəlif millətlərin təmsil edildiyi bir dövlət idi. Cənub-qərbdə ukraynalılar, beloruslar məskunlaşmışlar. Linqvistik və mədəni yaxınlığına baxmayaraq, ruslaşma prosesi onlardan da yan keçməmişdir. İkinci Dünya müharibəsindən sonra Ukraynaya birləşdirilmiş ərazilərdə milli narazılıqlar özünü indi də göstərməkdədir. Maydanda baş verən hadisələr bunu bir daha təsdiqlədi.

Pribaltika - Litva, Latviya və Estoniya xalqları sayca az olmalarına baxmayaraq, möhkəm milli şüura malik olub Qərb meyilli idilər.

Orta Asiya xalqları islam dininə etiqad etdikləri üçün Kremlin təzyiqinə daha çox məruz qalırdılar.

Zaqafqaziya etnik cəhətdən öz müxtəlifliyi ilə fərqlənməsinə baxmayaraq, xristian təəssübkeşliyi sovet rəhbərliyinin onlara xüsusi münasibətini formalaşdırırdı. Müsəlman ölkəsi olan Azərbaycana ikili standart tətbiq edilir və elə bunun nəticəsi idi ki, Qarabağ münaqişəsinin elə ilk günlərindən ermənipərəst mövqe nümayiş etdirilirdi.

Ədalət naminə demək lazımdır ki, SSRİ-də milli şüurun oyanması bir sıra respublikalarda artıq 1960-cı illərdən müşahidə edilirdi.

Bu proses zorakı şəkildə ruslaşma siyasətinə qarşı yönəlmişdi və imza toplamaq kompaniyası, gizli yayılan yazılar, nümayişlərdə müşahidə olunurdu. Səbəblər müxtəlif idi. Məsələn, ukraynalılar dillərinin statusunun qorunmasına, Litva katolik kilsəsinin hüquqlarının pozulmasına, Estoniya və Latviya milli tərkibin dəyişməsinə, yəhudilər isə emiqrasiyaya qoyulan məhdudiyyətlərə, Krım tatarları doğma yurdlarına qayıtmaq hüququnun pozulmasına etirazlarını bildirirdilər.

Soyuq müharibəyə son qoymaq təşəbbüsü kimi Helsinki Aktının qəbul edilməsindən sonra bir sıra respublikalarda yaranmış müşahidə qrupları insan haqlarının pozulmasına yol verməmək istiqamətində fəaliyyət göstərirdilər.

Orta Asiyada mərkəzin apardığı siyasət kadr dəyişiklikləri ilə müşayiət edilirdi. Qısa müddət ərzində Özbəkistan, Qırğızıstan, Türkmənistan və Tacikistan respublikalarının rəhbərliyi dəyişdirildi. Ən böyük dramatik hadisələr 1986-cı ilin dekabrında 1964-cü ildən Qazaxıstanın birinci katibi işləyən qazax Kunayevin rus Kolbinlə əvəz olunması oldu.Yerli əhali bu siyasətə kəskin reaksiya verdi - milli zəmində iğtişaşlar baş verdi.

Pribaltika respublikaları daha çox demoqrafik problemlərlə bağlı narazılıq bildirirdilər. Belə ki, bu respublikalarda rus əhalisinin sayı durmadan artırdı. Təsadüfi deyil ki, SSRİ-də ilk “Xalq cəbhəsi” burada yaranmışdı.

1985-ci ilin martında Qorbaçovun Sov.İKP Baş Katibi seçilməsi ilə bu proseslər heç də səngimədi. Hakimiyyətinin ilk illərində öz diqqətini iqtisadiyyatın tənəzzülünün dayanmasına sərf edən Qorbaçov ortaya yenidənqurma problemlərini atdı.

Sovet rəhbərliyi qeyri-rus millətlərinin üzləşdiyi milli məsələyə ikinci dərəcəli bir məsələ kimi yanaşırdı. Rusların əksəriyyət təşkil etdiyi cəmiyyətdə kommunistlərin başçılığı altında qurulan Federasiyada gələcək münaqişələrin əsası qoyulurdu.

1978-ci ilə qədər Qorbaçovun fəaliyyəti etnik cəhətdən müxtəlif xalqların məskunlaşdığı Stavropol vilayətində baş verirdi. Bu kifayət idi ki, keçmiş traktorçunu bu sahənin bilicisi saysınlar. 1980-cı ildə o artıq Moskvada kənd təsərrüfatı üzrə MK katibi vəzifəsində ikən Litvanın SSRİ-yə birləşməsinin 40 illiyinə həsr edilmiş təntənəli iclasında xalqlar dostluğu haqqında nitq söyləməyi ona həvalə etmişdilər. 1985-ci ildə artıq SovİKP MK-nın baş katibi olarkən belə onun milli məsələlər üzrə çıxışları primitiv, sönük ifadələr toplusundan başqa bir şey deyildi. Nəticədə həmin ilin 9 və 15 mayında Latviyada antirus çıxışlar Kommunist Partiyasının milli siyasətini puça çıxardı.1986-cı ilin fevralında keçirilən SovİKP-nin XXVII qurultayındakı çıxışlarda artıq nikbin notlara rast gəlinmir.

Bir sıra burjua alimləri, publisistləri Sovet respublikalarında millətçilik meyillərinin yaranması məsələlərinə öz münasibətlərini bildirirlər. Bu tədqiqatçılar belə bir fikir irəli sürürdülər ki, mil-

lətçiliyin baş qaldırması aparılan yenidənqurma siyasəti ilə bağlı olmuşdur. Harvard universitetinin müəllimi L.Qayda hesab edirdi ki, SSRİ-nin gələcəyi milli məsələnin həllindən asılıdır. AFR Şərq və beynəlxalq tədqiqatları institutunun aparıcı mütəxəssisi Q.Simonun fikrincə, Marksizm-Leninizm ideyalarının tarixi inkişaf reallığı ilə ziddiyyət təşkil etmişdir. Amerikan politoloqu R.Krikus daha qətiyyətli çıxış edərək Kommunist Partiyasını səhvən milli məsələni həll etdiyi tezisini irəli sürür.

Bir sıra alimlər Zaqafqaziyada millətlərin öz müqəddəratını həll etmək sahəsində buraxılan səhvləri qeyd edirdilər. AFR Trir Universitetinin professoru Q.Breker islam amillərinin canlanmasını ona qarşı qoyulmuş sinfi mübarizə nəzəriyyəsinin iflası ilə izah etməyə çalışırdı.

Onun bu fikirlərinə zidd çıxan erməni millətçiləri Dağlıq Qarabağ separatizmini alovlandıraraq, vilayətin Azərbaycandan alınaraq Ermənistana verilməsi tələbi ilə bir neçə ay çəkən iğtişaşlara başladılar. Çoxsaylı qeyri-rəsmi qruplar, etnik problemlərin geniş müzakirəsi Qorbaçovun yenidənqurma siyasəti üçün gözlənilməz oldu.

Stalinin vəfatından sonra bu partiya direktivlərinə qarşı yönəlmiş birinci çıxış idi. Artıq bu zaman ölkənin partiya rəhbərliyi Ermənistanda və Dağlıq Qarabağda nəzarəti itirmişdilər. Vilayətdə real qüvvə kimi yaxşı təşkilatlanmış “Qarabağ” komitəsi çıxış edirdi. Zori Balayan, Silva Kaputikyan kimi yazıçılar bu hərəkatın ideoloqları sayılırdı. Hətta katolikos I Vazgen “Qarabağ” komitəsi ilə sıx əlaqə saxlayırdı.

1988-ci ilin 20 fevralında vilayət soveti 110 səslə, 30 nəfər azərbaycanlı deputatın iştirakı olmadan Dağlıq Qarabağın Ermənistana birləşməsi haqqında qərar qəbul etdi. Ertəsi gün Sov.İKP MK Siyasi Bürosu bu qərarı dəstəkləmədi, Bakıya və Yerevana göstəriş verdi ki, vəziyyətin normallaşması üçün tədbirlər görülsün. Bu məqsədlə Sov.İKP MK katibi Q.Razumovski və Nazirlər Soveti Sədrinin müavini P.Demiçev Bakıya, MK Katibləri V.Dolgix və A.Lukyanov Yerevana ezam edildilər. Lakin bu şəxslər Qorbaçovun ikiüzlü siyasətini həyata keçirərərək hər iki münaqişə tərəfi üçün sərfəli mövqelərdən çıxış etdilər.

Əgər Bakıda mövcud sərhədlərin pozulmaz olduğu vurğulanırdısa, Erevanda bunun əksi deyilir və millətlərin öz müqəddəratını həll etmək hüququ önə çəkilirdi. Ermənistana gedən emissarlar unudurdular ki, ermənilər artıq bu hüquqdan istifadə edərək öz respublikalarını yaradıblar.

Fevralın 26-da Qorbaçov qatı daşnak mövqelərində olan Zori Balayan və Silva Kaputikyanı qəbul etdi. Söhbətdə onun yaxın silahdaşı uğursuz “yenidənqurma” müəllifi A.Yakovlev də iştirak edirdi. Bu görüş erməni separatçılarına ümid verdi ki, məsələnin həlli onların istədiyi kimi nəticələnəcək. Bu məqsədlə vəziyyəti gərginləşdirmək lazım idi. Fevralın 27-də Ağdamda 2 azərbaycanlı gənc qətlə yetirildi. Böhranı dərinləşdirmək planı SSRİ-nin təhlükəsizlik orqanlarının agentləri tərəfindən Sumqayıtda həyata keçirildi. Qabaqcadan görülmüş hazırlığa əsasən ağlasığmaz bir operativliklə bu hadisələr Qərb mətbuatında öz birtərəfli əksini tapdı. SSRİ mətbuatı, hakim dairələrin göz yumması fonunda, Azərbaycanın ünvanına böhtan dolu yazılar verməyə başladı. Erməni ideoloqları həyasızcasına iddia edirdilər ki, vilayətin iqtisadiyyatı bərbad vəziyyətdədir, əhalinin güzəranı respublika göstəricilərindən geri qalır. Azərbaycan tərəfi Moskvalı alimlərin, o cümlədən erməni alimlərinin iştirakı ilə bu yalanı ifşa etdilər. Buna baxmayaraq, martın 24-də MK və Nazirlər Kabineti vilayətin sosial-iqtisadi və mədəni inkişafı ilə bağlı qərar qəbul etdi. Erməni separatçılarına ayrılan 400 mln. rubl yardım haqqında Azərbaycan tərəfi əvvəlcədən məlumatlandırılmamışdı.

Eyni zamanda bu münaqişənin kökündə Qərbin təhrikedici rolu inkaredilməz idi.

Azərbaycanın görkəmli şairi Bəxtiyar Vahabzadə Qarabağ münaqişəsinə öz münasibətini bildirərək qeyd etmişdi ki, Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır və ermənilər XIX əsrdə Osmanlı imperiyası və İrandan bu məkana köçürülmüşlər və onların ərazi iddialarının heç bir əsası yoxdur. Onun məqaləsi Türkiyənin aparıcı “Tərcüman” qəzetində çap edilmişdi.

May ayının 21-də hər iki respublikada partiya rəhbərliyi dəyişildi. Lakin bu addım nəticəsiz qaldı. Öz səylərinin boşa çıxdığını görən ermənilər yeni bir təklif irəli sürdülər – Dağlıq Qarabağ Ermənistana birləşdirilmədən müstəqil elan edilsin, ümumittifaq orqanına və ya Rusiya federasiyasına tabe edilsin. Azərbaycan tərəfi bu təklifi qətiyyətlə rədd etdi.

Tarixə ekskurs etdikdə qeyd etmək lazımdır ki, Stalinin hakimiyyəti dövründə milli etirazlara qətiyyən yol verilmirdi. Onun ölümündən sonra vəziyyət dəyişməyə başladı. Məlumdur ki, Azərbaycan və Ermənistan 1922-ci ildən 1936-cı ilə qədər Zaqafqaziya Federasiyasının, yəni bir dövlət qurumunun tərkibində olmuşlar. Lakin o zaman erməni millətçiləri Dağlıq Qarabağ məsələsini heç vaxt ortaya atmayıblar. 1965-ci ildən ermənilər 1915-ci ildə Türkiyə tərəfindən genosidə məruz qaldıqlarını geniş qeyd edərək, bu işə xaricdə fəaliyyət göstərən diaspor təşkilatlarını cəlb etdilər. 60-cı illərdən başlayaraq erməni millətçiləri öz əsassız ərazi iddiaları ilə Moskvaya, partiya və hökumət dairələrinə müraciət etməyə başladılar. Bu işdə marşal İ.Baqramyan xüsusi canfəşanlıq göstərirdi.1977-ci ildə beynəlxalq siyasət məsələləri ilə məşğul olan «Проблемы мира и социализма» jurnalı bu iddialara kəsərli cavab verərək qeyd etdi ki, bu məsələ artıq həmişəlik həll edilmişdir.

M.Qorbaçovun keçirdiyi uğursuz islahatlar Sovet İttifaqında millətçilik əhval-ruhiyyəsinin yaranmasına səbəb oldu. Sovet rəhbərliyinin buraxdığı səhvlər, yenidənqurma və aşkarlıq siyasəti millətçi ünsürlərin canlanmasına gətirib çıxardı. Z.Balayanın erməni vətəndaşlarına müraciətinin ardınca Mikoyanın oğlu, təyyarə konstruktoru Sergey Mikoyan bəyan edirdi ki, yenidənqurma bir çox məsələlərə yenidən baxmağı mümkün edir və Sovet erməniləri Dağlıq Qarabağ məsələsini yenidən həll etməli, sərhədlərin dəyişməsinə çalışmalıdılar.

Azərbaycan tərəfi bu təzahürləri qətiyyətlə pisləyərək hesab edirdi ki, Ermənistan respublikası ümumittifaq mənafelərinə zidd hərəkət edir, başqa xalqlara nifrət hissi təbliğ edir və çar rejimi dövründəki qırğınlar həyata keçirir. Münaqişə region müstəvisindən çıxaraq dünya ictimaiyyətinin diqqətini cəlb etmişdir. Konstitusiyanın özündə isə bir sıra maddələr bir-birinə ziddiyyət təşkil edirdi (millətin öz müqəddaratını müəyyən etmək və sərhədlərin dəyişməzliyi).

Avqustun 18-də SSRİ Ali Soveti Dağlıq Qarabağla bağlı qəbul etdiyi qərarda Konstitusiyanın 78-ci bəndinə əsasən regionun ərazisi dəyişilə bilməz. Tövsiyə olunurdu ki, düşmənçilik təzahürlərinin qarşısı qətiyyətlə alınmalı və beynəlmiləlçilik prinsipləri üstünlük təşkil etməlidir.

M.Qorbaçov burada da öz xislətinə sadiq qalaraq ermənilərə gələcəkdə vilayətə respublika statusu vermək haqqında vəd verdi. Eyni zamanda aydın oldu ki, millətçi ünsürlərə müxtəlif vədlər verməklə ölkədə sabitliyi qorumaq mümkün deyil.

Baxmayaraq ki, SSRİ Ali Sovetinin Rəyasət heyəti erməni millətçilərinin ərazi iddialarını birmənalı şəkildə rədd etdi, status-kvonun saxlanmasına tərəfdar çıxdı, bu heç də məsələnin həlli demək deyildi. Sovet rəhbərliyi bu addımı atmaqla vaxt qazanmaq, erməni tərəfi müxtəlif vədlərlə sakitləşdirmək məqsədi güdürdü. Kreml erməni diasporunun Qərb ölkələrinə təsir imkanlarını nəzərdən qaçırmırdı. Qorbaçovun Reyqanla Vaşinqtonda keçirilən zirvə görüşü zamanı imkanlı ermənilərin sovet nümayəndə heyətinə iri məbləğdə pul vəsaitinin verilməsi və bu addımın minnətdarlıqla qarşılanması dünya ictimaiyyəti üçün sirr olaraq qalmadı. Eyni zamanda nəzərə almaq lazımdır ki, bu sahədə baş verə biləcək dəyişikliklər bütün ölkə boyu daxili sərhədlərin yenidən baxılması prosesinə rəvac verə biləcəyini Qorbaçov və onun komandası yaxşı başa düşürdü. Zaqafqaziyada baş verən böhranın həlli uğursuzluqla nəticələndi. Moskvanın bu məqsədlə yerlərə göndərdiyi məsul şəxslər vəziyyəti təhlil edə bilmir, rus şovinizmini tətbiq etməyə çalışır və vəziyyəti daha da dərinləşdirirdilər. Aydın idi ki,Sovet rəhbərliyi xalqlar arasında harmonik münasibətlərin formalaşması yollarını bilmir və böhrandan çıxış yollarını müəyyən etmək iqtidarında deyildi.

Ermənistan rəhbərliyi Qorbaçovun onlara olan liberal münasibətdən istifadə edərək öz millətçilik siyasətini getdikcə gücləndirirdi.Ermənistan KP MK-nın birinci katibi Dəmirçiyan Qorbaçovun yenidənqurma və aşkarlıq siyasətinə məhəl qoymadan öz ölkəsini uçuruma doğru aparır, xalqı həll edilməli olan iqtisadi problemləri unutmağa sövq edirdi.

Dəmirçiyan Azərbaycana qarşı təxribatçılıq siyasəti aparmaqla yanaşı dini etiqadlara, islam dininə də qarşı çıxırdı. 1987-ci ildə Qazaxıstanda baş vermiş iğtişaşlardan sonra ermənilər Qorbaçova müraciət edərək Azərbaycanın Dağlıq Qarabağda apardığı mədəni və iqtisadi siyasətə böhtan ataraq, vilayətdə azərbaycanlaşma siyasətinin həyata keçirildiyini, islam dininə xüsusi yer verildiyini qeyd edirdilər.

Qorbaçovun milli münasibətlər məsələsinə yanaşma tərzinə gəldikdə qeyd etmək lazımdır ki, o, öz sələflərindən fərqli olaraq daha ağır vəziyyətə düşmüşdü. O elə bilirdi ki, Dağlıq Qarabağ mü-

naqişəsini “yumşaq” siyasət yürütməklə həll edə bilər. Reallıq onun bu riyakar siyasətinin doğru olmadığını sübut etdi. Münaqişənin həllinə belə münasibət bir daha göstərdi ki Sovet partiya və dövlət rəhbərləri milli məsələnin həllində aciz idilər və Cənubi Qafqazda etnik gərginliyə son qoya bilmədilər. Siyasi Büronun Dağlıq Qarabağın mədəni və iqtisadi inkişafına dair hazırladığı 400 mln. rublluq proqramı nəticəsiz qaldı, çünki ermənilər inkişaf deyil, ərazi iddiaları ilə çıxış edirdilər.

Yuxarıda qeyd edildiyi kimi, S.Kaputikyanı və Z.Balayanı qəbul edən Qorbaçov 4 saat ərzində onları dinləmiş və məsələnin martın sonuna qədər “ədalətli” həll ediləcəyini onlara vəd vermişdi. Görüşdən ruhlanan ermənilər nümayişlərə bir ay ara vermək qərarına gəlmişdilər.

Böhranın ən şiddətli dövründə Qorbaçov Avstriya Kommunist partiyasının rəhbəri Frans Muri ilə görüşündə Sovet hökumətinin milli siyasətinin kobud şəkildə aparıldığını qeyd etməyə məcbur olmuşdu. Bunun nəticəsi kimi gərginlik daha da artmağa başladı.

Ermənilərin Azərbaycan ərazilərinə iddiaları tarixən xeyli uzağa gedib çıxır. 1890-cı ildə Tiflisdə yaranmış “Daşnaksutyun” (erməni inqilabçıları ittifaqı) partiyası qonşu ölkələrə qarşı terror fəaliyyətinin özünün əsas məqsədi elan etmiş və bir sıra qətllər törətmişdir. İlk müstəqil Azərbaycan dövlətinin görkəmli xadimləri Fətəli xan Xoyskinin, Həsənbəy Ağayevin, Behbud xan Cavanşirin ölümü onların çirkin əməllərinin nəticəsidir.

Ermənilərin əksərən Dağlıq Qarabağa və Azərbaycanın digər ərazilərinə Rus-İran müharibəsinin nəticəsi olaraq köç etmələri haqında bu işlərin içində olan rus yazıçısı və diplomatı Qriboyedovun yazışmalarında təkzibedilməz məlumatlar var. Bu fakt 1978-ci ildə ermənilərin Mardakert rayonuna köçürülmələrin 150 illik şərəfinə ucaldılmış abidədə öz əksini tapmışdır. Düzdür, ermənilər bu həqiqəti inkar etmək məqsədilə həmin abidəni dağıtmışlar. Azərbaycan tarixçisi İqrar Əliyev İran və Türkiyədən Cənubi Qafqaza və əsasən Qarabağa köçürülənlərin sayını 130 min müəyyən etmişdir. Digər məlumatlara görə bu rəqəm 200 min olmuşdur. Rusiyanın ermənilərin xristian olduqları üçün təəssübkeşliyi bütün dünyaya bəllidir. Amerikan tədqiqatçısı O.Olstat qeyd edir: “Ermənilər ruslarla xüsusi münasibətləri olan etnik azlıqdır. İmperiya qanunları onlara azərbaycanlılardan çox imtiyazlar verir. Xeyli sayda erməni inzibati orqanlarda və məhkəmə aparatında işlədikləri halda azərbaycanlılara (ümumən müsəlmanlara) dövlət vəzifələri tutmaq qadağan edilmişdir”.

İkinci dünya müharibəsi bitər-bitməz 1945-ci ilin noyabr ayında ermənilər SSRİ-nin partiya rəhbərliyinə müraciət edərək Dağlıq Qarabağın Ermənistana verilməsi haqqında iddia irəli sürmüşdülər.1945-ci il dekabrın 10-da Azərbaycan bolşeviklərinin başçısı Mir Cəfər Bağırov vilayətin Qarabağ xanlığının ərazisi olduğunu və onun paytaxtı Pənah xan tərəfindən 1747-ci ildə qala kimi salınan Pənahabad (Şuşa) olduğunu MK katibi Q.Malenkova çatdırdıqdan sonra ermənilərin təklifinə münasibətini çox qəribə bir şəkildə bildirmişdi. Onun fikrincə, vilayət, Şuşa istisna olunmaqla, Ermənistana o zaman birləşdirilə bilər ki, Ermənistanın Azərbaycanla həmsərhəd olan tarixi torpaqlarımız Əzizbəyov, Vedi və Qarabağ rayonları bizə qaytarılsın, eyni zamanda Gürcüstanın Borçalı rayonu və Dağıstanın Dərbənd və Qasımkənd rayonları Azərbaycana verilsin. Məsələyə İ.Stalinin “Onlar dəli olublar nədir?” replikası ilə son qoyulur.

Stalin məyus olmuş erməni şovinistlərinin könlünü almaq üçün 1953-cü ildə xaricdən gəlmiş erməniləri yerləşdirmək adı ilə 150 min azərbaycanlını öz doğma yurd-yuvalarından Azərbaycanın iqlim baxımından münasib olmayan ərazilərinə köçürdü. Az bir zamanda onların bir çoxu bu şəraitə dözməyərək müxtəlif xəstəliklərə tutuldu, həlak oldu.

1964-cü ildə ermənilər Xruşşovun SSRİ-də partiya rəhbərliyində olmasından da faydalanmağa çalışdılar. O vaxt, qısa bir müddətə SSRİ Ali Sovetinin Rəyasət heyətinin sədri olmuş Anastas Mikoyan Xruşşovun Krımı Ukraynaya bağışladığını bəhanə gətirərək, ondan Qarabağı Ermənistana birləşdirməyi təklif edir. Bir çox mənfi keyfiyyətləri olmasına baxmayaraq, Xruşşovun Mikoyana verdiyi cavab bu gün də öz aktuallığını itirməyib: “Mən 12 min hərbi yük maşını ayırıb bir sutka ərzində Dağlıq Qarabağ ermənilərini Ermənistana köçürdə bilərəm” fikri onun milli məsələyə düzgün yanaşmasının nəticəsi idi.

Ermənilərin məkrli siyasətinin qarşısının alınması ümummilli liderimiz Heydər Əliyevin Sovet İttifaqının rəhbərliyində təmsil olunması idi. “Əbəs deyil ki, Ermənistanın keçmiş prezidenti Le-

von Petrosyan öz tərəfdarlarına xəbərdarlıq edirdi: “nə qədər ki, Heydər Əliyev hakimiyyətdədir, Qarabağ haqqında belə düşünməyin”.

M.Qorbaçov sanki onların bu çağırışını eşitdi.1987-ci ilin payızında ümummilli liderimizi qısqanan Qorbaçov H.Əliyevin rəhbərlikdən getməsini təşkil etdi. İstefadan 20 gün sonra M.Qorbaçovun iqtisadi məsələlər üzrə köməkçisi A.Aqanbeqyan 1987-ci ilin noyabrında Fransada olarkən erməni lobbisi ilə görüşündə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinin məqsədəuyğun olduğunu irəli sürmüşdü. Fransız kommunistlərinin orqanı “Yumanite” qəzeti 18 noyabr nömrəsində bu başa bəla akademikin dediklərini dərc etmişdi: “Bir iqtisadçı kimi – deyə o qeyd edir - hesab edirəm ki, iqtisadi cəhətdən o Ermənistanla Azərbaycandan çox bağlıdır ... Ümüd edirəm ki, yenidənqurma, demokratiyanın inkişafı şəraitində bu problem öz həllini tapacaqdır”. O dövrün reallığı ilə tanış olan hər bir şəxs yaxşı başa düşür ki, ona bu təklifi səsləndirməyə Qorbaçov şəxsən icazə verib. Erməni millətçiləri İ.Muradyan, L.Ter-Petrosyan, S.Kaputikyan, Z.Balayan və başqaları, heç şübhəsiz, Qorbaçovun xəbəri olan bu iddianı həyata keçirməyə başladılar. Yerevandan Stepanakertə gələn emissarlar müəssisələrdə, əhalinin arasında separatist toxumları səpir, azərbaycanlılara qarşı nifrət, kinküdurət hissi təlqin edirdilər.

Bu məqsədlə Ermənistanda “Qarabağ”, Stepanakertdə “Krunk” təşkilatları yaradılmışdı. Təəssüf ki, o vaxt informasiya blokadasında olan Azərbaycan, onun kütləvi informasiya orqanları, təbliğat vasitələri irəli sürülən böhtanlara tutarlı cavab verə bilmir, vilayətin bir çox iqtisadi, sosial göstəricilərə görə Ermənistandan üstün olduğunu Sovet və dünya ictimaiyyətinə çatdırmaqda çətinlik çəkirdilər.

Bu erməni millətçilərinin açıq-aşkar hücuma keçmələrinə işarə idi.

Azərbaycanlıların kütləvi şəkildə Ermənistandan qovulması 1988-ci ilin yanvar, fevral aylarına təsadüf edir. Ermənistan Elmlər Akademiyasının müxbir üzvü R.Kazaryan sevincini gizlədə bilməyərək mitinqlərin birində demişdi: “Onilliklər ərzində bizdə ilk dəfə Ermənistanı təmizləmək üçün unikal imkan yaranmışdır”.

Nəticədə, 1988-1991-ci illər ərzində Ermənistanı 250 min azərbaycanlı tərk etməyə məcbur olmuşdu. Erməni quldurlarının vəhşiliklərinin qarşısını hətta 1988-ci ilin dekabrın 7-də Spitakda baş vermiş dağıdıcı zəlzələ belə ala bilməmişdi.

Stavropolda partiya rəhbərliyində olarkən ermənilərə sevgi ruhunda tərbiyə olunmuş (Allah bilir nəyə görə) M.Qorbaçov 1985-ci ildə Kremlə sahib olduqda onun ətrafındakı ermənilər – A.Aqanbeqyan, Q.Şaxnazarov, K.Bruters birləşərək bu səbatsız dövlət başçısını fəlakətə sürükləyirdilər. Buraya o zaman Nazirlər Sovetinin sədri olmuş N.Rıjkovla işləyən Sitaryan və Xaçaturovu da əlavə etsək, məsələnin nə qədər ciddi olduğunu təsəvvür edə bilərik. Əbəs deyil ki, Ermənistanda Rıjkova abidə ucaldılmışdır.

Erməni separatçılarının əlində Sumqayıt hadisələri çox güclü bir antiazərbaycan alətinə çevrildi. İndi artıq məlumdur ki, fevralın 28-29-u baş verən hadisələri SSRİ DTK-sının xüsusi qüvvələri tərəfindən həyata keçirmişdilər. Onlar bu işə Sumqayıtdakı cinayətkar ünsürləri cəlb edərək, baş verən iğtişaşı operativ şəkildə SSRİ və Qərb mətbuatına ötürmüşdülər. Ən qəribəsi bu idi ki, dağıdıcı qüvvələrin başında erməni millətindən olan Paşa ləqəbli Qriqoryan dururdu.

M.Qorbaçovun ikiüzlü bir siyasət yürütməsinin nümunəsi 1988-ci il 21 mayda Azərbaycanda və Ermənistanda keçirilən partiya plenumlarına ezam etdiyi MK katibləri E.Liqaçov və A.Yakovlevin çıxışları idi.

Əgər Liqaçov Azərbaycan ictimaiyyətini sərhədlərin pozulmaz olduğunun, Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinin qeyri-mümkün olduğunu bəyan edirdisə, A.Yakovlev Yerevanda separatçılara öz dəstəyini nümayiş etdirirdi. Heç şübhəsiz, onların hər ikisi səfərdən əvvəl M.Qorbaçovdan müvafiq təlimat almışdılar.

1989-cu il yanvarın 12-də SSRİ Ali Sovetinin Rəyasət heyətinin Dağlıq Qarabağı idarə olunması üçün Sov.İKP MK-inin şöbə müdiri A.Volskinin başçılığı altında xüsusi qurumun yaradılması əslində vilayəti Azərbaycanın tərkibindən çıxarılmasına yönəlmiş bir addım idi.

Erməni şovinistləri getdikcə öz təxribatçı fəaliyyətlərini genişləndirərək azərbaycanlılara qarşı terror əməliyyatları keçirir, Naxçıvanı respublika ilə birləşdirən dəmir yolunu bağlayır, milli müdafiə dəstələri yaradırlar. İlin sonuna yaxın gərginlik son həddə çatmışdı. Ermənilərə hamilik edən

M.Qorbaçov çıxış yolunu günahkarları cəzalandırmaq əvəzinə, qəzəbini Azərbaycanın dinc əhalisinə divan tutmaqda görürdü. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə, heç bir xəbərdarlıq etmədən, Bakıya Sovet qoşunları yeridildi. Qanlı yanvar faciəsi xalqımıza baha başa gəldi. 131 nəfər, o cümlədən, 117 azərbaycanlı, 6 rus, 3 yəhudi, 3 tatar öldürüldü, 744 nəfər yaralandı, 4 nəfər itkin düşdü. Dövlət və partiya rəhbərliyinə irəli çəkilmiş bacarıqsız Qorbaçovun milli siyasət sahəsində atdığı səhv adddımlar, onun erməni təəssübkeşliyi öz başında çatladı. Dağlıq Qarabağ münaqişəsi Sovet imperiyasının dağılmasına başlanğıc oldu, Qorbaçov rejimini tarixin arxivinə atdı.

Dağlıq Qarabağ problemi böyük bir ölkə olan SSRİ-nin parçalanmasına start verdi. Bir qədər uzağa getsək, deyə bilərik ki, bu proses Rusiyanın özündən də yan keçmədi. Şimali Qafqazda, Çeçen və İnquşetiya arasında olan münaqişə, Tatarıstanda, Başqırdıstanda, Krımda baş verən hadisələr buna misaldır. Digər respublikalarda - Abxaziya, Cənubi Osetiya, Dnepryanı, Orta Asiyada qanlı toqquşmalar baş verdi. Qorbaçovun əlindən hakimiyyət estafetini almış B.Eltsin öz düşünülməmiş çıxışları ilə bu arzuolunmaz hadisələri bir qədər də sürətləndirdi. Onun “bacardığınız qədər suverenitet götürün” tezisi bu prosesə daha da rəvac verdi.

Məlumdur ki, Dağlıq Qarabağ münaqişəsinin həlli həmsədr ölkələrin (Rusiya,Fransa və ABŞ) birgə səyləri nəticəsində öz həllini tapmalıdır. Azərbaycan mətbuatında ATƏT-in Minsk qrupunun bu sahədəki fəaliyyəti kəskin şəkildə tənqid edilir və irəliləyişin olmaması narahatçılıq doğurur. BMT-nin Dağlıq Qarabağla bağlı 4 qətnaməsinin - erməni işğalçılarının qəsb etdikləri ərazilərdən qeyd-şərtsiz çıxmalarını tələb edən qətnamələrin yerinə yetirilməməsi Azərbaycanda etirazla qarşılanır. Milli Məclisin sədrinin müavini B.Muradova qeyd edir ki, erməni hərbi hissələri bizim əraziləri tərk etməyənə qədər biz öz narazılığımızı bildirəcəyik. ATƏT-in Minsk qrupunun formatının dəyişməsi haqqında səslənən informasiyaya gəldikdə isə belə bir dəyişikliyin məsələnin həllinin daha da uzanmasına gətirib çıxara biləcəyi ehtimalı yüksəkdir. Düzgün yol budur ki, həmsədr ölkələrin fəaliyyəti gücləndirilsin.

Rusiyanın Prezidenti V.Putin keçən il ərzində Azərbaycanın və Ermənistanın prezidentləri ilə görüşsə də, münaqişənin həllinə can yandırmamağı hiss edilir. Onun Ermənistanı nəyin bahasına olursa olsun, Gömruk İttifaqına cəlb etməsi münaqişənin həllində dəyişikliyə səbəb ola bilər. Belə ki, Dağlıq Qarabağın Ermənistanla sıx əlaqələrinin olmaması və Qazaxıstan prezidenti N.Nazarbayevin işğalçı ölkənin Dağlıq Qarabağla birlikdə bu quruma üzv olmasını qeyri-mümkün sayması V.Putini məcbur edər ki, erməniləri işğal olunmuş ərazilərdən çıxmağa təhrik etsin.

Azərbaycan xalqının qatı düşməni, cinayətkar, Qarabağda separatçı hərəkatın əsasının qoyan Zori Balayan indi də Rusiya prezidenti V.Putini yolundan çıxartmağa çalışır və ümid edir ki, onu da Qorbaçovun xəyanətkar siyasətini davam etdirməyə sövq edə biləcək.

V.Putinə yazdığı məktubunda Gülüstan və Türkmənçay müqavilələrinə görə Rusiyaya qatılmış Qarabağ, Şirvan, Quba, Bakı, Talış, İrəvan və Naxçıvan xanlıqlarının adını çəkən qatil onların Azərbaycan torpaqları olduğunu inkar etməyə çalışır, təəssüf edir ki, Ermənistanın Rusiya ilə sərhəddi yoxdur. Erməni millətçilərinin xam xəyalını ifadə edərək qeyd edir ki, onların bu arzusu Azərbaycanı, Gürcüstanı, Şimali Qafqazı və Rusiyanın Ryazana qədər olan ərazisini ilhaq etməklə həyata keçirilə bilər. Bu başa bəla, sərsəm publisistin iddiaları əsassız deyil. Ermənilərin işğalçılıq iştahlarının nümunəsi kimi Qorbaçovun köməkçisi olmuş Q.Şahnəzərovun “Tale” kitabında erməni katolikosunun 1988-ci il iyulun 12-də ermənilərə etdiyi müraciətin mətni sübut edir: “Sirr deyil ki, - deyə bu dini xadim, erməni xalqına müraciət edir, - bizim bütün torpaqlarımızın heç də hamısı bizim deyil. Vaxt gələcək ki, biz onları ələ keçirib, orada məskunlaşacağıq. Onlar orada 60% təşkil edir. Tədricən Krasnodar və Stavropol vilayətlərində olan torpaqları rus təsirindən xilas edib, Armavirdə (Şimali Ermənistanda) torpaqların 80% bizə məxsusdur. Ağılla hərəkət etsək, biz Rostov vilayətini də ermənilərin məskunlaşdığı məkana çevirə biləcəyik...Təşviş üçün əsas yoxdur. Rus kilsəsi bizi dəstəkləyir, bizim bir çox tərəfdarlarımız yüksək vəzifələrdədir. Məncə, Moskvadakı 480 min erməni əhəmiyyətli qüvvədir. Övladlarım, dinc yolla, sakitcə oradakı evləri satın alın...yerli əhalini oradan getməyə məcbur edin, bu torpaqlarda oturaqlaşın. İndi SSRİ dağılır, az sonra biz Rusiyanın dağılmasına kömək edəcəyik”.

Görəsən Rusiya prezidentinin bu sərsəm arzulara münasibəti necə olacaq?

Dağlıq Qarabağ münaqişəsinin həllinə dünya praktikasından baxdıqda aydın olur ki, beynəlxalq hüquq normalarına əsasən Azərbaycan tərəfi işğalın fəsadlarına görə müəyyən təzminat almalı-

dır. Bu təzminatın həcmi xüsusi sertifikata malik ekspertlər tərəfindən Beynəlxalq standartlara uyğun müəyyən edilməlidir.

Bu mənada Respublika prezidenti İlham Əliyevin Azərbaycana dəymiş ziyanı müəyyən etmək üçün 2011-ci ilin dekabrında Nazirlər Kabinetinə verdiyi göstəriş xüsusi əhəmiyyət daşıyır. Təcrübə göstərir ki, dünya birliyi işğalçı dövlətə qarşı təsirli iqtisadi sanksiyalar tətbiq etməlidir. Hesablamalar göstərir ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində respublikamıza dəymiş ziyan beynəlxalq ekspertlərin təxmini hesablamalarına görə 500 milyard ABŞ dolları təşkil edir.

Tibb aləmində “dövrü erməni xəstəliyi” adlandırılan bir xəstəlik var. Hər iki valideyni bu millətə aid olduğu şəraitdə o xəstəlik xüsusilə şiddətlənir. Belə şəxslərdə immun sistemi pozulur, qızdırmaya bənzər kəskin ağrılar baş verir. Xəstəliyin kökü dərinliklərə gedib çıxır. Bu xəstəliyə tutulanlar başqa xalqlara məxsus olan torpaqları, tarixi, mədəniyyəti özlərinə çıxmağa çalışırlar. Lakin son nəticədə peşmançılıq çəkirlər. Bu xəstəliyi ABŞ və Fransa alimləri geniş tədqiq edərək onun müalicəsi üçün “kolçisin” deyilən dərman da hazırlamışlar.

Lakin belə xəstəliyə tutulmuş 15-20% erməni millətçilərinin, şovinistlərin ancaq bir təsirli dərmanı, müalicəsi var - o da bu azğınlaşmış ekstremist, separatçı qüvvələri yerində oturtmaq, Dağlıq Qarabağda və işğal edilmiş ətraf rayonlarda Azərbaycanın ərazi bütövlüyünü və tam suverinitetini bərpa etməkdir.

**İstifadə olunmuş ədəbiyyat**

1. А.Пашаев. Геноцид, депортации и территориальные претензии армян к Азербайджанскому народу (XIX-XX вв). Баку, 2011
2. Ч.Султанов. Нашествие, Баку, 2004
3. Газета «Зеркало», 22 ноября – 29 ноября, 2013 г.
4. Материалы XXVII съезда КПСС. М,1986 г.
5. Журнал «Проблемы мира и социализма». №6, 1977 г.
6. Журнал «История СССР» №6, 1987 г.

**Рафик Зейналов**

## ПРОВАЛ НАЦИОНАЛЬНОЙ ПОЛИТИКИ МИХАИЛА ГОРБАЧЕВА (В КОНТЕКСТЕ АРМЯНО-АЗЕРБАЙДЖАНСКОГО НАГОРНО-КАРАБАХСКОГО КОНФЛИКТА)

**Резюме**

В статье подвергается резкой критике деятельность М.Горбачева по вопросам национальной политики на посту генерального секретаря ЦК КПСС. Представляет интерес высказывания западных идеологов по данному вопросу. Особое внимание уделяется разоблачению бредовых идей армянских националистов и сепаратистов Нагорного Карабаха, посягнувших на территориальную целостность Азербайджана.

**Rafiq Zeynalov**

## THE FAILURE OF THE NATIONAL POLICY OF MIKHAIL GORBACHEV (ARMENIAN - AZERBAIJANI NAGORNO-KARABAKH CONFLICT IN THE CONTEXT)

**Summary**

The article deals with the sharp criticism of Gorbachov’s activity, the general secretary of the CPSU, Central Committee, on the issue on national policy. The interest to the opinions of western ideologists on the given issues is presented in the article. Particular attention is paid to expose delusions of Armenian nationalist and separatists of Nagorno – Karabakh encroached on the territorial integrity of Azerbaijan.

**UOT – 369.8**

**Ramiz İsgəndərov**
**ATU, i.ü.e.d., professor**

# SOSİAL PROBLEMLƏRİN HƏLLİNDƏ DÖVLƏT SİYASƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

**Açar sözlər:** sosial siyasət, minimum əmək haqqı, istehlak xərcləri, sosial-demoqrafik qruplar, ehtiyac meyarı, minimum istehlak səbəti

**Ключевые слова:** социальная политика, минимальная зарабоная плата, производственные расходы, социально-демографические группы, коафициент нуждаемости, минимальная потребительская корзина

**Keywords:** social politics, minimum wages, consumer expenditure, social demographic groups, need criterion, minimum consumption basket

Bazar iqtisadiyyatı şəraitində dövlətin sosial siyasəti tamamilə yeni prinsiplərə əsaslanmalıdır. Bunun üçün vətəndaşların dövlətdən maliyyə asılılığı minimuma endirilməli, əhalinin müxtəlif qrup və təbəqələrinin özünü reallaşdıra bilmə imkanları genişləndirilməli, sahibkarlıq fəaliyyəti stimullaşdırılmalıdır. Çünki həyat səviyyəsinin əsas göstəriciləri vətəndaşların sağlamlığı və onların uzunömürlülüyüdür. Məlum olduğu kimi, insanların sağlamlığı 10 faiz tibbi xidmətdən, 10 faiz irsiyyətdən, 80 faiz isə sosial-iqtisadi şərait və ətraf mühitdən asılıdır.

Sosial siyasətin səmərəliliyinin artırılmasında əsas vasitələrdən biri yoxsulluğun azaldılmasıdır. İndi yoxsulluq dünyada ümumbəşəri bir problemə çevrilmişdir. BMT-nin məlumatına görə bu gün dünyada 1 milyarda yaxın əhali yoxsulluq səviyyəsində yaşayır. Yoxsulluq səviyyəsi isə zəif inkişaf etmiş ölkələr üçün 1 dollar müəyyən edilir. 2002-ci ilin avqustunda BMT tərəfindən Yohannesburqda keçirilmiş davamlı inkişaf üzrə ümumdünya toplantısında 2015-ci ilədək dünyada yoxsulluğun səviyyəsinin iki dəfə azaldılması vəzifəsi qarşıya qoyulmuşdur. «Azərbaycanda Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramı»nın icrası ilə bağlı respublikamızda mühüm işlər görülmüşdür. Nəticədə Azərbaycan əhalisinin yoxsulluq səviyyəsi son 10 ildə 49,0 faizdən 5,0 faizə düşmüşdür.

Dövlətin sosial sahədə məqsədləri həyata keçirilərkən dövlət quruluşu təcrübəsinə və cəmiyyətin mentalitetinə daha çox uyğun olan sosial dövlət nəzəriyyəsindən ilk növbədə istifadə olunur. Sosial dövlət nəzəriyyəsinin məğzi ondan ibarətdir ki, dövlət qeyri-sinfi olur, əhalinin bütün təbəqələrinin marağını ifadə edir, ona firavan həyatı təmin edir.

Sosial problemlərin həlli dövlət siyasətinin əsas istiqamətlərindən biri olmaqla, ictimai həyatın sosial sahəsi və ayrılmaz hissəsidir. Sosial sahəyə həm iqtisadiyyatın qeyri-istehsal sahələri (təhsil, elm, səhiyyə, mədəniyyət və sosial müdafiə), həm də istehsal sahələrinin bir çox aspektləri (iş gününün müddətinin, minimum əmək haqqının, əməyin mühafizəsinin müəyyən olunması və s.) daxildir.

Sosial dövləti xarakterizə edərkən, dünya birliyində istifadə olunan meyarlara Azərbaycan hansı dərəcədə cavab verir?

Bazar iqtisadiyyatına keçid və keyfiyyətcə yeni iqtisadi münasibətlərin yaranması dövlətin sosial siyasətinin təkmilləşdirilməsini, sosial müdafiə sistemində zəruri islahatların aparılmasını və müasir dövrün tələblərinə cavab verən işlək mexanizmlər əsasında iqtisadi sosial təminatlar sisteminin yaradılmasını tələb edir və ölkəmizdə bu prinsipə əməl olunur.

Azərbaycandakı sosial-iqtisadi vəziyyətin mövcud xüsusiyyəti ondan ibarətdir ki, bazar münasibətlərinin inkişafı sosial problemlərlə müşayiət edilir. Əslində bunu bazar iqtisadiyyatına keçidin nəticəsi kimi qiymətləndirmək olmaz. Çünki bazar münasibətləri sağlam iqtisadiyyatın qurulmasına və əhalinin həyat səviyyəsinin yüksəldilməsinə xidmət edir. Bu baxımdan Azərbaycanda sosial problemlərin həlli yolunu bazar münasibətlərinin planlı şəkildə inkişaf etdirilməsində axtarmaq lazımdır. Belə şəraitdə dövlətin mühüm vəzifəsi, iqtisadi islahatların əsas istiqamətlərini sosial problemlərin həlli istiqamətləri ilə əlaqələndirməkdən ibarət olmalıdır.

Müxtəlif ölkələrin iqtisadi potensialı həmin ölkələrdə sosial müdafiə sisteminin maddi əsasını təşkil edir. Qeyd etmək lazımdır ki, sosial müavinətlərin ünvanlanmasının səmərəliliyi üçün kompleks sosial təminatlar proqramı olmadan, sabit iqtisadi yüksəliş və elmi-texniki tərəqqi üçün zəruri şərait yaratmaq mümkün deyil. Bununla əlaqədar, Azərbaycanda əhalinin maddi baxımdan özünümüdafiəsini təmin etmək üçün zəruri makroiqtisadi şərtlər kompleksi yaratmaq məsələsi aktuallaşır. Bu məsələ sosial müdafiə problemini keyfiyyətcə yeni səviyyəyə qaldırar, cəmiyyətin bütün üzvlərinə aid tədbirlərlə ayrı-ayrı sosial qruplara ünvanlanmış tədbirlər arasında hədd qoymağa imkan verər.

Fikrimizcə, cəmiyyətin bütün üzvlərinə aid tədbirlər aşağıdakılardır:

- hər bir insanın öz şəxsi qabiliyyətlərinə müvafiq fəaliyyət sahəsində bu imkanları tətbiq etməsinə şərait yaradan səmərəli məşğulluq, kadrların hazırlanması və onların yeni ixtisaslara yiyələnməsi sistemi təmin edilməlidir;
- gəlirlərin yaranması üçün elə səmərəli sistem təşkil edilməlidir ki, işçinin aldığı əmək haqqının səviyyəsi həmin işçinin iqtisadiyyatın hansı sektorunda (dövlət müəssisəsi, kiçik biznes, kooperativ, ticarət təşkilatı və s.) işləməsindən asılı olmayaraq, bilavasitə işin keyfiyyəti və nəticəsi əsasında müəyyən edilsin;
- gəlirlərdə və şəxsi istehlakda diferensiasiya prosesi makroiqtisadi səviyyədə vergitutma, vergilərin planlaşdırılması, əhalinin peşə və sosial baxımdan yüksək dərəcədə mobilliyi tənzimlənməli, vahid istehlak bazarı yaradılmalıdır;
- əhalinin gəlirlərinin və istehlakın diferensiasiyasında müşahidə edilən meyillər nəzərə alınmaqla həm pul formasında, həm də "istehlak səbətində" yaşayış minimumunun real səviyyəsi rəsmən müəyyən edilməlidir;
- “satıcı bazarından” “alıcı bazarına” keçidlə bağlı müxtəlif sosial-iqtisadi innovasiyaların köməyilə istehlakçıların mənafeləri müdafiə edilməlidir. Burada iqtisadiyyatın istehlak sektorunun inkişafının məqsədyönlü stimullaşdırılması, antiinhisar tənzimləmə, istehlakçı assosiasiyaların fəaliyyətinə kömək, istehlak kreditləri şəbəkəsinin genişləndirilməsi və digər tədbirlər nəzərdə tutulur.

Sosial siyasətin səmərəliliyinin artırılması məqsədilə sosial müdafiənin yuxarıda sadaladığımız istiqamətləri əhalinin ayrı-ayrı qruplarına kömək məqsədi güdən spesifik tədbirlərlə tamamlanmalıdır. Burada, ilk növbədə dövlət büdcəsindən sabit gəlir əldə edən işçilərə, eləcə də obyektiv səbəblər üzündən ya ictimai-faydalı fəaliyyətlə məşğul ola bilməyən əhali qruplarına, ya da bu cür fəaliyyətləri məhdud olan şəxslərə (pensiyaçılar, tələbələr, işsizlər, əlillər, tək analar və s.) şamil edilən tədbirlərdən söhbət gedir. Aydındır ki, təkcə sonuncu qruplara daxil olan əhalinin sosial müdafiəsinin gücləndirilməsi cəmiyyətin bütün üzvləri üçün zəruri sosial zəmanətlər yaratmır. Bu tədbirlərin məqsədi ondan ibarətdir ki, pensiyanın, müavinətin, tələbə təqaüdlərinin və digər ödənişlərin məbləği yaşayış minimumundan aşağı olmasın, bu məbləğ vaxtında indeksləşdirilsin və nəhayət, ucuz çeşidli mallar və xidmətlərlə maddi cəhətdən təmin edilsin. Əlbəttə, təkcə bu tədbirlər sayəsində bütün əhalinin sosial müdafiəsini təmin etmək mümkün deyil, ən azı ona görə ki, insanın özünü maddi cəhətdən təmin etməsinin əsas mənbəyi - onun şəxsi qabiliyyətlərinin reallaşdırılmasından ibarətdir. Sadaladığımız tədbirlər isə bundan ötrü heç bir şərait yaratmır. Əmək qabiliyyətli bütün əhalinin sosial müdafiə dərəcəsinin artırılması, ilk növbədə səmərəli məşğulluq sisteminin yaradılması və yalnız bu zəmin üzərində pul gəlirlərinin artması və yuxarıda sadaladığımız digər tədbirlərlə bağlıdır.

Qeyd etmək lazımdır ki, “say və keyfiyyət”, yəni əməyin ölçüsü və müvafiq olaraq istehlak ölçüsü bizim qurduğumuz cəmiyyətdə dövlət tərəfindən deyil, azad rəqabət şəraitində müəyyən olunacaqdır. Əgər kimsə alıcının yüksək qiymətləndirdiyi, tədarükçünün isə ciddi xərc və əmək sərf etmədən məhsul istehsalı və ya xidmət üsulu taparsa, biz bu gəliri daha “zəhmətsiz” hesab etmirik. Əlbəttə ki, hər bir şəxs üçün bu malı istehsal etmək və satmaq azadlığı pozulmursa. Azad rəqabət şəraitində gəlir normasının bərabərləşməsi baş verir. Belə rəqabət sistemində əmək sərfi və keyfiyyəti, dövlət normalaşdırılmasına nisbətən daha dəqiq və ədalətli müəyyənləşir. Rəqabət prosesində alına bilən fayda, fasiləsiz olaraq yeni ideyalar axtarışı və kapital axını üçün ideal stimuldur. Belə şəraitdə kasıblar və varlılar meydana gəlir. Dünya təcrübəsi göstərir ki, əgər bu dövlətin nəzarəti al-

tındadırsa və bazarın öhdəsinə buraxılmayıbsa, burada faciəvi bir şey yoxdur.

Normal cəmiyyətdə həmişə 10 faiz kasıb və o qədər də dövlətli var. Qalanlar orta sinifdir. Ancaq vacibdir ki, varlılar məhsul istehsal etmədən və xidmət göstərmədən meydana gəlib fəaliyyət göstərməsin və obyektiv səbəbdən istehsal prosesinə qoşula bilməyənlər üçün sosial müdafiə sistemi kifayət qədər inkişaf etsin.

Hər bir vətəndaşın cəmiyyət qarşısında qəti bir öhdəliyi və güzəştsiz cavabdehliyi olmalıdır. Həm də dövlətin formalaşmasının demokratik və proqmatik prinsipləri onların yerinə yetirilməsinə vətəndaşların məcbur edilməsinin kifayət qədər güclü formalarını istisna etmir. Vətəndaşın başlıca vəzifəsi müqavilələrin yerinə yetirilməsi, vergilərin ödənməsi, sağlamlıq, ləyaqət və digər vətəndaşın malına göz dikməməyi nəzərdə tutan əxlaq normalarına və qanunlara riayət etməkdir.

Ərzaq və qeyri-ərzaq məhsullarının alınmasına son illərdə çəkilən istehlak xərcləri nəzərəçarpacaq dərəcədə dəyişmişdir. Vəziyyəti mürəkkəbləşdirən odur ki, vahid istehlak bazarının olmadığı indiki şəraitdə gəlirlərin bölüşdürülməsi bəzi sosial təbəqələrin hesabına baş verir. Əhalinin müxtəlif təbəqələri istehlak bazarından eyni dərəcədə istifadə edə bilmədiyinə görə, şəxsi istehlak məsələsində diferensiasiya gəlirlərin diferensiasiyasından daha güclü təzahür edir. Hərçənd bu fərqlərin heç biri keyfiyyətli əmək fəaliyyəti üçün iqtisadi stimul rolu oynamır. İslahatların ilk illərində işçilərin və onların ailələrinin aztəminatlı kateqoriyadan orta təminatlı və yüksək təminatlı kateqoriyaya keçməsinin mümkünlüyü faktiki olaraq, onların şəxsi qabiliyyətindən, ixtisasından, səriştəsindən və fədakarlıqla işləməsindən bilavasitə asılı deyildi. İnsanın hansı iqtisadi sektorda çalışması, onun “start” şəraiti, bu və ya digər imtiyazlı bölgü kanallarına nə dərəcədə yaxın olması amilləri daha mühüm rol oynayır. Aydındır ki, belə şəraitdə insanın nəinki öz qabiliyyətini inkişaf etdirməyə və ixtisasını artırmağa, hətta gəlirlərin qazanılması prosesinə marağı zəifləyir və az qala heçə enirdi.

Sənaye cəhətdən inkişaf etmiş ölkələrin təcrübəsi barədə geniş yayılmış səthi təsəvvürlərdən fərqli olaraq, bu ölkələrin əmək bazarında dövlət çox yüksək fəallıq göstərir. İnkişaf etmiş ölkələrdə, xüsusən Avropa ölkələrində insanın fərdi qabiliyyətinin inkişafı hamının istifadə edə biləcəyi təhsil və peşə hazırlığı sisteminə əsaslanır. Belə ölkələrdə əmək bazarının sosial funksiyası ondan ibarətdir ki, insanın şəxsi qabiliyyəti və peşəkar vərdişləri inkişaf etdikcə, ona daha mürəkkəb, daha maraqlı və daha yüksək ödənişli işlər təklif edilməlidir. Bu məqsədlə və elmi-texniki tərəqqinin tələblərinə müvafiq olaraq, əmək bazarı təsisatları sistematik olaraq iş yerlərinin və kadrların ümumi təkrar attestasiyalarını keçirirlər. Qeyd etmək lazımdır ki, bu cür təcrübə və onun həyata keçirilməsi mexanizmləri Azərbaycanda çox ciddi öyrənilməlidir. Əks halda səmərəli məşğulluq sistemi yaratmaq çətin olar. Bu cür sistem əhalinin sosial müdafiəsini həqiqətən gücləndirir. Özü də təkcə ona görə yox ki, yüksək ixtisas tələb edən və daha səmərəli əmək müqabilində daha yüksək haqq ödənilir, həm də ona görə ki, işçilər vaxtaşırı iş yerlərini dəyişir, fərdi test sınaqlarının nəticələrinə uyğun olaraq daha mürəkkəb və daha yüksək maaşlı iş yerləri seçirlər. Yalnız bü cür sistem şəraitində demək olar ki, insanın öz qabiliyyətinə uyğun əməyi onun maddi rifahının əsas mənbəyidir və hər kəsin sosial müdafiəsi onun öz əlindədir. Səmərəli məşğulluq şəraitində insan iş yeri seçərkən təkcə işin məzmununu deyil, mülkiyyət formasını da (dövlət müəssisəsi, fərdi əmək fəaliyyəti, kooperativ, kiçik biznes, icarə təşkilatı, özəl müəssisə, müştərək müəssisə) nəzərə alır.

Aztəminatlı istehlakçının ona lazım olan malları münasib qiymətə seçib alması üçün faktiki imkanlar düzgün nəzərə alınmış olsa, yaşayış minimumunun həddi bir o qədər real olar. Yaşayış minimumunun pul ilə ifadəsi o halda şərti və mücərrəd xarakter daşıyır ki, bu minimumu müəyyən edərkən, kütləvi istehlakçının səbəti üçün zəruri olan ucuz və bol məhsullar nəzərdə tutulsun. Əslində isə kütləvi istehlakçı struktur defisiti ilə qarşılaşır və minimumun hesablanmasında nəzərdə tutulandan daha bahalı mal və xidmətlərdən istifadə etməyə məcbur olur.

Sosial müdafiə yalnız o halda real surətdə artır ki, aztəminatlı ailələrin öz “səbətlərinin” imkanlarına müvafiq malları və xidmətləri pul şəklində ifadə edilən yaşayış minimumu hesabına sərbəst almaq üçün iqtisadi zəmanəti olsun. Bu “səbətin” tərkibindəki dəyişikliklər və oraya daxil olan malları almaq üçün istehlakçının imkanları nəzərə alınmasa, yaşayış minimumunun pul şəklində təsbit edilməsi nəinki əhalinin sosial müdafiəsi vasitəsi olmur, əksinə, gəlirlərin və istehlakın azaldılması vasitəsinə çevrilir.

Unutmaq olmaz ki, yaşayış minimumu cəmiyyətin bütün üzvlərinə, yəni işləməyən əhaliyə də aid olduğu halda, minimum əmək haqqı - əməyə görə haqqın bir formasıdır. Son vaxtlar onun məbləği bir neçə dəfə artmışdır. Müxtəlif müavinətlərin, o cümlədən işsizliyə görə müavinətin səviyyəsi təyin edilərkən, xüsusən insan əmək birjasında ona təklif edilən iş yerlərindən birini seçməkdən imtina etmək üçün kifayət qədər əsas olmadığı halda bir neçə dəfə bu cür təkliflərdən imtina edirsə, müavinətin məbləği yaşayış minimumuna əsasən müəyyən edilə bilər. Lakin, əgər minimum əmək haqqının məbləği yaşayış minimumu səviyyəsində (yaxud bu minimumdan aşağı səviyyədə) müəyyən edilirsə, bu vəziyyət əməyi gəlir mənbəyi kimi hörmətdən salır, çünki bu halda işsizliyə görə müavinət və minimum əmək haqqı eyni istehlak standartını təmin etmiş olur. Belə halda əməyin iqtisadi stimullarından danışmaq mənasızdır. Eyni qayda ilə, bu halda cəmiyyətin bir qisminin lümpenləşməsi prosesini təsadüfi hadisə adlandırmaq da doğru deyil, əksinə, yaranmış vəziyyətdə bu proses, təəssüf ki, qanunauyğun nəticədir.

İndiki şəraitdə əhalinin sosial təminatı həyat səviyyəsinə dair sosial normativlər əsasında, ən əvvəl minimal istehlak büdcəsi (MİB) bazasında qurulmalıdır. MİB dedikdə - insanın əsas fizioloji və sosial-mədəni ehtiyaclarına müvafiq olaraq, onun ərzaq və qeyri-ərzaq mallarına, eləcə də müxtəlif xidmətlərə minimal tələbatının natura və dəyər formasında ifadəsi nəzərdə tutulur.

Etiraf etmək lazımdır ki, əhalinin sosial müdafiəsi sahəsində əvvəllər həyata keçirilmiş tədbirlər, o cümlədən müxtəlif kompensasiya və müavinətlərin verilməsi ciddi əsaslandırılmadan, necə deyərlər, "göydəndüşmə" rəqəmlər əsasında müəyyən edilirdi. Bununla bərabər, cəmiyyətimizin tarixi inandırıcı şəkildə göstərir ki, sosial sahənin inkişaf səviyyəsini və bu inkişafın əsas istiqamətlərini səciyyələndirən bir sıra parametrlər, o cümlədən əmək haqqının, pensiyaların, müavinətlərin və digər ödənişlərin məbləği inzibati metodlarla müəyyən edilmiş, iqtisadi qanunlar və qanunauyğunluqlar, eləcə də elmi araşdırmaların, o cümlədən iqtisadi tədqiqatların nəticəsi olan tövsiyələr həmişə nəzərə alınmamışdır.

Bu şəraitdə hər bir regionun spesifik xüsusiyyətləri nəzərə alınmaqla, gəlirlərin indeksasiyası böyük əhəmiyyət kəsb edir. Əhalinin gəlirləri indeksasiya edilmədən xalqın, xüsusən əhalinin aztəminatlı təbəqələrinin məruz qaldığı itkiləri minimuma endirmək mümkün deyil. Bununla əlaqədar, "aztəminatlı" anlayışının dəqiq hədlərinin müəyyən edilməsi böyük praktiki əhəmiyyətə malikdir. Bu həddi müəyyən etmək üçün sosial normativlər sistemindən, ilk növbədə minimal istehlak büdcəsindən və ona müvafiq yaşayış minimumundan istifadə edilməlidir.

Onu da nəzərə almaq lazımdır ki, bütün sosial müdafiə tədbirləri kimi, əhalinin gəlirlərinin indeksasiyası da, insanın ümdə tələbatını ödəmək və qüvvəsini bərpa etmək üçün zəruri olan ərzaq məhsullarının, qeyri-ərzaq mallarının və xidmətlərin minimal dəstindən ibarət olan minimal "istehlak səbəti"nin dəyəri də əsas götürülməlidir. MİB respublika əhalisinin həyat səviyyəsinin dəyişməsini qiymətləndirmək, əhalinin ərzaq, qeyri-ərzaq malları və xidmətlərlə təmin edilməsi səviyyəsinin bu sahədə qəbul edilmiş müvafiq norma və normativlərə tədricən yaxınlaşmasını qiymətləndirmək üçün də istifadə edilə bilər.

Burada dövlətin sosial siyasətinin təkmilləşdirilməsi, sosial müdafiə sistemində zəruri islahatların aparılması və müasir dövrün tələblərinə cavab verən çevik, işlək mexanizmlərin əsasında sosial təminat sisteminin yaradılması məsələləri əsas yer tutur.

Şübhəsiz ki, dünyanın inkişaf ermiş ölkələri sosial problemlərin həllində bir çox uğurlu nəticələr əldə ediblər. Lakin dünya təcrübəsi həddən artıq genişdir və çox vaxt ziddiyyətli olur. Əgər inkişaf etmiş ölkələrin sosial sahələr üçün ümumi olan bəzi prinsiplərindən bir qədər uzaqlaşsaq, onda forma və metodların xeyli müxtəlifliyi, onların çevikliyi və dəyişən milli şəraitə üyğunlaşma xüsusiyyəti müşahidə olunar.

Eyni zamanda, ayrı-ayrı ölkələrin təcrübəsini biz nə qədər yüksək qiymətləndirsək də, real həyat xeyli həll olunmamış problem, aradan qaldırılmamış bir çox ziddiyyətlər aşkar edir. Elə təəssürat yaranır ki, hətta inkişaf etmiş varlı ölkələr sosial ehtiyacların aşkar olunan uyğunsuzluğuna görə gələcəkdə cavab verməli olacaqdır. Sosial sahədə islahatların ilkin mərhələsində olarkən, biz bu prosesləri nəzərə almalı və daha əlverişli mexanizmlərin inkişafını təmin etməliyik.

Əhalinin sosial müdafiəyə ehtiyacı olan təbəqəsinə köməyin tədricən artırılması ilə bərabər, eyni zamanda sosial ələbaxımlığın aradan qaldırılması üçün tədbirlər görülməli, müavinətlər əmək fəaliyyətinə stimulun azalmasına şərait yaratmamalıdır.

Beləliklə, proqnozlaşdırmaq olar ki, təcrübənin əldə olunması gedişində sosial sahənin fəaliyyəti və onun idarə olunmasının bazardan kənar və bazar amillərinin optimal nisbətinə nail olmaq mümkündür.

İqtisadi inkişaf qanunları bütün insan mədəniyyəti üçün eynidir. Əgər iqtisadi strategiyanı nəzərdə tuturuqsa, onda yalnız müxtəlif dövlətlərə xas olan fərqlər onların hər birinin milli xüsusiyyətlərindən daha çox həmin dövlətlərin keçdikləri inkişaf mərhələləri ilə müəyyən olunur. Bəşəriyyətin inkişafının əsas istiqamətləri haqqında dürüst təsəvvürə malik olmaq, onun bu və ya digər hissəsinin inkişaf xüsusiyyətini nəzərə almaqdan daha vacibdir. Bazar münasibətlərinə keçid dövrünü yaşayan ölkələrdə bunların həyata keçirilməsi üçün bünövrənin yaranması isə, əhalinin sosial-iqtisadi vəziyyətinin düzgün qiymətləndirilməsi və vaxtında proqnozlaşdırılması ilə bağlıdır.

Əhalinin gəlirlərinin və xərclərin dəyişməsinin, onların formalaşması və bölgüsünün, cəmiyyətin müxtəlif təbəqələrinin maddi vəziyyətinin diferensiallaşdırılmasının, istehlak tələbinin təmin olunma dərəcəsinin ölçülməsinin təhlili bazar iqtisadiyyatı şəraitində vətəndaşların sosial müdafiəsi, həyat səviyyəsinin aşağı düşməsinin qarşısını almağa kömək edən tədbirlərin hazırlanması üçün əsasdır.

ÜDM-in formalaşması və proqnozlaşdırılmasının tərkib hissəsi (respublikanın dövlət büdcəsi) və əsas göstəricilərindən biri müavinətlərin ünvanlanmasının səmərəliliyinin artırılmasında əsas amil kimi nəzərə alınan istehlak səbətidir. Bu, ərzaq məhsullarının, paltarın, kommunal-məişət xidmətinin, təhsil, səhiyyə və sərf olunan enerjinin fizioloji bərpası üçün vacib olan digər göstəricilərdir. Hal-hazırda istehlak səbəti, eləcə də ailə büdcəsinin təhlili və qiyməti xüsusi əhəmiyyət kəsb etməyə başlayır.

Əhalinin sosial müdafiəsi problemlərinin tədqiqi, minimal istehlak büdcəsinə əsaslanmış yaşayış minimumunun təhlili, əhalinin sosial-demoqrafik qrupları üzrə pul gəlirlərinin miqdarının və insanın həyat fəaliyyətinin digər şərtlərinin tədqiqi çox vacibdir.

Qidalanma ilə bağlı xərclər əhalinin müxtəlif cins-yaş və peşə qrupları üzrə enerji məsrəflərinə müvafiq olaraq işlənib hazırlanmış minimal qida məhsulları dəsti əsasında müəyyən edilir. Bu zaman respublika əhalisinin qida məhsullarından faktiki istifadə etməsinin dinamikası və əhalinin qidalanmasının milli xüsusiyyətləri də nəzərə alınmalıdır.

Minimal qida məhsulları dəstinə qida rasionunun kalorilik dərəcəsini praktiki olaraq təmin edən, kimyəvi tərkib baxımından həm kəmiyyət, həm də keyfiyyətcə tam dəyərli sayılan bütün zəruri qida məhsulları nəzərdə tutulur.

2014-cü il üçün yaşayış minimumu ölkə üzrə 125 manat, o cümlədən əmək qabiliyyətli əhali üçün 136 manat, pensiyaçılar üçün 103 manat, uşaqlar üçün 103 manat müəyyən edilmişdir. Ehtiyac meyarı isə 100 manat məbləğində təsdiq edilmişdir.

Minimum istehlak səbətinə daxil olan ərzaq məhsullarının əmək qabiliyyətli əhali, pensiyaçılar və uşaqlar üçün tərkibi və norması cədvəl 1-də verilmişdir.

Cədvəl 1

**Ərzaq məhsullarının tərkibi və norması** (kq)

| Ərzaq məhsullarının adı | İstehlakın həcmi (orta hesabla adambaşına bir ildə) | | |
|---|---|---|---|
| | əmək qabiliyyətli əhali | pensiyaçılar | uşaqlar (0-14 yaş) |
| Çörək və çörək məhsulları (una çevirməklə) | 150 | 109 | 98 |
| Kartof | 46,7 | 36,5 | 40,2 |
| Tərəvəz və bostan məhsulları | 95,7 | 85,5 | 101,2 |
| Meyvə və giləmeyvə | 38 | 38 | 76 |
| Ət və ət məhsulları | 30 | 19,2 | 25 |
| Süd və süd məhsulları (südə çevirməklə) | 193,6 | 223,1 | 247,5 |
| Balıq və balıq məhsulları | 5 | 5 | 5 |
| Yumurta (ədəd) | 135,0 | 91,0 | 169,0 |
| Şəkər və qənnadı məmulatları (şəkərə çevirməklə) | 16,3 | 14,6 | 19,5 |
| Bitki yağı, marqarin və digər piylər | 11 | 7,9 | 8,3 |
| Mal-qara yağı | 8 | 5,5 | 6 |
| Digər məhsullar (çay, duz) | 3,6 | 2,8 | 3,3 |

Qeyri-ərzaq məhsullarına paltar, yataq ləvazimatı, ayaqqabı, sanitariya-gigiyena predmetləri, mebel, qab-qacaq və mədəni mallar aiddir.

Bu xərcləri müəyyən etmək üçün əhalinin hər bir cins-yaş qrupu üzrə paltar, yataq ləvazimatı və ayaqqabı predmetlərinin zəruri dəsti tərtib edilir. Bundan ötrü həmin predmetlərin köhnəlmə müddətləri nəzərə alınmaqla, onlara tələbatın zəruri həcmi müəyyən olunur. Respublikanın təbii iqlim şəraiti, əhalinin tarixən formalaşmış ənənələri və həyat tərzi, bu məhsullardan istifadə edilməsinin milli xüsusiyyətləri, eləcə də aztəminatlı ailələrdə qeyri-ərzaq malları ilə bağlı xərclər barədə büdcə statistikası məlumatları da nəzərə alınır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 aprel 2009-cu il tarixli qərarına uyğun olaraq minimum istehlak səbətinə daxil olan qeyri-ərzaq məhsullarının tərkibi cədvəl 2-də verilmişdir.

Cədvəl 2

**Qeyri-ərzaq mallarının tərkibi və norması**

| Qeyri-ərzaq mallarının adı | İstehlakın həcmi (orta hesabla adambaşına bir ildə) | | |
|---|---|---|---|
| | əmək qabiliyyətli əhali | pensiyaçılar | uşaqlar (0-14 yaş) |
| Palto tipli üst geyimlər qrupu, ədəd/il | 3/8 | 3/9 | 3/2,6 |
| Kostyum tipli üst geyimlər, ədəd/il | 9/4,2 | 8/4,8 | 12/2 |
| Alt geyimləri, ədəd/il | 9/2,5 | 9/2,7 | 12/2 |
| Corab məmulatları, cüt/il | 7/1,5 | 4,5/2 | 6/1,3 |
| Baş geyimləri və xırdavat məmulatları, ədəd/il | 4/5 | 3/6,4 | 4/3 |
| Ayaqqabı, cüt/il | 6/3,5 | 5/3,5 | 7/1,8 |
| Məktəb-yazı ləvazimatı, ədəd/il | 3/1 | 3/1 | 41/1 |
| Yataq ləvazimatı, ədəd/il | 11/7,1 | 11/7,1 | 11/7,1 |
| Mədəni-məişət və təsərrüfat malları, ədəd/il | 14,2/10,2 | 14,2/10,2 | 14,2/10,2 |
| İlkin tələbat və sanitariya əşyaları, dərmanlar, bir ayda qeyri-ərzaq mallarına sərf olunan xərclərə görə faiz | 10 | 10 | 10 |

Xidmətlərin haqqının ödənilməsi ilə bağlı xərclər (nəqliyyat və rabitə xərcləri, eləcə də istirahət ilə bağlı xərclər) də MİB-in strukturunda mühüm yer tutur. Bu xərclər əhalinin müxtəlif cins-yaş qrupları üzrə mənzil-məişət təsərrüfatının və mədəniyyət obyektlərinin xidmətlərinə, rabitə, nəqliyyat və istirahət obyektlərinin xidmətlərinə, məktəbəqədər uşaq müəssisələrinin xidmətlərinə minimal zəruri tələbat əsasında müəyyən edilmişdir. Müxtəlif xidmət növlərinə əhalinin tələbatını öyrənmək üçün aparılmış sosioloji tədqiqatların nəticələri və respublika üçün səciyyəvi olan milli ənənələrin xüsusiyyətləri nəzərə alınır.

Əmək qabiliyyətli yaşda olan şəxslər üçün vergilər və üzvlük haqları ilə bağlı xərclərin strukturuna gəlir vergisi, müxtəlif ödəmələr, eləcə də ictimai və könüllü təşkilatlara üzvlük haqları və sair xərclər nəzərdə tutulur. Bu xərclərin məbləği orta aylıq əmək haqqı əsasında müəyyən edilir.

Yaşayış minimumunun işlənib hazırlanması əmək haqqı, pensiyalar, müavinətlər, təqaüdlər və sosial təminatın digər növləri sahəsində dövlət təminatının minimal miqdarları müəyyən olunarkən, onu bütün sosial sistemin əsas həddi kimi istifadə etməyə imkan verir.

**İstifadə olunmuş ədəbiyyat**

1. Azərbaycan Respublikasının Konstitusiyası. Azərbaycan Respublikasının Qanunlar Külliyyatı. Bakı, 2001
2. Azərbaycan Respublikasının Əmək Məcəlləsi. Bakı, 1999
3. “Minimum əmək haqqı haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, 2004
4. Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramı (2008-2015-ci illər). Bakı, 2008
5. Azərbaycanın statistik göstəriciləri. Azərbaycan DSK, Bakı, 2012

**Рамиз Искендеров**

**ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ ГОСУДАРСТВЕННОЙ ПОЛИТИКИ ПО РЕШЕНИЮ СОЦИАЛЬНЫХ ПРОБЛЕМ**

**Резюме**

В статье проведено исследование социальных вопросов, связанных с социальной защитой населения. Здесь осуществлен анализ показателей прожиточного минимума на основе минимального потребительского бюджета. Так же большое внимание уделяется изучению денежных доходов по отдельным социально-демографическим группам населения, состава и норм потребления продовольственных и непродовольственных товаров и услуг, других условий жизнедеятельности человека. В статье нашли отражение основные пути реализации претворяемой в жизнь государством социальной политики.

**Ramiz İsgenderov**

**BASİC ORİENTATİON OF STATE POLİCY OF SOLUTİON OF THE SOCİAL PROBLEMS**

**Summary**

In the article in our country definite investigations have been carried out connected with social problem. Investigation of the problems of social defence of the population have been given here. Analysis of the minimum of living which based on the budget of minimal consumption accepted in the country has been carried out. Of the quantity of the money profits on social groups of the population, food-stuffs and composition of the harvests, services and investigation of the other conditions of the life activities of the norm, man takes basic place other. Ways of the becoming real of social politics implemented by state have been reflected.

**UOT: 316.34;**
**UOT: 331.105.44; 331.109.3; 349.2**

**Mətləb Mahmudov**
**AMEA Fəlsəfə və Hüquq İnstitutu, fəl.ü.f.d.**
**Mehriban Zeynalova**
**Əmək və Sosial Problemlər üzrə ETTM, fəl.ü.f.d.**

# QADINLARA QARŞI ZORAKILIQLA MÜBARİZƏDƏ QABAQLAYICI PREVENTİV TƏDBİRLƏR

**Açar sözlər:** zorakılıq, qadınların hüququ, sosial problemlər, sosial siyasət
**Ключевые слова:** насилие, права женщин, социальные проблемы, социальная политика
**Keywords:** violence, women's rights, social issues, social policy.

BMT-nin «Qadınlara qarşı zorakılığın aradan qaldırılması haqqında» Deklarasiyasında göstərildiyi kimi, ailədə və cəmiyyətdə qadınlara qarşı zorakılıq halları onların vəziyyətini çətinləşdirir [1, səh. 135]. Yəni qadınlara qarşı zorakılıq problemi günün reallığıdır və bu da bir sıra obyektiv və subyektiv səbəblər ucbatından baş verir. Bu problem illər boyu toxunulmaz bir vəziyyətdə qalmış və zorakılıq hərəkətlərinin genişlənməsinə şərait yaratmışdır. Obyektiv səbəblər sırasında qədim dövrlərdən bəri kişi və qadın arasında mövcud olan münasibətlərin qeyri-bərabər səviyyəsini və bundan irəli gələn qadınlarla davranışda qeyri-insani münasibətlərin formalaşmasını göstərmək olar. Bu kimi münasibətlər elə bir həddə çatmışdır ki, bu hətta bir sıra xalqların mədəniyyətlərində və bəzi ölkələrin qanunvericilik sənədlərində öz yerini tapmışdı. Uzaq tarixi keçmişimizdə qadınlara qarşı zorakılıq əməllərinə qarşı çıxmaq, qadınları müdafiə etmək tabusu tədqiqatçılar, xüsusilə qadın tədqiqatçılar tərəfindən bu mövzuya müracət edilməsinə imkan vermirdi. Gənc qızları uşaq yaşlarından onların nə vaxtsa zorakılığın qurbanı olmalarına hazırlayırdılar və bu zaman zorakılığın yumşaq, az zədə ilə ötməsi üsullarını onlara başa salırdılar. Bu kimi “tərbiyəvi” münasibət qızların təhlükə hissinin daim mövcud olmasına hazırlıqlı olmalarına hədəflənmişdi. Təbii ki, məsələyə bu kontekstdə yanaşmaq problemin həllinə xidmət etmirdi. Tam mənada zorakılığa sosial problem kimi tədqiqat obyekti olaraq baxılmırdı.

Zorakılıq ədalət naminə etirazların yatırılması, susdurulması və dəf edilməsi üçün güclü alətdir. Qadınlara qarşı zorakılıq, adətən, fərdlər arasında mövcud olan şəxsi münasibət formalarını alır və bu səviyyədə də inkişaf etməkdə davam edir. Tədqiqat zamanı əldə edilən materiallar əsasında qadınların adətən öz doğma ata və ya atalıqları, qardaşları, ərləri və digər kişilər tərəfindən həyata keçirilən fiziki döymənin və mənəvi təhqirin qurbanlarına çevrilmələri məlumdur. Evdə və küçədə qadınlar onların şəxsiyyətinə qarşı olan təcavüzün, müxtəlif xarakterli zorlama hallarının qurbanı olurlar. Qadınların əksəriyyəti fiziki və emosional zorakılığın qurbanı olacaqlarını düşünərək, şəxsi davranışlarını qorxu hissləri üzərində kökləyirlər. Belə olduqda, aydındır ki, insanın özünüifadə və təşəbbüskarlıq qabiliyyəti sönür, fəaliyyəti dar, məhdud bir çevrə daxilində qurulur. Hətta get-gedə bu qadınlarda aşınma əlamətləri baş verir. Onların psixikaslarında, dünyagörüşlərində, davranışlarında atavizmə meyillilik, bəsitlik ünsürləri formalaşır.

Aparılan tədqiqatlar, çoxsaylı sorğular göstərir ki, qadınlar, adətən, zorakılıq barəsində danışmırlar, bu qəbildən olan faktları nəinki özlərinin ətrafından, yaxınlarından, rəfiqələrindən belə gizlədirlər. Zorakılıq əməlni törədən şəxs zərərçəkənə yaxın adam olduqda, bu cür yanaşma daha qabarıq şəkildə özünü biruzə verir. Qadınların bu cür sükutu patriarxal mədəniyyətlər tərəfindən bu mədəniyyət subyektlərinin öz təhlükəsizliklərini təmin edən bir amili kimi qadınlar üçün yaradılan çıxılmaz bir dairədir. Qadın şəxsiyyəti zorakılığın nəzarəti və əsirliyində olduğu halda, onun sükutu daxili etirazın yaradılması üçün alət və vasitədir.

Son zamanlar bir sıra ölkələrdə ailədə uzun müddət davam edən zorakılıq halları, həmçinin məktəbdə və işdə seksual xarakterli təhriklər və hədələr cinayət tərkibli bir əməl kimi ifşa edilsə də,

bu məsələyə bizim əhali tərəfindən hələ də tam ciddiliklə yanaşılmır. Zorakılığa, sanki, real həyatda mövcud olan hadisə və proseslərin təbii təzahürü kimi baxılır. Qadınlara qarşı zorakılıq əməllərinin bir çox incəlikləri humanitar elmlərin: iqtisadçıların, filosofların, sosioloqların, hüquqşünasların diqqətindən kənarda qaldığı üçün onu aşkar edib zəruri profilaktiki tədbirlərin görülməsini çətinləşdirir. Onu da nəzərə almaq lazımdır ki, qadınlara qarşı zorakılıq münasibətləri əsasən insanların qapalı və şəxsi həyatlarını əhatə edir və dövlət bu münasibətlərə həmişə müdaxilə edə bilmir.

Qadınların hüquq və azadlıqları haqqında həm BMT-nin müvafiq sənədlərində, həm də insan hüquqlarının müdafiəsi ilə məşğul olan təşkilatların rəsmi materiallarında zorakılıq əməllərinin bir neçə növünü nəzərə almaqla onların müxtəlif ünsürlərini təsnifatlandırmaq lazımdır. Bunları emosional, fiziki, iqtisadi, seksual, psixoloji, övladın əlindən alınması hədəsi, qorxutma, şantaj, ətraf mühitdən təcrid etmə kimi növlərə bölmək olar.

Təhqir etmək, söymək, danlamaq, etinasız münasibət, əsassız qısqanclıq, uşaqların istəyinin nəzərə alınmaması kimi hərəkətlər ailədə qadınları psixoloji təzyiqlər altında saxlayır. Fiziki zorakılıq deyəndə əsasən qadınların fiziki xətərlər yetirilməklə döyülmələri, işgəncələrə məruz qalmaları nəzərdə tutulur. Əmək fəaliyyətinə icazənin verilməməsi, xərclilərin verilməməsi, olan-qalanının əri tərəfindən əlindən alınması və ya ərin öz qazancını gizli saxlaması, digər qadınla xəyanət etməsi və s. kimi faktlar zorakılıq əməllərinin tərkibində iqtisadi amillərin olmasını gözə çarpdırır. Qadını məcburi formada fiziki yaxınlıq münasibətlərinə təhrik etmək, uşaqlara qarşı analoji münasibətlər bəsləmək zorakılıq növünə aiddir. Ərin ailədən getməsi, arvadını və yaxud uşaqlarını döyməsi, onları ölümlə hədələməsi, ailə üzvlərini suisidə təhrik etməsi, qeyri-qanuni əməllərə əl atmağa vadar etməsi kimi əməllər zorakılğın hədələmə növünə aiddir. Digər zorakılıq növlərinin də səciyyəvi cəhətlərini göstərmək olar. Lakin yuxarıda sadalanan zorakılıq növlərinin qadınların psixoloji durumlarında bir sıra dəyişikliklərə səbəb olmasını, xüsusilə vurğulamaq lazımdır. Ailədə və cəmiyyətdə qadınlara qarşı baş verən zorakılıq əməllərini geniş təhlil etdikdə, bu əməllərin səbəblərini (müxtəlif aspektlərdə) müəyyənləşdirmək olar. Tarixi-irsi xüsusiyyətlər, adət-ənənələr, ailə və məktəb tərbiyəsi üsulları, müasir sosial həyatın şərtləri, yəni mikrososial və makrososial səviyyələrdə özünü göstərən genetik və sosiomədəni strukturun ilkin şərtləri, qızların öz valideyn və həmyaşıdları ilə ünsiyyət xüsusiyyətləri, qadınlara qarşı zorakılıqla mübarizənin (hüquqi, iqtisadi, psixoloji, tibbi və digər vasitələrlə) keyfiyyəti, profilaktik işin dövlət təminatı sisteminin kamilliyi və bir çox obyektiv və subyektiv səciyyəli göstəricilər qadınlara qarşı zorakılığın səbəblərini xarakterizə edən və zorakılığı doğuran səbəblər kompleksinin yaranıb formalaşmasında heç də az rol oynamayan amillərdir.

Qadınlara qarşı zorakılığın nəticələrini ictimai həyatın bütün sahələrində müşahidə və aşkar etmək olar. Lakin bu o demək deyil ki, bir səviyyədə aşkar edilən zorakılıq əməli digər səviyyələrdə təzahür edə bilməz. Əslində bu, cəmiyyətin qadınlara münasibətdə baş vermiş istənilən zorakılıq əməllərinin eyni zamanda cəmiyyət miqyasında (makro səviyyədə) və həmçinin ailə, şəxsiyyət (mikro səviyyədə) səviyyələrində təzahür edən mürəkkəb bir sistem olduğunu şərtləndirir. Statusun itirilməsi, psixoloji diskomfort, təcavüz qorxusu və s. zorakılığın səciyyəvi nəticələridir. Bu səciyyəvi cəhətlər həmin problemin emosional, mənəvi, hüquqi səviyyələrdə dərkini, qiymətləndirilməsini, dərin təhlilini şərtləndirir. Məhz bu səciyyəvi nəticələr əsasında zorakılığa dair müəyyən davranış tipləri formalaşır. Davranışın konkret tipi iki mövqedən birini əks etdirir: qadın ya həyatda özünün vacibliyini dərk edir və fəal həyat tərzi sürür, ya da zorakılıq hərəkətlərini qəbul edir və bununla da mövcud şəraitə tabe olur.

Sosial-psixoloji cəhətdən müxtəlif davranış normaları qadının malik olduğu psixo-fizioloji xüsusiyyətlərindən asılıdır. Qadınlara qarşı zorakılıq probleminə bu problemin xüsusiyyətləri kontekstində baxılsa, zorakılıq qurbanına çevrilən qadınların xasiyyətlərində bu problemin dərk edilməsi yardımçı element funksiyasını yerinə yetirə bilər. «Qadın-qurbanlar» olması faktı zorakılıq hərəkətlərinin müxtəlif növlərini icra edən şəxsləri də ehtiva edir. «Qadın-təcavüzkarlar» isə özlərindən nisbətən zəif olanlar üzərində üstünlüklərini nümayiş etdirən qadınlardır. Zorakılığa məruz qalanların müdafiəsinə qalxan və cəmiyyətlə, dövlətlə fərdlər arasında vəkillik funksiyasını yerinə yetirənlər isə «qadın-müdafiəçilər» tipinə aiddirlər. Qadın tipləri sırasında «gözə görünməyən qadınlar» tipi isə daha çox kölgədə qalmağa üstünlük verən, bununla da cəmiyyətin diqqətini özünə cəlb etmə-

yən, hadisə və münasibətlər mərkəzində durmaq istəməyən qadınlardır. Təbii ki, həmin qadın tipləri bu və ya digər zorakılıq anında müvafiq şəraitdən asılı olaraq özünü müxtəlif cür göstərə bilər. Qadının zorakılığa olan reaksiyası və cavab davranışı stress, inciklik, qorxu, vahimə, biganəlik, düşgünlük, qisasçılıq, şəxsi ləyaqətin itirilməsi hissi, etirazçılıq, kobudluq, loyallıq, biganəlik və s. kimi situasiyalarda təzahür edir.

Məişət zorakılığı ilə bağlı ictimai rəylə əlaqədar aparılan sorğularda müqayisəli təhlildən istifadə edilərək vətəndaşların zorakılıq qurbanlarına münasibətinin bəzi xüsusiyyətləri müəyyənləşdirilmişdir. Azərbaycanın 6 bölgəsində, 800 nəfər arasında keçirilən sorğuda zorakılıq qurbanlarına olan münasibətdə Bakı şəhərindəki respondentlərdən qadınların 18,2%-i yaxşı, 47,8%-i pis, 37,2%-i biganə, kişilərin 19,9%-i yaxşı, 43,4%-i pis, 36,6%-i biganə münasibət bəslədiklərini bildirmişlər. Bu məsələyə Gəncə şəhərində qadınların 39,0%-i pis, 25,6%-i yaxşı, 23,2%-i biganə, kişilərin isə 35,8%-i pis, 30,2%-i yaxşı, 34,0%-i biganə, Lənkəran şəhərində qadınların 45,0%-i pis, 44,3%-i yaxşı, 10,5%-i biganə, kişilərin 87,6%-i yaxşı, 6,6%-i pis, 6,7%-i isə biganə münasibət bəslədiklərini bildiriblər. Bu münasibətlərdə yaxşı hal dedikdə, tam həssas münasibətdən dözümlülüyə qədər münasibət tipləri, pis dedikdə isə açıq-aşkar aqressivlikdən qapalı nifrətə qədər münasibəti özündə ehtiva edən tiplər nəzərdə tutulur.

Ümumilikdə isə aşağıdakı mənzərə alınır (cədvəl 1 və 2):

Cədvəl1

**Zorakılıq qurbanlarına münasibət**

| Münasibət | Qadınlar (%-lə) | Kişilər (%-lə) |
|---|---|---|
| Yaxşı | 39,0 | 47,3 |
| Pis | 33,9 | 31,4 |
| Biganə | 27,1 | 21,2 |

Cədvəl 2

**Qurbanların bağışlanmasına münasibət**

| Cavablar | Qadınlar (%-lə) | Kişilər (%-lə) |
|---|---|---|
| Hə | 31,7 | 32,0 |
| Yox | 20,3 | 18,9 |
| Qismən | 28,5 | 34,7 |
| Bilmirəm | 19,8 | 14,4 |

Cədvəllərdən göründüyü kimi, qurbanlara dözümsüz münasibət kişilərdən fərqli olaraq qadınlarda daha kəskin formadadır. Bu isə keçid dövrünün nəticəsi olaraq Azərbaycan cəmiyyətinin mentalitetində baş verən dəyişikliyə məruz qalması göstəricisidir. Qadınların öz həmçinslərinə qarşı olan kəskin etiraz reaksiyası buna bariz nümunədir. Bu, həm də kişilərə nisbətdə qadınlarda aqressiv hisslərin kişilərə nisbətən üstün olması faktını sübut edir. Bu isə artıq müəyyən zaman və məkan müstəvisində təcavüzkar qadın tipinin mövcudluğundan xəbər verir.

Cəmiyyətdə qadınlara qarşı zorakılığın yaranma prosesini aydınlaşdıran digər məsələlərə gəldikdə isə, bir sıra Şərq ölkələrində (buraya Azərbaycanı da aid edə bilərik) uşaqlıq dövrlərindən qızların ana olmağa hazırlanmalarını vurğulamaq olar. Bir qayda olaraq, qız uşaqları, hələ ərə getməyənləri və ya ərləri olmayanları bir şəxsiyyət, mütəxəssis, ictimai cəhətdən fəal insan kimi qiymətləndirilmirdilər. Adətən, belələrinə yaxın qohumlarının, qonşularının, rəfiqələrinin rəhmi gəlir və onlar həmişə həmin qadını bu və ya digər kişi ilə tanış etməyə çalışırlar. Ətrafdakıların bu kontekst-

də qadına olan «qayğıları» bir növ onun üzərində nəzarətin güclənməsinə, barəsində müxtəlif ictimai qınaqların formalaşmasına və insanın şəxsi həyatı ilə bağlı müəyyən mülahizələrin meydana çıxmasına səbəb olur. Həmin qadının maddi problemləri, professional iddiaları və uğurları, onun ictimai fəaliyyəti ilə heç kəs maraqlanmır. Nəticədə qadının şəxsi həyatı ümumi marağın və nəzarətin obyektinə çevrilir və tam formada qadının cəmiyyət tərəfindən mənəvi və psixoloji zorakılığa məruz qalması haqqında fikir söyləyə bilərik. Bu kimi hallar icmalarda gender davranışının sosial tənzimlənməsinin ənənəvi üsullarla həyata keçirilməsi kimi də qiymətləndirilə bilər.

İki yüz il bundan əvvəl dünyada qəbul olunmuş qaydalar böyük burjua inqilablarının təsiri altında dəyişikliyə məruz qaldı. Belə ki, həmin zamanlarda baş vermiş inqilabların ideoloqları yeni eranın - insan hüquqları dövrünün gəlməsini bəyan etmişdilər. Bununla da əsrlərlə bərqərar olmuş teokratik qaydaların, yəni dinin təsiri altında milli monarxlara tabe olanlar üzərində, kişinin isə qadın üzərindəki hökmranlığından imtina edilmiş, əvəzində isə inqilab əhval-ruhiyyəsi altında bütün insanların bərabər olmaları və bütövlükdə insanların azadlıq hüquqlarının təmin olunması ideyası irəli sürülmüşdür.

İnsanlarn sosial-iqtisadi maraqları praktiki olaraq hakimiyyətlərə münasibətlərin dəyişməsini zəruri edən prosesləri ehtiva edir. Bu isə onu göstərir ki, artıq hər hansı bir monarx, rəis və ya özünü sahib kimi təqdim edən ər ənənəvi formada onlara tabe olanların sahibi ola bilməzdi. Vaxtilə insanlar üzərində hökmranlıq edən şəxs artıq əmək bölgüsü sistemində ümumən insanların yox, məhz konkret prosesin idarə olunmasına xidmət edir və müəyyən funksional parametrlər çərçivəsində həyata keçirilir. Onun tabeliyində olanlarla qarşılıqlı əlaqələri və hərəkətləri isə müxtəlif, lakin bərabər olan subyektlər arasında rolları, öhdəlikləri razılaşdırılmış formada bölgüsü müstəvisində həyata keçirilir.

Müasir insan hüquqları konsepsiyası kontekstində bu hüquqların inkişafı təkamülünə nəzər saldıqda həmin konsepsiyanın üç əsas blokunu müəyyən edə bilərik: birinci nəsil insan hüquqları – ideyaların yaranması; ikinci nəsil insan hüquqları – bu ideyaların həyata keçirilməsi üçün institusional dəyişikliklərin təmin olunması; üçüncü nəsil insan hüquqları – bu ideyaların həyata keçirilməsi.

Birinci nəsil insan hüquqlarına fikir, vicdan, dini etiqad azadlığı, yaşamaq, şəxsiyyətin sərbəstliyi və təhlükəsizliyi, ədalətli və bərabər münasibətlər, insan ləyaqətinə hörmət bəslənməsi ilə bağlı hüquqlar aid edilir. Belə ki, maarifçilik dövründə təşəkkül tapmış birinci nəsil insan hüquqları, ənənəvi olaraq, insanın ayrılmaz, təbii hüquqları adlandırılır və bu, o hüquqlardır ki, insanın şəxsi həyatına, mənəvi və maddi fəaliyyətinə dövlət hakimiyyətinin müdaxiləsinə yol vermir. Bu bloka aid edilən hüquqlar burjua inqilabları dövrü fərdiyyətin, şəxsiyyətin muxtariyyətinin, bazar münasibətlərinin təsdiqi zamanı formalaşmışdır.

İkinci nəsil insan hüquqlarına əmək, iş yerini sərbəst seçmək, sosial təminat, təhsil və sağlamlığın müdafiəsi hüquqları aid edilir və onları insanın əsas hüquqları adlandırırlar. Bu hüquqların reallaşması dövlətin müəyyən müdaxiləsini, yəni müvafiq sistemin yaradılmasını nəzərdə tutur. Dövlətin müdaxiləsi yalnız «dövlət-cəmiyyət-vətəndaş» sistemi çərçivəsində normativ fəaliyyətlərdə və xüsusi sosial proqramların hazırlanmasında, fərdin müdafiəsi üçün zəmanətlər sisteminin mexanizminin yaradılmasında özünü ifadə edir. İkinci nəsil insan hüquqları fərdi azadlığın qeyri-məhdudluğunun çərçivəyə salınması, insanlar tərəfindən başqalarının hüquq və maraqlarının sıxışdırılmasının neqativ nəticələrinin aradan qaldırılması, kapitalizimin «vəhşi qanunları»nın cilovlanması məqsədilə formalaşdırılır. Bu vəzifələrin həlli cəmiyyətdə müxtəlif sosial qrupların maraqlarının razılaşdırılmasını, səmərəli kompromisin, güc balansının tarazlanmasını nəzərdə tutur. Həmin məqsədlər üçün konstitusiya, qanunvericilik, məhkəmə, inzibati idarəetmə orqanları və digər təsir mexanizmlərindən istifadə olunur.

Üçüncü nəsil insan hüquqlarına sülh şəraitində yaşamaq, özünün suverenlik müqəddəratını təyin etmək, sağlam ətraf mühitdə yaşamaq, cins, yaş, milli, irqi əlamətlərə görə diskriminasiya və təqiblərdən azad olmaq kimi ümumi hüquqlar aid edilir. Bu hüquqlar yalnız ayrı-ayrı fərdlərə yox, bütövlükdə hüquqlarının müdafiəsində əlavə zəmanətlərə ehtiyacı olan müəyyən qruplara da şamil edilir. Burada üçüncü nəsil insan hüquqlarına qadın hüquqlarının aid olmasını, xüsusilə, vurğulamaq lazımdır.

Qərbdə qadın hüquqları ilə bağlı fikirlərin tam şəkildə təkamülünün bir neçə mərhələdə baş verməsini qeyd etmək olar. Qadın hüquqları və onlara münasibətdə feminist baxışların inkişafına mütənasib olaraq onun zənginləşməsi, yüksəlişi və genişlənməsini xatırlatmaq yerinə düşərdi.

İlk dəfə qadınlar tam hüquqlu vətəndaşlıqla bağlı iddialarını burjua inqilablarında irəli sürdülər. Sonrakı dövrlərdə, təxminən XIX əsrin 30-cu illərindən başlayaraq, Qərbi Avropada baş verən sənaye inqilabları zəminində qadınlar kütləvi qaydada ictimai istehsalata cəlb olundular. Bu zaman onlar sosial-iqtisadi münasibətlər sahəsində bərabər hüquqların əldə olunması uğrunda mübarizə aparırdılar. İri sənayenin inkişafı, şəhərlərin artması, kiçik təsərrüfatların dağılması və bununla yanaşı bir qədər əvvəlki ailə həyatı tərzinin dəyişməsi, kişi ilə qadın arasında münasibətlərdə iqtisadi maraqlar amplitudasının gərginləşməsinin təzahür etməsilə müşayiət olunan proseslər Qərbi Avropanın inkişaf etmiş ölkələrində «yeni qayda» əsasında modernləşmiş münasibətlərin köklənməsinə səbəb oldu. Bu səbəblər ənənəvi ailə münasibətlərinin formalaşmasına, qadınların ictimai istehsalata kütləvi cəlb olunmasına və doğum üzərində nəzarətin gücləndirilməsinə təsir göstərirdi.

Sənaye inqilabları zamanı qadınların ayrı-ayrı hadisələrdə təzahür edən reproduktiv funksiyalarına dair yanaşmalarla, nikah və məhəbbətlə, uşaqların doğulması və ailə həyatı ilə bağlı baxışların bir qədər sonra baş verən mədəni inqilablar dövründə dəyişməsi qabarıq şəkildə gözə çarpdı və bu da ailədə qadınlara qarşı təzahür edən zorakılığın müxtəlif təzahür formalarına yenidən baxılmasına və sosial bəla kimi özünü göstərən problemin həllini tapmasına şərait yaratdı. Lakin qadınların istehsalata cəlb olunması ilk vaxtlarda onların ağır şəraitdə işləmələrinə səbəb oldu. Ucuz hesab olunan qadın əməyi yeni iri sənaye sahələrində daha geniş istifadə olunur, nəticədə qadın əməyinin istehsalata cəlb olunması sosial həyatın reallığı kimi kütləviləşirdi. Bu, bir tərəfdən kişi ilə qadın rollarının ənənəvi iyerarxiyasının dəyişməsinə və kişi ilə qadın arasında əmək bölgüsünün qarşılıqlı tamamlanmasının deyil, əksinə, bunların məhz qarşılıqlı əvəzetmə prinsipi əsasında formalaşmasına imkan verdi. Digər tərəfdən isə, qadınların tam gücü ilə kişilərlə bərabər əməyə cəlb olunması onların həddindən artıq yüklənməsinə və istismarına səbəb olurdu. Bu isə vaxtilə ailədə və yerli icma səviyyəsində zorakılığa məruz qalan qadınların artıq iş yerində də zorakılıq qurbanlarına çevrilmələri demək idi. Çünki bir tərəfdən, kişilərdən fərqli olaraq qadın üzərində ev öhdəlikləri, analıq qayğısı və əziyyətləri, digər tərəfdən kişilərin qadınlarla münasibətində hələ də özlərini ənənəvi olaraq güclü və bu səbəbdən də üstün saymaları halları mövcud idi. Bu az imiş kimi, ilk vaxtlarda qadının öz əməyi ilə qazandığı məvacib də ər tərəfindən mənimsənilirdi. Belə hal ailədə mənəvi və psixoloji zorakılığın təzahürü kimi də qiymətləndirilə bilər. Qadınları muzdlu işçilərin hüquqlarını müdafiə edən ictimai təşkilatlara və həmkarlar ittifaqlarına götürmürdürlər. Nəticədə qadın hüquq və maraqlarının qorunması və müdafiəsi ilə məşğul olan, o cümlədən onlara qarşı ailədə və cəmiyyətdə mövcud olan zorakılığa qarşı mübarizə aparan qadın təşkilatlarının yaradılmasına, qadınların birgə kollektiv çıxışlarına yeni ehtiyaclar yarandı.

Artıq institutsional səviyyədə formalaşan qadın hərəkatı qadın hüquqlarının, əsasən onların sosial-iqtisadi maraqlarının şəxsi mənəvi-hüquqi elementlərdən ibarət olduğunu nəzəri cəhətdən təsdiqlədi, onları ailə çərçivəsindən kənara, yeni bir səviyyəyə çıxardı və həmin hüquqların cəmiyyətdə fəal müdafiəsinə qaldırdı. Qadın hüquqlarının müdafiəsi, o cümlədən qadınlara qarşı zorakılığın aradan qaldırılması artıq ayrı-ayrı sosial qrupların maraq dairəsinə daxil olan məsələ kimi yox, məhz dövlətin mühüm fəaliyyət sahələrindən biri kimi ifadə olunurdu. Hətta qadın hüquqları uğrunda mübarizə aparan hərəkatlar vaxtilə ailə çərçivəsində həll olunan məsələləri dövlət qarşısında yeni öhdəlik kimi qaldırmağa müyəssər oldular. Bu müstəvidə xüsusi qayğıya ehtiyacı olanların: uşaqların, xəstə və əlillərin, ahılların qayğısı məhz dövlət tərəfindən həyata keçirilməliydi. Sosial dövlət anlayışı, yəni ümumi rifaha can atan, cəmiyyətdə zəif və aztəminatlılara, əlil və təqaüd alan şəxslərə qayğı ilə yanaşan, bunun üçün zəruri şərait yaradan dövlət məhz həmin hadisələrdən sonra gündəmə gətirilmişdir.

Qadın hüquqları uğrunda mübarizə zamanı bir neçə mübarizə istiqamətləri qaldırılan problemin mahiyyətindən asılı olaraq geniş vüsət alır. Qadınların seçki hüquqları uğrunda mübarizə aparan sufrajistlər, qadınların əmək hüquqlarının tanınması və ədalətli əmək haqqının müəyyən olunması, həmkarlar və digər ictimai təşkilatlarda fəaliyyətlərinin genişləndirliməsi uğrunda mübarizə

aparan, doğum üzərində nəzarət və şüurlu analıq ideyasını təbliğ edən radikal feminist qrupları fəallıqlarını artırdılar.

Demək olar ki, iki yüz il ərzində qadınlar şərti olaraq üç qrupa aid olunan hüquqların üçünü də əldə etdilər: siyasi (vətəndaş), sosial-iqtisadi və reproduktiv hüquqlar. Eyni zamanda, qeyd etmək lazımdır ki, bu hüquqlar kişinin əsas səciyyəvi parametrlərinə uyğun olan sosial statuslarının əldə olunmasına şərait yaratdı. Lakin bütün bunlara baxmayaraq, müasir şəraitdə qadınlara qarşı zorakılığın baş verməsinə, qadın hüquqlarının tapdanmasına səbəb olan, onlara münasibətdə hələ də ayrı-seçkilik, hüquqi qeyri-bərabərlik mövcuddur.

Nəyə görə qadın hüquqları ayrıca olaraq göstərilir və bu hüququn əsas mahiyyəti nədir kimi suallarına gəldikdə isə qadın hüquqları insan potensialının inkişaf konsepsiyasının dörd əsas elementini özündə ehtiva edir: səmərəlilik, bərabərhüquqluluq, dayanıqlıq və imkanların genişliyi. Bu mənada gender amili nəzərə alınmadan bəşəriyyətin həqiqi inkişafı barəsində danışmaq mümkün deyil. Ən azı ona görə ki, qadınlar praktiki olaraq bütün ölkələrdə əhalinin yarısını, bəzilərində isə böyük hissəsini təşkil edir. Artıq qeyd olunduğu kimi, qadınlar qanunlarda, xüsusən də beynəlxalq sənədlərdə və milli qanunvericilikdə təsbit olunmuş müddəaların əksinə olaraq kişilərlə müqayisədə iqtisadi və siyasi cəhətdən müəyyən imkanlardan məhrumdurlar.

Mahiyyətinə gəldikdə isə bildirmək istərdik ki, BMT-nin «Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması haqqında» Konvensiyasının müqəddimə hissəsində «qadın hüquqlarının geniş şəkildə pozulmasının hələ də mövcud olduğu» açıq şəkildə qeyd edilir və bir daha vurğulanır ki, «hüquqların bu cür tapdanması hüquq bərabərliyi və insan ləyaqətinə hörmət prinsiplərinin pozulması deməkdir» [1, səh. 156]. Həmin sənədin 1-ci maddəsində göstərilir ki, hüquqların pozulması dedikdə, «siyasi, iqtisadi, sosial, mədəni, mülki və ya hər hansı digər bir sahədə cinsi mənsubiyyət prinsipi əsasında qoyulmuş hədlər, məhdudiyyətlər, qadağalar» başa düşülür [1, səh. 159]. Bununla yanaşı Konvensiya hüquq bərabərliyi prinsipinə müsbət qiymət verir və iştirakçı dövlətlərin qadınların kişilərlə bərabər hüquqlar əsasında insan hüquq və azadlıqlarından istifadə etmələrinə təminat vermək məqsədi ilə qadınların tam və hərtərəfli inkişafını və fəaliyyətini təmin etmək üçün bütün müvafiq tədbirlərin, həmçinin qanunverici, institusional tədbirlərin görülməsini tələb edir.

Statistik məlumatlara görə, Azərbaycan Respublikasında 9,2 milyondan cox əhali yaşayır ki, bunların da 50,4 faizini qadınlar təşkil edir. Qüvvədə olan qanunvericiliyə əsasən Azərbaycanda qadınlar kişilərlə eyni hüquqlara malikdir. 12 noyabr 1995 – ci ildə qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsi qadın və kişilərin tam şəkildə bərabər hüquqlara malik olmasını təsdiq edir [2]. 34-cü maddədə isə qadın və kişilərin nikah zamanı bərabər statusa sahib olmaları göstərilir. Habelə digər qanunlarda (Ailə Məcəlləsi, Əmək Məcəlləsi, Təhsil haqqında Qanun, Dövlət xidməti haqqında Qanun və s.) da cinsi mənsubiyyətə görə ayrıseçkiliyi qadağan edən ümumi müddəalar mövcuddur [3,4,5,6]. Lakin Azərbaycan Respublikasının Konstitusiyası və digər qanunlar real hüquq bərabərliyini müdafiə etdiyi halda, respublikamızda hələ də cinsi mənsubiyyətə görə sosial diskriminasiya problem olaraq qalır. Belə ki, ənənəvi sosial normalar vətəndaşlarımızın bərabər vəziyyətdə ictimai proseslərdə iştirak etməsini məhdudlaşdırır. Bir sıra sahələrdə mövcud olan gender ayriseçkiliyindən başqa qadınlar rəsmi təsdiq olunmuş hüquqlarından istifadə etməkdə çətinlik çəkirlər. Məişət zorakılığı geniş yayılmış zorakılıq formalarından biri olub ailədaxili təzyiqin göstəricisidir. Ailələrdə məişət zorakılığının müxtəlif formalarına rast gəlinir; məsələn, iqtisadi zorakılıq – qarşı tərəfi iqtisadi cəhətdən asılı etmək, təhsil almağı və ya işləməyi qadağan etmək; fiziki zorakılıq – itələmək, silkələmək, vurmaq; emosional zorakılıq – tənqid və ya təhqir etmək; cinsi zorakılıq – qarşı tərəflə seksual obyekt kimi rəftar etmək, cinsi əlaqəyə təhrik etmək və s. 1993–cü ildən etibarən Avropa Şurası prioritet sahə kimi cinsi mənsubiyyətə görə və qadın zorakılığına qarşı mübarizə aparır. 27 noyabr 2006–cı ildə Avropa Şurası məişət zorakılığı da daxil olmaqla qadın zorakılığına qarşı Kampaniya həyata keçirməyə başlayıb [8]. Bu kampaniya çərçivəsində qarşıdakı iki il ərzində Avropa Şurası üzv dövlətlərin hökumətləri, parlamentləri, yerli və regional icra orqanları, QHT-lər və vətəndaş cəmiyyətləri ilə birlikdə qeyd edilən ciddi cinayət haqqında maarifləndirmə aparmağı və onun qarşısını almaq və mübarizə aparmaq məqsədilə effektiv yollar tapmağı nəzərdə

tutur. Cöx təəssüf ki, Azərbaycanda dövlət və qeyri-hökumət təşkilatları tərəfindən həyata keçirilən proqram və layihələr ölkə vətəndaşlarının, qadınların sosial və siyasi həyatda rolu və vəzifələri haqqında məlumatlanma üçün kifayət dərəcədə deyil [9].

Məişət zorakılığı dünyanın bütün ölkələrində, hətta inkişaf etmiş ölkələrdə də mövcuddur. Avropa Şurasına üzv olan ölkələr bu problemlə mübarizə aparmaq üçün çoxdan “Məişət zorakılığının qarşısının alınması haqqında” qanun qəbul ediblər.

Baxmayaraq ki, bizim Ailə məcəlləsində ailə-məişət zorakılığı ilə bağlı müəyyən maddələr vardır, 2010-cu ildə Azərbaycanda “Məişət zorakılığının aradan qaldırılması haqqında” qanun qəbul edilib, bununla belə bu gün ailədaxili münaqişələr nəticəsində xeyli sayda vətəndaşlarımız zərər çəkir, bədbəxt hadisələr baş verir. Çox halda bu hadisələr gizlədilir. Odur ki, belə halların baş verməməsi və ya baş verərsə, nəticələrinin aradan qaldırılması üçün müvafiq tədbirlər proqramına ehtiyac vardır.

Ailədaxili zorakılıqla bağlı vəziyyəti aşkarlayan meyarlardan ən çox diqqəti cəlb edən vasitə ailə-məişət zəminində baş verən və hüquq mühafizə orqanlarında qeydə alınan cinayət xronikasının izlənməsidir. Buna misal olaraq, sosial xarakterli problemlərdən ən aktualı olan insan alveri probleminə nəzər salsaq pis olmaz. Ailədaxili zorakılıq problemi kimi, insan alveri problemi də latent cinayətlərdən sayılır. Hər iki halda, baş verən cinayət hallarının aşkarlanmasında milli mentallıqdan irəli gələn adət-ənənələr və stereotiplər ciddi maneələr yaradır. İlk növbədə hər iki halda baş verən cinayət hadisələri zamanı ən çox zərərçəkən qadın və uşaqlardır. Belə ki, onların qarşılaşdıqları zorakılıq müxtəlif xarakterli olur.

Hazırkı dövrdə, müqayisə edilən problemlərə aid olan zorakılıq halları ilə bağlı cinayət xronikasının izlənilməsi və ya monitorinqində ciddi boşluqlar ortaya çıxır. Çünki analoji zorakılığın ən ağır forması olan fiziki məhvetmə, yəni şəxsin öldürülməsi Azərbaycan Respublikası Cinayət Məcəlləsinə görə, sadəcə 120.1 maddəsi ilə, qəsdən adam öldürmə maddəsi ilə cəzalandırılır. Bu isə problemin miqyasını, ailədaxili zorakılığın daha geniş yayılmış forma və təzahürünün müəyyənləşdirilməsində çətinliklər yaradır.

İnsan alveri problemi ilə bağlı isə konkret meyarlar və qanunvericilik aktları formalaşdığı üçün bu sosial bəla ilə mübarizə yolları müəyyənləşdirilib və əsasən aşağıdakı vasitələrdən istifadə edilir.

İzləmə, müşahidələrin aparılması kimi profilaktik tədbirlərdən istifadə etməklə insan alveri qurbanlarının müəyyən edilməsi, insan alveri ilə mübarizədə səmərəli və sistemli vasitələrdən biridir. Çünki, insan alverinin bəzi qabarıq xüsusiyyətlərini asanlıqla müşahidə edib aşkarlamaq olar. Buna baxmayaraq keçirilən tədbirlərin səmərəliliyinin təmin olunması, həm də cinayətin baş verdiyi məkandan asılıdır, yəni hadisənin hansı ölkədə, mənşə, təyinat və ya tranzit ölkələrində baş verməsindən asılıdır. Əldə edilən təcrübəyə əsaslansaq, profilaktik tədbirlərin ən səmərəli formada həyata keçirilməsi məkanı təyinat ölkəsində, istismarın baş verdiyi məkanda mümkündür. Bu qanunauyğunluğu təsdiq edən ən parlaq nümunə insanların cinsi-seksual istismar olunması məqsədi ilə insan alveri obyektinə çevrilməsidir.

İnsan alverinin hansı formasını seçməsindən asılı olmayaraq, insan alverçisi, mövcud obyekti, yəni məcburi istismara məruz qoyduğu şəxsin “reklam”nı təmin etmək məcburiyyətindədir. Başqa sözlə desək, insan alverçisi, öz “istismar təklifinə” tələbatı artırmaq üçün onun reklamını və ya “marketinq infrastrukturunu” formalaşdırmağa məcburdur. O, bunun vasitəsilə daimi fəaliyyət göstərən müştəriləri cəlb etmə mexanizmini hazırlayır ki, bu da onun üçün real qazanc mənbəyinə çevrilir. Bu isə o deməkdir ki, fahişəlik və buna bənzər xidmətlərin həyata keçirildiyi yer ictimaiyyət arasında təbliğ edilməlidir. Bu reklam işinin həyata keçirilməsində istifadə edilən vasitələr müxtəlif ola bilər. Bu vasitələrə, insan alveri qurbanının sutenyorların və ya müşahidəçilərin nəzarəti altında tanınmış “qırmızı fənərlər” küçəsində dayanmaq və yeni informasiya texnologiyalarının xidmətlərindən (mobil telefonlar, internet və s.) istifadə edərək istismar edilən qızların (qızların sifarişlə göndərilməsi) xidmətlərinə dair reklamları internetlə yaymaqdır.

Seksual və ya intim xarekterli istismarlarla bağlı həyata keçirilən insan alveri əməliyyatlarında, insan alverçilərinin zəif yeri, “təklif”in reklamını təşkil etmək və ya nümayiş etdirməkdir. İnsan

alverçilərinin törətdikləri cinayətlərin ictimai xarakterə malik olması insan alverçisinin ən zəif yeridir. İnsan alverinin digər formaları ilə bağlı analoji hallar da əsasən ictimai nəzarət xarakterinə malikdir.

Kənd təsərrüfatı, balıqçılıq və s. sahələrdə əməyi istismar olunanları faktiki olaraq gizlətmək mümkün deyil. Eləcə də fabrik və zavodlarda, yaxud iaşə obyektlərində istismar olunanları əmək müfəttişlərinin məqsədyönlü yoxlamaları vasitəsilə asanlıqla aşkarlamaq mümkündür.

Məhdud çərçivədə orqanların transplantasiyasına da bu qaydalar şamil edilir. Belə ki, bu tipli fəaliyyətlər zamanı peşəkar tibb işçilərsiz keçinmək mümkün deyil. Orqanlara ehtiyacı olan potensial müştərilərin yerdəyişməsinə, müalicənin və müvafiq dərmanların təyini, insan alveri qurbanlarının bu formasını nəzərə çarpdırmaqla yanaşı ona nəzarət imkanını yaradır.

İnsan alverinin latent formalarından biri olan ev qulluqçuluğuna digər formalardan fərqli olaraq hər hansı bir nəzarəti təmin etmək mümkün deyil. Cinayətin bu növü, adətən, müxtəlif situasiyalarda zərərçəkmiş və insan alverinin qurbanına çevrilmiş şəxsi uzun illər ərzində qapalı şəraitdə saxlanılaraq istismar edilməsidir. Buna görə hər hansı bir cinayətin izlənməsində səmərəli profilaktik tədbirlərin hazırlanmasında və tətbiq edilməsində çətinliklər yaranır. Cinayətin bu növünün izlənilməsində cinayətkarın seçdiyi metodları müəyyənləşdirdikdən sonra nəyəsə nail olmaq mümkündür. Məsələn, ev xidmətçiləri və dayələrin məşğulluqlarının təmin edilməsi ilə ixtisaslaşan özəl işədüzəltmə agentliklərinin fəaliyyətinin monitorinqini keçirməklə nail olmaq mümkündür.

Bu sahədə ən yaxşı vasitə ictimaiyyətin problemlə bağlı maarifləndirici məlumatlandırma fəaliyyətinin həyata keçirilməsi və onların bu cür hallara qarşı sayıqlığının artırılmasıdır. Məlumatlı olan vətəndaşlarımız şübhəli hadisələrlə bağlı lazımi orqanları xəbərdar edə bilərlər.

Yuxarıda qeyd edilən nümunənin istisna olunması şərtilə geniş monitorinqlər keçirməklə insan alverçilərinin zəif və situasiyalardan asılı xüsusiyyətlərini müəyyənləşdirmək, insan alverinin qarşısını almaq mümkündür.

İnsan alverindən fərqli olaraq ailədaxili zorakılığın müəyyən edilməsində xüsusi, qabarıq elementləri tapmaq olduqca çətindir. Necə ki insan alveri problemində ev qulluqçuluğu ilə bağlı istismar növünü aşkarlamaq, izləmək və nəzarət çətin olduğu kimi, eləcə də ailədaxilində baş verən zorakılığı aşkarlamaq, izləmək və nəzarət etmək mümkün deyildir. Belə olan halda, dövlət müvafiq kompleks tədbirlər hazırlamalı və onların səmərəli icrasını təmin etməlidir.

ABŞ təcrübəsinə müraciət etsək, görərik ki, bu ölkə ilk dəfə olaraq ailədaxili zorakılıqla mübarizəni milli səviyyədə ən böyük sosial problem kimi qəbul edərək, həll olunmasını prioritet vəzifələr sırasına qoyub. Eyni zamanda ABŞ-da ailədaxili zorakılığın nəzəri-praktiki təhlili ilə məşğul olan və onunla aparılan mübarizənin metodoloji əsaslarını öyrənən nüfuzlu tədqiqat mərkəzləri vardır. Məhz bu ölkədə elmi və siyasi dairələr arasında yaranmış olan sıx əməkdaşlıq dövlətin məqsədyönlü sosial siyasətinin zəruri konturlarının müəyyənləşməsində, bu isə özlüyündə ailələrdə zorakılığın qarşısının alınmasında mühüm rol oynayır.

Azərbaycan Respublikasında fəaliyyət göstərən QHT-lərin, eləcə də Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsinin apardığı araşdırmalar göstərir ki, ölkədə ailədaxili zorakılığın azaldılması yönündə kompleks tədbirlərin həyata keçirilməsinə böyük ehtiyac vardır. Bu tipli kompleks tədbirlərdən aşağıdakılar mühüm ictimai əhəmiyyətə malikdir:

- ailədaxili zorakılıqla mübarzə üzrə qəbul edilmiş müvafiq qanunvericilik aktlarının icrası mexanizminin təkmilləşdirilməsi;
- dövlətin məişət və ailədaxili zorakılıqla mübarzəyə məsul olan orqanların hesabatlılığında şəffaflığın təmin edilməsi;
- məişət və ailədaxili zorakılığın müxtəlif aspektləri ilə əlaqədar problemlərin həlli üçün elmi-tədqiqat və sosial-iqtisadi dairələrin sıx əməkdaşlığının yaradılması;
- məişət və ailədaxili zorakılığın profilaktikasını təmin edən elmi-nəzəri, analitik-monitorinq mərkəzlərinin, o cümlədən, operativ krizis dayaq mərkəzləri şəbəkəsinin yaradılması və genişləndirilməsi.

**İstifadə olunmuş ədəbiyyat**

1. Qadınlara Qarşı Zorakılığın Aradan Qaldırılması Haqqında Bəyannamə. 20 dekabr 1993-cü ildə Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi tərəfindən qəbul edilmişdir, Qətnamə 48/104.
2. Azərbaycan Respublikası Konstitusiyası. Bakı, Qanun, 2010
3. Azərbaycan Respublikasının Ailə Məcəlləsi. Bakı, Hüquq ədəbiyyatı nəşriyyatı, 2005
4. Azərbaycan Respublikasının Əmək Məcəlləsi. Bakı, Hüquq ədəbiyyatı nəşriyyatı, 2006
5. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı, Hüquq ədəbiyyatı nəşriyyatı, 2006
6. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, 2009-cu il 19 iyun
7. Dövlət qulluğu haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 21 iyul 2000-ci il. № 926-IQ. «Azərbaycan» qəzeti, 7 fevral 2001-ci il, №30
8. Avropa Şurası məişət zorakılığı da daxil olmaqla qadın zorakılığına qarşı Kampaniya. 27 noyabr 2006-cı il.
9. “Qadınlara qarşı məişət zəminində zorakılığa Yox deyək” Regional Təlim Kursu və Gənclər Kampaniyası, Azərbaycanın cənub bölgəsində Gənclər fəaliyyəti. Biləsuvar şəhəri 24-27 noyabr 2008-ci il.
10. “Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikasının Qanunu. Səda, Bakı, 2010

**Матлаб Махмудов, Мехрибан Зейналова**

## ПРОФИЛАКТИЧЕСКИЕ ПРЕВЕНТИВНЫЕ МЕРЫ ПО ПРЕДОТВРАЩЕНИЮ НАСИЛИЯ В ОТНОШЕНИИ ЖЕНЩИН

### Резюме

В статье исследуются причины сложности определения внутрисемейного и бытового насилия в современном обществе, подчеркивается, что для уменьшения уровня насилия в семье, необходимо определить масштаб данной проблемы и найти пути эффективного решения с помощью инструментов социальной политики, подвергать эти возможности к научным исследованиям. Автор, принимая во внимание некоторые аспекты социальных проблем, который носит скрытый и весьма серьезный характер, справедливо отмечает о трудностях получения необходимой информации о внутрисемейных насилиях и указывает некоторые собственные методы решения этих проблем.

**Matlab Mahmudov, Mehriban Zeynalova**

## PREVENTIVE MEASURES IN PREVENTING VIOLENCE AGAINST WOMEN

### Summary

Author of the article emphasizes that acts of domestic and intra-family violence in today's society because of the secrecy and complexity is very difficult to the definition. To reduce the level of violence in the family, the author concludes that it is necessary to determine the extent of the problem and find ways to deal effectively with the tools of social policy, to subject these opportunities in research. Author, taking into account some aspects of social problems, which is hidden and very serious, rightly notes the difficulties of obtaining the necessary information on domestic violence, and indicates some of their own methods of solving these problems.

**UOT 101.1:316**

**Arif TAĞIYEV**
**BDU, fəl.ü.f.d., dosent**

# FƏLSƏFƏ VƏ DÜNYANIN ELMİ MƏNZƏRƏSİ
## (Metodoloji analiz)

**Açar sözlər:** dünyanın təbii elmi mənzərəsi, sosial-humanitar elmi mənzərə, elmin unifukasiyası, məntiq sistemləri, kəmiyyət fizikası, molekulyar genetika.

**Ключевые слова:** естественнонаучная картина мира, социально-гуманитарная картина мира, унификация науки, логические системы, количественная физика, молекулярная генетика.

**Keywords:** natural-scientific picture of the world, socio-humanitarian view of the world, unification of science, qualitative physics, molecular genetics.

Müasir elmdə bir-birini tələb edən, eyni zamanda bir-birini inkar edən iki meyilin olması onun ən ümumi cəhəti sayılır. Bir tərəfdən elm, təbiətin qanunlarının və qanunauyğunluqlarının, əlamət və xassələrinin elmi dərkində dərinləşdikcə onun daxilində yeni-yeni elmi istiqamətlər yaranır, elmdaxili differensasiya baş verir. Bu prosesi müasir fizikada, kimyada, biologiyada və digər təbiət elmlərində görmək olar. Bu prosesin əsasında təbiət hadisələrinin sonsuz müxtəlifliyi, onların xassələrinin və əlaqələrinin tükənməzliyi və daim yeniləşməsi durur.

Təbiətşünaslıqda şaxələnmə, differensasiya prosesi labüddən özünə əks olan prosesi inteqrasiyanı, elmlərarası yaxınlaşmanı, elmi biliyin sintezi prosesini zəruri edir. Bu prosesin obyektiv əsasını isə təbiətin təkliyi və bütövlüyü, dünyanın maddi vəhdəti təşkil edir. Dünyanın vəhdətini onun varlığında görən baxışı tənqid edərək Engels yazır: «Dünyanın vəhdəti onun varlığında deyildir, hərçənd onun varlığı onun vəhdəti üçün ilk şərtdir, çünki dünya vahid olmazdan əvvəl, mövcud olmalıdır. Bizim görüş sahəmiz qurtardığı hüduddan başlayaraq varlıq, ümumiyyətlə, açıq bir məsələdir. Dünyanın həqiqi vəhdəti onun maddi olmasındadır, bu isə bir-iki hoqqabazlıq cümləsi ilə deyil, fəlsəfənin və təbiətşünaslığın uzun və çətin inkişafı ilə sübut edilir» [1, s.40].

Lakin dünyanın bütöv nəzəri mənzərəsinin yaradılması elmlərin sıx qarşılıqlı əlaqəsini və qarşılıqlı təsirini, başqa sözlə, elmlərarası inteqrasiyanı tələb edir.

Fəlsəfi metodologiyaya həsr edilmiş ədəbiyyatda göstərilir ki, elmi biliyin inteqrasiyası və elmlərin arasında yaxın əlaqələrin baş verməsi elmi idraka ümumi anlayışların və prinsiplərin daxil edilməsi ilə həyata keçirilir. Bu fikri əməliyyatda nəzəriyyələr yaranır və tədqiqatın metodları işlənib hazırlanır. Rus filosofu, məsələn M.V.Mostepanenko yazır ki, elmi idrakın və onun fəlsəfə ilə qarşılıqlı əlaqəsinin dialektik-materialist anlayışından çıxış edərək elmlər arasında qarşılıqlı əlaqənin üç əsas növünü və buna uyğun olaraq üç tip qarşılıqlı təsiru fərqləndirmək olar.

Müəllif yazır ki, elmlərin qarşılıqlı əlaqəsinin birinci növü idrakın inkişafı gedişində indiyə qədər əsasən təsviri və ya empirik xarakter daşıyan və bir-birindən nisbətən ayrı inkişaf edən elmləri birləşdirən elmi nəzəriyyənin yaradılması prosesində baş verir. Məlumdur ki, elmlərin əksəriyyəti təsviri yaxud empirik elmlər kimi yaranır və gerçəkliyin dar sahəsini əhatə edir. Bu elmlərdə uzun müddət nəzəriyyə yaranmır. Onların idrak metodları isə tədqiqatın empirik metodlarından: analiz və sintez, müşahidələrin məlumatlarının sistemləşdirilməsi təsnifatlaşdırılması, induksiyadan ibarət olur. Bu metodların tətbiqi ən yaxşı halda nəzəriyyənin yaradılması ilə deyil, bir sıra empirik qanunauyğunluqların aşkar edilməsinə kömək edən empirik ümumiləşdirilmələrlə bitir. Müxtəlif empirik elmlərə aid olan empirik qanunauyğunluqların təsnifatını, sistemləşdirilməsini əhatə edən elmi nəzəriyyənin yaradılması faktiki olaraq bu empirik elmlərin bir elmdə birləşməsinə aparıb çıxarır. Bu birləşdirici elmin nəzəriyyəsində isə, özündə birləşdirdiyi empirik elmlərə uyğun bölmələr olur. Nəzəriyyədə empirik elmlərin birləşməsini müəllif elmlərin qarşılıqlı təsirinin xüsusi növü kimi qiymətləndirir [29, s.29].

Elmlərin qarşılıqlı təsirinin ikinci növü hər birinin öz nəzəriyyəsi olan inkişaf etmiş elmlər arasında baş verir. Onlarda ümumi birləşdirici anlayışlar və prinsiplər ola bilər. Bu anlayış və prinsiplər dünya haqqında müəyyən fəlsəfi təsəvvürlərin təsiri altında dünyanın xüsusi elmi mənzərəsində birləşə bilərlər, yəni dünyanın belə elmi mənzərəsi hər birinin öz nəzəriyyəsi olan elmləri birləşdirə bilər. Elmlər arası qarşılıqlı əlaqələrin bu tipi empirik və nəzəri metodların bir elmdən başqa elmə keçirilməsinə uyğun gəlir.

Elmlər arasında qarşılıqlı əlaqənin üçüncü və ən mühüm növü dünyanın müxtəlif elmi mənzərələrinin bir tam halında birləşməsi kimi müəyyən edilir. Bu cür birləşməni yalnız fəlsəfi sistemlərdə həyata keçirmək olar. Belə birləşmələr universal xarakter daşıyır. Lakin ayrı-ayrı elmlərin inkişafı üçün bilavasitə əhəmiyyət daşımır. Bununla belə elmlərin bu növ qarşılıqlı əlaqəsinin bütövlükdə elmi idrakın inkişafı üçün əhəmiyyəti böyükdür.

Bu təsvirdən görmək olar ki, elmlər arası qarşılıqlı əlaqələrin bu üç növü bir-birindən ayrı olmayıb vahid prosesin, dünyanın vahid elmi mənzərəsinin yaradılması yolunda elmi idrakın keçdiyi ardıcıl mərhələlərdir. Bu ardıcıl prosesdə bizi daha çox maraqlandıran dünyanın elmi mənzərəsi anlayışının mahiyyətini aydınlaşdırmaq olduğundan onun üzərində ətraflı dayanırıq.

Dünyanın elmi mənzərəsi elmlərin geniş qarşılıqlı əlaqələrinin həyata keçməsinə xidmət edir. Bir sıra nəzəriyyələri əlaqələndirən vasitə yaxud birləşdirici əsas olmaqla dünyanın elmi mənzərəsi özlərinin empirik və nəzəri metodları olan elmlərin əlaqəsini təmin edir. Bu elmlər onları birləşdirən dünyanın elmi mənzərəsi olmadan heç bir əlaqəyə girə və qarşılıqlı təsirdə ola bilməzlər. Məsələn, aerodinamika, elektronika və astrofizika elmlərini götürək, onların hər birinin öz nəzəriyyəsi var, ancaq onları birləşdirən nəzəriyyə yoxdur. Amma onları birləşdirən dünyanın fiziki mənzərəsi vardır ki, bu da nəzəri metodların dünyanın fiziki mənzərəsində birləşən elmlərdən birindən digərinə keçirilməsini təmin edir [20, s.29-31].

Dünyanın elmi mənzərəsində öz nəzəriyyəsi olmayan yaxud empirik metodlarla alınan məlumatların sistemləşdirilməsini və ümumiləşdirilməsini nəzəriyyə sayan elmlər də birləşə bilər. Belə elmlərə məsələn, mineralogiya, geokimya, geologiya elmləri aid edilir. Ancaq bu elmlər dünyanın fiziki xəritəsində atom fizikası, astrofizika, kvant kimyası kimi elmlərlə birləşirlər. Dünyanın elmi mənzərəsi üçün səciyyəvi cəhətlərdən, yaxud onun funksiyalarından biri ondan ibarət hesab edilir ki, nə qədər ki empirik elmlərin öz nəzəriyyəsi yaranmayıb onlar üçün nəzəriyyə funksiyasını dünyanın elmi mənzərəsi yerinə yetirə bilər. Belə ki, məsələn dünyanın fiziki mənzərəsinə daxil olan bir sıra anlayışlar və prinsiplər geologiyada empirik yolla müəyyənləşdirilən köməkçi anlayışların, sistemləşdirmələrin, təsnifatların, qanunauyğunluqların birləşdirilməsi üçün ümumi nəzəri əsas funksiyasını yerinə yetirə bilər. Bununla yanaşı, dünyanın elmi (fiziki) mənzərəsi belə elmlərdə əsl nəzəriyyənin yaranmasına kömək etmək funksiyası yerinə yetirə və eyni zamanda da onların qarşılıqlı əlaqələrinin daha da yaxınlaşmasına xidmət edə bilər.

Dünyanın elmi mənzərəsi üçün başqa bir xüsusiyyət ondan ibarət sayılır ki, onun vasitəsilə baş verən elmlərin qarşılıqlı əlaqəsi qarşılıqlı təsirin tipinə də uyğun gəlir, yəni elmin həm empirik, həm də nəzəri metodlarının bir elmdən digərinə keçməsini təmin edir. Məsələn, fizikanın metodlarının kimyada istifadə edilməsi bu iki elmin nəzəriyyələrini birləşdirən kvant kimyası yaranana qədər də mümkün sayılırdı, çünki o zaman dünyanın fiziki xəritəsində qəbul olunmuş elektrodinamik təsəvvürlərə uyğun olaraq kimyəvi birləşmələrə elektrik yükündən ibarət olan fiziki sistemlər, kimyəvi əlaqələrə isə elektromaqnit qarşılıqlı təsirlər kimi baxılırdı. Dünyanın fiziki mənzərəsinin inkişafı prosesində elektromaqnit təsəvvürlər daha mükəmməl kvant-sahə təsəvvürü ilə əvəz olundu [21, s. 108]. Bu da bir sıra elmləri birləşdirən kvant mexanikası nəzəriyyəsinin yaranmasına səbəb oldu, bu yeni nəzəriyyə əsasında isə kvant kimyası yarandı. Kvant kimyasının yaranması da atom və molekulların kvant fizikasını və kimyanı bir elmdə kvant kimyasında birləşdirdi. Bu yeni məfhum «Kvant kimyası» bəzi müəlliflər tərəfindən «atom və molekulların elektron təbəqələrinin kvant nəzəriyyəsi» adlandırırlar [11, s.268].

Beləliklə, fizikanın və kimyanın əvvəlcə dünyanın elektrodinamik elmi mənzərəsi əsasında həyata keçirilən qarşılıqlı əlaqəsi sonradan onları birləşdirən nəzəriyyə (kvant kimyası) əsasında həyata keçirilməyə başladı. Bu faktdan çıxış edərək tədqiqatçılar nəticə çıxarırlar ki, dünyanın elmi

mənzərəsinin inkişafı gedişində dünyanın bir elmi nəzəriyyəsi ilə əhatə olunan istənilən elmləri birləşdirən nəzəriyyə yaratmaq mümkündür.

Dünyanın elmi dərkinin tarixində elmi idrakın üç böyük sahəsi meydana gəlmişdir: cansız təbiət haqqında elm, canlı təbiət haqqında elm (biologiya), cəmiyyətşünaslıq. Bu bölgüyə uyğun olaraq ədəbiyyatda dünyanın üç elmi mənzərəsi göstərilir: dünyanın fiziki elmi mənzərəsi, dünyanın bioloji elmi mənzərəsi, dünyanın sosial elmi mənzərəsi.

Dünyanın fiziki elmi mənzərəsi elmin tarixində birinci yaranmış və cansız təbiət haqqında bütün elmlərin ümumi nəzəri əsası kimi qəbul edilir. Dünyanın fiziki elmi mənzərəsi astronomiya, fizika və kimya kimi inkişaf etmiş elmlərin nəzəriyyələrini birləşdirərək onları bir-biri ilə əlaqələndirir, bununla da onların mahiyyətini üzə çıxarır. Geologiya, mineralogiya elmlərinə, eləcə də tətbiqi texniki elmlərə münasibət isə dünyanın fiziki elmi mənzərəsinin birləşdirici rolu dünyanın fiziki mənzərəsinə aid olan ümumi təsəvvürlər o elmlərin empirik ümumiləşdirmələri və hipotetik törəmələri ilə əlaqədardır, onlar üçün ümumi nəzəriyyə funksiyasını yerinə yetirir.

Dünyanın fiziki elmi mənzərəsinin XVII əsrdə, dünyanın bioloji elmi mənzərəsinin isə canlı təbiət haqqında nəzəri əsası kimi XIX əsrdə meydana gəldiyi qeyd olunur.

Canlı təbiətin hissi seyri müxtəlif bitki və heyvan növlərinin təbiətdə geniş yayıldığını görməyə imkan verir. Canlılar suda, quruda və atmosferin daha yuxarı qatlarında yaşamağa uyğunlaşmışlar.

Həyatın mənşəyi müasir təbiətşünaslığın ən mürəkkəb, eyni zamanda maraqlı probleminə çevrilmişdir. Həyatın yaranması problemi ilə məşğul olan tədqiqatçılar indiyə qədər canlıların yarandığı təbii şəraitin elmi nəzəri modelini laboratoriya şəraitində yarada bilməmişlər.

Müasir təbiətşünaslıqda həyatın mənşəyinə dair iki hipotez vardır: biri panspermiya hipotezi, ikincisi abiogenez hipotezi adlanır. Panspermiya hipotezinə görə həyat kosmosda qeyri-üzvi maddələrdən yaranmışdır. Kosmosda ulduzlararası məkanda, həyatın inkişafı üçün şəraitin olmadığı məkanda canlı maddə spermiya-həyat rüşeymi halında mövcud olmuş və mövcuddur, o, yüksək temperatur dəyişkənliyinə, kosmik şüalanmaya və s. davamlıdır. Milyard illər bundan öncə kometlər spermiyaları Yerə gətirmiş və burada əlverişli şəraitə düşərək inkişaf etməyə başlamışlar. Bu hipotezin tərəfdarları alman alimi Q.Helmholts (XIX əsr), fransız mikrobioloqu A.Paster (XIX əsr) və rus təbiətşünası V.İ.Vernadski (1863-1945) və b. olmuşlar. Abiogenez hipotezinə görə həyat cansız materiyadan yaranmışdır. Bu hipotezin elmi əsasını rus biokimyaçısı A.İ.Oparin qoymuşdur.

Həyatın mənşəyi problemi ilə dünyanın bir çox ölkələrinin alimləri məşğul olur. Kosmosda yüzlərlə üzvi maddələr aşkar edilmiş, RNT (ribonuklein turşusu) molekulunun təbiəti öyrənilmiş, həyatın yaranması mexanizmini aydınlaşdıran çoxsaylı eksperimentlər aparılmış (Yerdə və Kosmosda), ancaq indiyə qədər heç bir eksperiment cansız materiyadan canlı hüceyrəni sintez etməyə müvəffəq olmamışdır. Ancaq bu istiqamətdə tədqiqatlar davam etməkdədir.

Dünyanın müasir bioloji mənzərəsinin yaranmasında təkamül nəzəriyyəsinin roluna xüsusi əhəmiyyət verilir. İngilis alimi Darvinin adı ilə bağlı olan təkamül nəzəriyyəsinin yaranmasına qədərki dövrdə təkamül ideyasının inkişafını izləmək bu yazıda qarşımıza qoyduğumuz məqsədə uyğundur.

Təkamül ideyasının yaranması belə bir sualdan başlamışdır: canlı təbiət doğrudanmı hər zaman, Yerin bütün tarixi dövrlərində indi bizim onu gördüyümüz rəngarənglikdə olmuşdur, yoxsa canlı varlıqlar min illər boyu uzun təbii inkişaf yolu keçmişdir? Bu sualla bağlı qədim zamanlardan müxtəlif təsəvvürlər yaranmağa başlamışdır. Onların hamısı haqqında burada danışmaq bizi məqsəddən uzaqlaşdıra bilər. Ona görə də ancaq təkamül ideyasının doğulmasından danışacağıq.

İlk tanışlıqda bizi heyran edən canlının quruluşundakı məqsədəuyğunluqdur. Canlının bütün bədəni elə qurulmuşdur ki, onun bütün orqanları müəyyən funksiyaları dəqiq yerinə yetirə bilsin. Məsələn, hacıleyləyin dimdiyi uzun olmalıdır ki, sudan balıq ovlaya bilsin. Vəhşilərin yırtıcı dişləri onun üçündür ki, ovunu ovlayıb parçalaya bilsin. Lakin canlıların quruluşundakı bu kamillik hansı qüvvə ilə yaradılmışdır?

XVIII əsrdə fransız təbiətşünası J.Byuffon canlı orqanizmlərin tədricən təkmilləşdiyi fikrini irəli sürmüşdür. Onun həmvətənlisi və ardıcılı J.Lamark isə ilk dəfə Yerdə həyatın təkamülü nəzə-

riyyəsini yaratmağa çalışmışdır. Lamark orqanların məşq etdirilməsini təkamülün əsas faktoru sayırdı. Lamarka görə məşq edən orqanlar güclənir, məşq etməyənlər isə zəifləyir və sıradan çıxır. Amma sual yaranır: məşq nəticəsində əldə edilən dəyişikliklər nəsildən nəslə varisliklə keçirmi? Lamark bu suala müsbət cavab verirdi. Ancaq Lamark, məsələn heyvanda buynuz əmələ gəlməsinin hansı məşqlə baş verdiyi və bu kimi başqa sualları canlı təbiətdə təkmilləşməyə daxili meylin olduğunu deməklə cavablandırırdı. Onun fikrincə, bütün canlı aləm təkmilləşməyə daxili meyillilik sayəsində fasiləsiz olaraq dəyişilir və inkişaf edir. Lamarkın 1809-cu ildə irəli sürdüyü bu baxış onun müasirləri tərəfindən qəbul olunmadı. Lamark canlı orqanizmlərin məqsədəuyğunluğunun səbəbləri haqqında düşünərkən onun həmyerlisi J.Küvye təkamül ideyasının inkişafı üçün əhəmiyyətli bir prinsip irəli sürdü. Bu prinsip orqanizm daxilində bütün orqanların bir-birini şərtləndirməsini və qarşılıqlı əlaqələrini ifadə edir və korrelyasiya prinsipi adlanır. Bu prinsipə görə, bitki qidası orqanizmin tələbatını ödəmək üçün az kalorilidir. Deməli, otyeyən heyvanın mədəsi iri olmalıdır ki, çoxlu ot qəbul edə bilsin. Mədənin ölçüsü isə başqa orqanların ölçüsünü şərtləndirir. İri bədəni saxlamaq üçün güclü ayaqlar olmalıdır və s.

Küvye öz metodunu o dərəcəyə qədər təkmilləşdirmişdi ki, qazıntılar nəticəsində tapılan bir dişə əsaslanaraq bu dişə sahib olan heyvanın skeletini qura bilirdi.

Küvye həm də toqquşmalar təliminin banisidir. Bu təlimə görə, Yer kürəsində zaman-zaman toqquşmalar olmuş, toqquşmaya məruz qalmış qitə və onunla birlikdə bütün canlı varlıqlar məhv olmuş və sonradan yeni canlılar yaranmışdır.

Bu dövrdə ingilis geoloqu Ç.Layel (1797-1875) başqa prinsiplə çıxış etmişdir. Onun prinsipinin mənası budur ki, yerin dünənini başa düşmək üçün onun indiki halını öyrənmək lazımdır. Layel Yerin təbii-tarixinin 3-cü dövrünə aid tədqiqatları əsasında qeyd edirdi ki, o dövrdə yaşamış bir çox orqanizmlərə indi də rast gəlinir. Hər bir dövrdə yeni canlı növlər yaranmış, köhnələri isə sıradan çıxmışdır. Onun irəli sürdüyü bu ideyalar isə Küvyenin nəzəriyyəsi ilə ziddiyyət təşkil edirdi. Ç.Layel canlı növlərin birinin digərindən əmələ gəldiyini söyləməsə də, geoloji dəyişikliklərin tədrici xarakter daşıdığını sübut etməklə təkamül ideyasının inkişafı üçün bir ilkin şərt də yaratdı.

Təkamül ideyasının yaxud təliminin inkişafı və onun nəzəriyyə kimi işlənib hazırlanması Ç.Darvinin adı ilə bağlıdır. Ç.Layelin «Geologyianın əsasları» kitabı ilə dərindən tanış olan Darvin beş illik səyahətindən qayıdanda Layelin əsas ideyalarının düzgünlüyünü təsdiq edən zəngin materiallar gətirdi. Darvin həm də əmin olmuşdu ki, indi mövcud olan heyvanlar və bitkilər aləmi mürəkkəb canlı aləmin tədrici, uzun sürən inkişafının məhsuludur.

1859-cu ildə nəşr olunan «Növlərin mənşəyi» kitabında Darvin təkamül nəzəriyyəsinin əsas prinsiplərini göstərmiş və onları aydın şərh etmişdir. Bu nəzəriyyənin əsas prinsipləri dəyişkənlik, irsiyyət və təbii seçmə prinsiplərindən ibarətdir. Bu prinsiplərə əsaslanan təkamül nəzəriyyəsi canlı orqanizmlərin təbii təkamülünü belə izah edir: canlı orqanizmin quruluşu və funksiyasında yeni əlamətlər və xüsusiyyətlər dəyişkənlik sayəsində formalaşır. İrsiyyət bu əlamətləri möhkəmləndirir və bir nəsildən başqa nəslə ötürür. Təbii seçmə yaşayış şəraitinə uyğunlaşa bilməyənləri məhv edir. İrsi dəyişkənlik və fasiləsiz təbii seçmə sayəsində baş verən təkamül prosesində canlı orqanizmlər yeni funksiyalar əldə edir ki, bu da yeni bitki və heyvan növlərinin yaranması ilə nəticələnir [15, s.377].

Darvinin təkamül nəzəriyyəsinin dünyanın elmi dərkində rolu onunla izah olunur ki, bu nəzəriyyə bütün bioloji elmlər arasında əlaqələr müəyyənləşdirərək, onları birləşdirərək dünyanın ilk bioloji elmi mənzərəsini yaratmışdır. Darvinin biologiya elminə daxil etdiyi uyğunlaşma, irsiyyət və dəyişkənlik, təbii seçmə, yaşayış uğrunda mübarizə, təkamül və s. anlayışların əhəmiyyəti ondadır ki, bu anlayışların əsasında bioloji hadisələrin vahid elmi mənzərəsi yaradılır. Beləliklə, canlı təbiət haqqında elmlər arasında əlaqələr yaradan, onları birləşdirən canlı aləmin vahid bioloji-elmi mənzərəsi yaradılır. Bu da bioloji hadisələri təsvir edən və sistemləşdirən və onları nəzəri izah edən yeni bioloji elmlərin yaranmasına yol açır [22, s.11].

Bu imkandan, yəni təkamül ideyalarından istifadə edilməsilə yaradılan yeni elm sahələrinə misal olaraq müqayisəli təkamül embriologiyasını, paleontologiyanı və b. göstərmək olar. Belə ki, rus alimlərindən A.O.Kovalevskiy (1840-1901) və İ.İ.Meçnikov (1845-1916) təkamül nəzəriyyəsi

anlayışlarından istifadə edərək Təkamül embriologiyasını, V.O.Kovalevskiy (1842-1883) palentologiyanı-qazıntılardan tapılan orqanizmlər haqqında elmi yaratdılar.

Darvin tərəfindən yaradılan dünyanın vahid bioloji mənzərəsi Darvindən sonrakı dövrdə əhəmiyyətli dərəcədə genişlənmiş və dərinləşmişdir. Müasir dövrdə irsiyyət qanunlarını molekulyar səviyyədə öyrənən molekulyar genetika yaranmışdır. Molekulyar bioloji tədqiqatlardan əldə edilən nəticələr ötən əsrdə yaradılan bioloji hadisələrin ümumi mənzərəsini əvəz edən dünyanın müasir bioloji mənzərəsi yaradılmışdır. Eyni zamanda dünyanın müasir bioloji mənzərəsinin yaranması molekulyar biologiyanın və molekulyar genetikanın formalaşmasına və inkişafına özünün əsaslı təsirini göstərmişdir. Müasir dövrdə molekulyar genetika aparıcı bioloji elmə çevrilmiş və özünəməxsus eksperimental və nəzəri əsaslarına malik olmuşdur.

Dünyanın fiziki və bioloji elmi mənzərələri ilə yanaşı dünyanın sosial mənzərəsi anlayışı da ədəbiyyata daxil edilmişdir. Bu anlayışda bütün ictimai hadisələri bir tam halında birləşdirən və bu tamda onların əlaqəsini yaradan ümumi nəzəri əsas ifadə olunur.

Dünyanın fiziki mənzərəsi, bioloji mənzərəsi və sosial mənzərəsi anlayışları əslində materiyanın hərəkətinin hər bir formasının (fiziki-cansız təbiətdə hərəkət, bioloji hərəkət və sosial hərəkətin) qanunlarını müxtəlif səviyyələrdə öyrənən elmlərin bir ümumi fiziki, bir bioloji və sosioloji nəzəriyyələrdə ontoloji və metodoloji cəhətlərdən əlaqələndirilməsi və qarşılıqlı təsirinin həyata keçirilməsi kimi başa düşülə bilər. Lakin dünyanın vahid müasir elmi mənzərəsinin yaradılması bu istiqamətdə dünyanın fiziki, bioloji və sosial mənzərələrinin bir tamda, bir nəzəri sistemdə əlaqələndirilməsi və onların qarşılıqlı təsirinin həyata keçirilməsi dünyanın bir tam, vahid sistem kimi başa düşülməsi üçün daha zəruri və daha mürəkkəb problemdir. Belə çətin problemin həll edilməsi bir tərəfdən cansız təbiətdə, canlı təbiətdə və sosial həyatda hərəkət formalarının daha dərindən öyrənilməsini, digər tərəfdən hərəkət formaları haqqında fundamental nəzəriyyələrin və onların metodoloji əsaslarının dialektikasının öyrənilməsi sahəsində tədqiqatların genişləndirilməsini tələb edir.

Lakin dünyanın fiziki, bioloji və sosial mənzərələrini birləşdirib dünyanın vahid elmi mənzərəsini yaratmaq mümkündürmü?

**Dünyanın vahid elmi mənzərəsinin inkişafında fəlsəfənin və təbii-elmi idrakın qarşılıqlı əlaqəsi**

Qarşıya qoyulan bu məsələnin həlli öncə fizikanın, biologiyanın və sosial elmin nəzəri əsaslarının dünyanın elmi mənzərələri adlandırılması nəyə əsaslanır sualını cavablandırmağı tələb edir.

İnkişaf haqqında dialektik-materialist anlayışa görə canlı təbiət genetik cəhətdən cansız təbiətlə bağlıdırsa, cəmiyyət həyatı və tarixi də bioloji inkişafla bağlıdır, yəni cəmiyyət tarixi təbiət tarixinin sosial qanunlar əsasında davamıdır. Belə çıxır ki, bioloji və sosial hərəkət formalarının əsasında fiziki hərəkət formasının qanunları durur. Bununla belə, demək olar ki, bütün fiziki hadisələr nisbətən sadə və ilkin başlanğıcdır. Bu təsəvvür əsasında deyilir ki, dünyanın fiziki mənzərəsi bütün hadisələrin, xüsusən də bioloji və sosial hadisələrin əsasında duran daha ümumi mənzərədir. Lakin bu yanaşmanın kökü mexaniki fəlsəfi dünyagörüşünə gedib çıxır. Fiziki, bioloji və sosial proseslərin fizikallaşdırılması meylinin indi də mövcud olduğu təsdiq edilir. Xüsusi ilə müasir pozitivistlər bu mövqedə dayanırlar. M.A.Kissel elmi biliklərin «fizikallaşdırılması» prinsipinin mahiyyətini açaraq göstərir ki, bu prinsip elmdə mövcud olan məfhumların «fizikanın dili» ilə ifadə edilməsindən, «elmin unifikasiyasından» ibarətdir [19, s.17-34].

Elmin fizikallaşdırılması prinsipi əsasında «elmin unifikasiyası» proqramından çıxış edən müasir pozivitistlər fizikanın müasir təbiət elmləri arasında xüsusi mövqeyə malik olduğunu təsdiq edirlər. Qaynaqlardan göründüyü kimi dünyanın fiziki mənzərəsi dünyanın bioloji və sosial mənzərələrindən əvvəl yaradılmış və cansız təbiət elmlərinin hamısı üçün ümumi nəzəri əsas kimi qəbul edilmişdir. Dünyanın fiziki mənzərəsi astronomiyanın, fizikanın, kimyanın inkişafını əlaqələndirir və onların nəzəriyyələri arasında daxili müəyyənedici bağlılığı, yəni onların mahiyyətini açır [22, s.10].

Bu faktdan çıxış edən məntiqi pozitivizm XX əsrin 40-cı illərində "elmin unifikasiyası" proqramını irəli sürdü. Lakin bu ideyanın kökləri bəşəriyyətin əldə etdiyi "rəylər dünyasını" dəqiq tədqiqatlar müşahidə və eksperiment əsasında yeniləşdirmək ideyasının irəli sürüldüyü XVII əsrə

gedib çıxır. Bundan 200 il sonra pozitivizmin banisi O.Kont elan etdi ki, onun fəlsəfəsi təbiətşünaslığın tarixən yaranmış sahələri ilə «pozitiv biliyin» yeni sahəsini - sosiologiyanı birləşdirmişdir. Elmin pozitivist məntiqi və metodologiyasının banisi D.S.Millin «məntiq sistemləri» əsərinin əsas predmeti biliyin müxtəlif sahələrində həyata keçirilən tədqiqatların vahid metodologiyasını yaratmaqdan ibarətdir. Məntiqi pozitivizm üçün səciyyəvi cəhət yeni dövr fəlsəfəsində edildiyi kimi induktiv və deduktiv metodları bir-birinə qarşı qoymaq və induktiv metodu təkmilləşdirməkdən ibarətdir. Mill bu nəticəyə gəlir ki «fiziki» metod yaxud induksiyanın bir element kimi daxil olduğu konkret-deduktiv metod elmi tədqiqatın ən yaxşı metodudur, «özündə üç tərkib hissələri induksiyanı, deduksiyanı və yoxlamanı birləşdirən deduktiv metoda təbiətin öyrənilməsində ən parlaq nailiyyətlər əldə etdiyinə görə insan əqli borcludur. Bilavasitə öyrənilməsi mümkün olmayan böyük və mürəkkəb hadisələri bir neçə qanun altına salan bütün nəzəriyyələrə görə, biz deduktiv metoda borcluyuq [12, s.18].

«Elmin fizikallaşdırılması» proqramının ədəbiyyatda göstərildiyi kimi aparıcı metodoloji ideyası reduksionizmdir, yəni bütün elmlərin tərkib hissələrinin fiziki nəzəriyyənin strukturuna analitik müncər edilməsidir. Məntiqi pozitivizmin metodologiyası fizikanı bütün elmlərin ümumi modelinə çevirməyə xidmət edir. Məntiqi pozitivizmin başlıca müddəası budur ki, fizikanın dili bütün elmlər üçün universal dildir və bütün müsbət (təcrübəyə əsaslanan) biliklər fizikanın anlayışları ilə ifadə oluna bilər. Fizikanın dilinin üstünlüyü ondadır ki, bütün digər konkret elmlərin anlayışları, məfhumları fizikanın dilinə çevrilə bilər.

Fizikalizm proqramının mahiyyətini izah edərək M.A.Kissel yazır ki, fizikalizmin həyata keçirilməsi fizika elminin anlayışlarının başqa elmlər tərəfindən mənimsənilməsi demək olardı. Fizikanın anlayışları isə digər elmlərdə hər cür evristik əhəmiyyətini itirir.

Lakin fizikalizmin metafizik məhdudluğunu göstərməklə yanaşı müasir elmi biliyin inkişafının riyaziləşdirilməsi prosesində onun xüsusi rol oynadığını və bu cəhətdən bütün digər elmlərdən çox irəlidə olduğunu da nəzərə almaq lazımdır.

Müasir elmi idrakın inkişafında ümumi meyil budur ki, bu inkişafda bir-birini şərtləndirən iki proses baş verir: elmdə differensasiya (eyni bir elmin daxilində yeni ixtisaslaşmalar və ya yeni elmlərin yaranması) vasitəsi ilə inteqrasiya (bir neçə köhnə elmlərin metodlarının birləşdirilməsi) inteqrasiya vasitəsi ilə differensasiya baş verir. Bu prosesdə tədqiqatçılar müasir elmin inkişaf dialektikasını görürlər. Həm də elmi idrakın bu dialektik hərəkəti induksiya və deduksiyanın qarşılıqlı əlaqəsi və təsiri ilə baş verir. Məntiqi pozitivizmin Nagel, Qempel və Popper kimi tanınmış nümayəndələri elmi idrak prosesini təfəkkürün deduktiv hərəkəti kimi izah edirlər. Popper hətta induksiyanı elmin metedologiyasına aid etmir. O, bu mövqeyini belə əsaslandırır ki, induksiya təfəkkür haqqında psixoloji təlimin predmetidir və elmi tədqiqatın məntiqinə daxil deyil. Beləliklə, elmin məntiqi və metodoloji tədqiqindən psixoloji aspekti kənarlaşdırmaqla elmi təfəkkürün induksiya və deduksiyanın qarşılıqlı əlaqəsi və nisbəti kimi köklü problemini məntiqi pozitivizmi aradan qaldırmış olur. Kissel yazır ki, məntiqi pozitivistlər bir cəhətdən haqlıdırlar ki, elmin inkişafında induksiya və deduksiyanın qarşılıqlı əlaqəsi problemi analizin vasitələrilə həll edilə bilməz, çünki bu problemin həlli dialektikaya muraciət olunmasını tələb edir. «Analitiklər» (məntiqi pozitivistlər nəzərdə tutulur) hər vasitə ilə dialektikadan qaçmağa çalışırlar.

Elmi idrakın tarixinin dialektik-materialist şərhi elmlər sisteminin iyerarxiyası ideyasının yaranmasına səbəb olur. Elmlərin iyerarxiyasının əsasında isə təbiətdə müxtəlif hərəkət formalarının özünəməxsusluğu durur. Təbiətin, cəmiyyətin və təfəkkürün dialektikası indiki dövrdə xüsusi elmlərin qarşılıqlı əlaqəsində, onların tədqiqat metodlarının bir-birinə daha da yaxınlaşdırılmasında özünü daha aydın göstərir. Buna misal olaraq XX-əsrdə fizikanın, kimyanın və biologiyanın yaxınlaşmasını və canlı təbiətin öyrənilməsinə riyazi metodların daxil olmasını göstərmək olar.

Elmlərin bir-birinə yaxınlaşdırılmasında xüsusi xidmətləri olan tədqiqatçılar sırasında biosfer və noosfer haqqında təlimin banisi V.İ.Vernadskinin xidmətini qeyd etmək yerinə düşər. V.İ.Vernadski özünün biosfer təlimində canlı orqanizmlərin və insanın həyat fəaliyyətinin geoloji əhəmiyyətini göstərmək üçün «canlı maddə» anlayışını biosfer haqqında təlimə daxil etmişdir. Bu anlayış bir-birindən çox uzaq elmləri-minerologiyanı, kimyanı və biologiyanı əlaqələndirməyə və yeni el-

min-biogeokimyanın yaradılmasına imkan verdi. Vernadskinin ideyalarının təsiri altında biogeosenoz haqqında təlim, yəni fiziki coğrafiyanın, torpaqşünaslığın, botanikanın, zoologiyanın və geokimyanın tədqiqatlarını əlaqələndirməklə onlar üçün vahid tədqiqat predmeti formalaşdırır.

Eyni zamanda da genetika elminin banisi Q.Mendel hələ XIX əsrdə yeni nəsildə əlamətlərin paylanması qanunun riyazi formulunu verməklə irsiyyətin öyrənilməsində kəmiyyət (riyazi) metodların tətbiq edilməsinin başlanğıcını qoydu. XX əsrin 50-ci illərində irsiyyətin molekulyar əsaslarının aşkar edilməsi ilə müşayət olunan molekulyar biologiyanın yaranması biologiya daxilində daha bir yeniləşməyə yol açdı. Molekulyar biologiya irsiyyət mexanizmində DNT (dezoksiribonuklein turşusu) funksiyasını aşkar etməklə genetikanın biokimya ilə birləşməsinə imkan yaratdı.

Elmi idrakın inkişafındakı bu daxili proseslər pozitivizmin deduksiyaya əsaslanan fizikallaşdırma prinsipinin nə qədər dar məntiqi-metodoloji sxem olduğunu və dünyanın vahid elmi mənzərəsinin yaradılmasında bu sxemə əsaslanmağın ciddi səhv olduğu nəticəsini çıxarmağa əsas verir.

Gözdən keçirdiyimiz bu materiallar həm də belə bir lazımi nəticə çıxarmağa əsas verir ki, dünyanın vahid elmi mənzərəsinin yaradılması probleminin həllində elmlərdən hər hansı birini, məsələn fizikanı mütləqləşdirmək əslində dünyanın bioloji yaxud sosial elmi mənzərələrinin dünyanın fiziki elmi mənzərəsi ilə eyniləşdirməkdir. Bu isə mümkün deyil və elmi idrakın inkişafının qanunauyğunluqlarına uyğun gəlmir.

Elmlərin dialektik sintezi yolu ilə onların vahid elm şəklinə salınması, məntiqi pozitivist fəlsəfi dillə deyilərsə, elmin unifikasiyası əslində dünyanın fiziki, bioloji və sosial mənzərələrinin dialektik sintezi deməkdir ki, bu ideyanın həyata keçməsi elmin inkişafının obyektiv qanunları və qanunauyğunluqları əsasında baş verir.

Dünyanın vahid elmi mənzərəsi yalnız dünyanın fiziki, bioloji və sosial elmi mənzərələri arasında istər ontoloji, istərsə də qnoseoloji baxımından obyektiv əlaqələrə əsaslanır. Beləliklə, fiziki hadisələr bioloji proseslərin, bioloji proseslər isə sosial proseslərin əsası kimi götürülə bilər. Lakin ontoloji aspektdə bioloji hadisələr fiziki hadisələrin, sosial həyat isə bioloji proseslərin ilk əsası kimi götürülə bilməz. Qnoseoloji aspektdə isə bu mümkündür. Məsələn, bəllidir ki, hələ mexanisizm metodologiyasının hökmranlığı dövründə (XVII-XVIII əsrlərdə) təbiət hadisələrinə bütövlük və sistem prinsiplərindən yanaşma biologiyada yaranmışdır. Hazırda isə sistemlərin ümumi nəzəriyyəsi bütün başqa elmlər üçün əhəmiyyətli sayılır [24].

Bundan başqa məqsədəuyğunluq ideyası sosial elmlərdən biologiyaya keçirilmişdir. Hətta inkişaf, təkamül, uyğunlaşma, yaşayış uğrunda mübarizə anlayışları sosiologiyadan dünyanın bioloji mənzərəsinə keçirilmişdir. Həmçinin elmdə geniş istifadə olunan “inikas”, “informasiya”, “quruluş”, “idarəetmə” və digər anlayışlar da sosial hadisələr haqqında təsəvvürlər çərçivəsində meydana gəlmişdir.

Bütün bunlar deməyə əsas verir ki, dünyanın fiziki, bioloji və sosial elmi mənzərələrindən hər biri öz spesifik elmi çərçivəsində yaranmış elmlərin bir bütöv halına gətirilməsində istifadə olunduğu kimi müxtəlif elm sahələri arasında əlaqələrin müəyyənləşdirilməsində də istifadə olunur. Belə əlaqələrin müəyyənləşdirilməsi isə bir sıra anlayışların dünyaya bir elmi mənzərəsindən digərinə qanunauyğun keçirilməsi ilə həyata keçirilir. Anlayışların bu cür keçirilməsində isə bir tərəfdən, dünya hadisələrinin qarşılıqlı əlaqələri təzahür edir, digər tərəfdən dünyanın fiziki, bioloji və sosial mənzərələrinin universallığı aydın olur.

Beləliklə, nəticəyə gəlmək olur ki, dünyanın bu üç elmi mənzərəsinin özünəməxsusluğunun ikililik, yəni həm xüsusi, həm də ümumi kimi çıxış etmələri elmlər arasında daha geniş əlaqələrin həyata keçirilməsi məsələsini irəli sürür. Elmlər arasında belə geniş əlaqələrin müəyyənləşdiriməsi isə fəlsəfi sistemlərin idrak vasitələrindən istifadə edilməsi ilə mümkündür.

Elmlərin qarşılıqlı əlaqəsinin ən geniş növü dünya və idrak haqqında yalnız fəlsəfənin ümumi müddəaları vasitəsilə əsaslandırıla bilər. Maddi dünya hadisələrinin universal əlaqəsi haqqında dialektik fəlsəfi müddəa əsasında nəticə çıxarmaq olur ki, bütün elmlər bu universal əlaqələri öyrəndiyi üçün onların qarşılıqlı əlaqəsi də mümkündür. Dünyanın, təbiətin struktur səviyyələrinin keyfiyyətcə müxtəlif olması haqqında dialektik-materialist müddəalar əsasında nəticə çıxarmaq olar ki, bütün elmlər maddi varlığın inkişafının müxtəlif struktur səviyyələrindəki qanunları əks etdirdiyindən on-

ların genetik qarşılıqlı əlaqələrinə uyğun olaraq müxtəlif elm sahələri də dünyanın müxtəlif elmi mənzərələrinə uyğun gələ bilər və onların da genetik əlaqələri vardır. Dünyanın maddi vəhdəti haqqında fəlsəfi prinsipdən çıxış edərək nəticə çıxarmaq olar ki, dünyanın bu vəhdəti dünyanın fiziki, bioloji və sosial elmi mənzərələri arasında qarşılıqlı təsir və əlaqədə də öz ifadəsini tapmalı və onların anlayış və metodlarının bir-birinə keçməsi və bütün elmləri əhatə etməsində özünü göstərməlidir.

Elmlər arasında ən ümumi əlaqə onların ən ümumi qarşılıqlı təsirinə uyğun gəlir. Bu qarşılıqlı təsir ondan ibarətdir ki, hətta müəyyən bir elmdə yaranan məntiqi və riyazi tədqiqat metodları prinsipcə hər bir elmə keçirilə bilər. Dünya hadisələrinin universal qarşılıqlı əlaqəsi prinsipi və dünyanın maddi vəhdəti prinsipi ən ümumi prinsiplərdir. Bu prinsiplər məntiqin və riyaziyyatın qanunları ilə uyğun gəlir. Elmi tədqiqatın məntiqi və riyazi metodları idrakın bütün sahələri arasında elə universal qarşılıqlı təsir vasitəsidir ki, maddi dünyanın ən ümumi obyektiv əlaqələrinə uyğun gəlir.

Dünyanın sintetik vahid elmi mənzərəsinin yaradılması üçün elmlər arasında qarşılıqlı əlaqənin və qarşılıqlı təsirin həyata keçirilməsində göründüyü kimi fəlsəfənin prinsip və müddəalarının iştirakı zəruridir. Bununla əlaqədar olaraq qeyd etmək vacibdir ki, fəlsəfi ideyalar elmi nəzəriyyəyə onun anlayış aparatı vasitəsilə daxil olur. Bu əlaqə forması fəlsəfənin elmə təsirinin ən vacib üsullarından biri sayılır.

Fəlsəfənin elmi nəzəriyyəyə təsir üsulları və onların nəticələri müxtəlif ola bilər. Elmin tarixində elə anlar olub ki, fəlsəfi təsəvvürlər elmi nəzəriyyə üçün həlledici rol oynayıb. Məsələn, A.Puankare A.Eynşteyndən bir il əvvəl nisbilik prinsipini formula etmiş və böyük elmi kəşfin astanasında dursa da o kəşfi edə bilməmişdi. Bu kəşfin zəruriliyi bir tərəfdən ictimai-tarixi təcrübənin tələbindən, digər tərəfdən də fizika elminin inkişafı daxili məntiqindən irəli gəlmişdir. Puankarenin kifayət qədər nəzəri-elmi ilkin şərtləri var idi, lakin nisbilik prinsipinin formula edilməsində onun fəlsəfi baxışları həlledici rol oynayırdı. Beləliklə, Puankare öz nəzəriyyəsinin fiziki reallıq konsepsiyası olduğuna şübhə ilə yanaşırdı. Bundan əlavə o hesab edirdi ki, alimlər əlverişli olduğu üçün qəbul etdikləri müxtəlif, amma məntiqi cəhətdən ekvivalent baxışların sonsuz çoxluğuna konvensionalist (şərti) baxırlar [18, s.76]. Kvant mexanikasının şərhində də fəlsəfi ideyaların rolu mühüm olmuşdur. Əlavəlilik (tamamlayıcı) prinsipinin yaradıcısı N.Borun da dünyagörüşü S.Keyrkeqorun fəlsəfəsinin təsiri altında formalaşmışdır. S.Keyrkeqorun həyat mövqelərinin alternativliyi insanın seçimə məhkumluğu və digər fəlsəfi ideyaları tamamlayıcı prinsipinin formalaşmasına təsir göstərmişdir. Klassik mexanikanın yaranmasına məkan haqqında baxışların köklü surətdə dəyişməsi təsir etmişdir. Aristotel baxışında məkan hər bir obyektin öz təbii yerini tutduğu son nizamlı dünyadır və bu dünyada göy və yer məkanlarının xassələri arasında vəhdət yoxdur. M.S.Kozlova yazır ki, Aristotelin keyfiyyət fizikasından fərqli olaraq Qaliley dinamikası həndəsi məkanda yerləşmiş abstrakt cisimlər üçün yaradılmışdı. Bütün bunlar kəmiyyət fizikasının yaradılması üçün zəruri şərtlər idi. Fundamental qanunların vəhdəti ilə bağlı olan bircinsli sonsuz Universum konsepsiyası vahid qanunauyğun Kainat ideyasının hazırlanmasına kömək etdi. Kainat haqqında bu yeni ideyasız isə müasir təbiətşünaslıqda mümkün ola bilməz [18, s.83]. Sonradan bircinsli sonsuz məkan anlayışı Nyutonun nəzəriyyəsində postulat kimi götürüldü.

İ.Nyutonun konsepsiyasının digər metodoloji-dünyagörüşü elementlərini də burada qeyd etmək yerinə düşür. Nyuton təliminin bir çox elementləri dini xarakterli olmuşdur. Məkanın yuxarıda göstərilmiş xassələri Nyuton sistemində son dərəcədə mühüm prinsiplə, məkanın bütünlüklə Allahla dolması və məkan Allahın evidir prinsipi ilə tamamlanmışdır. Nyutonun təsəvvürünə görə Günəş sistemi Allahın ilk təkanı olmadan yarana bilməzdi. Allah Kainatın yaradıcısıdır. Allah daim müasir gedişata müdaxilə edir və bir çox işlər görməli olur, məsələn: boş məkanda cazibə qanununu həyata keçirir, təbiətdə hərəkətin rəngarəngliyinin azalmasını tamamlayır. Nyuton dünyada hərəkətin təbii saxlanmasına inanmırdı. Lakin Nyutonun baxışlarındakı belə kəskin ziddiyyət nə ilə bağlı olmuşdur? Bu ziddiyyəti tədqiqatçılar bir tərəfdən onun dünyagörüşündə ingilis burjua cəmiyyətinin maraqlarının əks olunduğu və digər tərəfdən də onun ideologiyasının dini xarakterdə olması ilə izah edirlər. Burada alimin elmi fəaliyyətinin cəmiyyətin tələbatları ilə müəyyən olunması, sosial determinizm prinsipinin rolu aydın görünür. Bu prinsipi belə ifadə etmək olar: cəmiyyət özünə lazım

olan keyfiyyəti formalaşdırmaqla elmi nəzəriyyənin sosial determinantı, yəni təyinedicisi kimi çıxış edir. Elmi nəzəriyyənin sosial yaxud konkret mədəni-tarixi amillə şərtlənməsinə elə elementlər daxildir ki, onlar elmi nəzəriyyə ilə əsaslandırılmır, ancaq özlüyündə zəruri şərtlər kimi qəbul edilir. Elmi nəzəriyyə bu elementlərdən, sosial şərtlərdən əhəmiyyətli dərəcədə asılı olur. Bu şərtlər elmi nəzəriyyənin yaradılması, izahı və sübutu üçün ideal verir. Bu idealı təşkil edən ilkin şərtlər hər tarixi dövrün bütün mədəniyyəti ilə, başlıcası isə nəzəriyyənin inkişafının əvvəlki təcrübəsi ilə şərtlənir, yaxud müəyyən edilir. Nyutonun təbiət hadisələrinin nəzəri izahı sxemində xaosun və ya hansısa qeyri-müəyyənliklərin mövcudluğu təsəvvürü hökmran idi. Bu qeyri-müəyyənliklərə, yaxud xaosa Nyuton müəyyənliyin və nizamın hakim olduğu daha fundamental səviyyənin qanunauyğunluqlarının təzahürü kimi baxırdı. XIX əsrin ortalarında təbiət hadisələrinin bu izahına əks olan izah irəli sürülmüşdür. Bu yeni izah ondan ibarətdir ki, təbiətdəki nizam təbiət hadisələrinin dərinliyində gizlənən xaosun nəticəsidir. Bu yeni izahın idealının mənbəyi kinetik nəzəriyyə olmuşdur.

Elmi nəzəriyyənin müəyyən olunmasında tədqiqat proqramının xüsusi yeri var. Elmi proqram nəzəriyyənin sosial determinasiyası mexanizmi rolunu oynayır. Bu problemin tədqiqatçılarından N.N.Semyonov diqqəti elmi yaradıcılıqda elmin obyektivliyi ilə onu yaradanların subyektiv xüsusiyyətləri arasında daim yaranan ziddiyyətə cəlb edərək qeyd edir ki, elmdə kor ehtiras lovğalığa, özünütənqidin itirilməsinə və elmi fanatizmə aparıb çıxara bilər. Bu zuddiyyətin həllini isə o, alimin müəyyən elmi tədqiqat proqramından çıxış etməsində görür [28, s.207]. Elmi nəzəriyyə yalnız tədqiqat proqramı vasitəsilə həm fəlsəfə, həm də bütün keçmiş nəzəri biliklə əlaqələnə bilər. Proqram tədqiqata predmet və metod verir. Elmi proqram vasitəsilə nəzəriyyə sosial həyatla və öz zamanının mənəvi mühiti ilə sıx qarşılıqlı təsirdə olur. Tədqiqat proqramı anlayışı elmi nəzəriyyə və onun mövcud olduğu mədəni-tarixi şərait və zaman arasındakı asılılığı aşkar etməyə imkan verir.

Bu müddəalardan çıxış edilərək sosial praktikanın elmi nəzəriyyənin formalaşmasına təsirinin üç səviyyəsi: genetik, sosial və ideoloji səviyyələri göstərilir. Sosial praktikanın nəzəriyyəyə təsirini vasitələndirən amillər arasında tarixi-mədəni sistemin struktur komponentlərinin, xüsusilə fəlsəfi paradigmaların, elmin anlayış aparatının, izahedici normalarının, sübutun və nəzəriyyənin quruluşunun xüsusi rol oynadığı göstərilir.

Deyilənlərdən bir mühüm nəticə çıxara bilərik: dünyanın vahid elmi mənzərəsinin yaradılması problemi üzrə tədqiqatlar aparılması daha vacib və perspektivli sahədir; bu istiqamətdə uğurlu nəticələrin əldə edilməsi dünyanın burada şərh edilən fiziki, bioloji və sosial elmlərin və onlara uyğun gələn dünyanın elmi mənzərələrinin qarşılıqlı əlaqəsinin və qarşılıqlı təsirinin fəlsəfi-metodoloji əsaslarının öyrənilməsi sahəsində tədqiqatların dərinləşdirilməsindən və genişləndirilməsindən asılıdır. Biz bunu həm də müasir dövrün nəzəri-elmi proqramı sayır və qəbul edirik.

**İstifadə olunmuş ədəbiyyat**

1. Engels F. Anti-Durinq. Bakı, 1967
2. Engels F. Təbiətin dialektikası. Bakı, 1966
3. Lenin V.İ. Materializm və empiriokritisim. Bakı,1968
4. Hegel. Məntiq elmi (çevirəni Arif Tağıyev). Bakı, 2005
5. Mustafayev S. İnsan ekologiyası və təbabət. Bakı, 2003
6. UNESCO-nun təsis etdiyi «Ümumdünya fəlsəfə gününə həsr edilmiş Respublika elmi konfransının materialları. Bakı, 2006
7. Məmmədov Ə. Müasir təbiətşünaslığın konsepsiyaları. Bakı, 2003
8. Əhmədli C. Materialist dialektikanın qanun kateqoriyası. Bakı, 1964
9. İmanov H. Fəlsəfə. Bakı, 2005
10. Rustəmov Y. Fəlsəfənin əsasları. Bakı, 2003
11. Веселов М.Г. Квантовая механика и развитие квантовой химии. – Методологические проблемы взаимосвязи взаимодействия наук. Л.; 1970
12. Девенпорт Рассел В. Достоинство человека. Нью-Йорк, 1960
13. Иличев Л.Ф. Философия и научный прогресс. М.; 1977

14. Канке В.А. Концепции современного естествознания. М.; 2003
15. Карпенков С.Х. Концепции современного естествознания. М.; 2006
16. Концепции современного естествознания (kollektiv müəlliflər). Ростов-на-Дону, 2003
17. Концепции современного естествознания. М.; 2003
18. Козлова М.С. О роли философских идей в историческом процессе становления наук. М.; 1982
19. Киссель М.А. Критический анализ позитивистской концепции единства наук. Л.; 1970
20. Мостепоненко М.В. Философия и физическая теория. Л.; 1969
21. Мостепоненко М.В. Физическая картина мира,философия и развитие физики. Методологические проблемы взаимосвязи и взаимодействия наук. Л.; 1970
22. Мостепоненко М.В. Диалектический материализм и проблема взаимосвязи и взаимодействия наук. Методологические проблемы взаимосвязи и взаимодействия наук. Л.; 1970
23. На пути к теоретической биологии. М.; 1970
24. Проблемы методологии системного исследования. М.; 1974
25. Ракитов А.И. Философские проблемы науки. М.; 1977
26. Солбриг О. и Д. Популяция, биология и эволюция. М.; 1982
27. Спекторский К. Проблема социальной физики в 17-ом столетии. Варшава, 1910
28. Семёнов Н.Н. Наука и общество. М.; 1973
29. Философские вопросы естествознания. М.; 1985
30. Чанышев А.Н. Философия древнего мира. М.;1999
31. Фрагменты ранних греческих философов. Часть 1, М.; 1989

**Ариф ТАГИЕВ**

## ФИЛОСОФИЯ И НАУЧНАЯ КАРТИНА МИРА
## (Методологический анализ)

### Резюме

Разработка единой научно-теоретической картины мира - одна из актуальных проблем современной науки и философии. Углубление и расширение процессов дифференциации и интеграции в современном научном познании делают эту проблему более актуальной и сложной. Движение материи на различных уровнях протекает по различным законам. Решение проблемы разработки единой научной картины мира требует философско-методологического анализа путей интеграции физической, биологической и социально-гуманитарной картин мира. Этот процесс изучается физикой, биологией, социально-гуманитарными науками, различающимися своими законами, методами, категориями и теориями.

**Arif Tagiyev**

## PHILOSOPHY AND SCIENTIFIC VIEW OF THE WORLD
## (Methodological analysis)

### Summary

Working out a common scientific-theoretical scene of the world is one of the actual problems of contemporary science and philosophy. Deepening and broadening the processes of differentiation and integration in a contemporary scientific cognition make this problem more actual and complicated. The motion of the matter on various levels goes on by different laws. Solution of the problem of elaboration of the common scientific view of the world requires the philosophical-methodological analysis of the ways of integration of the physical, biological and the socio-humanitarian picture of the world. This process is studied by physics, biology, socio-humanitarian sciences differed by their laws, methods, categories and theories.

**UOT – 101.1**

**Aydın ŞİRİNOV**
**AMEA FHİ, fəl.ü.f.d., professor**

# FƏLSƏFƏDƏ ÜMUMBƏŞƏRİLİK VƏ MİLLİLİK

**Açar sözlər**: ümumbəşərilik, millilik, çoğrafi məkan, sosial məkan, sosial zaman, mövcud elmi və texniki səviyyə, müstəqil yanaşma paradiqması

**Ключевые слова:** общечеловеческое, национальное, географические пространство, социальное время, существующий уровень науки и техники, парадигма самостоятельного подхода

**Keywords:** common to all mankind, the national, geographical scope, social time, existing level of science and technics, paradigm of independent approach

Əgər belə bir fikir söyləsək ki, elm həm ümumbəşəri, həm də milli səciyyəyə malikdir, yəqin ki, bu mühakiməyə qarşı bu və digər dərəcədə kəskinliyə malik olan sualla qarşılaşmalı olacağıq ki, riyaziyyatın, fizikanın, kimyanın və s. elmlərin milliliklə nə əlaqəsi var. Bunların dili (simvolikası) də ümumbəşəridir. İşlətdikləri məntiqi aparat və prinsiplər də. Hətta bəziləri deyəcəklər ki, yəqin indi də “milli” sözü dəbdə olduğu üçün hətta əslində milli olmayan elmlərə də milli sözünü yapışdırmağa başlayıblar. Cavab verirəm: milli sözü ona görə işlədilmir ki, hər bir millətin öz riyaziyyatı, fizikası, kimyası və s. elm sahələri olur. Bu absurd və hətta gülməli bir fikir olardı. Lakin hər bir millət istər ümumi maarifçilik, istər elmi tədqiqat və istərsə də tətbiqi sahədə bu ümumbəşəri elmlərdən özünə lazım olanlara üstünlük verir və onları inkişaf etdirməyə səy göstərir fikri ilə yəqin ki, hamı razılaşar. Çünki elm özlüyündə heç də yalnız tək-tək beyinlərin apior-intuitiv yaradıcılıq imkanının gerçəkləşməsindən ibarət olmayıb, həm də öz daxili məntiqinə, mövcud sosiomədəni şərait və cəmiyyət həyatının irəli sürdüyü tələblər əsasında inkişaf edir. Frensis Bekondan və Rene Dekartdan başlayan Yeni Dövr Avropa elmi məhz yuxarıda göstərilən üç mühüm amilin vəhdəti nəticəsində formalaşmış və inkişaf etmişdir. Onu da qeyd edək ki, müəyyən situasiyalarda bu amillərdən hansısa biri üstünlük də təşkil edə bilər. Məsələn İkinci Dünya müharibəsi illərində müxtəlif keyfiyyətli neft məhsullarına olan ehtiyac və tələbat indi hamımızın fəxr etdiyimiz Yusif Məmmədəliyev kimi nəhəng bir alimin yetişməsinə səbəb olmuşdur.

Beləliklə, elmə onun inkişaf tarixi baxımından yanaşsaq, o, bir tərəfdən onun özünün, daxili məntiqindən irəli gələn məsələlərin araşdırılması, digər tərəfdən onun prinsip və anlayışlar sistemində və bu sistemin məzmununda əmələ gələn dəyişikliklər (R.Dekartın yaradıcılığını yadımıza salaq), üçüncü tərəfdən isə elmin praktik məsələlərin həllinə istiqamətlənməsi (F.Bekon və C.Lokk) və mövcud sosial mühitin elmə verdiyi sifariş (Y.Məmmədəliyev) nəticəsində inkişaf edir.

Bu fikirləri daha çox, ona görə yazıram ki, elmin həm daxili inkişaf qanunauyğunluqları, həm də onun sosial mədəni mühit və mövcud praktika ilə əlaqəsi prinsipləri ilə istər tarixilik, istərsə də müasirlik baxımından o qədər də yaxından tanış olmayan xəyalpərəstlər Azərbaycan alimlərinin nə üçün Nobel mükafatı almadıqlarından təəssüflənir və Azərbaycan elmi haqqında pessimist və nihilist fikirlər yayırlar. Nəzərə almırlar ki, dünyanın Sarbonna, Kembiric və Oksford kimi Universitetləri səkkiz yüz illik bir tarixə malik olduqları halda, Bakı Dövlət Universiteti yüz ilə yaxındır ki, fəaliyyət göstərir. Azərbaycan EA-nın tarixi isə vur-tut altmış yeddi ildir. Hər bir formalaşma və inkişaf isə, hətta intensiv halda getdikdə belə, yenə də müəyyən tarixi dövr tələb edir. Azərbaycan elmi isə hələ daha çox formalaşma mərhələsindədir. Məhz bu mərhələdə müəyyənləşdirməliyik ki, biz müasir elmin hansı sahələrini seçməli, onu öz ictimai təcrübəmizə, gerçəkliyimizə, təbii coğrafi mühitimizə, cəmiyyətin inkişafı üçün həlli zəruri olan məsələlərin həllinə yönəltməliyik. Bu məqamda təbiətşünaslıq elmləri ilə ictimai-humanitar elmlər bir-biri ilə qovuşur və milliləşir. Tanınmış

Azərbaycan alimi Xudu Məmmədovun dili ilə desək, qoşa qanada çevrilir. Məlumdur ki, bir qanadla nə quş, nə də texniki qurğu olan təyyarə uça bilmir. Deməli, cəmiyyətin inkişafı üçün təbiətşünaslıq və dəqiq elmlər nə qədər vacibdirsə, ictimai və humanitar elmlər də o qədər vacibdir. Sonuncular isə tamamilə millidir. Çünki Azərbaycanlı alimlərdən başqa heç kim bu ölkənin, xalqın, millətin psixologiyasını, mentalitetini, şüur və düşüncə özəlliklərini, tarixini və mədəniyyətini, dəyərlər sistemini və s obyektiv məzmunda və istənilən səviyyədə öyrənməyəcəkdir. Əlbəttə, bütün bunların da üzə çıxardılmasında, təhlilində dünya təcrübəsi, müxtəlif elmi yanaşma metodları durur ki, bu bazanın heç bir alternativi yoxdur.

Milli düşüncə çoxtərəfli və geniş bir anlayışdır. Bu düşüncə məişət, yaşayış tərzindən tutmuş bütün fəaliyyət sahələrini, istehsalatı, idarəetməni, mədəniyyəti və s. əhatə edir. Kim milli düşüncəni yalnız milli heysiyyət və yeri gəldi-gəlmədi milləti tərifləmək kimi başa düşürsə, o, bu anlayışa birtərəfli yanaşır. Milli düşüncə hər şeydən əvvəl görülən işin keyfiyyəti ilə ölçülür. İşdən, əmək fəaliyyətindən və bu fəaliyyətin nəticəsindən kənarda götürülən milli düşüncə əhəmiyyətsiz, predmetsiz söhbətdir. Çünki millət boş hay küylə deyil, işlə, əməklə, əməyin təşkili və onun yaxşı məhsulu ilə inkişaf edir. Burada “məhsul” sözünü həm maddi, həm də mənəvi mənada işlədirəm. Çünki bir istehsalat sahəsinin buraxdığı məhsul yaxşı, keyfiyyətli olduğu kimi, bir alimin də verdiyi ideya, yazdığı kitab dəyərli ola bilər. Yaxud, bir ali məktəbin yetişdirdiyi tələbələr, həqiqətən də, yaxşı mütəxəssis ola bilərlər.

Bütövlükdə cəmiyyət həyatı, onun təşkili, idarə olunması, maddi və mənəvi istehsal prosesləri, onların arasındakı asılılıq və qarşılıqlı təsir məsələləri, cəmiyyətin sosial durumu və s. məsələlərlə bilavasitə fəlsəfə və xüsusilə, sosial fəlsəfə məşğul olur. Bütün bunlar isə təbii ki, nəzəri məsələlərdir və bu məsələləri araşdırmadan, hansısa ümumi nəticələrə gəlmədən heç bir inkişaf konsepsiyası, yaxud strategiyası işləyib hazırlamaq mümkün deyildir.

Bəzi hallarda fəlsəfəni sxolastik mühakimələr yığını olmaqda, mücərrədçilikdə, gündəlik real həyatdan uzaqlıqda və s günahlandırırlar. Təəssüf ki, hərdən fəlsəfə ilə məşğul olan mütəxəssislər də fəlsəfənin real həyata, onun gedişinə təsir gücünün olmadığını göstərirlər və bu əsasda isə digərləri haqlı olaraq “bəs fəlsəfə nə üçündür” sualını qoyurlar və əsasında da fəlsəfənin əhəmiyyətsiz bir şey olması qənaətinə gəlirlər. Göründüyü kimi, mən bu məsələləri bütün açıqlığı ilə qoyuram. Çünki belə açıqlıq olmadan aparılan mübahisələr heç bir müsbət nəticə verə bilmir. Düşünürəm ki, tələm-tələsik fikirlərə qarşı çıxmaqdansa, onları təhlil etmək daha faydalı işdir. Onu da qeyd edim ki, fəlsəfi düşüncə səviyyəsinə qalxa bilməyin özü də o qədər asan deyildir. Çünki bu, beynin təbii imkanları ilə yanaşı, həm də ardı-arası kəsilməyən elmi axtarışlar aparmaqdan ibarət olan böyük zəhmət və səbir tələb edir.

Əgər fəlsəfə fəlsəfi düşüncə sahəsində əldə edilmiş ümumbəşəri məntiqi prinsiplərə əsaslanaraq konkret sosial zaman və məkan daxilində mövcud olan konkret reallığa və konkret düşüncə tərzinə, bunların analitik təhlilinə əsaslanmırsa, onda o, öz həqiqi funksiyasını yerinə yetirə bilmir. Məhz konkret reallıqdan çıxış edən fəlsəfə dünya fikrinə də nə isə, hansısa bir yeniliyi verə bilər. Bu mənada rus alimi A.B.Zotovun “Dünya fəlsəfəsi mövcuddurmu” məqaləsi diqqəti cəlb edir. O, göstərir ki, fəlsəfə konkret bir ölkənin, konkret bir millətin elmi və ümumi düşüncəsindən və real gerçəklikdə mövcud olan problemlərindən kənarda yarana və dura bilməz [1, s.36-37]. Bu fikri tanınmış fransız filosofu R.Aron da söyləyir. O, qeyd edir ki, fəlsəfə milləti, dövrü, qarşıya qoyulmuş problemləri, elmin vəziyyətini, sosial və mədəni şəraiti nəzərə almalıdır. Millətlər öz xarakterlərinə malik olduqları kimi, öz fəlsəfələrinə də malik olmalıdırlar. Sosial tələblər fəlsəfənin qarşısında müxtəlif vəzifələr qoyur və s [2, s.64]. Bu qəbildən olan fikirləri Azərbaycan filosofu professor A.S.Abasov da söyləyir və öz əsərlərində bunu nümayiş etdirir. O, milli Azərbaycan fəlsəfəsi yaradılmasının vacibliyini əsaslandırır və göstərir ki, dünya fəlsəfəsi bir tamdırsa. milli fəlsəfələr bu tamın hissələri kimi çıxış edir [3, s.230-231].

Ümuminin, xüsusinin və təkcənin vəhdətini o qədər də dərindən dərk etməyənlər hər şeydə fəlsəfəni günahlandırdıqları üçün özlərini o qədər də xoşa gəlməyən vəziyyətə salırlar. Paradoks da

elə bundadır ki, onlar bir tərəfdən fəlsəfəni tənqid edir, digər tərəfdən isə cəmiyyət həyatında olan bütün kəm-kəsirlərə görə filosofları günahlandırırlar. Özləri də yaxşı dərk etmirlər ki, bir halda ki, filosofları günahlandırırlar, deməli, bu məsələlərin həllini də tez filosoflardan gözləyirlər. Bununla da fəlsəfənin ən vacib, ən lazımlı elm olduğunu etiraf etmiş olurlar.

Cəmiyyət həyatında baş verən, yaxud baş verməkdə olan hər hansı bir proses haqqında nəyi isə bilmək üçün, necə hərəkət etmək haqqında heç kim birbaşa riyaziyyatçıya, fizikə, kimyaçıya və digər elm nümayəndəsinə müraciət etmir. Ancaq hamı filosofa müraciət edir və ondan nə isə ağıllı, faydalı bir fikir gözləyir. Filosofun ağıllı və faydalı cavab verə bilməsi, yaxud bilməməsi isə tamamilə başqa bir məsələdir və burada onu araşdırmayacağam.

Fəlsəfə konkret elmlərdən (fizika, riyaziyyat, sosiologiya və s.) fərqli olaraq makromiqyaslı reallıqlar arasındakı müxtəlif səviyyəli əlaqə və təsirləri öyrənir. Buna görə də, sistemli sinergetik yanaşma müasir fəlsəfənin əsas metodu sayıla bilər. Hərçənd bu metodun başlıca kateqoriyalarından olan xaos sosial müstəvidə mübahisəsiz qəbul oluna bilməz. Çünki cəmiyyət həyatında xaos heç də təbiilikdən deyil, daha çox daxili çəkişmələrdən və kənar müdaxilələrdən yaranır. Hər halda müasir dövrdə belədir. 1980-ci illərin sonunda keçmiş SSRİ-də, sonra Yuqoslaviyada və daha sonra isə Ərəbistan yarımadasında yaranan xaoslar zəif olan daxili nizamlılığın kənar təsirlər nəticəsində nizamsızlığa gətirib çıxarmasından başqa bir şey deyildir.

İstər daxili çəkişmələr, istərsə də kənar müdaxilələr müxtəlif səpkili iqtisadi və siyasi maraqların kəsişməsidir. Daxili iqtisadi, siyasi maraqların kəskinləşməsi daha çox nizamlanmayan xaos yaratmağa meyllidirsə, xarici müdaxilə əvvəldən düşünülmüş, planlaşdırılmış halda aparılan nizamlanan xaosdur. Hərçənd bəzi hallarda bu nizamlanan xaos özü də nizamlanmayan xaosa çevrilə bilər. Hər bir halda cəmiyyət həyatında xaos neqativ hadisədir və yalnız geriləməyə, pozulmaya, dağılmaya səbəb olur. İstər bütövlükdə cəmiyyət həyatında, istərsə də onun idarəetmə sistemində stabillik isə cəmiyyətin dinamik inkişafı deməkdir. Bu dinamik inkişaf isə sosial ədalət prinsipinin, qanunçuluğun güclənməsi əsasında ola bilər. Bunun üçün isə narazı kütləyə daim qulaq asmaq, onların narazılıqlarının səbəblərini araşdırmaq və irəli sürdükləri problemlərin, imkan daxilində, həllinə çalışmaq lazımdır. Narazı kütləyə düşmən kimi yox, cəmiyyətin inkişafına kömək edən əlavə qüvvə kimi baxmaq lazımdır. Əgər narazı kütlə hazırkı şəraitdə həlli mümkün olmayan məsələlər irəli sürürsə, bunu açıq halda əsaslı arqumentlərlə bildirmək lazımdır ki, indiki şərait daxilində irəli sürülən iddiaların həyata keçirilməsi mümkün deyildir və heç bir siyasi qüvvə bu məsələni həll edə bilməz. Bu zaman kütlənin bir hissəsi öz inadından əl çəkər və bu qüvvə tamam yox olmasa da, xaos yaratmaq imkanından məhrum olar. Yarana biləcək xaosun qarşısını almaq üçün istifadə olunması nəzərdə tutulan güc strukturuna da ehtiyac az olar. Cəmiyyət daxilində nə qədər sakitlik, ümumi rifah və razılıq olarsa, xaricdən hansısa bir təsir göstərmək imkanı da bir o qədər azalmış olar. Müxtəlif siyasi demaqogiyaya və ritorikaya yer qalmaz.

Fəlsəfənin mühüm kateqorial prinsiplərindən olan ümuminin və xüsusinin vəhdəti prinsipi özü imkan verir ki, ümumdünya elmi və fəlsəfi düşüncəsinin verdiyi imkanlar daxilində hər bir millət öz həyatından irəli gələn problemləri həll etmək üçün özünün bu və ya digər cəhətləri ilə başqalarından fərqlənən fəlsəfəsini yaratsın Bir daha qeyd edim ki, bu fəlsəfə öz baza prinsipləri etibarilə dünya elmi və fəlsəfi fikrinə əsaslanır. Lakin öz funksiyası etibarı ilə ölkənin, millətin maddi və mənəvi həyatında mövcud olan problemlərin həllinə istiqamətlənir. Əgər istər şərq və istəsə də qərb fəlsəfəsinin keçmişinə və bu gününə nəzər salsaq, görərik ki, hər bir filosof nəzəri konsepsiyasını qurarkən öz dövrünə məxsus olan real ictimai varlıqdan və fikir gerçəkliyindən çıxış edir. Düzdür, onlar öz dövrlərini qabaqlayan, yaşadıqları sosial zamanın və məkanın çərçivəsindən çıxaraq dünya düşüncəsinin gələcək istiqamətlərini də müəyyənləşdirən fikirlərdə söyləyirlər. Lakin bu fikirlərin də çıxış nöqtəsini yaşadıqları sosial və mənəvi mühit təşkil edir. Platonun, Aristotelin, R.Dekatın, J.Kantın, M.F.Axundovun və başqalarının yaradıcılığı bu fikri təsdiq edir.

Təbii olaraq belə bir sual yarana bilər ki, fəlsəfə yalnız ictimai gerçəkliyi, orada mövcud olan sosiomədəni durumu deyil, həm də dünya və onun dərk olunması ilə bağlı olan ümumfəlsəfi

problemləri də öyrənir. Ona görə də sosial zaman və məkan prinsipindən kənara çıxaraq ümumiləşməli və deməli, daha da abstraktlaşmalıdır. Belə bir vəziyyət isə fəlsəfənin əsasən keçmiş doqmatik sovet marksizminin istifadə etdiyi qanun və kateqoriyalar ətrafında gəzib-dolanmasına gətirib çıxarır. Bu da öz növbəsində bu qanun və kateqoriyaları çox dayaz öyrənmiş olan diletantların əmələ gəlməsinə səbəb olur. Hegel və Marks kimi nəhənglərdən qalmış fəlsəfi prinsiplər karikatura səviyyəsinə düşür və yalnız fəlsəfi imitasiyaya çevrilir.

Hələ qədim dövrlərdən başlayaraq dünya fəlsəfi fikrinin məşğul olduğu elə problemlər var ki, onlardan heç zaman yan keçmək mümkün deyildir. Çünki bu problemlər həm adi, həm də nəzəri şüurun cavab axtardığı suallardır və hələlik bu suallara birmənalı cavab tapmaq mümkün olmamışdır. Bu sualları yığcam halda qeyd etsək, təxminən aşağıdakılardan ibarətdir: dünyanın nədən və necə yaranması; insanın nədən, nə zaman və harada yaranması; insan idrakının dünyanı dərk edib-edə bilməməsi; həyatın mənası; dərketmədə yol verilən yanılmaların hansı yollarla aradan qaldırıla bilməsi; obyektiv yanaşma ilə subyektiv düşüncə, maraq və dəyərləndirmə arasındakı ziddiyyətlərin həlli üsullarının tapılması; düşüncənin sosiomədəni mühitlə bağlılığı, perspektiv öngörmə və s. Əlbəttə, buraya çoxlu digər sualları da əlavə etmək olar. Lakin ilk təsəvvür üçün elə bunlar da kifayət edər.

Bu kimi məsələlər dünya fəlsəfi fikrinin inkişafının bütün dövrlərində filosofların və digər xüsusi elm sahələrində çalışan alimlərin üzərində işlədikləri problemlər sırasına daxil olmuşdur. Bunlar birdəfəlik və birmənalı həlli mümkün olmayan problemlərdir. Lakin bu problemlər üzərində aparılan tədqiqatlar bütövlükdə bugünkü dünya elminin və fəlsəfi fikrinin əldə etdiyi nailiyyətlərə gətirib çıxarmışdır. Bütün universal mahiyyətli fəlsəfi problemlər heç vaxt öz qəti və birmənalı həllini tapmadığı kimi, bu problemlər də tapmayıb. Bunlar həmişə insanları düşündürən, onları daha ciddi və daha dərin elmi axtarışlara istiqamətləndirən intellektual mühərrik rolunu oynayıblar və oynayacaqlar. Fəlsəfi təfəkkürə malik olan hər hansı bir tədqiqatçı bu problemlərdən, dünya fəlsəfi və elmi fikrinin bu problemlər haqqında irəli sürdüyü konsepsiya və ideyalardan yan keçə bilməz. Burada fəlsəfi və elmi fikrin inkişaf tarixi onun bu günkü səviyyəsi ilə vəhdət təşkil edir. Dünya fəlsəfi və elmi fikir tarixini öyrənməyin vacibliyi də elə buradan irəli gəlir. Çünki bu bazaya yiyələnmədən onu özününküləşdirmədən hansısa elmi problemin tədqiqinə girişmək və nə isə yeni bir nəticə əldə etmək, sadəcə olaraq, mümkün deyildir. Bu fikir, yaxud paradiqma bütün elm sahələrinə və xüsusilə fəlsəfəyə aiddir. Buna **diskursiv paradiqma** da demək olar.

Bəziləri qloballaşma ideyalarına həddən artıq uyaraq və qloballaşmaya artıq gerçəkləşməkdə olan və getdikcə sürət toplayan bir proses, hadisə kimi baxaraq belə düşünürlər ki, fəlsəfə də qloballaşmalı və ümumiyyətlə, vahid dünya fəlsəfəsinə çevrilməlidir. Onun postulat və prinsiplər sistemi də eyni olmalıdır. Ona görə də sosial zaman və sosial məkan prinsipi də özünün konkret məzmun hüdudundan çıxmalı və ümumi, Yer kürəsi miqyasında coğrafi məzmun kəsb etməlidir. Lakin yaddan çıxarırlar ki, Yer kürəsi müxtəlif iqlim qurşaqlarına bölündüyü kimi, bu yer kürəsinə mənsub olan cəmiyyətlər də hər biri onun tarixi keçmişi və indisi ilə bağlı olan müxtəlif sosial məkan və sosial zaman ölçüləri hüdudunda mövcuddur. Buna görə də müxtəlif fəlsəfi məktəblər, cərəyanlar, yanaşmalar mövcuddur. Keçmiş sovet marksizmində olduğu kimi, dünya fəlsəfi fikrini zorla bir çərçivəyə salmaq fəlsəfi düşüncənin özünün yoxsullaşmasına, həyatdan ayrı düşərək sxolastik doqmalar yığımına çevrilməsinə səbəb olur. Hələlik isə dünyanı onun bütün zənginliyində əks etdirə biləcək məntiqi bir sistem yoxdur. Belə bir sistem yaratmaq təşəbbüsləri isə uğursuzluqla nəticələnmişdir. Ən möhtəşəm məntiqi sistem olan Hegel fəlsəfəsi hələ yaradıldığından bir az sonra S.Kyerkeqor, A.Feyerbax, A.Şopenhauer, Karl Marks və digərləri tərəfindən kəskin tənqidə məruz qalmışdı. Fəlsəfəni zorla vahid və mütləq bir sistemə salmaq iddiasında olan sovet marksist fəlsəfəsi isə bəzi hallarda fəlsəfə meydanında filosof əvəzinə mövcud ehkamlar sistemini əzbərləmiş, diletantlar yetişdirirdi.

Milli kökdən, tarixdən və bugünkü gerçəklikdən məhrum olan fəlsəfə elm deyil, intellektual tullantıdır. Onun nə düşüncə, nə də praktika üçün heç bir əhəmiyyəti yoxdur. Bəzən elə dissertasi-

yalar, kitablar, məqalələr yazılır ki, məzmununa görə onların harada yazıldığını və nə üçün yazıldığını müəyyənləşdirmək müşkül işə çevrilir. Azərbaycana aid bir neçə fakt verilsə də, bunlar kontekstin daxili məntiqi ilə uzlaşmır və yapışdırma kimi görünür. Bir də görürsən ki, hansısa bir məşhur Qərb, yaxud Şərq filosofunun yaradıcılığına aid bir əsər meydana çıxır. Filosofun qısa, yaxud geniş tərcümeyi halı, əsərləri, fikirləri bir-bir sadalanır, şərhlər verilir. Lakin bütün bunlar: birinci, həmin dövrün ümumi sosio-mədəni, ikinci, ümumi elmi düşüncə, üçüncü, ictimai-siyasi hadisələrin gedişi və dördüncü, bu filosofun həmin hadisələrə necə yanaşması və hansı yeni ideyaları irəli sürməsi baxımından qiymətləndirilmir. Çünki bütün bunlar tədqiqatçıdan daha geniş spektrdə tədqiqat aparmağı, xüsusiləşdirmə və ümumiləşdirmə bacarığı, başqa sözlə, qabiliyyətlə yanaşı, həm də böyük zəhmət tələb edir. Əgər məsələyə daha ciddi yanaşılarsa biz artıq sönmüş ocaqlardan üzdə olan külü deyil, bu külün altında olan odu (əgər qalıbsa) eşələyib çıxara bilərik və onun istisinə (idraki əhəmiyyətinə) qızına bilərik. Buna görə də, “keçmişdən kül deyil, od götürmək lazımdır” zərb məsəli yüksək intellektual əhəmiyyətə malikdir. Bəzən də hər hansı bir fikri götürür, onu ciddi-cəhdlə, həmin fikri söyləmiş müəllifin heç ağlına gəlməyən bir dərəcədə müasirləşdirir və bunu həmin müəllifin adı ilə oxuculara təqdim edirlər. Oxucu da çaşıb qalır ki, yüz illər bundan əvvəl bu fikrilər vardısa, bəs onda nə üçün bu keçən tarixi müddət ərzində biz hansısa yeni bir şey fikirləşə bilməmişik. Bizim intellektual inkişafımız dayanıbmı? Axı, bu təfəkkürün, dərketmənin inkişaf qanunlarına zidd olan bir faktdır. Məsələn, keçən əsrin 80-ci illərində öz sahələrində yüksək səviyyəli mütəxəssislər olan iki təbiətşünas alim (fizik və kimyaçı) Nizami Gəncəvinin astronomiyaya və kimyaya aid fikirlərinə istinad edərək çox böyük aludəciliklə və ciddi-cəhdlə biri Nizamini astrofizik, digəri isə kimyaçı etmişdi. Nədənsə hər ikisi müxtəlif vaxtlarda əsərlərinin əlyazmasını mənə vermiş və xahiş etmişdilər ki, onlara rəy verim. Mən də onların əsərlərini çox diqqətlə oxuduqdan sonra hər ikisinə cavab vermişdim ki, çox böyük zəhmət çəkmisiniz. Nizami nə astrofizikdir, nə də kimyaçı. O, dövrünün böyük ziyalısı və dahi istedada malik filosof şairidir. Yüksək intellektə malik bir ziyalı kimi elmdə mövcud olan ideyaları mənimsəmiş və onlardan öz bədii fantaziyasının verdiyi imkanlar hüdudunda istifadə etmişdir. Əgər Jül Vern öz əsərlərində sualtı qayıqdan bəhs edibsə, Herbert Uels “Zaman maşını” romanında sürətlə əlaqədar olaraq zamanın nisbiliyi problemindən bəhs edibsə, bu heç də o demək deyildir ki, birinci gəmi konstruktoru, yaxud mühəndisi, ikinci isə nisbilik nəzəriyyəsinin yaradıcısıdır. Həm də bu zaman bütövlükdə Qərb elmi bu ideyalar içərisində yaşayır və onların fiziki, riyazi həlli və texniki tətbiqi üzərində düşünür və işləyirdi. Məsələn, Herbert Uelsin “Zamanın maşını”nda irəli sürdüyü ideyalarla (1898) xüsusi nisbilik nəzəriyyəsi (1906) arasında cəmi səkkiz il fərq var idi. Jül Vernin dövründə isə artıq sualtı qayıqlar üzərində qızğın iş gedirdi. Nizaminin ideyaları isə şərqdə elə bədii ideya halında qalmış və özünün elmi həllini tapmamışdır. Yaxud Nizaminin “güc elmdədir, başqa cür heç kim, heç kimə qalib gələ bilməz” fikrini ondan dörd əsr sonra yaşamış ingilis filosofu F.Bekon da söyləmişdir. Nizaminin fikri Şərqdə deklarativ fikir olaraq qaldığı halda Bekon həm də özü müxtəlif eksperimentlər aparmaqla elmi və texniki biliklərin inkişafına təkan vermişdir. İndi hamının evində olan elektrik soyuducuların ideyasını və onun ilkin eksperimentini Bekon aparmış və bu eksperiment zamanı soyuqdəymədən xəstələnərək dünyasını dəyişmişdir. Xüsusilə, yeni dövrdən (elmdə elə bu yeni dövr Bekondan başlayır) başlayaraq Qərbdə nəinki elmi, hətta dəyərli bədii ideya belə praktika ilə əlaqələndirməyə başlamış, Şərqdə isə daha çox erudisiya nümayişinə, söz oyununa çevrilmişdir. Biz məsələlərin praktik həlli, onların tətbiqinin metod və üsulları haqqında ya heç düşünmürük, ya da çox az düşünürük. Onu ya “mümkün olmayan məsələ”, ya bunun üçün onillər, yüzillər lazımdır deyərək yaxamızı qurtarmağa çalışırıq. Yaddan çıxarırıq ki, hər bir məsələnin az-çox praktik həlli elə on illər və bəlkə də, daha çox vaxt tələb edir. Buna görə də işə başlamaq və həmin istiqamətdə intensiv surətdə çalışmaq lazımdır.

Azərbaycan fəlsəfi və sosioloji fikri üçün həm tarixi, həm də müasir istiqamətdə tədqiq olunmalı, ciddi və aktual problemlər vardır. Bunlar tarixi istiqamətdə bizim hansı zamandan başlayaraq elmdə və bütövlükdə Qərbdən geri qalmağımızın səbəblərini aşkara çıxarmaqdır. Bu səbəbləri hərtərəfli aşkara çıxarmadan biz yenə də müasir elmdə, texnikada və ictimai həyatda geri qalmaqda da-

vam edəcəyik. Biz televiziya kanallarında olduğu kimi, elə qədim dövrlərdən bu günə qədər olan nəzm ustalarını, müxtəlif hadisələrlə bağlı tariximizə adı düşən adamların hamısını sağa-sola baxmadan dahi adlandıracağıq. Dahilik anlayışının məzmun və mahiyyətinə isə fikir verməyəcəyik. Hansı ki, XIX əsrdən başlayan yeni dövr Azərbaycanında cəmi iki nəfəri dahi adlandırmaq mümkündür. Bunlar M.F.Axundov və Ü.Hacıbəyovdur. Çünki hər ikisi ictimai şüurda və mədəniyyət tariximizdə yeni yol, yeni istiqamət açmışlar. Çox təəssüf ki, bizdə qondarma vətənpərvərlik, xalqsevərlik adı altında heç nə ilə əsaslanmayan hiper şişirtmələrə, uydurmalara yol verilir.

Azərbaycan fəlsəfəsinin əsas prioritet istiqamətlərindən biri fərdi, kütləvi və ictimai şüurla işləməkdir. Fərdi və kütləvi şüuru dərk olunmuş ictimai şüur səviyyəsinə qaldırmaqdır. Mən burada bu anlayışların hər biri, onların məzmunu və bu məzmunun sərhədləri haqqında danışmaq istəmirəm. Güman edirəm ki, bunlar özlüyündə oxuculara aydındır. Məsələ burasındadır ki, bu şüur səviyyələri həmişə olmuş, var və olacaqdır. Bunlarsız nə konkret insan, nə də hər hansı bir toplumun həyatı mümkün deyildir. Lakin məsələ fərdi və toplum (kütlə) şüuruna hansı istiqamətin verilə bilməsi və bunun metod və üsullarının tapılmasındadır. Burada dünya (əsasən Avropa) müəlliflərindən gətirilən çoxlu sitatlarla müşaiyət olunan iri həcmli fəlsəfi traktatlar çətin ki, məsələnin həllinə kömək edə bilə. Sırf elmi, yaxud akademik üslubda yazılmış belə kitablar olsa-olsa mütəxəssislər üçün nə isə verə bilər.

Bunlar başqa ixtisas sahələrində işləyənlər, tələbələr və başqaları tərəfindən ya heç oxunmur, oxumaq təşəbbüsü göstərənlər üçün isə o qədər də anlaşılan olmur. Fəlsəfə isə öz mahiyyəti etibarilə kütləvi elm sahəsidir. Onun funksiyası bu və ya digər istiqamətdə şüurlara təsir göstərmək, onun məzmununu dəyişdirmək və daha yüksək səviyyəyə qaldırmaqdır ki, bu səviyyədə praktikaya, təcrübəyə, gündəlik yaşayışa, həyat və düşüncə tərzinə çevrilə bilsin. Öz səfərbəredici rolunu tədricən yerinə yetirə bilsin. Bu təcrübə var. Çox uzaqlara getməyərək təkcə iyirminci əsrə nəzər salsaq, Frankfurt məktəbinin nümayəndələri olan T.Adornonun, E.Frommun, rus filosofları B.Kedrovun, H.Volkovun, Azərbaycan filosofu Z.Göyüşovun və başqalarının belə əsərlərini misal göstərmək olar. Bu təcrübədən istifadə edərək rəvan və anlaşıqlı dildə əsas mahiyyəti əks etdirən, nisbətən, kiçik həcmli kitablar yazılmalıdır və televiziya kanalları vasitəsilə onların reklamına nail olmaq lazımdır. İndi heç bir televiziya kanalında “yeni kitablar”, yaxud “sizin kitab rəfiniz” adlı veriliş, yaxud layihə yoxdur. Televiziya kanalları müxtəlif şou verilişlərə o qədər bənd olublar ki, kitabın və kitab oxumağın faydasını yaddan çıxarıblar. Elə bilirlər ki, müxtəlif internet məlumatları, saytlar, portallar hər şeyi əvəz edir.

Hətta müxtəlif kanallarda maarifçilik istiqamətində aparılan verilişlərdə belə dayazlıq, diletantlıq hiss olunur. Düşüncələrin əsaslandırılmış müxtəlifliyi və fərqli yanaşmalar yoxdur. Sonda isə aparıcı özünün əvvəlcədən hazırlanmış fikirlərini söyləyir ki, bu da bəzi hallarda heç verilişin gedişində söylənilən fikirlərlə uzlaşmır.

Bütün yazılanlara, deyilənlərə, müxtəlif nəzəriyyə və ideyaların olmasına baxmayaraq, fikrin, düşüncənin üzərinə yönəldiyi obyekt həmişə onun yeni istiqamətdə öyrənilməsini, dərk olunmasını tələb edir. Çünki hər bir obyekt müxtəlif daxili və xarici əlaqələr sistemində mövcuddur. Özlüyündə müxtəlif komponentlərdən ibarətdir. Bu əlaqələri və komponentləri onların sinergetik sistemində araşdırmaq, analiz və sintez etmək tədqiqatçıdan yüksək bilik, zəhmət və kreativlik tələb edir. Bu isə obyektə müxtəlif yanaşmanı tələb edir. Belə yanaşmanı mən **müstəqil yanaşma paradiqması** adlandırıram. Müstəqil yanaşma paradiqması öz məzmunu və mahiyyəti etibarilə fikrin, düşüncənin demokratiyası olan plüralizm, fikir, söz azadlığı kimi fundamental demokratik prinsipləri də özündə ehtiva edir. Həm də burada plüralizm fəlsəfi-elmi anlayış kimi özünü göstərir.

Sosial fəlsəfədə isə sərbəst yanaşma paradiqması özünü daha qabarıq halda göstərir. Nəzərə alsaq ki, hər bir sosial zamanın və sosial məkanın öz xüsusiyyətləri (tarixən yaranmış milli ənənə, təsərrüfat, yaxud iqtisadi həyatı, dini etiqad və ayinlər, milli psixologiya, ailə həyatı, dövlət və dövlətçilik və s.) var və buna görə də bir sosial zamana və məkana aid olan xüsusiyyətləri başqasına köçürmək, təqlid etmək istənilən, gözlənilən arzu olunan nəticəni vermir. Çünki bu, digərinə məxsus

olan psixologiyaya, şüura çökməmiş həyat və düşüncə tərzinin tələbindən özəl xüsusiyyətlərindən irəli gəlməmişdir. Düşüncəyə və fəaliyyətə kənardan daxil olan şey isə özününküləşə bilmir. Məsələn, indi bütün dünya demokratiyanı və demokratik dəyərləri: söz azadlığı, vicdan-etiqad azadlığı, iqtisadi azadlıq və s. kimi dəyərlər sistemini qəbul edir və heç kim sözdə bunlara qarşı çıxmır. Amma gəlin özlərini demokratik adlandıran cəmiyyətlərin siyasi quruluşlarına diqqət yetirək. Avropanın özündə bu Şimali Avropada bir cür (məs. İngiltərədə), Mərkəzi Avropada isə başqa cürdür. Heç bir yerdə bir-birini tam təkrar edən vahid bir model yoxdur. Belə halda "milli demokratiya " konsepsiyası özünü doğruldur. Lakin bu demokratiyanın meyarlar (kriteriyalar) sistemini işləyib hazırlamaq və onu konstitusiyaya daxil etmək lazımdır. "Milli demokratiya" və ümumi demokratik dəyərlərin təftişinə deyil, daha da zənginləşməsinə gətirib çaxarmalıdır.

Demokratiyanın idarə olunan (əsasən kənardan), yaxud olunmayan(daxili qüvvələrin hakimiyyət və milli maddi sərvətlərin bölüşdürülməsi üzərindəki dartışması) xaosa çevrilməməsi üçün həm sosial ədalət prinsiplərinə söykənən qanunlar və onlarım birmənalı icrası, həm də mənəvi-mədəni yetkinlik lazımdır. Bu isə ilk növbədə siyasi, elmi, texniki və maarifçi elitaya aiddir. Çünki cəmiyyət həyatında aparıcı, istiqamətverici rolu bunlar oynayırlar.

Demokratiya ilə əlaqələndirilən liberalizm, neoliberalizm, bazar iqtisadiyyatı, dövlətin iqtisadiyyata qarışmaması, bazarın özünün özünü tənzimləməsi və s. kimi birtərəfli yanaşmalar hələ möhkəmlənməmiş, işlək, mənəvi-mədəni və hüquqi bazası formalaşmamış cəmiyyətlər üçün xaosyaradıcı amilə çevrilir. Belə cəmiyyətlərdə dövlətin rolunu və funksiyasını azaltmaq olmaz. Dövlət əslində ondan ötrüdür ki, onun ərazisində gedən, baş verən bütün prosesləri nəzarətdə saxlasın. Özünün idarəedici, təşkiledici, tərbiyəedici, səfərbəredici, istiqamətləndirici, müdafiəedici funksiyasını yerinə yetirsin. Əslində dövlətin yaranması, onun legitimliyi də göstərilən və göstərilməyən bu funksiyalarla bağlıdır. Lakin dövlət heç də bütün işlərə birbaşa müdaxilə etməməli sadəcə olaraq görünməz əl kimi hərəkət etməlidir. Dövlətin zorakılıq və məcburetmə funksiyası da olmalıdır ki, qanun hüdudundan kənara çıxanları yerində oturtsun və cəzalandırsın. Dövlət özlüyündə əxlaq, mənəviyyat nümunəsi olmalıdır ki, onun vətəndaşları ictimai qınağı ən böyük cəza kimi qəbul etsinlər. İctimai qınağa qarşı etinasız münasibət bəsləməsinlər. Dövlətin və cəmiyyətin həyatında ictimai qınaq böyük təsir gücünə malik olmalıdır. Bu ictimai qınaq isə xalqın tarixi və sosial psixologiyası, mentaliteti ilə bağlı olur və olmalıdır. Ola bilər ki, bir ölkədə, bir xalqda heç bir ictimai qınağa səbəb olmayan, hamı tərəfindən adi hal kimi qəbul edilən bir hadisə, bir hərəkət başqa xalqda ictimai qınağa səbəb olsun. Məsələn, libido məsələsində freydizm nə qədər geniş yayılsa da Azərbaycan mentalitetində ərə getməmiş gənc qızların (və həm də evlənməmiş oğlanların) cinsi əlaqəyə girməsi ictimai qınağa səbəb olur. Çünki bu Azərbaycanda hələ ənənəvi olan ailə münasibətlərinin möhkəmliyinə səbəb olur. On səkkiz yaşı tamam olmamış qız və oğlanların cinsi əlaqəyə girməsi fizioloji və psixi inkişafa da mənfi təsir göstərir. Buna görə də gənc qız və oğlanlar üçün evlənənə qədər hər hansı bir cinsi əlaqədən söhbət gedə bilməz. Bu, bizim ümumi mentalitetimizdir və bunu qoruyub saxlamaq lazımdır. Heç bir gender problemi bu məsələyə toxuna bilməz. Bizimlə qonşu ölkə olan Rusiyada 13-14 yaşlı qızların öz bakirəliyini itirməsi, hamilə olması, doğulan uşaqları atmaları və s. böyük ictimai narahatlığa, müzakirələrə səbəb olmuşdur. Belə halların baş verməməsi üçün ciddi nəzarət və əsaslı izahatlar, tövsiyələr lazımdır.

Sərbəst yanaşma paradiqmasında tədqiq olunan obyekt, onun məzmunu, strukturu və əlaqələri haqqında mövcud olan bilgilər sadalanmadan, nəql olunmadan impilisit halda iştirak edir, baza rolunu oynayır. Kimlərinsə hansısa düzgün olmayan fikirləri, ideyaları ilə uzun-uzadı mübahisələr aparılmır. Bunlar zəruri olduqda sadəcə olaraq yığcam halda qeyd olunur və tədqiqatçı öz fikirlərini davam və inkişaf etdirir. Burada, sadəcə olaraq Aristoteldən qalma elmi etikaya əsaslanmaq lazım gəlir. O, deyirdi ki, yalnız fikirləri ilə razılaşdıqlarımıza deyil, razılaşmadıqlarımıza da minnətdar olmalıyıq ki, onlar bizdən əvvəl söylədikləri fikirlərlə bizim də o haqda düşünməyimizə kömək etmişlər [4, s.94]. Çox təəssüf ki, bu heç də həmişə belə olmur. Bəzən fikirlər, mövqelər qarşı-qarşı-

ya durduğu zaman ehtiraslar coşur, əsəblər gərginləşir və mübahisə aparanlar bir-biri haqqında elmə heç bir dəxli olmayan ifadələr işlədirdilər. Çalışmaq lazımdır ki, mümkün qədər belə hadisələrə yol verilməsin. Əlbəttə, bunun üçün son dərəcə təmkinli olmaq lazımdır.

Fəlsəfi tədqiqatlarda diqqəti cəlb edən məsələlərdən biri də nə dərəcədə zəruri olub- olmamasından asılı olmayaraq tanınmış, nüfuzlu filosofların və digər elm sahələrinin nümayəndələrinin söylədikləri ideyaları tənqidi təhlildən keçirməyərək qəti həqiqət kimi qəbul etməkdir. Bu, xüsusilə bu və ya digər münasibətlə fəlsəfi fikirlər söyləyən təbiətşünas alimlərdən gətirilən ideyalara aiddir. Unudulmamalıdır ki, təbiətşünaslıq və texniki sahədə işləyən alimlər nə qədər tanınmış, elm sahəsində nə qədər nüfuzlu olsalar da, onlar peşəkar filosoflar deyillər və bəzən məsələnin bir tərəfini tutanda, digər tərəfini, onun zəruri əlaqələrinin heç də hamısını tutmurlar. Məsələn, Rusiya və eləcə də Azərbaycan filosofları V.J.Vernadskinin əsərlərində söylənilən ideyalara tez-tez müraciət edərək iqtibaslar (sitatlar) gətirirlər. Vernadski isə fəlsəfənin də din kimi elm olmadığını söyləyir [5, s.490]. Fəlsəfə öz institutsional təsdiqini tapdığı, elmlər akademiyasının strukturuna daxil olduğu halda bu fikri sitat gətirməyə ehtiyac varmı? Bununla fəlsəfənin elm olub-olmaması haqqında mübahisələrin [6, s.4] yenidən qızışmasına rəvac verilmirmi? Artıq dəfələrlə sübut olunmuşdur ki, fəlsəfə elmi təfəkkürün ən yüksək və inteqral səviyyəsidir. Kollinqvudun dediyi kimi, elmi təfəkkürün ikinci, daha yüksək səviyyəsidir [7, s.25]. Konkret elmlər isə onun birinci səviyyəsidir. Konkret elmlər sadəcə olaraq öz nəzəri problemlərini həll etmək üçün bu ikinci səviyyədə də gəzişmələr etmək məcburiyyətində qalırlar.

Ümumiyyətlə, fəlsəfi və elmi fikrin inkişafı sosiomədəni mühit [8, s.5], sosial zaman və məkanla bağlı olduğu üçün fikir dünyasında zaman amilinin heç bir rol oynamaması [9, s.59] kimi qəti hökm çıxarmaq son dərəcə mübahisəlidir. Fikrin öz dövrünü qabaqlaması, öngörməsi isə onun nisbi müstəqilliyi ilə bağlıdır. Burada təfəkkür özü öz referentinə çevrilir [10, s.8] və bu fenomenal hadisə Kantın dili ilə desək, transsendent səciyyəyə malikdir. Fəlsəfənin bilavasitə maddi olan şeylərlə işləyən elmlərdən mühüm fərqlərindən biri də elə burada meydana çıxır. Məhz bu məqam çox vaxt o qədər də aydın olmur və adamların bir qismi fəlsəfədən üz döndərməyə başlayırlar. Hansı ki belə məqamlar intellektual fəaliyyətin ən yüksək pillələrini təşkil edir.

Bütövlüklə fəlsəfə mahiyyət haqqında elm olduğu üçün burada əsas problem heç də gerçək olan şeyin məzmununa daxil olan, yaxud məzmununu təşkil edən komponentlərin hansısa bir ardıcıllıqla nəzərdən keçirilməsi, araşdırılması deyil (bunu konkret elmlər: fizika, kimya, biologiya, sosiologiya, politologiya və s. edir), onların obyektin mövcudluq və dəyişkənlik prinsiplərinin, onun digər obyektlərlə olan əlaqələrinin, bu əlaqələrin formalarına və bu əlaqələr sistemində hər bir obyektin funksiyasının aşkara çıxarılmasındadır.

Sosial fəlsəfəyə gəldikdə isə onun obyekti bütövlükdə mövcud cəmiyyət, onun vahid sistemi və bu sistemə daxil olan yarımsistemlər (iqtisadi, siyasi, sosial, mədəni) arasındakı qarşılıqlı əlaqə və təsirlərdir. Bu yarımsistemlərdə hansı birininsə əsas, digərlərinin törəmə kimi götürülməsi isə metodoloji yanlışlığa yol verməkdir. Adətən insanların və cəmiyyətin iqtisadi həyatı gündəlik yaşayışın ən zəruri tələbi olduğuna görə diqqəti daha çox cəlb edir və belə təsəvvür yaranır ki, insan və cəmiyyət həyatı iqtisadiyyat üzərində qurulur. Lakin bütün tarixi inkişaf sübut edir ki, iqtisadiyyatın hansı səviyyədə olması, cəmiyyətin, insanların yaşayış səviyyəsi onların öz əmək fəaliyyətlərini necə qurmalarından, bu əməyə tətbiq olunan bilik və bacarıqların səviyyəsindən asılıdır. Burada təkrar olunan ənənəvi əməklə, yeni bilik və bacarıqlara əsaslanan əməyin məhsuldarlığı arasında ciddi fərqlər meydana çıxır. Deməli, söhbət əməyin əzələ qüvvəsinə əsaslanmasından onun beyin, düşüncə qüvvəsinə keçməsindən gedir. Burada cəmiyyətin necə təşkil olunması, ümumi vətəndaş mədəniyyəti ilə yanaşı siyasi mədəniyyət də əhəmiyyətli rol oynayır. Bütün bunlar isə elmi şüurla yanaşı, ictimai şüur anlayışının da nə qədər böyük rol oynalığını göstərir. Kainatın dərk olunmasından başlamış müasir nanotexnologiyaya və biotexnologiyaya qədər nə məlumdursa və nə tətbiq olunursa, hamısı şüur amili ilə bağlıdır. Şüur sanki tədriclə güclənən, daha yüksək gərginliklə enerji istehsal

edən generatordur. Bu generatorun işləmə səviyyəsi isə mövcud sosiomədəni mühit və onun verdiyi ontoloji və qnoseoloji tələblərlə, mövcud sosial mühitlə bağlıdır. Burada hansısa bir materializm, yaxud idealizm məsələsini qoymaq heç bir əhəmiyyət kəsb etmir və hər hansı bir məsələni həll etmək üçün yaramır. Təsadüfi deyildi ki, XVII-XVIII əsr filosofları tərəqqi (proqress) anlayışını bütövlükdə şüurun, əqlin, o cümlədən ictimai şüurun inkişafı ilə bağlayırdılar. Xüsusən Türqonun, Kondorsenin, Kantın və başqalarının fəlsəfəyə gətirdikləri və əsaslandırdıqları bu yenilik öz mahiyyəti etibarilə heç də Qalileyin, Keplerin, Nyutonun və başqalarının təbiətşünaslığa gətirdikləri yeniliklərdən az əhəmiyyətli deyil və metodoloji baxımdan daha üstündür. Çünki bu, təbiətşünaslıq elminin də inkişafının mühüm səbəblərini açır.

Azərbaycan fəlsəfi fikri bilavasitə Azərbaycan gerçəkliyinə xas olan mühüm problemləri araşdırmaqla və yeri gəldikcə proqnostik ideyalar irəli sürməklə bir elm sahəsi kimi özünü təsdiqləyə və beyinlərə yol aça bilər. Bunun üçün o bir tərəfdən gerçəkliyin obyektiv təhlilinə əsaslanmalı, digər tərəfdən isə şüurlarda yuva salmış, köhnəlmiş stereotipləri sıxışdırıb aradan çaxara bilər. Bu yolda insanlar cəmiyyətin nə demək olduğunu dərk edir və cəmiyyətlə birgə yaşamağı öyrənərlər. Çünki açıq desək, indi bizdə adamlar demokratiya və bazar iqtisadiyyatını daha çox özlərinə məlum olan köhnə düşüncə və stereotiplərə uyğunlaşdırmaq istəyirlər. Bu isə nə demokratiya, nə də bazar iqtisadiyyatı prinsiplərinə uyğun deyildir. Çünki bunların hər ikisi heç də ayrı-ayrı adamların şəxsi maraqlarına deyil, bütövlükdə cəmiyyətin sosial inkişafına xidmət edən hadisələrdir. Fərd öz həyat tərzi ilə sosiumdan təcrid olunmuş vəziyyətdə deyil, sosiumla vəhdətdə olmalıdır. Sosiumdan kənarda qalan fərd marginaldır və onun şüuruna məxsus olan stereotiplər də marginal stereotiplərdir.

İndi dünya miqyasında liberalizm və bazar iqtisadiyyatı, xüsusilə, tənzimlənməyən bazar iqtisadiyyatı ətrafında qızğın mübahisələr gedir. Bu, xüsusilə, 2008-ci ildən başlayan maliyyə böhranı ilə bağlıdır. Düzdür, maliyyə böhranı adlandırılsa da, hamıya məlumdur ki, maliyyə böhranı iqtisadiyyatın bütün sahələrində gedən böhranın görünən tərəfidir. Liberalizm, bütövlükdə liberal iqtisadiyyat heç də bütövlükdə cəmiyyətin sosial durumunun yaşxılaşmasına gətirib çıxara bilmir. ABŞ kimi ən varlı ölkədə əhalinin on beş faizi dilənçi vəziyyətində yaşayırsa, başqa ölkələrdə bu faizin daha çox olmasını güman etmək olar. Ümumiyyətlə, liberalizm və o cümlədən də liberal iqtisadiyyat dünya miqyasında nəzarətsizliyə, rəqabət adı ilə transmilli şirkətlərin və maliyyə oliqarxlarının müxtəlif vasitələrlə yerli istehsalı sıxışdırıb aradan çıxarmasına, öz maraqlarını diktə etməyə çalışmalarına və həddən artıq sərvəti ələ keçirmələrinə gətirib çıxarmışdır. Müasir dünyanın yaşadığı iqtisadi böhran da bununla bağlıdır. Buna görə də iqtisadiyyat dövlət tərəfindən nizamlanmalıdır [11, s.3]. Hər bir təsərrüfatçı öz biliyi, bacarığı, təşəbbüskarlığı, zəhmətkeşliyi və təşəbbüskarlığı ilə qazanmaq imkanına malik olmalıdır. Əlbəttə, hüquqi və mənəvi-etik normativləri gözləmək və onlara əməl etmək şərtilə. Bu istiqamətdə bizim iqtisadi nəzəriyyə ilə məşğul olan mütəxəssis alimlərimiz üçün həm nəzəriyyə, həm də onun tətbiqi metodlarının işlənilməsi sahəsində geniş fəaliyyət meydanı vardır. Azərbaycan iqtisadiyyatının aqrar sahəsi hələ də arzu olunan səviyyədə deyil və bu sahəni qaldırmaq üçün nə etməyin və necə etməyin yolları indi hamını narahat edir. İnvestisiya qoyuluşu üçün dövlətin əlində kifayət qədər pul var. Bu pulların səmərəli istifadəsinin optimal yollarının tapılması ən vacib məsələlərdən biridir. Bütün bunları başqaları gəlib bizim üçün həll etməyəcək, biz özümüz oturub düşünməli və həll etməliyik. Bu məsələlər həm də bizə demokratiyanın, sosial dövlətin və milli iqtisadiyyatın Azərbaycan modelini verməlidir. Hərçənd bu modelin digər cəhətləri də işlənilməlidir.

Beləliklə, Azərbaycan fəlsəfi fikri bir tərəfdən dünya fəlsəfi fikrini öyrənməli, digər tərəfdən isə Azərbaycan gerçəkliyinin, azərbaycanlı düşüncəsinin məzmununu təhlil etməklə məşğul olaraq məhz Azərbaycan fəlsəfəsini yaratmağa, formalaşdırmağa səy göstərməlidir. Bu isə, şübhəsiz ki, ümumbəşəriliklə milliliyin vəhdəti nəticəsində mümkün ola bilər.

**İstifadə olunmuş ədəbiyyat**


1. Зотов А.В. Существует ли мировая философия. //ВФ, 1997, № 4.
2. Арон Р. Избранное: Критическая философия истории. М.: С-Г. 2000.
3. Абасов А.С. Проблемы истории, теории и методологии познания. Баку, 2001.
4. Аристотель. Сочинения. Т. 1, М.; 1975.
5. Вернадский В.И. Биосфера и ноосфера. М.; 2004.
6. Ерахтин А.В. Если философия не претендует на истину – она не нужна. Экономическая и философская газета. 2007, № 37.
7. Коллингбуд Р.Дж. Идея истории. М.; 1980.
8. Степин В.С. Интервью о XXII Всемирном философском конгрессе, проведенном в Сеуле в 2008 г. Экономическая и философская газета, 2008, № 18-50.
9. Xəlilov S.S. İki dünya bir olsa. //Fəlsəfə və sosial siyasi elmlər, 2009, № 3.
10. Дубровский Д.И. Выступление. Материалы круглого стола. //ВФ, 2008, № 3.
11. Богомолов О. Невидимая рука и властная дань. Литературная газета, 4-10 февраля, 2009.


**Айдын Ширинов**

## ОБЩЕЧЕЛОВЕЧЕСКОЕ И НАЦИОНАЛЬНОЕ В ФИЛОСОФИИ


**Резюме**

В статье ставится проблема соотношения общечеловеческого содержания и национальных особенностей в процессе развития науки и техники. Указывается, что развитие не только общественно-гуманитарных, но и естественных и технических наук зависит от уровня отдельных базисных достижений, являющихся результатом не какой-то географической среды или пространства, а именно социального пространства и социального времени, связанных с помыслами и деятельностью людей, народа в целом. В философских исследованиях необходимо исходить прежде всего из жизни народа и сложившегося его сознания. А для этого необходимо помимо имеющихся разработать дополнительные парадигмы. Автор выдвигает парадигму самостоятельного, независимого подхода к решению проблем, и по мере возможности обосновывает ее.


**Aydin Shirinov**

## THE COMMON TO ALL MANKIND AND THE NATIONAL IN PHILOSOPHY


**Summary**

The article raises the problem of correlation of the common to all mankind with the national pecularities in the process of development of science and technics. It is pointed out that advancement of not only social and humanitarian but also natural and technical sciences depends on the level of basic achievements each taken separately, which are not a result of some geographical surrounding or area, but namely of social scope and social time related to the human thought and activities, a people on the whole. In philosophical researches it is necessary to proceed first from a people′s life and their established consciousness. And this requires to elaborate the additional paradigms in addition to existing ones. The author puts forward the paradigm of the independent original attitude to solution to the problems and substantiates it as far as possible.

**UOT – 32**

**Günel Məlikli**
**BDU, doktorant**

# AZƏRBAYCAN RESPUBLİKASININ SOSİAL SİYASƏTİNİN İNKİŞAFINDA BEYNƏLXALQ ƏMƏKDAŞLIĞIN ROLU

**Açar sözlər:** sosial sahə, sosial inkişaf, demokratik mühit, xarici siyasət, beynəlxalq sosial təminat assosiasiyası.

**Ключевые слова:** социальное развитие, демократическая среда, внешняя политика, международная ассоциация социального обеспечения.

**Keywords:** social development, democratic environment, foreign policy, International Social Security Association.

Azərbaycan Respublikasının xarici siyasətini təşkil edən mühüm amillərdən biri də beynəlxalq sosial əməkdaşlıqdır. Belə ki, istənilən dövlət öz sosial siyasətini həyata keçirərkən, bu sahədə inkişaf etmiş dövlətlərin təcrübələrinə əsaslanır. 1991-ci ildə yenidən müstəqillik əldə edən Azərbaycan Respublikası da sosial siyasi sahədə beynəlxalq əməkdaşlığa xüsusi önəm verməyə başladı. Bu əməkdaşlıq həm dünya ölkələri ilə həm də beynəlxalq təşkilatlarla qurulurdu.

Belə ki, ölkəmiz öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikasının siyasəti nəticəsində, ölkəmizin sosial inkişafı və dünya sosial sisteminə inteqrasiyası sahəsində çox böyük uğurlar əldə olunmuşdur. Sosial-iqtisadi sahədə beynəlxalq əməkdaşlığın gücləndirilməsi sayəsində Azərbaycan, demək olar ki, bütün nüfuzlu beynəlxalq qurumlara, o cümlədən 1992-ci ildə Qara Dəniz İqtisadi Əməkdaşlıq təşkilatına, Beynəlxalq Valyuta Fonduna, Dünya Bankına, Avropa Yenidənqurma və İnkişaf Bankına, İslam İnkişaf Bankına və 1999-cu ildə isə Asiya İnkişaf Bankına üzv qəbul olunmuşdur. Yeni yaranan sahibkarlığı daha да inkişaf etdirmək, qeyri-neft sektorunun inkişafına nail olmaq və bununla da gələcəkdə sosial-iqtisadi inkişafı zəmanət altına almaq üçün ölkəmizdə özəl sektorun əhəmiyyətini artırmaq məqsədilə xarici investorların cəlb edilməsinə şərait yaradılmışdır və bu iqtisadi siyasətin səciyyəvi xüsusiyyətlərindən biri olmuşdur. Həyata keçirilmiş məqsədyönlü beynəlxalq əməkdaşlıq nəticəsində Azərbaycanda sahibkarlar təbəqəsi inkişaf etmiş, ölkənin sosial inkişafında özəl sektorun rolu daha da artmışdır. Sosial sahədə beynəlxalq təşkilatlarla əməkdaşlıq, Azərbaycan Respublikasının sosial siyasətinin inkişafına yüksək təsir göstərmişdir. Nəticədə, ölkədə sosial stabillik əldə edilmiş, vətəndaşların sosial təminatlarında yüksək inkişafa nail olunmuşdur.

Bütün bunlarla yanaşı, Azərbaycanın yerləşdiyi region və həmsərhəd olduğu dövlətlər, Azərbaycanın sosial siyasətinə daim müəyyən təsir göstərmişdir. Müstəqilliyin ilk illərində regionda olan gərginlik, qonşu dövlətlərlə müəyyən problemlərin mövcud olması sosial sahədə inkişafa, mənfi təsirlər göstərirdi. Bu, xüsusilə, İran İslam Respublikası və Rusiya Federasiyası ilə münasibətdə özünü daha qabarıq şəkildə büruzə verirdi. Lakin Ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra bu problemlər yavaş-yavaş aradan qalxmağa başladı.

Dövlət idarəçiliyi sahəsində zəngin təcrübəyə malik olan Heydər Əliyev özündən əvvəl hakimiyyətdə olan qüvvələrin xarici siyasətdə yol verdikləri kobud səhvlərin aradan qaldırılması istiqamətində də ciddi addımlar atdı. Qonşu dövlətlər olan Rusiya və İranla münasibətlər normallaşdırıldı, ölkənin təhlükəsizlik problemi, onun təmin edilməsi yolları və vasitələri, qlobal və yerli təhlükəsizlik maraqlarının məharətlə uzlaşdırılması təmin edildi, geostrateji və geoiqtisadi üstünlüklərdən ölkənin milli maraqları çərçivəsində bəhrələnmək xarici siyasətin strateji vəzifələrindən birinə çevrildi. Qeyd etmək yerinə düşər ki, hazırda ölkəmizlə Rusiya Federasiyası arasında əmtəə dövriyyəsi 2 milyard manatdan yuxarıdır. Bu, ölkədə yaşayan soydaşlarımızın yaşayış səviyyəsi yüksəlmiş, sosial təminatları yaxşılaşmışdır. Ölkə daxilində sarsılmaz bir sabitliyin əsası qoyulduqdan sonra xarici siyasət sahəsində atılan mühüm addımlardan biri Ermənistanla gedən müharibədə atəşkəsə nail

olunması oldu [1, s.88]. Lakin ermənilərin işğalçı siyasəti nəticəsində topraqlarımızın 20 faizi zəbt edildi, bir milyondan çox vətəndaşımız qaçqın düşdü və ölkəmiz bu işğalın ağır sosial-iqtisadi nəticələri ilə üz-üzə qaldı.

Ulu öndər ölkə daxilində də düşünülmüş siyasət yürütməklə bütün vətəndaşların, milli, sosial təbəqələrin, siyasi, ictimai və digər resursların Azərbaycanın müstəqil dövlətçiliyi və ərazi bütövlüyünün qorunması ətrafında səfərbər edilməsinə nail oldu [1, s. 89]. Belə ki, neft-qaz sektorunda yeni müqavilələr bağlandı, dünyanın aparıcı neft şirkətləri ölkəmizlə əmkdaşlıq etməyə başladılar. Böyük neft siyasəti Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə dünyanın bir neçə ölkəsinin (ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanı) 13-ə yaxın məşhur neft şirkəti (Amoko, BP, MakDermott, Yunokal, ARDNŞ, Lukoyl, Statoyl, Ekson, Türkiyə petrolları, Penzoyl, İtoçu, Remko, Delta) arasında müqavilə imzalanması ilə başlanıldı. «Əsrin müqaviləsi» Azərbaycanın iqtisadi inkişafının təməl daşına çevrildi. Bundan əlavə Ulu öndər daxili sosial siyasət sahəsində mühüm addımlar ataraq, sosial təminat sisteminin yenidərn qurulmasına, istehsal, xidmət sahələrinin yaradılmasına, vergi işinin yenidən və səmərəli təşkilinə, bank sektorunun yaranması və inkişafına nail oldu.

Azərbaycanın iqtisadi sferada sıx əməkdaşlıq etdiyi qurumlar sırasında yer alanlardan biri də Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatıdır (QDİƏT). Ölkəmiz 1992-ci ildən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvüdür. Respublikamızın QDİƏT-də iştirakının əsas məqsədləri təşkilatın əhatə etdiyi Qara dəniz regionunda xüsusi rola malik olduğunu sübut etmək və bu rolu möhkəmləndirmək, regiona proqressiv qurucu münasibət bəslədiyini göstərmək, Avropaya inteqrasiya siyasətini bütün ölçülərdə həyata keçirmək, Qara dəniz bölgəsindən nəqli ehtiva edən Qərbyönümlü neft strategiyasının davamlılığını təmin etmək, Azərbaycanın tranzit potensialını gücləndirmək, regionun aparıcı dövlətləri ilə (Türkiyə, Yunanıstan, Ukrayna, Rumıniya, Rusiya və b.) çoxtərəfli tərəfdaşlıq mexanizmi qurmaq və bununla da strateji maraqlarımızı qoruyub inkişaf etdirməkdir [3, s.157, 158].

Azərbaycan Respublikasının Xarici Siyasətinin bir sıra əsas vəzifə və prinsipləri var ki, bunların həyata keçirilməsi üçün dövlət müəyyən məqsədyönlü fəaliyyət aparır. Bu fəaliyyətə aşağıdakıları aid etmək olar.

1) Dövlətin müstəqilliyini, təhlükəsizliyini, ərazi bütövlüyünü, suverenliyini, qorumaq və bu fəaliyyəti beynəlxalq hüquq normaları çərçivəsində öz mənafeyinə uyğun həyata keçirmək. Təbii ki, dövlət istər xarici, istər daxili siyasəti öz mənafeyi nöqteyi-nəzərindən həyata keçirməlidir, lakin burada mütləq beynəlxalq vəziyyəti nəzərə almaq və bu siyasətin həyata keçirilməsində digər dövlətlərin mənafeyinə də toxunmaq olmaz.

2) Dövlət öz mənafeyi və milli maraqları ilə uyğun siyasət yeridən digər dövlətlərlə münasibətləri daha da sıx təşkil etməli, bu dövlətlərlə yaxından müttəfiqlik etməlidir. Bu əməkdaşlıq və müttəfiqlik nəticəsində dövlətin beynəlxalq aləmdə nüfuzu yüksəlir və mövqeyi möhkəmlənir.

3) Dövlət yerləşdiyi regionda baş verən bütün konfliktlərin həll edilməsi, yaranan gərginliyin aradan qaldırılması üçün daim səy göstərməlidir. Nəticədə regionda sabitlik yaranır və belə olan halda siyasi mühit sosial-iqtisadi inkişafın da sürətlənməsinə səbəb olur.

4) Xarici sosial-iqtisadi siyasət mütləq xalqın mənafeyinə uyğun aparılmalıdır. İqtisadiyyat beynəlxalq səviyyədə inkişaf etməli beynəlxalq sistemdə özünü göstərməlidir.

5) Dünya dövlətləri ilə tək siyasi və iqtisadi əlaqələr deyil, həmçinin humanitar, elmi, mədəni təhsil və s. sahələrdə də əlaqələr qurulmalıdır.

Bunlardan əlavə kənd təsərrüfatı və aqrar sahədə də islahatlar həyata keçirildi. «Torpaq islahatı» haqqında qanunlar digər hüquqi aktlar qəbul edildi. «Torpaq islahatı» qanununda Müstəqil Dövlətlər Birliyi məkanında ilk dəfə Azərbaycanda torpağın xüsusi mülkiyyətə verilməsi, ondan alqı-satqı obyekti kimi istifadə olunması öz əksini tapmışdır.

Azərbaycanın xarici siyasətinin əsas üstünlüklərindən biri də Avropa İttifaqı (Aİ) ilə əməkdaşlıq etməsidir. İki qitənin kəsişməsində yerləşən Azərbaycanın əlverişli coğrafi və strateji mövqeyi Avropa İttifaqına üzv olan xarici dövlətlərin ölkəmizlə siyasi və sosial-iqtisadi əlaqələr qurmaq və bu münasibətləri inkişaf etdirməsinə olan marağı artırır.

Hələ 1992-ci ildə BMT insan hüquqlarının qorunması sahəsində Azərbaycanla əməkdaşlığa başlamışdır. 1992-ci ildə Azərbaycan BMT-nin ixtisaslaşmış qurumu YUNESKO-ya qəbul olunmuşdur. Bundan əlavə ölkəmiz BMT-nin sosial qurumu olan Sosial Şura ilə də əməkdaşlıq edir. Bu qurum təşkilata üzv olan ölkələr arasında qarşılıqlı sosial münasibətlərin inkişaf etdirilməsi, bu ölkələr arasında səmərəli sosial əlaqələrin qurulmasını həyata keçirir. Ölkəmizlə bu qurum arasında münasibətlə çox geniş sahəni əhatə edir. İstər yoxsulluğun aradan qaldırılması sahəsində birgə görülən işlər, istər sosial təminat sisteminin inkişafı sahəsində atılan addımlar yüksək nəticələrlə müşayiət olunur.

Müstəqil Azərbaycan dövlətinin xarici siyasətinin konseptual əsasları, məqsədi, prinsipləri və əsas xüsusiyyətləri Azərbaycan Respublikasının 1995-ci il 12 noyabrda ümümxalq səsverməsi yolu ilə qəbul edilmiş Konstitusiyanın 7-ci maddəsinin II bəndində və 10-cu maddələrində öz əksini tapmışdır. Konstitusiyanın 10-cu maddəsində deyilir: «Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur» [2, s. 6-7].

Azərbaycanın sosial-siyasi sahədə və ümumilikdə daha yaxın əməkdaşlıq etdiyi təşkilatlardan biri də Avropa İttifaqıdır. 1998-ci ildə Avropa İttifaqı öz elçisini Azərbaycana göndərmiş, 2000-ci ildə Azərbaycan Respublikasının Avropa İttifaqında daimi nümayəndəliyi açımışdır. 22 iyun 1999-cu ildə ölkəmizlə Aİ arasında Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi (TƏS) (qüvvəyə minmişdir ki, bu da tərəflər arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu təsdiqləyir.7 iyul 2003-cü il tarixində Avropa İttifaqının regiondakı rolunun daha da aktivləşdirilməsi məqsədilə Aİ-nin Cənubi Qafqaz üzrə Xüsusi Nümayəndəsi təyin olundu. Nəticədə Azərbaycan və Avropa İttifaqı arasındakı əlaqələr yeni mərhələyə qədəm qoydu, münasibətlər daha da möhkəmləndirildi. Bu müqavilədə nəzərdə tutulurdu:

1) Tərəflər arasında dialoq yaratmaq və siyasi münasibətləri daha da inkişaf etdirmək;

2) Ölkənin bazar iqtisadiyyatının möhkəmləndirilməsinə və iqtisadi inkişafının güclənməsinə beynəlxalq dəstəyin artırılması;

3) İqtisadi, sosial, maliyyə, elmi, texniki, humanitar sahədə qarşılıqlı əməkdaşlığın gücləndirilməsi.

Bütün bunların həyata keçirilməsi üçün Azərbaycan-Aİ Əməkdaşlıq Şurası yaradılmışdır. İndiyə kimi Əməkdaşlıq Şurasının 6 toplantısı (12 oktyabr 1999, 10 oktyabr 2000, 30 oktyabr 2001, 1 oktyabr 2002, 30 sentyabr 2003, 14 sentyabr 2004) keçirilmişdir.

2004-cü ildə Avropa İttifaqı dövlət və hökumət başçıları Şurasının Brüsseldə keçirilmiş toplantısında Avropa Komissiyasının ölkəmizin Avropa Qonşuluq Siyasətinə cəlb edilməsi barədə tövsiyəsi təsdiq edildi. Nəticədə Azərbaycan Avropa Qonşuluq Siyasətinə qoşulmaqla bir sıra beynəlxalq layihələrin iştirakçısına çevrildi. Sosial-iqtisadi, inzibati islahatların səmərəli şəkildə həyata keçirilməsi və müsbət irəliləyişlərə nail olunması müqabilində ölkəmiz Avropa İttifaqının daxili bazarında müəyyən paya sahib olmaq imkanı əldə etdi. Aİ üzvü olan ölkələrlə qarşılıqlı siyasi-iqtisadi əlaqələrin inkişafı gələcəkdə ölkəmizin Ümumdünya Ticarət Təşkilatına qəbul edilməsinə dəstəyin gücləndirlməsini təmin edir. Aİ 1991-ci ildə yaradılmış TACİS proqramı çərçivəsində Azərbaycanda aparılan sosial-iqtisadi islahatları dəstəkləyir. TACİS proqramının Azərbaycanla əməkdaşlıqda üç əsas istiqamətinə - infrastruktur, özəl sektor və insan resurslarının inkişafına üstünlük verilir.

Ümumiyyətlə, araşdırmalar göstərir ki, Avropa İttifaqı tərəfindən ölkəmizə aşağıdakı sahələrdə 2004-cü ilə qədər 430 milyon avro məbləğində maliyyə yardımı edilib: qaçqın və məcburi köçkünlərə ərzaq yardımı; enerji layihələri, nəqliyyat, nüvə və ərzaq təhlükəsizliyi, infrastruktur islahatları; müharibə nəticəsində ziyan çəkmiş bəzi ərazilərin bərpa olunması (Füzuli rayonundakı dəmiryol stansiyası, elektrikötürücülərin yenidən qurulması, içməli su suvarma sisteminin bərpası, məktəblərin təmiri).

İttifaqla həyata keçirilən «Şərq Tərəfdaşlığı» Proqramı çərçivəsində isə iştirakçı dövlətlərə, o cümlədən Azərbaycana 2010-2013-cü illərdə 350 milyon avro vəsait ayrılmalı, 2020-ci ilə qədər isə bu məbləğ 1,5 milyard avroya çatdırılmalıdır. 2009-cu ilin fevralında isə Avropa Komissiyası «Şərq Tərəfdaşlığı» Proqramı çərçivəsində əlavə olaraq 350 milyon avro ayırmaq niyyətində olduğunu

bildirib. Düzdür, Azərbaycanın hər hansı xarici maliyyə yardımlarına ehtiyacı yoxdur. Lakin o da faktdır ki, «Şərq Tərəfdaşlığı» Proqramı çərçivəsində Avropa İttifaqından alınan maliyyə yardımlarına ehtiyacı yoxdur. «Şərq Tərəfdaşlığı» Proqramı çərçivəsində Avropa İttifaqından alınan maliyyə yardımları elə bu proqramın icrasında sərf oluna bilər və bu, Azərbaycanın əlavə maliyyə vəsaiti ayırmasının qarşısını alır. Deməli, Avropa İttifaqının ayıracağı maliyyə vəsaitlərinin ölkəyə daxil olması Azərbaycanın iqtisadi qüdrətindən asılı olmayaraq olduqca sərfəlidir [3, s. 159].

Bundan əlavə Azərbaycan Respublikası ATƏT-ı ilə də geniş əlaqələrə malikdir və bu təşkilata üzv olan ölkələrlə siyasi, iqtisadi və digər sahələrdə çoxtərəfli əməkdaşlıq edir.

1996-cı ilin dekabrında Lissabon şəhərində ATƏT-in 54 üzvünün dövlət və hökümət başçılarının iştirakı ilə keçirilən Zirvə toplantısında 53 dövlət ölkəmizin bütövlüyünü qətiyyətlə dəstəkləmiş və Dağlıq Qarabağa yalnız Azərbaycanın tərkibində status verilməsinin mümkünlüyü göstərilmişdi [4, s.388].

1996-cı ildə aprel ayında Cenevrədə miqrasiya problemi üzrə beynəlxalq seminarda sosial problemlərin səbəblərinin öyrənilməsi və idarə olunması müzakirə olunmuşdur. Burada əsas məqsəd miqrasiyanın əsas səbəblərindən olan sosial problemlərin araşdırlması, onların həlli yollarının öyrənilməsi, bu problemin mövcud olduğu ölkələrə beynəlxalq dəstəyin təşkil edilməsi idi.

Azərbaycan BMT, Aİ, ATƏT və s. təşkilatlarla yanaşı, nüfuzlu beynəlxalq qurum olan Avropa Şurası ilə də sıx əlaqələrə malikdir. Hələ 1996-cı ildə Azərbaycan Respublikasının prezidenti “Avropa Şurası ilə Azərbaycan Respublikasının əməkdaşlıq proqramının həyata keçirilməsi üzrə tədbirlər haqqında” sərəncam imzalamışdır. Bununla da Azərbaycanın Avropa Şurasına üzv olan ölkələrlə qarşılıqlı əməkdaşlığının əsası qoyulmuşdur. Getdikcə güclənən əlaqələr nəticəsində ölkəmiz 2001-ci ldə Avropa Şurasına tamhüquqlu üzv olmuşdur. Azərbaycan həmçinin AŞ-nin Venesiya Komissiyası ilə sıx əlaqələr qurmuş, Avropa Şurasının başlıca sənədi sayılan İnsan Hüquqları və Əsas Azadlıqlarının Qorunması üzrə Konvensiyasına qoşulmuşdur. Bundan başqa Azərbaycan Avropa Şurasının Sosial Xartiyasına da qoşulmuşdur. Avropa Şurası tərəfindən qəbul edilmiş Avropa Sosial Xartiyası ümümilikdə sosial siyasətin həyata keçirilməsi üzrə konvensiyadır. Xartiya 1961-ci ildə qəbul edilmiş, sosial və iqtisadi sahədə insan hüquqlarının təmin edilməsi və onların qorunmasına zəmanət verən müqavilədir. Ümummilli liderimiz Heydər Əliyev 7 aprel 2003-cü il tarixində Azərbaycan Respublikasında Avropa Sosial Xartiyasının ratifikasiya edilməsinə hazırlıq işlərinin aparılması ilə əlaqədar “Avropa Sosial Xartiyasında nəzərdə tutulmuş normaların tətbiqi üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi ilə bağlı sərəncam imzalamışdır. Daha sonra Cənab İlham Əliyevin təşəbbüsü ilə 6 yanvar 2004-cü il tarixində ölkəmizin 31 maddədən ibarət olan Dəyişdirilmiş Avropa Sosial Xartiyasının 18 maddəsinə qoşulduğunu təsdiq edən qanun qəbul edilmişdir.

Avropa Sosial Xartiyasının əsas müddəaları aşağıdakılardır:

1. Hər bir şəxs azad surətdə seçdiyi işlə həyatını təmin etmək imkanına malikdir.
2. Bütün zəhmətkeşlər ədalətli iş şəraiti hüququna malikdirlər.
3. Bütün zəhmətkeşlər təhlükəsizlik və gigiyena tələblərinə cavab verən iş şəraiti hüququna malikdirlər.
4. Bütün zəhmətkeşlər özünün və ailəsinin normal həyat səviyyəsini qorumaq üçün kifayət qədər ədalətli əmək haqqı almaq hüququna malikdirlər.
5. Bütün fəhlə və sahibkarlar özlərinin iqtisadi və sosial mənafelərinin müdafiəsi üçün milli və beynəlxalq təşkilatlarda azad birləşmək hüququna malikdirlər.
6. Bütün fəhlə və sahibkarlar kollektiv müqavilə bağlamaq hüququna malikdirlər.
7. Uşaqlar və yeniyetmələr məruz qaldıqları fiziki və mənəvi ziyan təhlükəsindən xüsusi müdafiə hüququna malikdirlər.
8. Müvafiq vəsaiti olmayan hər bir şəxs sosial və tibbi yardım hüququna malikdir.
9. Cəmiyyətin əsas sosial özəyi olan ailə hərtərəfli inkişafının təmini məqsədilə sosial, hüquqi və iqtisadi müdafiə hüququna malikdir.
10. Analar və uşaqlar, onların ailə vəziyyəti və ailə əlaqələrindən asılı olmayaraq müvafiq sosial və maddi təminat hüququna malikdirlər.

11. Sosial təminat sisteminin kafi səviyyədə, heç olmazsa, beynəlxalq Konvensiyanın ratifikasiya üçün tələb olunan təminatının minimum normaları səviyyəsində olmasını təmin etmək.

12. Sosial təminatın daha yüksək səviyyəyə çatmasına nail olmaq.

13. Müvafiq ikitərəfli və çoxtərəfli sazişlər bağlanması və ya başqa yollarla öz vətəndaşları və digər razılığa gəlmiş tərəflərin vətəndaşlarının sosial təminatından istifadə etməsi üçün şəraitin yaradılmasına nail olmaq.

14. Kifayət qədər vəsaiti olmayan və öz qüvvəsi ilə və ya başqa mənbələrdən, o cümlədən sosial təminat sistemi çərçivəsində bu vəsaiti əldə edə bilməyən hər bir şəxsin zəruri yardım, xəstəliyə görə zəruri xidməti ala bilmək imkanını təmin etmək.

15. Bu cür yardım alan şəxslərin həmin səbəbdən siyasi və sosial hüquqlarına xələl gəlməməsini təmin etmək.

16. Hər kəsin şəxsi və ailə ehtiyaclarının yüngülləşdirilməsi və ya aradan qaldırılması üçün tələb oluna bilən məsləhət və ya şəxsi yardımı müvafiq dövlət və fərdi xidmətlər vasitəsilə ala bilməməsinə nail olmaq.

17. Cəmiyyətdə ayrı-ayrı şəxslərin və qrupların rifahı və inkişafına, sosial sahəyə uyğunlaşmasına, kömək edən sosial fəaliyyət metodları vasitəsilə göstərilən xidmətləri inkişaf etdirmək [5, s.343]. Azərbaycan sosial siyasətinin aparılması zamanı beynəlxalq təşkilatlarla əməkdaşlıqda bir çox dövlət orqanları yaxından iştirak edir. Müəyyən sosial proqramlarda birgə iştirak etmək, qarşılıqlı məsləhətləşmələr aparmaq, ekspert nümayəndələrinin mübadiləsini həyata keçirmək və başqa bu kimi sahələrdə əməkdaşlıq planlı şəkil almışdır [5, s. 298].

Avropa Sosial Xartiyasının müddəalarının icrası istiqamətində Azərbaycanda konkret işlər görülür. Hazırda Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Avropa Sosial Xartiyasının maddələri üzərində bir sıra fəaliyyat proqramı həyata keçirməkdədir. Əsasən də insanların əmək hüquqlarını təsvir edən maddələr üzərində işlər görülür. Bu maddələrin tətbiqi ilə bağlı hökumətimiz 4 məruzə hazırlayıb quruma təhvil verib. Ümumiyyətlə ölkəmizdə Avropa Sosial Xartiyasının maddələrinin tətbiqi ilə bağlı inkişaf var. İstər pensiyaların, istərsə də əməkhaqlarının artımında, eləcə də digər sosial problemlərin həllində bu hal özünü göstərir. Gələcəkdə əlillərin inteqrasiyası, miqrantların hüquqları sahəsində də bu xartiyanın maddələrinin tətbiqinin genişləndirilməsi nəzərdə tutulur.

Ümumiyyətlə, iqtisadiyyat, sosial siyasət sahəsində Azərbaycanın əməkdaşlıq etdiyi beynəlxalq təşkilatları üç qrupa bölmək olar:

1. BMT və onun orqanları (Sosial və İqtisadi Şura, xüsusi komitə və komissiyalar), BMT-nin ixtisaslaşmış qurumları (YUNESKO, BƏT və s.).
2. Regional (məhəlli) dövlətlərarası təşkilatlar.
3. Qeyri-hökumət təşkilatları [5, s. 298].

Bütün bunlardan əlavə Azərbaycan dünyanın bir sıra ölkələri ilə də qarşılıqlı sosial-iqtisadi əlaqələr qurmuş və bu əlaqələr nəticəsində ölkəmizin sosial-iqtisadi inkişafında irəliləyişlər baş vermişdir. Burada ABŞ, Kanada, o cümlədən Afrika və digər ölkələr daxildir.

Sosial-iqtisadi sahədə əməkdaşlığı hakimiyyət adından müxtəlif qurumlar həyata keçirir. Dövlət hakimiyyəti orqanlarından həm Ali İcra hakimiyyəti, həm Milli Məclis, həm də yerli orqanlar beynəlxalq təşkilatlarla sosial sahədə əməkdaşlıqda fəal iştirak edir. Ali icra hakimiyyəti Azərbaycan Respublikası Prezidentinin simasında sosial siyasətin strateji xəttini müəyyən edir, sosial yönümlü beynəlxalq təşkilatlarla əlaqədar yaradır, danışıqlar aparır, xüsusi saziş və razılaşmaların layihəsini hazırlayır, beynəlxalq sosial yönümlü sənədləri imzalayır, sosial proqramların həyata keçirilməsinə imkan, şərait yaradır, nəzarət mexanizminin fəaliyyətini təmin edir, sosial hüquqlara riayət olunmasına məsuliyyət daşıyır [5, s. 298, 299]. Bura əsasən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Dövlət Sosial Müdafiə fondu, Vergilər Nazirliyi, Ədliyyə Nazirliyi (İnsan Hüquqları sahəsində) daxildir. Beynəlxalq Sosial Təminat Assosiasiyasının 2004-cü il 6-7 may tarixində Cenevrədə keçirilən 88-ci iclasında Dövlət Sosial Müdafiə Fondu bu assosiasiyanın tamhüquqlu üzvlüyünə qəbul edilmişdir. Beynəlxalq Sosial Təminat Assosiasiyası 1927-ci il oktyabr ayının 4-də Brüssel şəhərində təsis edilmişdir. Assosiasiyanın fəaliyyət istiqamətləri aşağıdakılardan ibarətdir:

- sosial müdafiə, ( vətəndaşların sosial müdafiə sisteminin təkmilləşdirilməsi sahəsinsə işlərin görülməsi);
- aktual (sığorta) və statistik problemlər, (sosial sığorta problemlərinin həlli);
- araşdırma və tədqiqatlar, (sosial sahədə olan problemlərin araşdırılması və həlli yollarının öyrənilməsi istiqamətində işlər);
- inzibati idarəetmə məsələləri, (sosial siyasətin həyata keçirilməsində inzibatçılığın təkmilləşdirilməsi);
- informasiya texnologiyaları, (sosial-iqtisadi sahədə görülən işlərdə müasir informasiya texnologiyalarının tətbiqi);
- təlim və treninqlər ( maarifləndirmək məqsədilə görülən işlər).

Azərbaycan Respublikasının sosial siyasətinin formalaşmasında beynəlxalq təşkilatlar ilə əməkdaşlığın aşağıdakı əsas istiqamətlərini müəyyənləşdirmək olar:

1. Dövlət sosial təminat sisteminin beynəlxalq standartlara uyğunluğunu təmin etmək;
2. Sosial xidmətlər, xüsusən səhiyyə, təhsil sahəsində dövlətin fəaliyyətinin səmərəsini artırmaq;
3. Əmək münasibətlərini beynəlxalq əmək standartlarına uyğun olaraq tənzimləmək və mülki hüquq sahəsində müdaxilə edərək onun beynəlxalq xüsusi hüquq səviyyəsinə qaldırılmasını təmin etmək [5, s. 299].

Azərbaycan Respublikası vətəndaşların sosial təminat problemlərinin həllində dünyanın qabaqcıl ölkələrinin təcrübələrinə əsaslanır. Bura Skandinaviya ölkələri, Pribaltika ölkələri və Avropanın bir sıra inkişaf etmiş ölkələri daxildir.

Ümumiyyətlə, uzun müddətli sovet əsarətindən sonra yenidən müstəqilliyini əldə etmiş dövlətimiz bu qısa müddətdə sosial sahədə böyük uğurlara imza atmış, digər postsovet ölkələri ilə müqayisədə daha güclü inkişaf etmişdir. Totalitarizmdən demokratiyaya, komanda iqtisadiyyatından sərbəst bazar münasibətlərinə, nəhəng imperiyanın bir hissəsindən milli dövlətə tranzit bütün potsovet ölkələri üçün çox çətin olmuşdur. Azərbaycanda da bu proseslər asanlıqla cərəyan etməmişdir. Biz keçid dövrünün mürəkkəb şəraitində həm siyasi, həm iqtisadi, həm də sosial böhranları dəf etməli olmuşuq. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin hərtərəfli düşünülmüş siyasəti sayəsində Azərbaycan XXI əsrə siyasi və iqtisadi cəhətdən sabit dövlət kimi qədəm qoymuşdur [6, s. 115]. Hazırda sosial sahədə yüksək inkişaf müşahidə olunur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dəfələrlə qeyd etdiyi kimi, Heydər Əliyevin siyasəti Azərbaycanın hərtərəfli inkişafına indi də xidmət etməkdədir. Bu gün gerçəyə çevrilənlərin əsası ümummilli lider tərəfindən qoyulan ideyalardır [7, s.143].

2011-ci ilin sonuna yaxın Azərbaycan BMT-nin Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi və əldə olunan bütün yeni nailiyyətlər Ulu öndərimiz Heydər Əliyevin layiqli davamçısı cənab Prezident İlham Əiyevin mükəmməl lider, siyasətçi olmasının əyani sübutudur [8, s.27]. Azərbaycan BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi ölkəmizin adıçəkilən mötəbər təşkilatla əlaqlərinin yüksək səviyyədə olduğunu bir daha təsdiq etdi. Bu tarixi hadisə ilə Azərbaycan dünya siyasətini müəyyən edən 15 ölkədən birinə çevrildi [9, s. 3].

Sonda qeyd etmək lazımdır ki, bu gün ölkəmizdə əlverişli demokratik mühit yaradılıb, ölkə daxilində aparılan uğurlu islahatlar nəticəsində vətəndaş cəmiyyəti formalaşıb, demokratik tələblərə cavab verən siyasi təsisatlar yaradılıb. Ölkəmizdə yaradılan ictimai-siyasi, sosial-iqtisadi sabitlik bu inkişafın əsas hərəkətverici qüvvəsinə çevrilib. Bunu şərh edən Cənab prezidentimiz İlham Əliyev demişdir: “Bu gün Azərbaycan möhkəm əsaslar üzərində uğurla inkişaf edir. Ölkə daxilində gedən bütün proseslər müsbət istiqamətdə inkişaf edir. Azərbaycanda daxili sabitlik, əmin-amanlıq, ictimai-siyasi asayiş uğurlarımızın əsas şərtidir. Biz iqtisadi, siyasi islahatları bu möhkəm əsaslar üzərində aparırıq. Ölkədə demokratikləşmə prosesi çox uğurla gedir”.

Bütün bunlar göstərir ki, Azərbaycanın istər daxili, istər xarici siyasəti çox düşünülmüş və mükəmməl şəkildə həyata keçirilir və bu siyasət Azərbaycanın işıqlı gələcəyinə təminat verir. Günü-gündən inkişaf edən ölkəmiz artıq dünyanın sürətlə inkişaf edən ölkələri siyahısında qabaqcıl yerlərdən birini tutmaqdadır.

**İstifadə olunmuş ədəbiyyat**

1. Müasir Azərbaycan dövrün baxışında. II c. Bakı, “Azərbaycan” qəzetinin redaksiyası, 2011.
2. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, “Qanun”, 1996.
3. İnkişafın Azərbaycan Modeli. İdeya rəhbəri və ön sözün müəllifi: Ramiz Mehdiyev; buraxılışa məsul Bəxtiyar Sadıqov. Bakı, 2011.
4. Əliyev H. Müstəqilliyimiz Əbədidir. 12-ci kitab, Bakı, “Azərnəşr”, 2005.
5. Hadı Rəcəbli. Azərbaycan Respublikasının sosial siyasətinin transformasiyası və korporativ təhlili. Bakı, 2003.
6. Bakıda humanitar əməkdaşlıq üzrə Birinci Azərbaycan-Rusiya forumunun açılışında Azərbaycan Prezidenti administrasiyasının rəhbəri, akad. Ramiz Mehdiyevin çıxışı. // Dirçəliş XXI əsr: Azərbaycan Dövlət Quruculuğu və Beynəlxalq Münasibətlər İnstitutu, №141-142/2010.
7. Günel Məlikli. // Dirçəliş XXI əsr: Azərbaycan Dövlət Quruculuğu və Beynəlxalq Münasibətlər İnstitutu, №141-142/2010.
8. Günel Məlikli. Müstəqil lider. İctimai-siyasi, publisistik beynəlxalq jurnal №04(42) dekabr 2011.
9. «Azərbaycan» qəzeti, 17 may 2012-ci il.

**Гюнель Меликли**

## РОЛЬ МЕЖДУНАРОДНОГО СОТРУДНИЧЕСТВА В РАЗВИТИИ СОЦИАЛЬНОЙ ПОЛИТИКИ

**Резюме**

Одним из важных факторов внешней политики Азербайджанской Республики является международное сотрудничество в социальной сфере. Любая реализация социальной политики государства основана на опыте развитых стран в этой области. Существенное влияние на социальную политику Азербайджана оказывало положение в регионе. Напряженность, наличие проблем в области социального развития в соседних государствах имели негативные последствия в АР. Особенно отчетливо это сказалось на отношениях с Исламской Республикой Иран и Россией. С приходом к власти общенационального лидера Гейдара Алиева эти проблемы стали постепенно устраняться. Сотрудничество с международными организациями в области социальной политики и социального развития способствовала социальной стабильности в стране, благодаря чему высокими темпами стали обеспечиваться социальные гарантии ее граждан. Это свидетельствует о том, что как внутренняя, так и внешняя политика Азербайджана адекватно гарантируют будущее страны. В списке стран мира Азербайджан занимает одно из ведущих мест.

**Gunel Melikli**

## ROLE OF İNTERNATİONAL COOPERATİON İN THE DEVELOPMENT OF SOCİAL POLICY OF THE AZERBAİJAN REPUBLİC

**Summary**

One of the important factors of the policy of the Azerbaijan Republic is the international cooperation in the social field. Any implementation of social policy is based on the experience of developed countries in this field. The situation in the region had a significant impact on social policy of Azerbaijan. Tension, problems in social development in the neighboring countries contributed to the emergence of the negative consequences here. This was especially evident in the relations with the Islamic Republic of Iran and Russia. However, when the national leader Heydar Aliyev came to power, these problems become gradually to eliminate. Cooperation with the international organizations in the field of social policy and social development promoted social stability in the country, owing to what the benefits for citizens were provided by high rates. All this shows that both internal and external policies adequately guarantees the future of the country. In the list of the world countries Azerbaijan takes one of the leading places.

## İQTİSADİYYAT VƏ İDARƏETMƏ BÖLMƏSİ

**UOT – 631.164**

**Sadıq Salahov**
**i.ü.e.d., professor**

# AZƏRBAYCAN RESPUBLİKASINDA KƏND TƏSƏRRÜFATININ İNKİŞAF MEYİLLƏRİ

**Açar sözlər:** kənd təsərrüfatı, ərzaq təhlükəsizliyi, əkinçilik, heyvandarlıq, modernizasiya
**Ключевые слова:** сельское хозяйство, продовольственная безопасность, растениеводство , животноводство, модернизация
**Keywords:** agriculture, food security, plant growing, animal husbandry, modernization

Azərbaycan dünya miqyasında kənd təsərrüfatı sahəsinin ən surətlə inkişaf etdiyi ölkələrdən birinə çevrilmişdir. Bu, kənd təsərrüfatında istehsalın fiziki həcminin orta illik artım templəri göstəricisi üzrə beynəlxalq müqayisələrin aparılması zamanı da özünü aydın şəkildə büruzə verir. Diaqramda Dünya Bankının məlumatları əsasında 2000-2010-cu illərdə kənd təsərrüfatı məhsulları istehsalının artımının orta illik göstəricilərinin ayrı-ayrı ölkələr qrupu və Azərbaycan Respublikası üzrə kəmiyyətı əks etdirilmişdir. Göründüyü kimi, müvafiq göstəricinin səviyyəsinə görə ölkəmiz istər gəlirlılık səviyyəsinə (Ümumi Daxili Məhsulun adambaşına düşən həcmi əsasında müəyyən edilən göstərici üzrə) görə aid edildiyi ölkələr qrupu (“orta gəlirli ölkələr” qrupu, o cümlədən yuxarı orta səviyyəli ölkələr yarımqrupu), istərsə də daxil olduğu regionu (Şərqi Avropa və Mərkəzi Asiya) əhəmiyyətli dərəcədə qabaqlamışdır.

XXI əsrin birinci onilliyində Azərbaycanda aqrar sahənin inkişaf templəri dünya üzrə orta göstəricidən 2 faiz bəndi, aşağı gəlirli ölkələr üzrə göstəricidən 1.1 faiz bəndi, orta gəlirli ölkələr üzrə göstəricidən 1.0 faiz bəndi, Şərqi Avropa və Mərkəzi Asiya ölkələri üzrə göstəricidən 1.1 faiz bəndi yüksək olmuşdur (diaqram 1).

Diaqram 1

**2000-2010-cu illərdə kənd təsərrüfatı istehsalının orta illik artım templəri***




*World Development Indicators 2013, Table 4.1 məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Dövlət siyasətinə uyğun olaraq aqrar sahənin inkişafında başlıca vəzifələrdən biri əhalinin etibarlı ərzaq təminatına nail olmaq məqsədilə müvafiq kənd təsərrüfatı məhsullarının istehsalının inkişaf etdirilməsi müəyyən edilmişdir. Bu sırada ilk növbədə ölkənin daxili istehsalı hesabına tələbatların ödənilməsi məsələlərinin həlli ön plana keçmişdir.

Ərzaq təminatı baxımından kənd təsərrüfatının sahələri arasında taxılçılığın inkişafı xüsusilə böyük aktuallığa malikdir. Bu sahənin stabil inkişaf etdirilməsi həm ərzaq buğdasına olan tələbatın ödənilməsində idxaldan nisbətən güclü asılılığın zəiflədilməsi, həm də yem bazasının möhkəmləndirilməsi əsasında heyvandarlıq məhsullarının istehsalının artırılması miqyaslarını genişləndirməklə həmin məhsullara olan tələbatların daxili istehsal hesabına ödənilməsi probleminin həlli üçün mühüm əhəımiyyət kəsb edir. Bununla əlaqədar taxılçılığın inkişafı postislahat şəraitində də prioritet vəzifə olaraq qalmışdır [1].

Həyata keçirilmiş tədbirlərə uyğun olaraq, 2000-2012-ci illərdə ölkədə dənli və dənli-paxlalı bitkilərin əkin sahəsi 1,6 dəfə artaraq 1031,4 hektara çatmışdır. Bu müddətdə dənli və dənli-paxlalıların məhsuldarlığı hər hektardan 23,8 sentnerdən 27,2 sentnerədək yüksəlmiş və ya 14,3% artmışdır. Nəticədə məhsul istehsalının ümumi həcmi 1,8 dəfə artaraq 2,8 milyon tonu keçmişdir. Bununla da taxıl istehsalı sahəsində Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 25 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş “2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”nda qoyulmuş hədəfə nəzərdə tutulduğundan tez çatmaq mümkün olmuşdur. Adambaşına taxıl istehsalının (təmiz çəkidə) həcmi 190 kq-dan 298 kq-dək yüksəlmiş və ya 1,6 dəfəyə yaxın artmışdır.

Əhalinin ərzaq təminatında yerli istehsalın rolunun artırılması sahəsində digər əsas prioritetlərdən birı heyvandarlıq məhsullarının sürətli artımının təmin edilməsi olmuşdur. Azərbaycan dövləti tərəfindən ölkə əhalisinin həyat səviyyəsinin yüksəldilməsinə yönəldilmiş uğurlu sosial-iqtisadi siyasətin həyata keçirliməsi ilə əlaqədar gəlirlərin sürətlə artması öz növbəsində ərzaq istehlakının strukturunun keyfiyyətcə yaxşılaşdırılmasına imkanlar açır. Bununla əlaqədar, heyvandarlıq məhsullarına olan tədiyə qabiliyyətli tələbin ardıcıl yüksəlməsi baş verir. Bu tələbin səmərəli şəkildə ödənilməsi isə ilk növbədə ət və sud istehsalının dinamik artımına nail olunması ilə bağlıdır.

Qeyd edilən prioritetin reallaşdırılması istiqamətində dövlət siyasəti çərçivəsində bir sira əsaslı tədbirlər həyata keçirilmişdir. İri və xırda buynuzlu mal-qaranın baş sayının ardıcıl artması şəraitində yemə olan tələbatın ödənilməsinin təmin edilməsi məqsədilə yay və qış otlaqlarının vəziyyətinin yaxşılaşdırılması vəzifələrinin həlli gündəmə gətirilmiş və bu istiqamətdə müəyyən tədbirlər həyata keçirilməyə başlanılmışdır. 2000-2012-ci illərdə qeyd edilən yem bitkilərinin əkin sahələri 2,8 dəfədən çox artaraq 392,7 min hektara çatmışdır. Həmin dövrdə yem bitkilərinin əkin sahəsinin kənd təsərrüfatı bitkilərinin ümumi əkin sahəsində xüsusi çəkisi 13,3%-dən 23,8%-ə yüksəlmişdir. Heyvandarlıq sahəsində modernləşdirmə istiqamətində irəliləyişlərin təmin edilməsi ilə bağlı dövlət siyasəti çərçivəsində geniş tədbirlər görülməyə başlanmışdır.

Göstərilənlərin sayəsində heyvandarlıqda məhsuldarlıq yüksəldilmiş, ölkədə əsas heyvandarlıq məhsullarının nisbətən yüksək templərlə artımını təmin etmək mümkün olmuşdur. 2000-2012-ci illər ərzində kəsilmiş çəkidə ət istehsalı 1,9 dəfə, sud istehsalı 1,7 dəfə, yumurta istehsalı 2,3 dəfəyə yaxın artmışdır.

Əsas heyvandarlıq məhsulları ilə təminat əhəmiyyətli dərəcədə yüksəlmişdir. Adambaşına ət istehsalının həcmi 18,7 kq-dan 30,5 kq-a, sud istehsalının həcmi 126 kq-dan 184 kq-dək, yumurta istehsalının həcmi 66 ədəddən 131 ədədədək artmışdır. Beləliklə, heyvandarlığın inkişafı üzrə prioritetin reallaşdırılması sahəsində əhəmiyyətli irəliləyişlərə nail olunmuşdur.

Aqrar sahədə əsas prioritetlərin reallaşdırılması istehsalın strukturunda müvafiq dəyişiklikləri şərtləndirmişdir. Kənd təsərrüfatının ümumi məhsulunun strukturunda heyvandarlıq məhsullarının xüsusi çəkisi 2012-ci ildə 2000-ci il ilə müqayisədə 4,8 faiz artaraq 49,3%-ə çatmışdır. Eyni zamanda, son illərdə bu istiqamətdə struktur dəyişikliyinin tempi sürətlənmişdir.

Aqrar sahədə ki, struktur dəyişiklikləri son nəticədə ölkəmizin milli iqtisadiyyatı sistemində ərzaq məhsullarına olan daxili tələbin səmərəli ödənilməsi vəzifəsinin həllinə yönəlmiş və həmin istiqamət üzrə əhəmiyyətli irəliləyişlərin təmin olunmasına şərait yaratmışdır (cədvəl 1).

Cədvəl 1

**Ərzaq təyinatlı kənd təsərrüfatı məhsullarına daxili tələbatın ödənilməsi səviyyəsinin dəyişilməsi**

| № | Məhsulun adı | 2007-2012-ci illərdə istehsalın orta illik artım tempi (%) | Özünü təminetmə səviyyəsi (%)* | | |
|---|---|---|---|---|---|
| | | | 2007 | 2012 | Dəyişilmə (artım +, azalma -) |
| 1. | Dənli və dənli paxlalılar | 139,8 | 57,1 | 64,3 | +7,2 |
| 2. | Buğda | 138,8 | 48,0 | 56,8 | +8,8 |
| 3. | Qarğıdalı | | 76,4 | 67,3 | -9,1 |
| 4. | Kartof | 93,4 | 98,0 | 98,2 | +0,2 |
| 5. | Bütün növ tərəvəz | 99,1 | 98,8 | 98,9 | +0,1 |
| 6. | Bostan məhsulları | 102,5 | 100,1 | 100,9 | +0,1 |
| 7. | Meyvə və giləmeyvə | 119,5 | 138,1 | 125,7 | -12,4 |
| 8. | Üzüm | 146,0 | 93,7 | 94,3 | +0,6 |
| 9. | Mal-qara və quş əti və ət məhsulları | 129,8 | 85,2 | 92,1 | +6,9 |
| 10. | Süd və süd məhsulları | 128,2 | 86,8 | 72,8 | -14,0 |
| 11. | Kərə yağı | - | 76,6 | 50,5 | -26,1 |
| 12. | Yumurta | 140,0 | 97,9 | 96,2 | -1.7 |

*Cədvəl qeyd edilən mənbələrə istinad edilərək müəllif tərəfindən tərtib edilmişdir.
Azərbaycanın Statistik göstəriciləri. Bakı, 2013;
Azərbaycanın kənd təsərrüfatı. Bakı, 2013. səh. 80, 89, 111;
Azərbaycanın ərzaq balansları (Statistika məcmuəsi) Bakı, 2012 s. 168-189;
http://www.stat.gov.az/source/food_balances/ 2013.

Göründüyü kimi, ölkəmizdə aqrar sahənin inkişafı sahəsində ardıcıl həyata keçirilən tədbirlər kompleksi sayəsində iqtisadiyyatın bu sektorunun inkişafı üzrə qarşıya qoyulmuş əsas vəzifənin - ərzaq təyinatlı məhsullarla özünütəminetmə səviyyəsinin yüksəldilməsində əhəmiyyətli irəliləyişlər təmin edilir. Bunlar son nəticədə əhali tərəfindən qida istehlakının çoxalmasında mühüm rol oynayır.

Eyni zamanda qeyd edilən istiqamətlərdə irəliləyişlər hələlik qarşıda duran problemin həlli - əsas ərzaq məhsulları ilə tam özünütəminetməyə nail olunması ilə nəticələnməmişdir.

Birincisi, milli ərzaq təhlükəsizliyi baxımından xüsusi önəmi olan bəzi məhsullar, ilk növbədə taxıl məhsulları ilə özünütəminetmə səviyyəsi zəruri tələblərdən aşağı olaraq qalmaqdadır.

İkncisi, etibarlı ərzaq təminatı konsepsiyasının reallaşdırılması baxımından ərzaq məhsullarının istehsalında struktur problemləri saxlanılmaqdadır.

Üçüncüsü, prioritet istiqamətlər üzrə təmin olunan artım miqyasları bütün hallarda müvafiq məhsullara əhalinin dinamik olaraq yüksələn tələblərinə uyğun gəlmir.

Dördüncüsü, ərzaq təhlükəsizliyinə nail olunma baxımından kifayət qədər yüksək göstəricilərə çatıldığı bir sıra məhsul növlərinin (kartof, tərəvəz) istehsalında zəruri stabilliyin təmin edilməməsi tam özünütəminetmə səviyyəsinə çıxmağa imkan vermir.

Göstərilən problemlərin kənd təsərrüfatının ümumi inkişafında zəruri stabilliyin təmin edilməsi çərçivəsində həllini tapması vacibdir.

Aqrar sahənin inkişafında digər mühüm meyil kənd təsərrüfatının qlobal iqtisadiyyata inteqrasiyası istiqamətində irəliləyişlərin baş verməsi ilə səciyyəvidir. Bu baxımdan ilk növbədə prioritetlik verilən istehsal sahələri üzrə aqrar istehsalın ixrac potensialı inkişaf etdirilməsi məqsədyönlüdür. Kənd təsərrüfatı xammalı və ondan emalı əsasında alınan ərzaq məhsulları və içkilərin ixracının dəyər ifadəsində həcmi postislahat dövründə sürətlə coxalmışdır [1]. 2000-2012-ci illər ərzində bu göstərici 9,2 dəfə artmışdır. İqtisadiyyatın qeyri-neft sektoruna aid məhsulların ixracının ümumi həcmində aqrar -sənaye məhsullarının payı həmin dövrdə 35,9%-dən 51,9%-dək yüksəlmişdir.

Bir tərəfdən, aqrar sahədə reallaşdırılan ümümi struktur prioritetlərinə uyğun olaraq, ərzaq təyinatlı məhsulların, o cümlədən kartof, tərəvəz, meyvə istehsalının həcminin artırılması ilə yanaşı bu məhsulların təzə və emal olunmuş halda ixracı da çoxalmışdır. Həmin məhsulların ixracdan ümumi valyuta gəlirlərinin daxil olmasında rolu da kəskin artmışdır.

Ümumilikdə, müasir mərhələdə ölkəmizdə aqrar sahənin dünya iqtisadiyyatına inteqrasiyasının ardıcıl surətdə genişləndirilməsi prosesinin getdiyini söyləmək mümkündür. Başqa sözlə, aqrar sahədə açıq iqtisadiyyat çərçivəsində qloballaşma meyillərinin genişlənməsi tələblərinə uyğun inkişaf xətti reallaşdırılmaqdadır. Bu istiqamətdə irəliləyişlər barədə Dünya Bankının müvafiq hesabat məlumatları əsasında aparılan hesablamaların nəticələri də təsəvvür əldə etməyə imkan verir (cədvəl 2).

Cədvəl 2

**Ərzaq məhsulları və kənd təsərrüfatı xammalı ixracının nisbi göstəriciləri***

| | | Ərzaq və kənd təsərrrüfatı xammalı ixracının dəyərinin kənd təsərrüfatında yaradılmış əlavə dəyərə nisbəti, %-lə | | | 2012-ci ildə adambaşına ərzaq və kənd təsərrrüfatı xammalı ixracı | |
|---|---|---|---|---|---|---|
| | | | | | ABŞ dolları | Azərbaycanın göstəricisinə nisbətən, %-lə |
| | | 2000 | 2012 | Dəyişilmə | | |
| 1. | Azərbaycan | 9,7 | 23,2 | +13,5 | 103 | 100,0 |
| 2. | Gürcüstan | 14,7 | 50,1 | +35,4 | 158 | 153,4 |
| 3. | Ermənistan | 15,1 | 23,8 | +8,7 | 120 | 116,5 |
| 3. | Türkiyə | 13,3 | 23,6 | +10.3 | 227 | 220,4 |
| 4. | Orta gəlirli ölkələr | 21,3 | 27,7 | +6,4 | 126 | 122,3 |
| 5. | Avropa və Mərkəzi Asiya ölkələri | 22,3 | 49,6 | +27,3 | 306 | 297,1 |

*World Development Indicators 2013” Table 2.1, Table 4.2, Table 4.4 http://wdi.worldbank.org/table məlumatları əsasında müəllif tərəfindən hesablanılmışdır.

Göstərilənlər, öz növbəsində, Azərbaycanda aqrar ixracın genişləndirilməsi sahəsində imkanlardan tam istifadə edilmədiyini sübut edir. Bu istiqamətdə aqrar ixracın artırılmasında daha yüksək potnsialı olan sahələrdə məhsul istehsalının azaldımasının təsiri, xüsusilə, güclüdür.

Ümumiyyətlə, müasir mərhələdə Azərbaycanın kənd təsərrüfatının inkişafı üçün ekstensiv və intensiv amillərin culğaşması səciyyəvidir. Təsərrüfat dövriyyəsinə cəlb edilən əkin sahələri, habelə aqrar sahədə məşğul olanlarının sayının artması həm də məhsuldarlıq göstəricilərinin yüksəlməsi ilə müşayiət olunur.

Qeyd edilən istiqamətdə bütövlükdə intensiv amillərin fəallaşması meyli müşahidə edilir. Eyni zamanda, həmin prosesin ayrı-ayrı sahələr üzrə dinamikasında əhəmiyyətli fərqlər mövcuddur (diaqram 2).

Diaqram 2

**2000-2012-ci illərdə bitkiçilik məhsulları üzrə istehsalın həcmi, əkin sahəsi və məhsuldarlığın dəyişməsi (dəfə)***




*Azərbaycanın kənd təsərrüfatı 2013. s. 74, 80-83 məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Məlumatlardan aydın olduğu kimi, ərzaq təyinatlı bitkiçilik məhsulları üzrə əkin sahələri və məhsuldarlığın paralel yüksəlişi baş vermişdir. Bunun nəticəsində həmin məhsulların, həcminin nisbətən sürətli artımı təmin olunur. Bitkiçilikdə olduğu kimi, heyvandarlığın sahələri üzrə də ekstensiv və intensiv amillərin rolunda fərqlər mövcuddur.(diaqram 2).

Diaqram 3

**2000-2012-ci illərdə Heyvandarlıq və quşçuluq məhsullarının istehsal göstəriciləri**




*Azərbaycanın kənd təsərrüfatı. Bakı, 2013. Statistik məcmuə. s. 109, 113; Məlumatlar müəllif tərəfindən tərtib edilmişdir.

İntensiv amillərin aktivləşməsi ilə əlaqədar, əsas heyvandarlıq məhsullarından mal ətinin və südün artım miqyasları heyvanlarının baş sayı üzrə müvafiq göstəricini xeyli qabaqlayır. Həmin meyil quşçuluq üçün də səciyyəvidir və bu sahədə daha qabarıq özünü ifadə etdirir. Ölkəmizdə

postislahat dövründə quşçuluq məhsulları istehsalının bərpası və genişləndirilməsi üstün olaraq modern texnologiyaları tətbiq edən müəssisələrin yaradılması əsasında həyata keçirilməsi bu sahədə məhsuldarlıq amilinin rolunun xeyli yüksək olmasını şərtləndirmişdir. Yuxarıda göstərilən meyillər əsas kənd təsərrüfatı məhsullarının artımının amillər üzrə strukturunda da öz əksini tapmışdır (diaqram 4).

Diaqram 4

**Bitkiçilk məhsulları istehsalının artımımnın amillərə görə strukturu**




*Azərbaycanın kənd təsərrüfatı 2013 Statistik məcmuə. AR DSK. 2013. s. 77, 80, 83, 89. Məlumatlar müəllif tərəfindən tərtib edilmişdir.

Göründüyü kimi, bitkiçilikdə məhsuldarlıq amilinin rolu sahələr üzrə xeyli fəqli olaraq qalmaqdadır. Bu amil katrofçuluq, tərəvəzçilik, habelə şəkər çuğunduru istehsalında kifayət qədər yüksək qiymətləndirilə bilər. Lakin ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından ən mühüm sahə olan taxılçılıqda məhsul istehsalının artımı əsasən ekstensiv amilin - əkin sahələrinin genişləndirilməsinin hesabına baş vermişdir. Taxılçılıqda məhsuldarlığın səviyyəsi son dövrlərdə qeyri-stabil dinamika nümayiş etdirməklə hər hektar hesabilə 20-27 sentner arasında dəyişir. Belə vəziyyət bu göstərici üzrə Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 25 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş “2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”nda qoyulmuş hədəfə çatmaq 2015-ci il üçün 32 s/ha məhsuldarlığa nail olmaq perspektivi baxımından əlverişli hesab edilə bilməz. Meyvə istehsalının artması sahəsində də məhsuldarlıq amilinin rolu kifayət qədər yüksək olmamışdır.

Heyvandarlıq sahəsində də postislahat dövründə məhsuldarlıq amili istehsalın həcminin yüksəlməsində fəal rol oynamağa başlamışdır. 2000-2012-ci illərdə süd istehsalının aptımının 2/5 hissəsinə yaxın hissəsi həmin amilin payına düşmüşdür.

Əkinçilik və heyvandarlıq məhsulları istehsalında irəliləyişlər əhəmiyyətli dərəcədə aqrar sahənin modernləşdirilməsi prosesləri ilə bağlıdır. Postislahat dövründə aqrar sahədə sistem transformasiyalarının əvvəlində başlamış olan deindustializasiya proseslərinin qarşısı alınmış və sahənin texnika və mineral gübrələrlə təminatı sahəsində müsbət meyllər qərarlaşmışdır.

Aqrar istehsalda modernləşdirmə proseslərinin dirçəldilməsinə bu sahəyə dövlət köməyi tədbirlərinin genişləndirilməsinin həlledici əhəmiyyəti olmuşdur. Xüsusilə, “Aqrolizinq” sisteminin formalaşdırılmasının və onun vasitəsilə kənd təsərrüfatı texnikasının əlverişli şərtlərlə fermerlərə lizinqə verilməsi, habelə yanacağın və mineral gübrələrin istehsalçılara güzəştli satışının həyata keçirilməsi müvafiq istiqamətlər üzrə ciddi irəliləyişlərə yol açmışdır.

Aqrar sahənin modernləşdirilməsi sahəsində dirçəliş ölkəmizin kənd təsərrüfatında istifadə edilən mineral gübrələrin həcminin ardıcıl olaraq artmasında da ifadə olunur. Mineral gübrələrin alınmasına subsidiyaların tətbiqi bu sahədə sıçrayışlı artıma imkan yaratmışdır. 1999-2012-ci illərdə kənd təsərrüfatında əkinlərə mineral gübrələrin verilməsi 100% qidalı maddə hesabı ilə 21.6 dəfə, o cümlədən hər hektar əkinə görə 3.2 dəfə çoxalmışdır. Şübhəsiz ki, bu, öz növbəsində bitkiçilik sahələrində məhsuldarlığın yüksəldilməsində əhəmiyyətli rol oynamışdır. Eyni zamanda, modernləşdirmənin nəzərdən keçirilən istiqamətləri üzrə gələcəkdə də dinamik irəliləyişlərin davam etdirilməsinə ehtiyac saxlanılmaqdadır.

Çünki kənd təsərrüfatının texniki təminat səviyyəsi zəruri tələblərdən aşağı olaraq qalmaqdadır; aqrar sahənin texnika ilə təminatında zəruri komplektlilik təmin olunmur; hələlik kənd təsərrüfatında mineral gübrələrin və kimyəvi mübarizə vasitələrinin tətbiqi miqyasları kifayət qədər genişləndirilməmişdir.

Milli iqtisadiyyat sistemində aqrar sahənin inkişafında başlıca hədəflərdən birinin ölkənin ərzaq təhlükəsizliyinin etibarlı şəkildə təmin edilməsi qalmaqdadır. Bu prosesin qarşıdakı dövrdə də bir tərəfdən ölkə əhalisinin ümumən dinamik artımının davam edəcəyi, digər tərəfdən, sosial-iqtisadi inkişaf sahəsində reallaşdırılan strategiyaya uyğun olaraq vətəndaşların ərzaq məhsullarına tədiyəqabiliyyətli tələblərinin ardıcıl yüksələcəyi ilə əlaqədar daxili bazarın əhəmiyyətli dərəcədə genişlənəcəyi şəraitdə həll ediləcəyi də göz önündə saxlanılmalıdır. Bununla yanaşı, qeyri-neft sektorunun üstün inkişafı strategiyası çərçivəsində ölkə iqtisadiyyatının diversifikasiyası əsasında ixracın strukturunun təkmilləşdirilməsi tələbinə uyğun olaraq xarici bazarlara çıxarılan aqrar sahə məhsullarının həcminin artması və çeşidinin genişlənməsi imkanlarından dolğun şəkildə istifadə edilməsinə ehtiyac güclənəcəkdir. Qeyd edilənləri nəzərə almaqla, istər ərzar təhlükəsizliyinin təmin edilməsi və istərsə də ixrac potensialının artırılması problemlərinin səmərəli həlli baxımından orta və uzunmüddətli dövrdə aqrar sahənin nisbətən yüksək templərlə inkişafı təmin edilməlidir. Bu məsələyə konseptual planda iqtisadi inkişaf sahəsində dövlətin müəyyən etdiyi strateji hədəflərdən çıxış etməklə yanaşılması məqsədəuyğun hesab edilməlidir.

Məlumdur ki, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan 2020:Gələcəyə baxış” inkiişaf konsepsiyasnda karbohidrogen ixracatından asılılığın aradan qaldirilması əsasında ölkəmizin “yuxarı orta gəlirli ölkələr” arasında tamhüquqlu mövqe tutması əsas strateji hədəflərdən biri kimi müəyyən edilmişdir. Konsepsiyaya uyğun olaraq adambaşına ÜDM-in 2 dəfə artırılmasına iqtisadiyyatımızın əsas sahələrindən olan aqrar sektor da öz töfhəsini verməlidir. Eyni zamanda nəzərə almaq lazımdır ki, hazırda kənd təsərrüfatında yaradılan əlavə dəyərin əhalinin hər nəfərinə düşən həcmi Azərbaycanda yuxarı orta gəlirli ölkələr qrupunun orta göstəricisindən təxminən 1.5 dəfə geri qalır. Bu da öz növbəsində ölkəmizdə aqrar sahənin artımının üstün templərlə davam etdirilməsi zəruriliyini şərtləndirir.

Konseptual planda Azərbaycanın kənd təsərrüfatının dinamik inkişafının başlıca şərti kimi istifadə olunan insan, təbii və bioloji resusrsların səmərəliliyinin yüksəldilməsi təmin edilməlidir. Ölkədə məşğul olan əhalinin 2/5 hissəsini əhatə etməklə aqrar sahə iqtisadiyyatın yüksək əməktutumlu sektoru olarq qalmaqdadır. Müasir şəraitdə Azərbaycan əmək ehtiyatlarının kənd təsərrüfatında istifadə edilməsi səviyyəsi ən yüksək olan ölkələr qrupuna daxildir. 2012-2013-cü illərdə bu göstəriciyə görə ölkəmiz dünya dövlətləri arasında ilk iyirmiliyə daxil olmaqla 13-ü yerdə dayanmışdır.

Əmək məhsuldarlığının yüksəldilməsi problemi qarşıdakı dövrlərdə aqrar istehsalın rəqabət qabiliyyətiliyinin təmin edilməsinin əsas amili kimi dəyərləndirilməlidir.

Aqrar sahədə artım üçün resurs məhdudiyyətlərinin doğurduğu çətinliklərin məhsuldarlığın yüksəldilməsi əsasında aradan qaldırılması, öz növbəsində sahənin modernləşdirilməsi amilinin rolunun daha da yüksəldilməsini şərtləndirir.

**İstifadə olunmuş ədəbiyyat**


**1.** Azərbaycanın kənd təsərrüfatı 2013. Statistik məcmuə. Bakı, 2014.

**2.** Salahov S.V. Aqrar sahənin dövlət tənzimlənməsi problemləri. Bakı, 2004.


**Садых Салахов**

## ТЕНДЕНЦИИ РАЗВИТИЯ СЕЛЬСКОГО ХОЗЯЙСТВА В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ


**Резюме**

Для реализации аграрной политики по обеспечению продовольственной безопасности в нашей стране, должны осуществляться серьезные программы экономического действия. В этом направлении, одним из важных вопросов является правильное определение приоритетов развития отрасли.

В статье анализируются существующие тенденции развития сельского хозяйства в Азербайджане, исследуются факторы влияющие на общее развитие.


**Sadig Salahov**

## TENDENCIES OF DEVELOPMENT OF AGRICULTURE IN THE AZERBAIJAN REPUBLIC


**Summary**

For realization of an agrarian policy on ensuring food security in our country, serious programs of economic action have to be carried out. In this direction, one of important questions is the correct definition of priorities of development of branch.

In article existing tendencies of development of agriculture in Azerbaijan are analyzed, factors influencing the general development are investigated.

**UOT – 336.74**

**Gülöğlan İsmayılov**
**AƏSMA, i.ü.f.d., dosent**

## DÜNYA PUL SİSTEMİNİN YARANMASI VƏ FORMALAŞMA XÜSUSİYYƏTLƏRİ

**Açar sözlər**: pul, dəyər, qızıl sikkə, barter, təkamül, kağız pullar
**Ключевые слова**: деньги, ценность, золотая монета, бартер, эволюция, бумажные деньги
**Key words**: money, value, gold coin, barter, evolution, banknotes

Pul – bəşəriyyətin ən böyük nailiyyətlərindən biridir. Pul iqtisadiyyat elminin çox maraqlı aspektidir. "Pul insanı ovsunlayır. Pul üçün insanlar əzab, əziyyət çəkirlər. İnsanlar pulu əldə etmək üçün çox maraqlı üsullar fikirləşirlər və onları xərcləmək üçün isə daha da maraqlı üsullardan istifadə edirlər. Pul – ondan azad olmaqdan başqa cür istifadəsi mümkün olmayan yeganə maldır. Pul onu xərcləyənə və ya sərmayə kimi yerləşdirməyiniz müddətdə sizi yedizdirməyəcək, geyindirməyəcək, sığınacaq verməyəcək və əyləndirməyəcəkdir. Insanlar pul üçün hər şey edir və demək olar ki, pul insan üçün hər şey edəcəkdir. Pul cazibədar, təkrar, maskalarını dəyişən tapmacadır" [1, səh. 137].

Pul iqtisadiyyatın işinə yardım edən istənilən iqtisadi sistemin vacib elementlərindən biridir. Əgər mövcud pul sistemi yaxşı işləyirsə, o, istehsalat prosesinin bütün mərhələlərinə, gəlir və xərclərin dövriyyəsinə həyatı güc verir, mövcud istehsalat güclərinin və əmək ehtiyatlarının tam istifadəsinə imkan yaradır. Əksinə, mövcud pul sistemi pis işləyirsə, bu istehsalat səviyyəsinin, məşğulluğun azalmasının və ya kəskin tərəddüdlərinin əsas səbəbi ola bilər.

Pul – ümumi ekvivalent qismində istifadə olunan universal malın xüsusi növüdür, onun vasitəsi ilə digər malların dəyəri ifadə olunur. Pul mübadilə, ödəniş, dəyərin ölçülməsi, sərvətin yığılması funksiyalarını yerinə yetirən unikal maldır. Müasir iqtisadiyyatda pulların dövriyyəsi bütün növ malların dövriyyəsinin dəyişməz şərtidir. Pulun sayəsində malların müqayisəsi, dəyişməsi zamanı lazım olan vahid dəyər ölçüsünə malik olmaq olur.

Pul – digər rifahların (ümumi ekvivalentin) dəyərinin ölçmə funksiyalarını yerinə yetirən və ya mübadilə zamanı hesablaşmaların həyata keçirilməsi vasitələri (mübadilə vasitələri) ölçmə funksiyalarını yerinə yetirən rifahlardır. Pul – mütləq likvidliyə malik rifahdır. Pul – insanlar arasında münasibətlərin qurulduğu iqtisadi kateqoriyadır.

İlk növbədə pulun köməyi ilə alınan rifahların çeşid və miqdar seçiminin, əqdin həyata keçməsinin vaxtı və yerinin, həmçinin əqd üzrə kontragentlərin qənaəti əldə olunur. Barter iqtisadiyyatında bu tutulmalar o qədər böyük olardı ki, onlar istənilən mübadilə aktının həyata keçməsini bloklayardı, əməyin bölgüsü minimal olardı və bir çox fəaliyyət növü yaranmazdı. Əks halda özünə saç düzümü etdirmək istəyən iqtisadçının özünə iqtisadiyyat üzrə mühazirə dinləməyi istəyən bərbər tapmasını labüd edən iqtisadiyyat yaranardı və ya digər bir nümunə, özünə palto tikdirmək istəyən aktyor onun filmlərdə və s. rolları ilə maraqlanan dərzi tapmalıydı.

Pulun köməyi ilə rifahın dəyərinin ölçülməsində ayırmaların böyük qənaəti nail olunur. Ümumi ekvivalentə dair razılığın əldə olunduğu iqtisadiyyatda individlər asanlıqla mübadilə proporsiyalarını tərtib edə bilər. İki malın qiyməti məlumdursa, onların nisbi dəyəri aydındır.

Qeyd etmək lazımdır ki, mal mübadilə münasibətləri yarandığı andan etibarən obyektiv şəkildə bazarda ümumi ekvivalent olan bütün mallar üçün rahat vasitənin axtarışına cəlb olunmuşdur. Belə bir ekvivalent kimi müxtəliv vaxtlarda bürünc, dəmir, mis, gümüş, qızıl olmuşdur. Ilk növbədə onlar bəzək əşyası, silah, əmək aləti kimi istifadə olunurdu, adətən, təsadüfi formalara və ölçülərə

malik olurdu. Külçələrlə heçablaşmaq üçün onları tərəzidə çəkmək lazım olurdu, lakin, adətən, külçələri daha kiçik hissələrə bölmək lazım olurdu.

Mal istehsalının artımı və mal mübadiləsinin genişlənməsi, bu proseslərə böyük sayda sənətkarların və digər iştirakçıların cəlb olunması metal pulların gələcəkdə standartlaşmasına və onların ölçülərinin pərakəndə ticarətin tələbatına uyğun şəklə salınmasına yardım etmişdir. E.ə. XII əsrdə Çində, e.ə. VII əsrdə Aralıq dənizi bölgəsi ölkələrində – Lidiya və Eqinada çəkisi, ölçüsü və tərkibi eyni olan metal pullar yaranmışdır. Tədricən onlar dairəvi, istehsalı və istifadəsi rahat formaya malik olmuşdur. Ənənəvi külçələrdən onlar daha kiçik ölçüləri ilə fərqlənirdi, həmçinin onların ödəmə qabiliyyəti və əsas parametrləri (ölçü, tərkibi, çəkisi) bu və ya digər səviyyədə dövlət tərəfindən təmin olunur və müdafiə olunurdu. Beləliklə, metal pulların hökmranlıq etdiyi uzunmüddətli bir dövr başladı.

Bu pulların təkamülünün vacib nəticələrindən biri onların nominalının – pul metalının müəyyən çəki standartını tərənnüm edən və pulların adları qismində qalan anlayışların yaranması olmuşdur. Əsrlərin süzgəcindən keçid bu günə qədər gələn sikkə adları – draxma, frank, marka, taler və digərləri pul metallarının müəyyən çəkilərini bildirirdi.

Pulların külçələrdə olmayan yeni keyfiyyətləri hesablaşmaların həyata keçirilməsi zamanı sadəcə onların sayılması ilə məhdudlaşmağa və vaxt ötdükcə onları çəkməkdən imtina etməyə imkan verirdi. Bu keyfiyyətlərin əlamətləri əvvəlcə pul vahidlərinin bir tərəfinə vurulan, sonradan isə iki tərəfində vurulan nişan və yazılar olmuşdur, e.ə. V əsrdən başlayaraq isə onlar məcburi atribut xarakteri almışdır [2, səh 59].

Dövriyyəyə daxil olan pullar «moneta» adını Qədim Roma dövlətinin yeni sikkə evi yerləşən Kapitoliy təpəsində məbədin tərkibində olan Yunonanı (Juno Moneta – Qoruyan Yunona) adından götürmüşlər. Sikkələrin yaranması mal-pul münasibətlərinin inkişafı ilə şərtlənmişdir. Bu hadisədə pul metalının vacib keyfiyyətlərindən biri olan dəyər reallaşırdı. Külçələrə nisbətən dövriyyəsi daha rahat olan sikkələr qısa müddət ərzində bütün dünyada geniş yayılmışdır.

Çoxəsrlik tarixi ərzində sikkə şəklini dəyişmişdir, hər bir dövr onun üzərində öz «izini» qoymuşdur. Belə ki, e.ə. VII-V əsrə aid olan qədim sikkələrdə yalnız bir neçə primitiv dərinliklər görmək olar. V əsrdən başlayaraq şəhərlərin adlarının baş hərfləri, daha sonra şəhərlərin və hökmdarların adlarının qısaldılmış adları yaranmışdır. Qədim Roma sikkələrində ayrı-ayrı rəqəmlər və hərflər sikkələrin nominalını bildirirdi. Məsələn, 1 rəqəmi bir ass (bir roma funtuna, yəni 12 mis unsiyasına bərabər çəki) demək idi, S hərfi isə ½ ass demək idi. Qədim Eqinanın ilk gümüş draxmalarında tısbağalar təsvir olunub, Persiya çarı Darinin (e.ə. VI-V əsrlər) qızıl sikkələrində isə yaydan ox atan çar təsvir olunub. Qədim Roma sikkələrində allahlar, qəhrəmanlar və imperatorlar təsvir olunmuşdur. Daha sonra feodal dövrdə onları kralların, çarların və kilsə ierarxlarının portretləri əvəz etmişdir. Burjuaziya respublikalarının sikkələrində monarxların və müqəddəs insanların təsvirlərini dövlət gerbləri, müxtəlif simvollar və yeni tarixi hadisələrin süjetləri əvəz etmişdir.

Bir çox əsrlər boyunca, XIX əsrin əvvəlinə qədər bir çox ölkələrin pul sistemlərində eyni statusa malik qızıl və gümüş sikkələrin paralel istifadəsi hökmranlıq edirdi. Bu zaman qızılla gümüş arasında qiymət nisbəti müəyyən olunmurdu, bazar mexanizmləri ilə tənzimlənirdi. Bəzi ölkələrdə isə tam qiymətə malik qızıl və gümüş sikkələrin istifadəsi dövlət tərəfindən müəyyən olunan qızılla gümüş arasında qiymət nisbətində həyata keçirilirdi.

1816-cı ildən 1900-cu ilə kimi bir çox ölkə qızıl və ya qızıl sikkə standarta keçmişdir, bu zaman ölkənin əsas pul vahidi tam dəyəri olan istifadə olunan qızıl sikkədə kəsilirdi. Onun nominalı tərkibində olan qızılın dəyərində idi. Bu zaman banknotların qızıl sikkələrə maneəsiz mübadiləsi təmin olunurdu. Gümüş və mis sikkələr isə dəyişdirilən pul rolunu oynayırdı. Bu zaman dəyişdirilən pulların metal dəyəri bu və ya digər qaydada qızıl sikkəyə bağlı olurdu. XX əsrin əvvəlinə mal istehsalı böyük miqyas əldə etmişdir və malın kütləsinin artan həcminə xidmət üçün daha çox sayda pul tələb olunurdu.

XIX əsrin sonu XX əsrin əvvəlində iri maşın istehsalının inkişafı ilə kəskin artan mal kütləsi ilə qızıl standartının şərtləri ilə pul metalının faktiki olması ilə məhdudlaşan pul sayı arasında əhəmiyyətli disproporsiyalar yaranmışdır. Bununla belə, qızıl standart birinci dünya müharibəsinə kimi

bir çox ölkədə mövcud olmuşdur. Birinci dünya müharibəsinin əvvəlində isə bütün ölkələr hərbi strateji ehtiyatların formalaşması məqsədi ilə dövriyyədən qızıl və gümüş sikkələri çıxartmışdılar. Pul mübadiləsində onların yerini təmin olunmamış banknotlar və dəyişdirilən sikkə tutmuşdur. Bununla əlaqədar olaraq prinsipial yeni pul sistemləri formalaşmışdır, onlar şəxsi mal dəyərinə malik olan real pul əsasında formalaşmırdı, onların pul nişanı adlanan surroqatlarına əsaslanırdı, bu surroqatlar qızılla təmin olunmamış banknotlara, xəzinə biletlərinə, bahalı olmayan ərintilərdən sikkələrə əsaslanırdı. Tam dəyərli qızıl sikkədən fərqli olaraq bu surroqatlar əmtəə bazarında dəyərə malik deyildi, çünki bu dəyər çox kiçik idi, surroqatlar yalnız onların sahibinin onların əvəzində müəyyən dəyər almaq hüququnu bildirirdi. Pul nişanları bu halda dəyərin vasitəli nümayəndəli qismində çıxış edirdi.

Böyük maddi zərərlərə və təsərrüfat fəaliyyətinin pozulmasına səbəb olan birinci dünya müharibəsi bütün ölkələrin hökumətlərini real dəyərlərlə təmin olunmayan pul nişanlarının böyük sayda buraxılmasına vadar etmişdir. Nəticədə müharibə bitdikdə bu ölkələr qiymətsiz pullarla qalmışdı. İnflyasiya prosesləri 30-cu illərə qədər bir çox ölkəni əhatə etmişdir. İnflyasiyaların səbəb olduğu iqtisadi və maliyyə sahəsində deformasiyalar o qədər ciddi olmuşdur ki, müharibədən sonrakı Avropanın bir çox ölkələrində qızıl standartını bərpa etmək istəyi uğursuz alınmışdır.

**Kağız pullar** tam dəyərli pulların nişanı, nümayəndəsidir. Tarixən kağız pullar metal dövriyyədən yaranıb. Onlar dövriyyədə olan gümüş və ya qızıl sikkələrin əvəzləyicisi kimi yaranmışdır. Tamhüquqlu pulların əvəzləyicilərinin dövriyyə imkanına obyektiv şəkildə pulların dövriyyə vasitəsi kimi fəaliyyəti həqiqiliyi, təcrübəsi səbəb olmuşdur. Gümüş və qızıl sikkələrin istifadəsinin çox əsrlik tarixi ərzində müşahidə edilmişdir ki, silinmiş və xarab olmuş sikkələr, yəni real çəkisini itirmiş sikkələr tam dəyərə malik sikkələrlə birgə dövriyyədə olur və eyni dəyəri ifadə edir. Bütün bunlar metal sikkələri praktiki olaraq dəyəri olmayan kağız pullarla əvəz etmək fikrini yaratmışdır. Düzdür, bunun üçün əsrlər tələb olunmuşdur. Qeyd edək ki, metal pullar XII əsrdə Çində, e.ə. VII əsrdə Aralıq dənizi bölgəsi ölkələrində – Lidiya və Eqinada yaranmışdır. Bununla belə ilk kağız pullar Çində eramızın XII əsrində yaranmışdır, Avropada və Amerikada yalnız XVII-XVIII əsrlərdə yaranmışdır. Rusiyada kağız pullar (assiqnasiyalar) 1769-cu ildən istifadə olunur.

Kağız pulların mahiyyəti ondan ibarətdir ki, onlar pul nişanıdır və metala dəyişdirilmir. Bu səbəbdən kağız pullar dövriyyədə nümayəndəlik dəyərinə malik olur və alıcı və ödəmə vasitəsi rolunu oynayır.

Kağız pulları kim buraxa bilər? Kağız pulların emitenti ya dövlət xəzinədarlığı, ya mərkəzi banklardır. Ilk halda xəzinədarlıq kağız pulların buraxılmasını şəxsi xərclərinin ödənilməsi üçün istifadə edir. Ikinci halda bu dolayı yolla həyata keçirilir, yəni mərkəzi bank dəyişdirilməyən banknotlar buraxır və onları dövlətə borc kimi verir, dövlət isə pulları öz büdcə xərcləri üçün istifadə edir.

Qeyd etmək lazımdır ki, iqtisadi təbiətinə görə kağız pullara dövriyyədə qeyri-sabitlik və qiymətdən düşmə xasdır. Kağız pul mübadiləsinin qeyri-sabitliyi ilk növbədə onunla əlaqədardır ki, kağız pulların buraxılışı nəinki pula mal dövriyyəsi tələbatı ilə tənzimlənir, həmçinin dövlətin maliyyə ehtiyatlarında daim artan tələbatı ilə tənzimlənir. Bundan əlavə kağız pulların artığının dövriyyədən avtomatik çıxarılması mexanizmi yoxdur.

Kağız pullara xas olan çatışmamazlıqlar kredit pulların istifadəsi sayəsində böyük dərəcədə kənarlaşdırıla bilər.

**Kredit pullar.** Əmtəə münasibətlərinin ümumi həcm aldığı şəraitdə təsərrüfat təcrübəsində kommersiya bank kreditinin istifadəsinin genişlənməsi öz funksiyasına, dövriyyə sahəsində, təminatına və s. görə adi pullardan fərqlənən kredit pullar ümumi əmtəə olmasına səbəb olmuşdur. Kredit pullar ictimai-iqtisadi prosesin daha inkişaf etmiş, ali sahəsinə xasdır. Onlar sərmayənin istehsalı əldə etdiyi və ona əvvəlkindən fərqli dəyişmiş və spesifik forma verdiyi zaman yaranır.

Dövriyyə inkişaf etdikcə ödənişin pul forması ani olur. Eyni zamanda əmtəə nəinki pul hesabına, həmçinin istehsal hesabına ictimai tanınır. Bununla əlaqədar olaraq kapitalizmdən əvvəlki dövrdə olduğu kimi kredit pulları əmtəə-pul dövriyyəsindən deyil, istehsalatdan, sərmayənin dövriyyəsindən yaranır. Pul sərmayəsi kredit pullar formasında çıxış edir.

Kredit pullar aşağıdakı təkamülü keçmişdir: veksel, banknot, çek, elektron pullar, kredit kartları.

**Veksel** – onda göstərilən məbləğin müəyyən müddətdən sonra ödənilməsi barədə borclunun yazılı öhdəliyi (sadə veksel) və ya kreditorun borcluya əmridir (ötürmə veksel-tratta). Sadə və ötürmə veksellər – kommersiya vekselinin, yəni ticarət əqdi əsasında yaranan borc öhdəliyinin növüdür. Həmçinin maliyyə vekselləri, yəni müəyyən məbləğdə pulun borc verilməsindən yaranan borc öhdəlikləri mövcuddur. Xəzinə vekselləri onların növüdür. Sonuncu qısamüddətli hökumət qiymətli kağızdır, onların qüvvədə olma müddəti bir ildən çox olmur (adətən 3-6 aydır). Bu zaman borclu dövlət olur. Dost vekselləri belə bir veksellərin banklarda uçotu yolu ilə pulların alınması məqsədi ilə kontragentlərin bir-birinə yazdığı real kommersiya əqdi ilə bağlı olmayan pulsuz veksellərdir.

Vekselin xarakterik xüsusiyyətləri aşağıdakılardır:

a) abstraktlıq (vekseldə əqdin konkret növü göstərilməyib);

b) mübahisəsizlik (notarius tərəfindən imtina haqqında akt tərtib olunandan sonra məcburi tədbirlərin həyata keçməsinə qədər məcburi ödəniş);

c) dövriyyəlik .

**Banknot** – bankın borc öhdəliyidir. Hal-hazırda banknot müxtəlif kredit təşkilatlarının və dövlətin veksellərinin, kreditləşməsinin uçotu yolu ilə mərkəzi bank tərəfindən buraxılır.

Banknotların – kredit pullarının bu növünün – dövriyyəyə buraxılmasını müxtəlif təsərrüfat prosesləri ilə bağlı həyata keçirilən kredit əməliyyatlarının yerinə yetirilməsi zamanı banklar həyata keçirir. Onların dövriyyədən çıxarılmasını xərclər həyata keçirildikdə və dövlət tərəfindən gəlir əldə olunduqda deyil, təsərrüfat prosesləri ilə bağlı yerinə yetirilən kredit əməliyyatları əsasında həyata keçirirlər.

Kredit pulların xüsusiyyəti ondan ibarətdir ki, onların dövriyyəyə buraxılması pul dövriyyəsinin həqiqi tələbatı ilə uzlaşır. Bu o deməkdir ki, kredit əməliyyatları istehsalın və məhsulun reallaşmasının real prosesləri ilə bağlı həyata keçirilir. Borc bir qayda olaraq müəyyən ehtiyat növlərinin istifadə edildiyi təminat kimidir. Borcların ödənilməsi dəyərlərin qalıqlarının azalması zamanı həyata keçirilir. Bu borc alanlara təqdim olunan ödəmə vəsaitlərinin həcmini pulların dövriyyəsinə həqiqi tələbatla uzlaşdırmağa kömək edir. Məhz bu xüsusiyyət kredit pullarının vacib üstünlüyüdür.

Kredit pulları (banknotlar) və kağız pul nişanları arasında ən əhəmiyyətli fərq onların dövriyyəyə buraxılması xüsusiyyətlərindən ibarətdir. Əgər banknotlar kredit əməliyyatları ilə bağlı dövriyyəyə buraxılırsa, kağız pullar belə bir uzlaşma olmadan dövriyyəyə daxil olur.

Kommersiya banklarının yaranması və sərbəst pul vəsaitlərinin cari hesablarda birləşməsi ilə dövriyyəsinin **çek** kimi kredit aləti yaranmışdır. Çek – ötürmə vekselinin növüdür, onu əmanət qoyan kommersiya və ya mərkəzi banka yazır. Çek cari hesab sahibinin banka çektəqdim edənə müəyyən məbləğdə pul verilməsi və ya pul vəsaitlərinin digər cari hesaba verilməsi haqqında yazılı əmridir. Çeklər ilk dəfə İngiltərədə 1683-cü ildə yaranmışdır.

Çekdə olan əmr hüququ və onu ödəmək öhdəliyi bankla müştəri arasında çek müqaviləsinə əsaslanır, bu müqaviləyə əsasən müştəriyə həm özünün, həm borc vəsaitlərini istifadə hüququ verilir. Bank təqdim olunan çekləri nəğd qaydada və ya çekverənin bu və ya digər bank müəssisəsində hesabından vəsaitlərin köçürülmə yolu ilə ödəyir. Çek qısamüddətli hərəkət aləti kimi ödəniş vasitəsi statusuna malik deyil və pulların emissiyasından fərqli olaraq dövriyyədə olan çeklərin sayı qanunvericiliklə tənzimlənmir, tam şəkildə kommersiya dövriyyəsinin tələbatı ilə müəyyən olunur. Bu səbəbdən çeklərlə hesablaşma şərti xarakter daşıyır: borclu tərəfindən çekin təqdim olunması onun kreditor qarşısında öhdəliyini ödəmir – bu öhdəlik yalnız çekin bank tərəfindən ödənilməsi anı ödənilir.

Beləliklə, çekin iqtisadi əhəmiyyəti ondan ibarətdir ki, o bankda nəğd pulların alınması vasitəsi kimi çıxış edir, dövriyyə və ödəniş vasitəsi kimi çıxış edir və nəhayət, nəğdsiz hesablaşmalar alətidir. Məhz çeklərin əsasında nəğdsiz ödənişlər sistemi yaranmışdır, bu zaman qarşı iddiaların əsas hissəsi nəğd pulların iştirakı olmadan ödənilir.

Çek dövriyyəsinin sürətli inkişafı, çeklərin inkassasiyası üzrə əməliyyatların artması emala tutulmaların əhəmiyyətli artımına səbəb olmuşdur. Daha sonradan, bank sahəsinə elmi-texniki proq-

ress nailiyyətlərinin tətbiqi sahəsində çeklərin emalı və cari hesabların aparılması EHM istifadəsi bazasında mümkün olmuşdur. Nəğdsiz pul hesablaşmaları təcrübəsinin genişlənməsi, bank əməliyyatlarının mexanikləşməsi və avtomatlaşdırılması, EHM daha təkmil nəsillərinin geniş istifadəsinə keçid **elektron pulların** istifadəsi ilə borcun ödənilməsinin və ya verilməsinin yeni üsullarının yaranmasını şərtləndirmişdir.

Elektron pullar – bankların kompyuter yaddaşının hesablarında olan pullardır, onlara sərəncam verilməsi xüsusi elektron qurğu vasitəsi ilə həyata keçirilir. Elektron əsasda ödəniş sisteminin yayılması pul dövriyyəsinin təkamülünün keyfiyyətcə yeni mərhələyə keçməsini bildirir.

EHM yayılması əsasında bank işində çeklərin **plastik kartlarla** əvəz olunması imkanı yaranmışdır. Plastik kartlar nəğd pulları və çekləri əvəz edən, həmçinin sahibinə bankdan qısamüddətli borc almağa imkan verən hesablaşma vasitəsidir. Plastik kartlar daha çox pərakəndə ticarətdə və xidmət sahəsində yayılmışdır.

**İstifadə olunmuş ədəbiyyat**

1. Federal Reserve Bank of Philadelphia. Creeping Inflation // Business Review. August 1957
2. Yuryev A.V., Qerasimov V.M. Sikkə bu gün və sabah // Pul və kredit. 1999. №2

**Гюльоглан Исмайлов**

## ОСОБЕННОСТИ СОЗДАНИЯ И ФОРМИРОВАНИЯ МИРОВОЙ ДЕНЕЖНОЙ СИСТЕМЫ

### Резюме

В статье анализируется роль денег как один из важных элементов экономики, их создание и формирование, характерные особенности мировой денежной системы. Рассматривая кредитные, металлические, бумажные деньги, автор исследует их роль в развитии экономики и расширение их активности в банковской системе. По мнению автора, денежная система влияет на все этапы производственного процесса, оборот доходов и расходов.

**Guloghlan Ismayilov**

## THE OCCURRENCE AND FORMATION FEATURES OF THE GLOBAL MONETARY SYSTEM

### Summary

The article deals about the money the important element of the economy, about its establishment and formation, and the main characteristics in the economy of the world monetary system. Speaking about the paper, metal, silver, gold and credit money, the author reasearches their roles in the development of economy and banking sector performance. According to the author monetary system influences in all stages of the manufacturing process and circulation revenues and expences.

**UOT – 330.5**

**Əsgər Əliyev**
**AƏSMA, i.ü.f.d., dosent**
**Sevda Məmmədova**
**AƏSMA, i.ü.f.d., dosent**

# AZƏRBAYCAN İQTİSADİYYATININ İNKİŞAFINDA ENERGETİKA SƏNAYE SAHƏSİNİN ROLU

**Açar sözlər:** energetika, yanacaq-energetika kompleksi, yanacaq-enerji resursları, enerji müstəqilliyi, elektrik enerjisi, elektrik stansiyası, şərti yanacaq sərfi, faydalı sərfiyyat, texnoloji sərfiyyat, generasiya gücləri

**Ключевые слава:** энергетика, топливно-энергетический комплекс, топливно-энергетические ресурсы, энергетическая независимость, электрическая энергия, электростанции, условный расход топлива, полезный расход, генерирующие мощности

**Keywords:** power engineering, fuel energy complex, fuel energy recources, energy independence, electric energy, electric powerstation, expenditure conditional fuel, useful expenditure, technological expenditure, generative energy

Azərbaycan iqtisadiyyatının müasir inkişaf şəraitində yanacaq-energetika kompleksi çox mühüm əhəmiyyət kəsb edir. Son dövrlərdə aparılan araşdırmalar göstərir ki, respublikada dövlət büdcəsinin mədaxil hissəsinin 70%-dən çoxu yanacaq-enerji kompleksi sahələrinin gəlirləri hesabına formalaşır. Bu baxımdan müasir bazar iqtisadiyyatı şəraitində ölkə iqtisadiyyatının ən aktual problemlərindən biri respublikada yanacaq-enerji kompleksinin müasir tələblər səviyyəsində inkişaf etdirilməsindən ibarətdir. Hal-hazırki şəraitdə energetika sənaye sahəsi yanacaq-enerji kompleksinin ən mühüm sahələrindən biri hesab olunur.

Bu baxımdan ölkə iqtisadiyyatının bütün sahələrinin inkişafını təmin edən əsas strateji sahələrdən biri energetika sənaye sahəsi sayılır. Elə buna görə də respublikamızın energetika sənaye sahəsinin inkişafı daim dövlətin diqqət mərkəzində duran əsas və həlledici məsələlərdən biri olmuşdur. Enerji resurslarının lazımi səviyyədə artırılması ölkə iqtisadiyyatının müasir inkişaf səviyyəsini enerji resursları ilə təmin etməklə yanaşı, istehlakçılaın artan tələbatının ödənilməsinə lazımi imkan və şərait yaratmalıdır.

Yanacaq-enerji resurslarının mövcudluğu ölkəmizdə güclü və təsirli energetika sisteminin yaradılması və inkişafı üçün əsas vasitə olmuşdur.

Hal-hazırda enerji müstəqilliyinin daha da möhkəmləndirilməsi, ölkə əhalisinin və iqtisadiyyatının elektrik enerjisinə olan tələbatının tamamilə ödənilməsi, respublikada elektrik enerjisinin ixrac potensialının yaradılması sahəsində energetika sənayesi qarşısında nəzərdə tutulan məsələlərin həlli istiqamətində işlər sürətlə davam etdirilir.

Son illərdə ölkəmizdə mövcud olan enerji problemləri yeni elektrik stansiyalarının inşası və bərpası nəticəsində tədricən aradan qaldırılmışdır. Hazırda ölkəmizdə sahibkarlığın, kiçik biznesin və ümumiyyətlə, bütün iqtisadiyyatın davamlı inkişafı üçün möhkəm zəmin yaranmışdır.

Son illərdə energetika sənaye sahəsinin inkişafını təmin edən çoxlu sayda layihələrin və regionların sosial-iqtisadi inkişafı üzrə I və II Dövlət proqramlarının həyata keçirilməsi nəticəsində 2003-2013-cü illər ərzində respublikamızın enerji sistemində 17 yeni elektrik stansiyası istismara verilmişdir. 2006-cı ildən başlayaraq hər il iki yeni elektrik stansiyasının istifadəyə verilməsi təqdirə layiq haldır. Bu iş ölkəmizin elektrik energetkası sisteminin çox yüksək göstəricilərindən biridir. Elə bunun nəticəsidir ki, 2013-cü ilin sonunda 2300 meqavatdan artıq generasiya gücləri əldə edilmişdir.

2013-cü ilin əvvəlinə Respublikamızda enerji sisteminin gücü 2005-ci ildəki 5157 MVt-dan 6394 MVt-a çatdırılmışdır ki, bu da qonşu Gürcüstan və Ermənistanın energetika sistemlərinin cəmi

gücünə bərabərdir. Göstərilən müddətdə istilik elektrik stansiyalarının gücü 4187 MVt-dan 5371 MVt-a qədər, su elektrik stansiyalarının gücü isə 970,1 MVt-dan 1023 MVt-a qədər artmışdır. Respublikada 2006-cı ildə Astarada, Şəkidə, Xacmazda və Naxçıvanda hər birinin gücü 87 MVt, 2007-ci ildə Bakıda 105 MVt, 2008-ci ildə Səngəçalda 300 MVt, 2009-cu ildə Şahdağda 105 MVt, Sumqayıt şəhərində 525 MVt, 2013-cü ildə isə Şirvanda 780 MVt gücündə elektrik stansiyaları işə salınıb fəaliyyətə başlamışdır [1].

Aparılan təhlil materialları göstərir ki, 2012-ci ildə respublikada elektrik enerjisi istehsalı 0,5% artaraq 2005-ci ildəki 22871,5 mln.kvts-dan 2012-ci ildə 22988 mln. kvts-a qədər artmışdır. İstilik elektrik stansiyaları üzrə göstərilən dövrdə müvafiq olaraq 1,0% artaraq 19344 mln. kvts-dan 19537 mln. kvts-a qədər, su elektrik stansiyaları üzrə isə əksinə 59,3% azalaraq 3009 mln. kvts-dan 1821mln. kvts-a qədər azalmışdır.

Bununla yanaşı göstərmək lazımdır ki, qeyri-enerji müəssisələrində istehsal olunan elektrik enerjisi 3,8 dəfə artaraq 2005-ci ildəki 430,5 mln. kvts-dan 2012-ci ildə 1630 mln kvts-a qədər artmışdır.

Aşağıdakı cədvəl materialları "Azərenerji" ASC üzrə əsas texniki-iqtisadi göstəricilərin 2005-2012-ci illərdə inkişaf dinamikasını açıq şəkildə xarakterizə etdirir.

Cədvəl 1

**2005-2012-ci illərdə "Azərenerji" ASC üzrə əsas texniki-iqtisadi göstəricilərin dinamikası**

| Göstəricilər | Ölçü vahidi | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Elektrik enerji istehsalı, cəmi | mln kvts. | 22871,5 | 24542,7 | 21847 | 21642,6 | 18869,1 | 18709,5 | 20293,8 | 22988,0 |
| O cümlədən: | | | | | | | | | |
| İES üzrə | mln. kvts. | 19344 | 21407 | 19051 | 19090 | 16289 | 15003 | 17317 | 19537 |
| SES üzrə | mln. kvts. | 3009 | 2518 | 2364,0 | 2232,2 | 2308,4 | 3446,3 | 2675,8 | 1821,0 |
| Qeyri enerji müəssisələrinin istehsalı | mln. kvts. | 430,5 | 475,9 | 432,0 | 319,6 | 269,2 | 259,7 | 301 | 1630 |
| Generator vasitəsilə enerji istehsalı | mln kvts. | 88.0 | 141,8 | - | - | - | - | - | - |
| Enerji istehsalına sərf olunan yanacaq: Təbii qaz | mln. $m^3$ | 4282,9 | 5069,9 | 4850,5 | 4284,0 | 3624,1 | 3608,4 | 3800,3 | 3574,2 |
| İstilik enerjisinin buraxılışı | min hkal | 700,9 | 754,3 | 1200,6 | 1489,3 | 1108,1 | 904,9 | 1083,4 | 1195,2 |
| Elektrik enerjisinin ümumi texnoloji sərfi, cəmi (itkilər) | mln. kvts. | 2247,1 | 3605,9 | 3346,9 | 2195,8 | 2137,3 | 2158,8 | 2247,1 | 3605,9 |
| | %-lə | 20,3 | 15,0 | 15,2 | 15,0 | 22,0 | 20,9 | 20,3 | 15,0 |
| İdxal edilən elektrik enerjisi: cəmi | mln. kvts. | 128 | 140,9 | 160,5 | 215,9 | 110,0 | 99,8 | 128,0 | 140,9 |

Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi: "Azərbaycanın energetikası". Bakı-2013, səh. 76, 136, 137.

Təhlil materialları göstərir ki, enerji istehsalına sərf olunan yanacağın miqdarı son dövrlərdə əhəmiyyətli dərəcədə dəyişmişdir. Göründüyü kimi 2005-ci ildə enerji istehsalına sərf olunan təbii qaz yanacağının miqdarı 4282,9 mln. $m^3$ olmuşdursa, 2012-ci ilin sonunda bu göstərici 3574,2 mln. $m^3$-ə qədər azalmışdır. Bununla yanaşı göstərmək lazımdır ki, elektrik enerjisinə şərti yanacağın

xüsusi sərfi xeyli miqdarda azalmışdır. Bu isə öz növbəsində respublikada əlavə enerji istehsalının artmasına imkan yaradır.

İstilik enerjisinin buraxılışı 2005-ci ildə olduğu 700,9 min hkal-dən 2012-ci ildə 1195,2 min hkal-ə qədər yüksəlmiş və ya 1,7 dəfə artmışdır.

Elektrik enerjisinin ümumi texnoloji sərfi 2005-ci ildə olduğu 2247,1 mln kvts-dan 2012-ci ildə 3605,9 mln kvts-a qədər artmış və yaxud da bu artım 1,6 dəfə çox olmuşdur. Göstərilən müddətdə itgilər isə 20%-dən 15%-ə qədər azalmışdır.

İdxal edilən elektrik enerjisinin miqdarı 2005-ci ildəki 128 mln. kvts-dan 2012-ci ildə 140,9 mln. kvts-a qədər artmışdır.

Bu göstəricilərin artması heç də o demək deyildir ki, ölkədə əhalinin, eyni zamanda da ayrı-ayrı sənaye sahələri və müəssisələrinin elektrik enerjisinə tələbatı tam ödənilir.

Aparılan təhlil materialları göstərir ki, hazırki şəraitdə respublika energetika sisteminin maddi-texniki bazası müasir tələblərə lazımi səviyyədə cavab vermir. Ölkədə mövcud olan bəzi istilik-elektrik stansiyalarında istismar olunan energrtik avadanlıqlar müasir şəraitdə özünü doğrultmadığına və istismar müddəti ərzində dəfələrlə əsaslı təmir olunmasına baxmayaraq, normativdə göstəriləndən artıq yanacaq işlədilməsinə və ətraf mühitin çirklənməsinə səbəb olur.

Dövlət Stastika Komitəsinin materiallarının təhlili göstərir ki, 2012-ci ildə iqtisadi fəaliyyət növləri və inqrediyentlər üzrə stasionar mənbələrdən atmosferə atılmış çirkləndirici maddələrin miqdarı 226,5 min ton təşkil etmişdir. Bunlardan atmosferə atılan bərk maddələr 9,9 min ton, qaza oxşar və maye maddələr isə 216,6 min ton olmuşdur. Onlardan kükürd anhidridi ($SO_2$)-3,3 min ton, karbon oksidi (CO)-34,9 min ton, azot oksidləri ($NO_2$)-23,7 min ton, karbohidrogenlər isə 142,9 min ton olmuşdur. Həmin ildə atmosferə atılmış çirkləndirici maddələrdən Mədənçıxarma sənayesi tərəfindən 87,1 min ton, Emal sənayesi tərəfindən 42, 8 min ton, Elektrik enerjisi, qaz, buxar və kondisiyalaşdırılmış hava ilə təchizat-39,1 min ton, Nəqliyyat və anbar təsərrüfatı vasitəsilə atılan çirkləndirici maddələr isə 48,7 min ton təşkil etmişdir [2].

Energetika sənaye sahəsində mövcud olan bu çatışmazlıqların aradan qaldırılması və perspektivdə ayrı-ayrı sənaye sahələrinin enerjiyə artan tələbatının və ölkədə əhalinin məişət ehtiyaclarının lazımi səviyyədə ödənilməsi məqsədilə fəaliyyətdə olan elektrik stansiyalarının yenidən qurulması və onların müasir tələblərə cavab verən avadanlıqlarla təchiz edilməsinə xüsusi əhəmiyyət verilməlidir.

Təcrübə göstərir ki, energetika sənaye sahəsində əsas istehsal fondlarının yeniləşdirilməsi məsələlərinə lazımi dərəcədə əhəmiyyət verilməməsi nəticəsində fondların tərkibində avadanlıqların mənəvi cəhətdən köhnəlməsi onların fiziki cəhətdən aşınmasının yüksəlməsinə gətirib çıxarmışdır. Elmi-texniki tərəqqinin indiki inkişaf şəraitində həmin avadanlıqların mənəvi cəhətdən köhnəlməsi və müasir tələblər səviyyəsində olmasına baxmayaraq, həmin avadanlıqlara əsaslı təmir xidməti göstərilməsi nəticəsində fiziki cəhətdən hələ də uzun müddət ərzində işləyə bilərlər.

Bütün bunlar, perspektivdə enerji sisteminin proqnozlaşdırılması və planlaşdırılması zamanı respublikada energetika sənaye sahəsinin təzələnməsi və yenidən silahlandırılması məsələlərinə çox ciddi diqqət yetirilməsini tələb edir.

Qeyd etmək lazımdır ki, iqtisadiyyatın bütün sahələrində yeni texnologiyaların tətbiqi müasir dövrün tələbidir. İndiki şəraitdə yeni enerji obyektlərinin tikintisi və istismarında ən mühüm məsələlərdən biri müasir tələblərə cavab verən texnologiyaların tətbiq edilməsindən ibarətdir. Elə bunun nəticəsidir ki, ölkənin elektrik enerji sistemində yalnız kəmiyyət cəhətdən deyil, eyni zamanda keyfiyyət cəhətdən də ciddi şəkildə müvəffəqiyyətlərə nail olunmuşdur. Bütün bunların nəticəsində respublikanın elektrik enerjisi stansiyalarının əsas texnoloji keyfiyyət göstəricisi olan faydalı iş əmsalı müəyyən qədər yüksəlmiş və ekoloji təmizlik prinsiplərinə qismən də olsa əməl olunmuşdur. Belə ki, hər kilovatsaat elektrik enerjisinin istehsalına sərf olunan şərti yanacağın miqdarı 2008-ci ildəki 415 qramdan 2013-cü ildə 305 qrama qədər, yəni 25%-dən çox aşağı düşmüşdür. Bu isə öz-özlüyündə hər il təxminən 2 milyon ton şərti yanacağa qənaət etməyə imkan vermişdir [1].

Regionların I və II sosial-iqtisadi inkişaf Dövlət proqramlarının həyata keçirilməsi nəticəsində respublikanın enerji sisteminin əhəmiyyətli ötürücü xətlər və yarımstansiyaların inşası istiqamətində əsaslı işlər görülmüşdür. Başqa bölgələrdə olduğu kimi Xaçmaz rayonunda 300 kilovoltluq yarımstansiyanın işə salınması respublikanın Şimal bölgəsinin enerji təchizatını əsaslı şəkildə yaxşılaşdır-

mışdır. Bu layihənin işə salınması nəticəsində Azərbaycan və Rusiya enerji sistemlərinin paralel iş rejimi imkanları daha da təkmilləşdirilmişdir.

Bu dövrdə görülən işlərdən biri də Azərbaycan və Gürcüstanın enerji sistemlərini birləşdirən 180 kilometr uzunluğunda 500 kilovoltluq Azərbaycan İES-Samux-Qardabani xəttinin tamamilə yenidən qurulması, 500 kilovoltluq Samux yarımstansiyasının işə salınması, 300 kilovoltluq Ağstafa yarımstansiyasının yenidən qurulması və zəruri xətlərin istifadəyə verilməsindən ibarətdir. Bunun da nəticəsində Gəncə-Qazax bölgəsinə 400 meqavat əlavə güc ötürmək imkanı yaradılmışdır. Bu layihənin reallaşması bölgənin elektrik enerjisi təminatı ilə yanaşı, yeni tikiləcək enerji tutumlu müəssisələrin enerji təchizatını tamamilə təmin etməyə imkan verəcəkdir.

Respublikada çox mühüm məsələlərdən biri kimi elektrik enerjisindən səmərəli istifadə edilməsi məqsədilə kompleks proqramın hazırlanması və onun tətbiqinə xüsusi diqqət yetirilməlidir. Bu kompleks proqramda elektrik şəbəkələrinin inkişafına üstünlük verilməsi və mövcud elektrik stansiyalarında itgilərin səviyyəsinin minimuma endirilməsinə nail olmaq lazımdır.

Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf proqramında yanacaq-energetika kompleksinin müstəsna rolu indiki şəraitdə daha qabarıq şəkildə nəzərə çarpır. Hal-hazırki dövrdə ölkənin yanacaq-enerji kompleksinin qarşısında duran əsas vəzifə son dövrlərdə qazanılmış uğurları möhkəmləndirməkdən, respublika iqtisadiyyatının və əhalinin enerji resurslarına olan tələbatının daha dolğun ödənilməsini təmin etməkdən ibarətdir. Bu mühüm vəzifənin yerinə yetirilməsi məqsədilə hazırlanmış “Azərbaycan Respublikasının yanacaq-enerji kompleksinin inkişafı (2014-2018-ci illər) üzrə Dövlət Proqramı”nda qarşıdakı beş illik dövrdə bu kompleksə daxil olan sahələrin inkişaf istiqamətləri müəyyənləşdirilmiş və onların reallaşması üçün konkret tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Dövlət proqramının əsas vəzifələri aşağıdakılardır:

- Azərbaycan Respublikasının yanacaq-enerji kompleksinin müasir tələblərə uyğun inkişafının əsas istiqamətlərini müəyyənləşdirmək;
- yanacaq-enerji kompleksinə daxil olan sənaye sahələrinin fəaliyyətinin səmərəliliyinin artırılması üçün müvafiq elmi-texniki və təşkilati tədbirlərin həyata keçirilməsi;
- enerji resurslarının istehsalı, emalı, nəqli, saxlanması, uçotu və istehlakı üzrə mütərəqqi texnoloji tədbirlərin həyata keçirilməsini təmin etmək;
- yanacaq-enerji sektorunda sağlam rəqabət mühitini formalaşdırmaq;
- yanacaq-enerji kompleksinin inkişafına cəlb edilən sərmayələrin həcmini artırmaq;
- yanacaq-enerji kompleksində ekoloji təhlükəsizliyi təmin etmək;
- yanacaq-enerji resurslarının (elektrik enerjisi və təbii qaz) istehlakına görə ödənişlərn daha dolğun yerinə yetirilməsini təmin etmək.

Bu deyilənlərə əsaslanaraq demək olar ki, iqtisadiyyatın inkişafının sahələrarası problemləri içərisində ən mühümü yanacaq-enerji problemidir. İqtisadi və ictimai tərəqqinin imkanları, sürəti və istiqaməti bu problemin həllindən çox asılıdır. Ölkənin yanacaq-enerji kompleksinə bir çox sahələr daxildir: enerji ehtiyatlarının hasilatı, nəqli və istifadəsi.

Müasir dövrümüz cəmiyyətin inkişaf mərhələlərindən müxtəlif təsərrüfat sahələrində və məişətdə elektrik enerjisinin geniş tətbiqi ilə fərqlənir. Bu və ya digər ölkənin iqtisadi inkişaf səviyyəsi enerji resurslarından, o cümlədən elektrik enerjisinin hər adambaşına düşən orta miqdarı ilə xarakterizə olunur. Azərbaycanda hər adambaşına 1970-ci ildə 2171 kvts, 1980-ci ildə 2966 kvts, 1990-cı ildə 3310 kvts, 2000-ci ildə 2406,5 kvts, 2005-ci ildə 2629,2 kvts, 2010-cu ildə 2053,5 kvts, 2011-ci ildə 2197,5 kvts və 2012-ci ildə isə 2456,9 kvts elektrik enerjisi istehsal edilmişdir.

Təbii sərvətlərə malik olan ölkəmizdə energetika sisteminin yeniləşməsinin zəruriliyini dəfələrlə bəyan edən möhtərəm Prezidentimiz cənab İlham Əliyev demişdir ki, biz əlavə enerji güclərinin işə salınması ilə iqtisadiyyatımızın gələcək istiqamətlərini müəyyən edirik.

Dövlət başçısının təşəbbüsü və rəhbərliyi ilə işlənib hazırlanmış strategiya əsasında Azərbaycanın elektrik energetikasının yeni inkişaf mərhələsi başlanmışdır. 2008-2013-cü illərdə regionların sosial-iqtisadi inkişafının və 2014-2018-ci illərdə yanacaq-enerji kompleksinin inkişafına dair Dövlət Proqramlarının, respublikamızda elektrik enerjisi təminatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında Sərəncamın icrası öz bəhrəsini verir. Azərbaycanın malik olduğu müstəqil energetika sistemi yeni generasiya gücləri hesabına daha da möhkəmlənir.

Güclərin ötürülməsi imkanlarının artırılması üçün yüksək gərginlikli hava elektrik xətlərinin yenidən qurulması və yeni yarımstansiyaların tikintisi üzrə planlar da gündəlikdə duran məsələlərdən biridir. Türkiyə, Gürcüstan, Rusiya, Azərbaycan və İran enerji sistemlərinin paralel işləməsinin təmin edilməsi layihəsi indiki şəraitdə bu ölkələrdə idxal-ixrac əməliyyatlarını asanlaşdırar və bunun nəticəsində də Respublikanın enerji təminatında sabitlik yaranar.

Qeyd etmək lazımdır ki, ölkəmizdə generasiya güclərinin işə salınması istiqamətində lazımi işlər görülür. Belə ki, 2014-cü ilin sonuna qədər 409 meqavat gücündə bir stansiyanın, yəni “Şimal-2” istilik elektrik stansiyasının işə salınması nəzərdə tutulur. Bununla yanaşı Lerik və Yardımlı rayonlarının coğrafi mövqeyinin mürəkkəbliyi nəzərə alınaraq, həmin rayonların elektrik enerjisi təchizatının yaxşılaşdırılması məqsədilə inşa edilən 17 meqavat gücündə elektrik stansiyasında görülən işlər 2014-cü ilin əvvəlində başa çatdırılmışdır. Layihə çərçivəsində Yardımlı və Lerik rayonlarının ərazisində 35 kilovoltluq yeni yarımstansiyalar və elektrik xətləri inşa edilib istifadəyə verilmişdir.

Güclərin ötürülməsi imkanlarının artırılması üçün yüksək gərginlikli hava elektrik xətlərinin yenidən qurulması və yeni stansiyaların tikintisi ilə əlaqədar olaraq lazımi planlar hazırlanmış və yerinə yetirilmə ərəfəsindədir.

Deməli, respublikanın ərazisində yerləşən elektrik stansiyalarının müasir avadanlıq və texnoloji proseslər əsasında yenidən qurulması Azərbaycanın 15-20 il üçün perspektiv energetika proqramının əsas istiqaməti olmalıdır. Aparılan proqnoz hesablamaları göstərir ki, ölkədə elektrik enerjisinə olan tələbat 40-45 mlrd. kvt. saata qədər artırılmalıdır. Bu tələbatın ödənilməsi mövcud elektrik stansiyalarında yenidənqurma işləri aparılması və elmi-texniki tərəqqinin son nailiyyətləri əsasında yaradılmış olan müasir avadanlıqlarla işləyən elektrik stansiyalarının tikilib istifadəyə verilməsi yolu ilə yerinə yetirilməlidir. Ona görə də perspektivdə elektrik stansiyalarında enerji gücünün 1,5-1,8 dəfə və enerji istehsalının isə 1,8-2,0 dəfə artırılması məqsədəuyğundur.

2011-2015-ci illərdə nəzərdə tutulmuş layihələrin həyata keçirilməsi nəticəsində enerji sistemində əlavə 3 min meqavatdan artıq güc əldə ediləcəkdir.

Yanacaq-enerji kompleksinin inkişafı dövlət tərəfindən tərtib edilmiş energetik proqram əsasında müəyyən edilməlidir. Yanacaq-energetika kompleksini əhatə edən qanun layihələri hazırlanarkən onların dünya standartlarına uyğunluğu, bazar iqtisadiyyatı şəraitində enerji resurslarının istehsalı, nəqli və paylanması üzrə infrastrukturların inkişafında dövlət nəzarəti və sərbəst işgüzarlığın balansı nəzərdə tutulmuş qaydada təmin edilməlidir.

Aparılan tətqiqatlar göstərir ki, enerji istehsalı sahəsində Azərbaycan dünyanın bir çox dövlətləri içərisində böyük uğurlara nail olmuşdur. Azərbaycan zəngin karbohidrogen ehtiyatlarına malik olmasına baxmayaraq, ölkəmizdə alternativ enerji mənbələrinin yaradılması istiqamətində çox mühüm işlər görülməsi ilə əlaqədar lazımi tədbirlər həyata keçirilir.

Hal-hazırda Azərbaycanda yeni tikilən 10 stansiyanın enerji potensialı 2100 meqavatdır. Respublikanın ümumi enerji potensialının 6400 mvt olduğu nəzərə alınarsa, bu son dörd il ərzində ölkənin enerji potensialının 40 faizə qədər artırılması deməkdir. İndiki şəraitdə elektrik stansiyalırının tikintisində ən müasir texnologiyalardan istifadə olunmasına, etibarlılıq və ekoloji cəhətdən təmizlik prinsiplərinə üstünlük verilməlidir. Məsələn, yeni texnologiyalar əsasında inşa edilən və 2010-cu ilin noyabrında istifadəyə verilən Sumqayıt Elektrik Stansiyasının işə salınması nəticəsində parnik effekti yaradan karbon qazlarının havaya tullantısı ildə 700 min ton azalacaqdır.

Dünya dövlətlərinin qarşısında duran əsas vəzifələrdən biri təmiz enerji mənbələrindən, yəni günəş, külək enerjisi, kiçik SES-lər, termal sular, biokütlə enerjisi və s-dən daha geniş istifadə olunmasından ibarətdir.

Hal-hazırda Azərbaycan elektrik enerjisi sterasında əsas ixracatçı statusunu daşımağa başlayıb. Son illərdə Azərbaycan elektrik enerjisinin ixracatçı kimi mövqeyini daha da gücləndirmişdir.

Azərbaycanın ixrac etdiyi elektrik enerjisi idxalı həm fiziki və həm də maliyyə göstəriciləri baxımından dəfələrlə üstələyir. Bu da son nəticədə elektrik enerjisinin ixracından Azərbaycanın böyük həcmdə gəlir əldə etməsi ilə nəticələnir. Ölkəmizdə hasil olunan elektrik enerjisinin əsas idxalçıları isə hal hazırda Rusiya, İran, Gürcüstan və Türkiyə dövlətləridir. Belə ki, 2012-ci ildə xarici ölkələrə ixrac olunan elektrik enerjisinin həcmi 482,7 mln. kvts olmuşdur. Bunlardan Rusiya Federasiyasına 229,5 mln kvts, Türkiyəyə 222,1 mln. kvts, İran İslam Respublikasına 29,1 mln. kvts, Gürcüstana isə 2,0 mln. kvts həcmində elektrik enerjisi ixrac olunmuşdur [3].

Ümumiyyətlə, perspektivdə energetika sənaye sahələrinin gələcək inkişafı məsələlərinə, xüsusilə də bu sahədə israfçılığın qətiyyətlə aradan qaldırılması üçün əməli texniki-təşkilati tədbirlər görülməsi, elmi-texniki tərəqqinin son nailiyyətlərindən istifadə olunması və yüksək ixtisaslı energetik kadrların hazırlanması daim diqqət mərkəzində duran mühüm problemlərdən biri olmalıdır.

**İstifadə olunmuş ədəbiyyat**

1. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət proqramlarının icrasına həsr olunmuş konfrans materialları. “Azərbaycan” qəzeti, 6 fevral 2014-cü il.
2. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. “Azərbaycanın energetikası”. Statistik məcmuə. Bakı, 2013
3. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Azərbaycanın statistik göstəriciləri. Bakı, 2013
4. Həmidov M., Vəliyeva T., Sənaye müəssisələrində elektrik enerjisinə qənaət və səmərəli istifadə. Bakı, NPM “Təhsil”, 2010

**Аскер Алиев**
**Севда Мамедова**

**РОЛЬ ЭНЕРГЕТИЧЕСКОЙ ОТРАСЛИ В РАЗВИТИИ ЭКОНОМИКИ АЗЕРБАЙДЖАНА**

**Резюме**

В статье достаточно подробно рассмотрено большое значение топливно-энергетического комплекса в современных условиях развития экономики Азербайджана. Наряду с этим, подробно характеризуются изменения, происшедшие в энергетической системе страны за период 2003-2013 годов в результате осуществления многочисленных проектов и I-ой и II-ой Государственных программ по социально-экономическому развитию регионов, а также проведен анализ динамики развития основных технико-экономических показателей ОАО “Азерэнержи” за 2005-2012 годы.

**Asker Aliyev**
**Sevda Mammadova**

**THE ROLE OF POWER ENGİNEERİNG İNDUSTRY BRANCH İN THE DEVELOPMENT OF AZERBAİJAN ECONOMY**

**Summary**

İn the article great importance of fuel-power engineering complex has been considered in detail sufficiently in modern conditions of development of Azerbaijan economy. At the same time the changes happening in power engineering system during 2003-2013 years in the result of realizing numerous projects and I, II State programmes on sosio-economic development of regions are characterized in detail. Analysis of development dynamics of technical-economic indexes of OJSC “Azerenerjhi” has been carried out for 2005-2012 years.

**UOT – 631.164**

**Hicran Mirzəyeva**
**AƏSMA, i.ü.f.d.**

# KƏND TƏSƏRRÜFATINDA TƏKRAR İSTEHSAL PROSESİNİN DÖVLƏT TƏRƏFİNDƏN DƏSTƏKLƏNMƏSİ

**Açar sözlər:** lizinq, kənd təsərrüfatı, investisiya, maliyyə, kredit, kənd təsərrüfatı texnikası

**Ключевые слава:** лизинг, сельское хозяйство, инвестиция, финансы, кредит, сельскохозяйственная техника

**Keywords:** leasing, agricultural, investment, finance, credit, agricultural machinery

Məlumdur ki, iqtisadiyyatda sistem dəyişikliyinin ən ağrılı təsiri ilkin olaraq az rəqabətqabiliyyətli sahələrdə özünü göstərir. Bu sahələrin tipik nümunəsi kənd təsərrüfatıdır. Ötən əsrin son 20 ilində konkret misalda postsovet ölkələrində baş vermiş proseslər təsərrüfatçılıq sisteminin baza prinsipləri ləğvinə, maddi texniki bazanın dağıdılmasına səbəb oldu. Bir sözlə, birqütblü iqtisadi sistemin yaradılması bir zəruriyyət kimi ortaya çıxdı. Lakin yeni təsərrüfatçılıq sisteminin tam fəaliyyəti üçün hər bir ölkənin şəraitindən asılı olaraq müəyyən vaxt uzunmüddətli, ağır bir proses olduğundan onun hərtərəfli araşdırılması beynəlxalq təcrübənin öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir.

Keçid dövründə aqrar sahədə yaranmış böhranlı vəziyyətin səbəbləri və onun aradan qaldırılması yolları barədə fikirlər nə qədər müxtəlif olsa da, bir məsələdə bütün mütəxəssislər yekdil bir fikrə gəldilər ki, dövlətin aqrar-ərzaq siyasətinin birinci dərəcəli vəzifəsi maliyyə - kredt sistemini təkmilləşdirməkdən, investisiya fəaliyyətini gücləndirməkdən, aqrar sahənin texniki təchizatının yeniləşdirilməsini sürətləndirməkdən ibarət olmalıdır [2]. Buna görə də müasir şəraitdə aqrar sahənin dövlət tərəfindən dəstəklənməsi və tənzimlənməsinin inkişaf etmiş ölkələrin təcrübəsinə istinadən aşağıdakı istiqamətləri əsas götürülməlidir:

- büdcə investisiyalarının optimallaşdırılması;
- lizinq dəstəyi metodlarının təkmilləşdirilməsi;
- dövlət təminatları mexanizmindən istifadə edilməsi və kredit tənzimlənməsi;
- sənaye və kənd təsərrüfatı məhsulları üçün qiymətlərin paritetliyinin təmin olması;
- regional səviyyələrdə dövlət sifarişi mexanizmindən istifadə edilməsi;
- maliyyə intizamının möhkəmləndirilməsi;
- elmi araşdırmaların prioritet istiqamətlərinin dəqiqləşdirilməsi və dəstəklənməsi;
- rəqabət mühitinin inkişafı və antiinhisar tənzimləmənin həyata keçirilməsi.

Məqsədə nail olunması üçün aqrar sahənin büdcə resursları ilə dəstəklənməsi və tənzimlənməsi mexanizmləri qanunvericilik aktları və müqavilə prinsipləri ilə həyata keçirilməli və bu mexanizm dövlətdən yardım almaq üçün rəsmi statusa malik olan bütün kənd təsərrüfatı müəssisələrinə eyni dərəcədə şamil edilməlidir. Yəni, fikrimizcə, təkcə səmərəli işləyən mülkiyyətçilərin dəstəklənməsi heç də perspektivli yol deyildir. Dövlətin resurs dəstəyi müəyyənləşdirilən zaman kompensasiyalarının verilməsi üçün müvafiq inftrastruktur və mexanizmlər yaradılmalıdır. Bununla aşağıdakı problemlərin həlli mümkün olacaqdır:

- kənd təsərrüfatı müəssisələrinin fəaliyyətlərinin iqtisadi nəticələrinə görə onların məsuliyyətinin artırılmasına;
- kənd təsərrüfatı istehsalında texnoloji potensialın və müasir texnologiyaların inkişaf etdirilməsi və onlardan istifadəsinə;
- torpaq resurslarından səmərəli istifadə edilməsi və torpaqların məhsuldarlığının lazımi səviyyədə saxlanmasına;
- kənd təsərrüfatı təyinatlı torpaqlarda və qismən digər kateqoriyalara aid torpaqlarda ətraf

mühitin mühafizəsi ilə bağlı ekoloji məsələlərin həll edilməsinə.

Kənd təsərrüfatı müəssisələrinin sertifikatlaşdırılması aqrar sahədə baş verən proseslərin idarə edilməsi səviyyəsini artırmağa imkan verəcəkdir. Eyni zamanda ərzaq və bazar qiymətlərinin stabilliyinin təmin edilməsi vasitəsi kimi, dövlət ərzaq fondunun formalaşması üçün ilkin real şərait yaratmalıdır.

Kapital yığımının yüksək tempi və geniş miqyas alması kimi zəruri şərtlər təmin edilmədikdə aqrar sahə kimi tutumlu sahənin uğurlu fəaliyyəti və inkişafı qeyri-mümkündür. Məlumdur ki, yığım və gəlirlərin sabitləşməsi iqtisadiyyatda dövlətin inkişafının prinsiplərinə əsaslanır [3]. Beynəlxalq təcrübə göstərir ki, dövlətin aqrar-ərzaq siyasəti çərçivəsində perspektiv inkişaf strategiyasını işləyib hazırlayarkən aqrar sahənin investisiya təminatında dövlətin iştirakı aşağıdakı məsələlərin həllinə yönəldilməlidir:

- aqrar sahədə vahid texnoloji siyasət yeridilməsinə;
- resurs bazarlarının infrastrukturunun inkişaf etdirilməsinə;
- aqrar sahədə investisiya fəallığının lazımi səviyyədə saxlanılması və stimullaşdırılmasına.

Bu məsələyə sistem nəzəriyyəsi baxımından yanaşıldıqda aqrar sahənin dövlət tərəfindən birbaşa dəstəklənməsi sənaye ilə kənd təsərrüfatı arasındakı inkişaf strategiyası kimi qiymətləndirilməlidir. Beləliklə, aqrar sahəyə dövlət dəstəyinin kompensasiya forması kimi xarakterizə olunan bu proses zərurətdən doğan bir tələbdir [1].

Aqrar sahədə resurs dəstəyinin və investisiya fəallığının təmin edilməsi tədbirləri sırasına kənd təsərrüfatında kommersiya lizinq əməliyyatlarının subsidiyalaşdırılması xüsusi əhəmiyyət daşıyır. İslahat dövründə aqrar sahəyə qoyulan investisiyalar təbii olaraq xeyli azalır. Kənd təsərrüfatı əmtəə istehsalçıları tərəfindən alınmış kənd təsərrüfatı texnikası və digər alışlar təsərrüfatçılıq dövrünə nisbətən qat-qat azalmışdır. Azərbaycanda kənd təsərrüfatı maşınqayırma sənayesinin olmaması mövcud vəziyyəti daha da ağırlaşdırır. Digər bir problem mövcud istehsal vasitələrinin istismar müddəti ilə bağlıdır. Son dövrlər (2005-2011-ci illərdə) ölkəyə 4252 ədəd traktor, 1033 ədəd taxıl yığan kombayn, 164 ədəd ekskavator, 8941 ədəd digər kənd təsərrüfatı texnikaları gətirilib. O cümlədən 362 ədəd kotan, 1280 ədəd ot biçən, 206 ədəd mala, 518 ədəd ot-küləş presləyən, 144 ədəd kultivator və s.

Təhlil göstərir ki, respublika kənd təsərrüfatında istifadə olunan traktorların 86,3 %-i, taxıl yığan kombaynların 71,7%-i, kotanların 14,7%-i, malaların 87,1%-i, kultivatorların 91,7%-i , 15-20 ildən çox istismar edilənlərdir. 01.01.2012-ci il tarixinə saz texnika hesabına traktorlarla ümumi tələbatın ödənilmə səviyyəsi 38,1%, kotanlarla 18,7%, taxılyığan kombaynlarla 20,2%, malalarla və kultivatorlarla müvafiq olaraq 11,5% və 11,6% təşkil edib. Deməli, kənd təsərrüfatında texniki parkın yeniləşdirilməsi və tələbatın tam ödənilməsi üçün indiki vaxtda, yəni kənd təsərrüfatına dövlət dəstəyinin formalaşdırıldığı bir dövrdə aşağıdakı məsələlərin həlli ön plana çəkilməlidir:

- kənd təsərrüfatının texniki təchizatının yeniləşdirilməsini maliyyələşdirmək üçün büdcə vəsaitlərindən istifadənin səmərəliliyinin artırılması;
- aqrar sahədə lizinq fəaliyyətinin kommersiya xarakterliyi üçün əlverişli rejimin yaradılması.

Məlumdur ki, lizinq maliyyələşdirməsinin tətbiq edilməsi yalnız o halda məqsədəuyğundur ki, lizinq əməliyyatlarının bütün iştirakçılarının mənafelərinin tarazlığı təmin edilmiş olsun. Bu halda icarəçinin, lizinq verənin, istehsalçının, bankların, sığortaçıların və lizinq sövdələşməsinin digər iştirakçılarının dəqiq ifadə olunmuş iqtisadi maraqları olduğu üçün onlar daha yaxşı maliyyə göstəriciləri əldə edəcəklər.

Kənd təsərrüfatı texnikası alınmasının kompensasiyalı dəstək mexanizmi xeyli dərəcədə müvafiq normativlər sisteminin elmi dərəcədən əsaslanma səviyyəsi ilə müəyyən edilir. Nəzərə almaq lazımdır ki, yeni kənd təsərrüfatı texnikası ilə bağlı xərclər ümumi istehsal xərclərinin yalnız bir hissəsidir. Bundan əlavə, kompensasiyalı resurs dəstəyi kənd təsərrüfatı texnikasının növləri üzrə differensiasiya edilməlidir. Kənd təsərrüfatı texnikası alınması üçün kompensasiya dəstəyi normativlərinin baza sistemi barədə təkliflərə aşağıdakıları göstərmək olar (cədvəl 1). Bu normativlər sistemi üçpilləli xarakter daşıyır və məntiqi baxımdan kənd təsər-

rüfatı istehsalı ilə bağlı məsrəflər normativindən asılıl olaraq müəyyən növ (i) texnika alınması üçün kompensasiya ödənişlərinin (K*) kəmiyyətini müəyyən edir:

$$K^* = N \times K_1 \times K_2 \times K_{mi},$$

burada: $K_1$ – kompensasiya dəstəyinə ehtiyac olan istehsal xərclərinin nisbi payı,

N- məsrəf norması,

$K_2$- təzə kənd təsərrüfatı texnikası alınması üçün kompensasiya ödənişlərinin nisbi payı,

$K_{mi}$ – müəyyən növ (i) kənd təsərrüfatı texnikası alınması üçün kənd təsərrüfatı texnikasının növləri üzrə (i=1,2,…n) diferensiasiyalı dəstəkləmə əmsallarıdır.

Kompensasiya ödənişləri normativlərinin əhəmiyyətini kənd təsərrüfatı istehsalının rentabelliyi barədə bütün təsərrüfatlar üzrə eyni seçilə biləcək normativ göstəricinin köməyi ilə əsaslandırmaq məqsədəuyğundur.

Müxtəlif mənbələrdə verilən məlumata görə, kənd təsərrüfatında əsas istehsal üzrə rentabellik səviyyəsi ən azı 15%-ə bərabər səviyyədə saxlanılması tövsiyə edildiyi halda, bütün əsas kənd təsərrüfatı bitkiləri üzrə xalis mənfəət istehsal xərclərinin 40%-dən az olmamalıdır. Təcrübə göstərir ki, kənd təsərrüfatı texnikasının təkrar istehsalı, kənd təsərrüfatı təyinatlı torpaqların məhsuldarlığının qorunub saxlanması, kəndin sosial sahəsinə minimal dəstək problemlərinin həll edilməsi üçün mənfəətin bü səviyyədə olması kifayətdir. Beləliklə, kompensasiya xarakterli dövlət dəstəyi göstərilməli olan istehsal məsrəflərinin hesablanması əsaslandırılmış möhkəm normativ bazaya əsaslanır.

Kənd təsərrüfatı texnikası alınması üçün lizinq mexanizmindən istifadə edildikdə vahid kompensasiya ödənişlərinə cari istehsal məsrəfləri və bu kənd təsərrüfatı texnikasının yeniləşdirilməsi üçün vəsaitlər də əhatə olunur, çünki lizinq ödənişləri məhsulun maya dəyəri hesabına həyata keçirilir.

Öz növbəsində, bazarların tənzimlənməsinin kompensasiya mexanizmi də öz növbəsində infrastrukturun inkişafı üçün etibarlı zəmin yaratmaqla bu əsasda müasir tipli diler və distribyutor şəbəkələri, qeyri-dövlət lizinq şirkətləri və kənd təsərrüfatı üçün resurs bazarlarının digər institutları yaradılır.

Cədvəl 1

**Kənd təsərrüfatı texnikası alınması üçün kompensasiya amilləri**

| № | Göstəricilərin adları | Diferensasiya amilləri |
|---|---|---|
| 1 | kompensasiya xarakterli dövlət dəstəyinə ehtiyacı olan istehsal məsrəflərinin nisbi payı | Torpaq-iqlim şəraiti, təsərrüfatın ixtisaslaşması, ərazilər üzrə yerləşmə |
| 2 | kənd təsərrüfatı texnikasının alınması üçün ayrılan kompensasiya ödənişlərinin ümumi kompensasiya ödənişlərinin tərkibində nisbi payı | 1-ci bənddə göstərilən amillər<br>Təkrar istehsal proseslərinin dəstəklənməsi üçün dövlət regional siyasətinin prioritetləri |
| 3 | 2-ci bənddə göstərilən kompensasiya ödənişlərinin tərkibində kənd təsərrüfatı texnikasının növlərinin nisbi payı | 1-ci və 2-ci bəndlərdə göstərilən amillər.<br>Kənd təsərrüfatı texnikası bazarının və regionun maliyyə bazarının iqtisadi şəraiti.<br>Regional səviyyəli dövlət qiymət siyasətinin kənd təsərrüfatı texnikasının bazarının tənzimlənməsində üstünlükləri.<br>Yeni əkinçilik sistemlərinin və texnologoyalarının dəstəklənmə prioritetləri. |

Dövlət tərəfindən kompensasiya xarakterli dəstək məsələsinin reallaşdırılması üçün aqrar sahədə lizinqin təşkil edilməsinin ümumi sxemini (həmin sxem aşağıda verilir) və aşağıdakı mexanizmləri təklif etmək olar:

• kənd təsərrüfatı istehsalının gəlirlə işləməsi imkanını təmin edən mexanizm; (bu mexanizm məsrəflərin bir hissəsinin kompensasiya edilməsi üçün müvafiq normativlərin qanunvericilik yolu ilə müəyyən olunmuş tənzimlənən sistemi vasitəsilə təmin edilir)
• aqrar lizinq üzrə ödənişlərin qaytarılması mexanizmi; (bu mexanizm lizinq əmlakının sığortalanması, birgə məsuliyyət və həmin əmlakın girov dəyəri hesabına təmin edilir)
• lizinq alanların kompensasiya ödənişlərindən məqsədli şəkildə istifadə etməsi (kompensasiya ödənişlərinin becərilən torpaqların sahəsindən, məhsuldarlıq normativindən və seçilmiş amortizasiya siyasətinə müvafiq norma üzrə dövlət sifarişinin həcmindən asılı olaraq hesablanması buna imkan yaradacaqdır. Həmin kompensasiya ödənişləri kənd təsərrüfatı texnikası alınması faktı üzrə həyata keçirilir).

Sxem 1

**Aqro-lizinqin təşkili**




Aqrar lizinqin dəstəklənməsi üçün təklif etdiyimiz mexanizmin tərkib hissələri 2 saylı cədvəldə açıqlanır. Bu halda əsas funksiyalar dövlət hakimiyyəti və yerli hakimiyyət orqanlarına həvalə edilir. Onlar öz səylərini aşağıdakı məsələlərə yönəltməlidirlər:
• kənd təsərrüfatı istehsalının və aqrar sahəyə investisiyalar qoyulmasının resurs dəstəyi və dövlət siyasətinin əsas istiqamətlərinin müəyyən edilməsi;
• kənd təsərrüfatı maşın və avadanlıqlarının lizinqinin resurs dəstəyi üçün stabil mexanizmin reallaşdırılması;
• torpağa münasibətdə kənd təsərrüfatı istehsalı sahəsində səmərəli fəaliyyət göstərən mülkiyyətçilər yetişməsini təmin edən islahatın həyata keçirilməsi, həmin mülkiyyətçilərin girov ssudalarından istehsal və inkişaf üçün istifadə edə bilməsi;
• aqrar lizinqin dəstəklənməsi üçün hüquqi şərtlərin təmin edilməsi;
• yeni kənd təsərrüfatı texnikası alınması ilə bağlı məsrəflərin bir hissəsinin kompensasiyasını təmin edən mexanizmin yaradılması.

Cədvəl 2

**Kənd təsərrüfat lizinqinin dəstəklənməsi və tənzimlənməsi mexanizmi**

| Kənd təsərrüfatı istehsalının idarə edilməsi səviyyələri | Kənd təsərrüfat maşınlar lizinqinin dəstəklənməsi və tənzimlənməsi funksiyaları |
|---|---|
| Regional subyektin kənd rayonlarının adminstrasiyaları | Kənd təsərrüfatı istehsalçılarının lizinq üzrə kompensasiyalar almaq hüququnun təmin edilməsində iştirak. Nəzarət funksiyalarının yerinə yetirilməsi. |
| Subyektlərdə aqrar lizinqi dəstəkləmə fondu | Lizinqin dəstəklənməsi haqqında qanun əsasında fondun vəsaitlərinin formalaşması barədə təkliflərin işlənib hazırlanması. Fondun büdcədənkənar vəsaitlərinin formalaşması. Fondun fəaliyyət istiqamətləri üzrə lizinq alanlar, lizinq firmaları və malgöndərənlər barədə məlumatlar bazasının idarə edilməsi. Qanunvericilik əsasında kompensasiya ödənişlərinin və lizinqin güzəştli kreditləşdirilməsinin təmin edilməsi. Nəzarət funksiyalarının yerinə yetirilməsi. |
| Akkreditə edilmiş lizinq şirkətləri | Lizinq alanların tədiyyəqabiliyyətlilik reyestrinin idarə edilməsi. Lizinq müqaviləsinin risklərinin qiymətləndirilməsi, idarə edilməsi. Lizinq müqaviləsinin şərtlərinə əsasən əmlak məsuliyyəti. |
| Lizinq alanlar (kənd təsərrüfatı istehsalçıları) | Lizinq ödənişlərinin qaytarıla bilməsi üzrə lizinq şirkəti qarşısında əmlak məsuliyyəti. Kompensasiya ödənişlərindən məqsədli şəkildə istifadə edilməsinə görə əmlak məsuliyyəti. |

Davamlı aqrar inkişaf, fikrimizcə, yalnız mərhələlər üzrə uzun müddət ərzində həll edilə bilər. Təəssüf ki, yaxın gələcəkdə kənd təsərrüfatı məhsulları istehsalının nəzərəçarpacaq hissəsi köhnəlmiş və bərpa edilməyən texnikadan istifadə edilməklə kəndlilərin aşağı ödənişli əməyi hesabına həyata keçiriləcək, əkinçiliyin baza texnologiyalarının hər yerdə pozulması torpaqların məhsuldarlığının itirilməsi, dövlət resurs dəstəyinin gücləndirilməsini hələ uzun müddət zəruri edəcəkdir. Yəni iqtisadiyyatının aqrar sahəsində, o cümlədən kənd təsərrüfatında səmərəli istehsalın qurulması lizinq fəaliyyətinin bazar mexanizmlərinin yaradılması və inkişaf etdirilməsinə əsaslı dövlət dəstəyinin reallaşmasını bir daha şərtləndirir.

**İstifadə olunmuş ədəbiyyat**

1. Mirzəyeva H.Ə. Keçid iqtisadiyyatı şəraitində aqrar sahənin dövlət tənzimlənməsinin bəzi məsələləri. Az.ETKTİ və Tİ-nun elmi əsərləri, Bakı, 2003, №4

2. Назаренко В.И., Папов А.Г. Государственное регулирование сельского хозяйства странах с развитой рыночной экономикой. М: Информагробизнес, 1996

3. Свиннен П., Макурс К., Аграрные преобразования в странах с переходной экономикой// Вопросы экономики. 2001, №8.

**Хиджран Мирзоева**

**ГОСУДАРСТВЕННАЯ ПОДДЕРЖКА ВОСПРОИЗВОДСТВЕННОГО ПРОЦЕССА В СЕЛЬСКОМ ХОЗЯЙСТВЕ**

**Резюме**

В статье анализируется роль государственной поддержки воспроизводственному процессу в сельском хозяйстве на современном этапе. В связи с этим автор, предлагает ряд рекомендаций, в частности, оптимизация бюджетных инвестиций, совершенствование поддержки методов лизинга, регулирование кредита, значимость поддержки научных исследований и т.д. Автор особо отмечает, субсидирование коммерческо-лизинговые операции в аграрном секторе.

**Hijran Mirzayeva**

**THE SUPPORTING OF RE-MANUFACTURING PROCESS BY STATE IN THE AGRICULTURE**

**Summary**

The development of the agriculture at present and the importance of the manufacturing process in agro area by state is analysed in the article. The author puts forward a lot of proposals optimuming of budget, improving of the leasing supporting methods, credit regulations and supporting scientific searches. Author is accompanied special attention to the agricultural sector and commercial leasing operations.

**UOT – 330.3**

**Ofeliya Yusupova**
**AƏSMA, i.ü.f.d.**

# MÜƏSSİSƏDƏ YARADILAN EHTİYATLARIN VƏ ONLARDAN İSTİFADƏNİN TƏHLİLİ

**Açar sözlər:** uçot, təhlil, ehtiyat, istehsalat proqramı
**Ключевые слова:** учет, анализ, резервы, производственная программа
**Keywords:** accounting, analysis, reserves, production program

XXI əsr özünün qlobal həcminə, mahiyyətinin mürəkkəbliyinə, iqtisadi hadisələrin zənginliyinə görə əsaslı surətdə fərqlənir. İqtisadi proseslərin mütəhərrikliyi, inkişaf sürəti bu sahəyə dinamik xarakter verir.

Bazar iqtisadiyyatının indiki tələbləri şəraitində mütərəqqi texnika və texnologiya əmək məhsuldarlığının dönmədən artmasının əsasıdır. Ən yeni əmək alətlərinin tətbiqi əsas istehsal fondlarının aktiv hissəsinin artması ilə və deməli, əməyin fond təchizatı ilə yanaşı edir. Lakin çalışmaq lazımdır ki, əməyin fond təchizatının artım sürəti əmək məhsuldarlığının artım sürətindən az olsun. Yalnız bu halda elmi-texniki tərəqqi istehsalın iqtisadi yüksəlişinə kömək edir.

Sənayenin mütərəqqi strukturunun yaradılmasına təsir göstərən amillər arasında ən mühümü elmi-texniki tərəqqidir. Onun təsiri ilə müəssisələrin ölçüsü, respublikanın ərazisi üzrə istehsalın yerləşdirilməsi dəyişilir, sənayedə ixtisaslaşdırma və kombinələşdirmə inkişaf edir. Yüksək məhsuldar maşın və avadanlıqdan istifadə etmək ancaq istehsalın təmərküzləşməsi və ixtisaslaşdırılması şəraitində mümkündür.

İqtisadi artım sürətinin yüksəldilməsi nə qədər vacib olsa da, respublikanın inkişafını sürətləndirmək xəttinin məzmunu heç də təkcə bundan ibarət deyildir. Bu, çox vacibdir ki, iqtisadi inkişaf nəyin hesabına əldə ediləcəkdir.

Müasir mərhələdə makroiqtisadiyyatın inkişafının dərin təhlili əsasında iqtisadiyyatın idarə edilməsinin əsaslı istehsalat proqramını işləyib hazırlamaq lazımdır. Onu həyata keçirməyin ən mühüm üzvi hissəsi bütün iqtisadi sistemin kökündən yenidən qurulmasıdır.

Elmi-texniki tərəqqinin sənaye müəssisələrinin istehsal fəaliyyətinin keyfiyyət göstəricilərinə əsas və dövriyyə fondlarından istifadə edilməsinə, sənaye məhsulu keyfiyyətinin yaxşılaşdırılmasına və maya dəyərinin bütün ünsürlərinin aşağı salınmasına da təsiri böyükdür. Yeni texnikanın və qabaqcıl texnologiyanın tətbiq edilməsi əsasında əmək məhsuldarlığının təsiri ilə əmək haqqı xərclərinin payı azalır.

Elmi-texniki tərəqqinin səmərəliliyi təkcə ən yeni texnika buraxılışının artırılmasından deyil, həm də əsas fondlardan daha yaxşı istifadə edilməsindən asılıdır. Lakin son vaxtlar respublikanın bəzi sənaye müəssisələrində əsas istehsal fondlarının artım sürəti sənaye məhsulu buraxılışının genişləndirilməsini xeyli qabaqlayır.

Müəssisənin məhsul istehsalı üzrə nəzərdə tutulan tapşırıq kompleks göstərici olmaqla istehsal həcminin genişləndirilməsinə, məhsul satışı və mənfəət üzrə proqnozun yerinə yetirilməsinə, eyni zamanda müəssisənin kapitallarının yaranmasına və ən nəhayət, yeni texnikanın tətbiqinə şərait yaradır. Ona görə də müəssisənin digər iqtisadi göstəriciləri istehsal proqramının öz vaxtında yerinə yetirilməsinə şərait yaratmalıdır. Müəssisə yeni təşkil olunarkən istehsal prosesinə başlamaq üçün dövlət büdcəsi tərəfindən ona müəyyən miqdarda əvəzsiz olaraq əsas və dövriyyə vəsaiti verilir və ya təsisçilər tərəfindən vəsaitlər qoyulur. Bu növ vəsaitin sonrakı artımı müəssisənin əldə etdiyi mənfəət hesabına olur. Ona görə də bu kapitallara müəssisənin özünün xüsusi kapitalı deyilir.

Müəssisədə istehsal prosesində yeni texnologiyaların tətbiq olunması və uçot işlərinin öz vaxtında və düzgün aparılması nəticəsində, müəssisə kapitallarından istifadəni yaxşılaşdırar və məhsul istehsalı xeyli artar.

Bazar münasibətləri şəraitində iqtisadiyyatın inkişaf etdirilməsində müəssisənin material ehtiyatları ilə təmin olunmasının, onların təsnifatı, qiymətləndirilməsi və uçotunun böyük əhəmiyyəti vardır.

Əmək əşyalarına xammal, əsas və köməkçi materiallar, yanacaq, yarımfabrikatlar və bitməmiş istehsalat daxildir. Material uçotunun əsas vəzifəsi vəsaitin qorunmasına, onlardan düzgün istifadə olunmasına və ehtiyatların vəziyyətinə nəzarət etməkdən ibarətdir.

Materialların mədaxil edilməsi zamanı, müşayiətedici sənədlərdə göstərilən miqdarla, faktiki mədaxil edilən materiallar müqayisə edildikdə çatışmazlıq aşkar edilən zaman qəbul aktına əsasən çatışmayan materialların tədarük qiyməti ilə dəyərinə belə köçürmə verilir.

İstehsal xərcləri hesablarında uçota alınan əsas məsrəflərin tərkibində xammal və əsas materiallar, köməkçi materiallar, satın alınmış yarımfabrikatlar, texnoloji məqsədlər üçün yanacaq və enerji sərfi mühüm yer tutur.

Materialların buraxılışının ilk və təsərrüfat ehtiyaclarına buraxılışının ilk sənədlər əsasında, uçot qiyməti ilə maddi qiymətlilərin uçotu üçün ayrılmış hesabların kreditinin və müvafiq hesablarla, yəni əsas və köməkçi istehsalat, avadanlıqların saxlanması və istismarı üzrə xərclər və digər hesabların debetləri üzrə əks etdirilir.

Müəssisənin mülkiyyətini qorumaq və materialların istehsalat ehtiyatları normasına uyğun olmasını təmin etmək üçün materialların natura ilə yoxlanılmasının böyük əhəmiyyəti vardır. Müəssisə materiallarının qalığının inventarizasiyasının ildə bir dəfədən az olmayaraq, həmçinin anbarların maddi-məsul işçiləri dəyişildikdə inventarizasiya aparmağa borcludur.

Təsərrüfat mexanizminin yenidən qurulmasının ümumən vaxtı çatmışdır ki, bundan da məqsəd respublikanın iqtisadiyyatının inkişafına yeni, əlavə təkanlar vermək, iqtisadi qanunlardan, onun çox böyük yaradıcılıq imkanlarından və üstünlüklərindən daha dolğun istifadə etməkdir.

İqtisadi siyasətin həyata keçirilməsi vasitəsi kimi bazar iqtisadiyyatına keçidin təsirliliyinin artırılması bu mürəkkəb və çoxcəhətli işdə həlledici rol oynamalıdır.

Müasir şəraitdə əməyin və əmək haqqı uçotunun təşkili çox vacibdir. Sənaye müəssisələrində əməyin ödənilməsinin iki forması mövcuddur: vaxtamuzd və işəmuzd əmək formaları. Müəssisələrdə əmək haqqı üzrə hesablaşmalar və əməyin ödəniş formalarından ən mühüm əhəmiyyətə malik olanı işəmuzd əmək haqqına – işəmuzd qiymətlər üzrə hazırlanmış məhsulun miqdar və keyfiyyətinə görə hesablanmış əmək haqqı aiddir.

İşəmuzd əmək haqqı hazırda müəssisələrdə ən geniş yayılmış əmək haqqı formasıdır. Təsərrüfat mexanizminin yeni sisteminə keçməklə əlaqədar olaraq müəssisədə bu cür sistem işçilərin maddi marağını daha yaxşı təmin edir.

Burada əməyin keyfiyyəti əməyi öz məhsulu ilə yoxlanılır, çünki işəmuzd əmək haqqı ancaq o zaman tamamilə verilir ki, hazırlanmış məhsul orta keyfiyyətdə olsun. Buna görə də işəmuzd əmək haqqı sistemi əmək haqqını hesablamaq üçün daha münasibdir.

Fəhlələrin əməyinin ödənilməsinin işəmuzd forması mühüm yer tutur. İşəmuzdlu fəhlələrin əmək haqqını hesablamaq üçün onların istehsal etdikləri məhsulun miqdarını və hazırlanmış məhsul vahidinin işəmuzd tarifini bilmək lazımdır.

Məhsul istehsalının uçotu işəmuzd fəhlələrin əmək haqqını müəyyənləşdirmək üçün əsas sayılır. Bu uçot görülən işlərin həcmini aşkara çıxarmaqla bərabər, fəhlələr tərəfindən istehsal normalarının yerinə yetirilməsi üzərində nəzarət aparmaq, əmək məhsuldarlığının səviyyəsini müəyyənləşdirmək, istehsal olunan məhsulların hərəkətini operativ uçota almaq üçün lazımdır.

Təsərrüfat hesablı münasibətlərin maddi əsasını istehsal müəssisələrinin sərəncamında olan istehsal fondları təşkil edir. İstehsal fondlarının hərəkətinin təhlili prosesində onların müəssisələrdəki təkrar istehsalının məzmunu cəmiyyət miqyasında təkrar istehsalla ayrılmaz vəhdətdə aydınlaşdırılır. Müəssisələrin fəaliyyətinin iqtisadi nəticələri, ictimai istehsalın səmərəlilik səviyyəsi istehsal fondlarının quruluşundan və onların səmərəli istifadə olunmasından çox asılıdır. Bununla əlaqədar olaraq əsas və dövriyyə fondlarının hərəkət xüsusiyyətlərinin, onların yaradılması, səmərəli istifadə olunması qanunauyğunluqlarının və təkrar istehsal mexanizmlərinin öyrənilməsinə xüsusi diqqət yetirilir.

Hər bir sənaye müəssisəsi əhalinin sosial müdafiə fonduna müəyyən məbləğlər ayırır. Bu fondun vəsaitləri məhsulların maya dəyəri hesabına müəssisənin ayırmalarından yaradılır. Onlar xərclərin müvafiq maddələrinə hesablanmış əsas və əlavə əmək haqqına (əmək ödənişinə) mütənasib olaraq daxil edilirlər. Fondun vəsaitləri çox vaxt müəssisənin özü tərəfindən müvəqqəti əmək qabiliyyətini itirməyə görə - xəstəlik vaxtına görə, hamiləliyə və doğuşdan sonrakı vaxta görə və i.a. müavinəti ödəmək üçün istifadə olunurlar.

Müəssisədə yaradılan ehtiyatların və onlardan istifadənin uçotu və təhlilin əsas prinsiplərindən biri – mənfəət və onun istifadəsinin uçotu. Bazar iqtisadiyyatı şəraitində mənfəətin rolu kollektivin xüsusi fondlarının yaradılmasının əsas vəsait mənbəyi olmaq etibarı ilə daha da artırmışdır. Ümumiyyətlə, mənfəət müəssisənin maliyyə nəticələrini özündə tam əks etdirir. Maliyyə nəticəsi dedikdə mənfəət formasında özünü göstərən müəssisənin təsərrüfat fəaliyyətinin son iqtisadi yekunu başa düşülür. Mənfəət – müəssisənin bütün kollektivinin fəaliyyətini xarakterizə edən mühüm göstəricidir.

Müəssisənin fəaliyyətinin maliyyə nəticələri aktiv-passiv hesabda uçota alınır. Hesabat ili ərzində müəssisələr mənfəəti müxtəlif məqsədlərə istifadə edirlər ki, bu da vəsaitlərin yayındırılması adlanır. Yayındırılmış vəsaitlər müəssisənin əsas təsərrüfat fəaliyyətində iştirak etmir.

Bazar münasibətlərinin inkişafı ilə əlaqədar müəssisələrin təsərrüfat fəaliyyətinin maliyyə təminatı mənbələrinin tərkibində və quruluşunda əhəmiyyətli irəliləyişlər müşahidə olunur. Onun maliyyə möhkəmliyini xarakterizə edən göstəricilərindən biri xüsusi kapitalın həcmi olur.

Xüsusi kapitalın əsas növlərindən biri də nizamnamə kapitalıdır. Həmin kapital sahibkarların müəssisəyə qoyduqları vəsaitlərin məcmusundan ibarətdir. Belə ki, müəssisənin nizamnamə kapitalı onun fəaliyyətini həyata keçirmək üçün müəssisənin işə başladığı vaxtda dövlət tərəfindən büdcədən ayrılmış vəsaitlərin məbləğini əks etdirir.

Nizamnamə kapitalı müəssisənin xüsusi kapitalının daha möhkəm hissəsinə aiddir. Ehtiyatın kapitalın gələcəkdə nəzərdə tutulmayan mümkün olan zərərlərin, itkilərin örtülməsi üçün qanunvericiliklə və təsis sənədlərinə müvafiq olaraq yaradılır. Ehtiyat kapitalı müəssisənin nizamnaməsi və ya təsis sənədləri ilə müəyyən edilmiş miqdarda mənfəətdən ayırmalar hesabına yaradılır.

Məzmununa görə - bu sığorta fondudu, qanunvericiliklə və müəssisənin təsis sənədlərinə müvafiq olaraq yaradılır. Fondun yaradılmasının əsas mənbəyini müəssisənin sərəncamında qalan mənfəət təşkil edir.

Əlavə kapital – maliyyə vəsaitlərinin daxili mənbələrindən biri hesab olunur, əsasən, dövriyyədən kənar aktivlərin yenidən qiymətləndirilməsi nəticəsində aşkar edilən, onların dəyərinin artması, əvəzsiz əldə edilən qiymətlilərin, emisiyon gəlirlərinin hesabına yaradılır. Əlavə kapitalın yaradılması qaydası normativ aktlarla nizama salınır.

Xüsusi təyinatlı fondlar, müəssisə tərəfindən müstəqil olaraq müəyyən edilmiş normalar üzrə müəssisənin sərəncamında qalan mənfəətdən ayırmalar hesabına, həmçinin təsisçilərin və digər müəssisələrin əvəzsiz haqları hesabına yaradılır.

Son makroiqtisadi nəticələrdən danışarkən istehsalın səmərəliliyinin yüksəldilməsi, əmək, material, təbii və maliyyə ehtiyatlarından səmərəli istifadə edilməsi ilə bu nəticələrin qırılmaz əlaqəsini də nəzərə almaq lazımdır. Əslində bu, bir problemin iki cəhətidir: ehtiyatlardan nə qədər səmərəli istifadə edilərsə, tələbat bir o qədər daha dolğun ödənilir, tələbatın daha dolğun ödənilməsi isə öz növbəsində istehsalın səmərəliliyinə müsbət təsir göstərir, insan amilinin iqtisadiyyata təsirini gücləndirir.

Yuxarıda qeyd olunanlar baxımından mənfəət planının yerinə yetirilməsinin təhlil edilməsi böyük makroiqtisadi əhəmiyyətə malikdir. Mənfəət planının yerinə yetirilməsinin təhlili vasitəsilə müəssisənin ehtiyat mənbələrindən düzgün istifadə edilməsi, mənfəət planının yerinə yetirilməsinə təsir edən amillər müəyyən edilir və bu amillərin ayrı-ayrılıqda təsir dərəcələri hesablanaraq nəticə çıxarılır.

Keçmişdə belə ehtiyatların olmaması iqtisadiyyatı lazımi çeviklikdən məhrum edir, elm və texnikanın ən yeni nailiyyətlərinə və dəyişilməkdə olan ictimai tələbatı uyğun surətdə istehsalın yenidən qurulmasını ləngidirdi. Buna görə də vaxtı çatmış məsələlərin həlli üçün ən qısa müddətdə,

istehsal və maliyyə ehtiyatlarının etibarlı sistemini yaratmaq tələb olunur. Bu, etibarlı və dinamik tarazlaşdırılmış iqtisadiyyatı təmin etmək işinin tərkib hissəsidir. Bu həm də istehsalın intensivləşdirilməsindən və elmi-texniki tərəqqidən irəli gələn ziddiyyətli tələbləri müvəffəqiyyətlə uzlaşdırmağa imkan verən şərtdir.

**İstifadə olunmuş ədəbiyyat**

1. Quliyev V., Fətullayev R., Kərimov A. Beynəlxalq uçot və hesabata giriş. II nəşr. Bakı, 2012
2.Məmmədov F.Ə. və başqaları. Vergilər və verqitutma. Bakı, 2006
3. Maliyyə hesabatı: formalaşması və təkmilləşdirilməsi problemləri. Bakı, Elm, 2003
4. Rzayev Q.R. Beynəlxalq mühasibat uçotu standartları və maliyyə hesabatı. Bakı, 2009
5. Rzayev Q.R. Mühasibat uçotu və audit. Bakı, 2006
6. Sadıqov Ə.A., Sadıqov T.Ə., Cəfərova Ş.Ə., Sadıqov C.Ə. Mühasibat uçotu. Bakı, 2012
7. Савицкая Г.И. Методика комплексного анализа хозяйственной деятельности. М.; 2009
.

**Офелия Юсупова**

## АНАЛИЗ УЧЕТА РЕСУРСОВ И ИХ ИСПОЛЬЗОВАНИЯ НА ПРЕДПРИЯТИИ

**Резюме**

Подъем материального благосостояния и культурного уровня жизни народа на основе высоких темпов развития производства, ускорения научно-технического прогресса, повышения эффективности и качества работы является основным направлением экономической политики правительства на современном этапе. Решение указанной задачи возможно при переходе к преимущественно интенсивным факторам экономического роста, существенным элементом которых выступает экономное и рациональное использование всех видов ресурсов.

**Ophelia Yusupova**

## RESOURCES AND THEIR UTILIZATION FOR ACCOUNTING AND ANALYSIS INSTITUTION ESTABLISHED

**Summary**

Lifting the material and cultural level of the people on the basis of high rates of production, accelerating scientific and technological progress, improving the efficiency and quality of work is the main focus of government economic policy at the present stage. The solution of this problem is possible in the transition to a predominantly intensive factors of economic growth, an essential element which acts economical and rational use of all resources.

**UOT – 631.164**

**Nürəngiz Mikayılova**
**Az. ETKTİ və Tİ-nin dissertantı**

# ŞƏKİ-ZAQATALA İQTİSADİ RAYONU İQTİSADİYYATINDA AQRAR SAHƏNİN ROLU

**Açar sözlər:** iqtisadi rayon, torpaq, aqrar sahə, heyvandarlıq, emal sənayesi, təbii resurslar
**Ключевые слова:** экономические районы, земля, аграрный сектор, земледелие, животноводство, перерабатывающая промышленность, природные ресурсы
**Keywords:** economic regions, land, agricultural, livestock, cattle-breeding manufacturing, natural resources.

Son illər Azərbaycan iqtisadiyyatında iqtisadi sistemin transformasiyası ilə baglı aparılan islahatların mühüm istiqamətlərindən biri də işçi qüvvəsinin 40%-nin və əhalinin isə 50%-ə qədərinin birbasa baglı oldugu aqrar sahəni əhatə edir. Aqrar iqtisadiyyatın qarşısında duran əsas vəzifələrdən biri - kənd təsərrüfatı məhsulları istehsalının artırılması, əhalinin ərzaq məhsulları, emal sənayesinin isə xammalla etibarlı şəkildə təmin etməkdən ibarətdir. Kənd təsərrüfatı özünəməxsus bir sıra sosial-iqtisadi, təbii və texnoloji xarakterli xüsusiyyətləri ilə səciyyələnir. İqtisadiyyatın digər sahələrindən fərqli olaraq, kənd təsərrüfatında başlıca istehsal vasitəsi torpaqdır. Torpaq əsas istehsal vasitəsi olmaqla, digər kənd təsərrüfatı təyinatlı istehsal vasitələrindən fərqlənir. Başqa istehsal vasitələrindən fərqli olaraq, torpaq insan əməyinin məhsulu deyil, o, təbiətin bəxş etdiyi nemətdir. Araşdırmalara görə, Türkiyə və İran dövlətlərində torpaqların təxminən 70-75%-i əkinə yararlı olmaqla, onun 65-70%-i də bilavasitə əkin məqsədləri üçün istifadə edilir. Türkmənistanda əkinə yararlı torpaqların 81,6%-i, Ukraynada isə 80,7%-i əkin dövriyyəsinə daxildir. Azərbaycanda kənd təsərrüfatı üçün yararlı olan 4766,8 min hektar torpaqlardan kənd təsərrüfatı istehsalı üçün 1608,2 min hektarından istifadə edilir. Torpaqlardan istifadə isə 33,7% təşkil edir.

Kənd təsərrüfatının istehsalının özünəməxsus spesifik xüsusiyyətləri mövcuddur ki, bütün bunlar iqtisadi artımın təmin olunmasında və eləcə də dövlətin aqrar siyasətinin işlənib hazırlanmasında və reallaşdırılmasında nəzərə alınmalıdır. Kənd təsərrüfatı istehsalının spesfik xüsusiyyətlərini aşağıdakı kimi qruplaşdırmaq olar:

- kənd təsərrüfatında istehsal prosesinin başlıca vasitəsi kimi torpaq əhəmiyyətli istehsal resursu hesab edilir;
- kənd təsərrüfatında istehsal mövsumi xarakter daşıyır, bu da nəticə etibarilə əmək resurslarından, maddi resurslardan və maliyyə resurslarından istifadə sahəsində qeyri-müəyyənliyin yaranmasına gətirib çıxarır;
- iqtisadiyyatın digər sahələri ilə müqayisədə kənd təsərrüfatında kapitalın dövriyyəsi kifayət qədər ləng xarakter daşıyır. Bu da ondan irəli gəlir ki, kənd təsərrüfatında iqtisadi artımın sürəti digər sahələr ilə müqayisədə nəzərə çarpacaq dərəcədə aşağıdır;
- kənd təsərrüfatında iş prosesi ilə istehsal prosesi və eləcə də kənd təsərrüfatı məhsullarının reallaşdırma dövrü arasında kifayət qədər uyğunsuzluq mövcuddur;
- kənd təsərrüfatı təbii-iqlim şəraitindən əhəmiyyətli dərəcədə asılı olduğundan bu sahə üçün yüksək risklər mövcuddur [3, s.56].

Kənd təsərrüfatı sahələrində istehsalın əsas amili torpaqdır. Müxtəlif növlü kənd təsərrüfatı məhsullarının istehsalı az və ya çox dərəcədə bilavasitə torpaqla bağlıdır. Torpaq sahibləri malik olduğu torpaq sahələrində ya özləri təsərrüfatçılıq edir, ya da başqalarına icarəyə verirlər. Onlar icarəyə verdikləri torpaq sahələri müqabilində icarə haqqı alırlar. İcarə haqqının müəyyən hissəsi torpaq sahələrində olan əsas kapital ünsürlərindən (suvarma qurğuları, fermalar, anbarlar və s.) istifadə müqabilində alınan haqq təşkil edir. İcarə haqqının əsas hissəsini torpaq rentası təşkil edir. Torpaq rentası dedikdə, torpaq sahiblərinin torpağı icarəyə götürənlərdən aldığı torpaqdan istifadə haqqı

formasında olan gəlir nəzərdə tutulur. Qeyd edək ki, torpaq rentasının öyrənilməsi tarixi 300 ildən artıqdır.

Dövlət torpaq kadastrı - torpaq istifadəçiliyinin dövlət qeydiyyatı, torpaqların kəmiyyət və keyfiyyətcə uçotu, bonitirovkası və iqtisadi qiymətləndirilməsi üzrə zəruri və etibarlı məlumatların məcmusudur. Dövlət torpaq kadastrının məlumatları torpaqların istifadəsinin və mühafizəsinin planlaşdırılması, torpaqların verilməsi və geri alınması, torpaqların normativ qiymətinin, onlara görə haqların müəyyən edilməsi, yerquruluşu işlərinin aparılması, özgəninkiləşdirilmə zonalarının müəyyən edilməsi, torpaqların istifadəsi ilə bağlı təsərrüfat fəaliyyətinin qiymətləndirilməsi, eləcə də torpaqların istifadəsi və mühafizəsi ilə əlaqədar digər müvafiq tədbirlərin həyata keçirilməsi zamanı mütləq tətbiq edilməlidir [4, s.91].

Cədvəl 1

**Şəki-Zaqatala iqtisadi rayonu üzrə torpaqların normativ qiymətlərinin hesablanması üçün tətbiq edilən təshih əmsalları**

| Şəki-Zaqatala iqtisadi rayonu (düzən torpaqlar) | Təshih əmsallar | | Şəki-Zaqatala iqtisadi rayonu (dağ torpaqlar) | Təshih əmsallar | |
|---|---|---|---|---|---|
| | əkin və dinc | çoxillik əkmələr | | əkin və dinc | çoxillik əkmələr |
| Şəki (düzən torpaqlar) | 1,0 | 1,0 | Şəki (dağ torpaqlar) | 1,0 | 1,0 |
| Zaqatala (düzən torpaqlar) | 1,10 | 1,35 | Zaqatala (dağ torpaqlar) | 1,24 | 1,31 |
| Qax (düzən torpaqlar) | 1,2 | 1,33 | Qax (dağ torpaqlar) | 1,02 | 1,17 |
| Oğuz (düzən torpaqlar) | 1,15 | 1,36 | Oğuz (dağ torpaqlar) | 1,09 | 1,07 |
| Balakən (düzən torpaqlar) | 1,2 | 1,34 | Balakən (dağ torpaqlar) | 1,14 | 1,18 |
| Qəbələ (düzən torpaqlar) | 1,6 | 1,21 | Qəbələ (dağ torpaqlar) | 1,13 | 1,6 |

Mənbə: Cədvəl Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il tarixli, 158 saylı qərarına istinad edilərək müəllif tərəfindən hazırlanıb.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 1998-ci il tarixli, 158 saylı qərarı ilə kadastr qiymət rayonları və yarımrayonları üzrə torpaqların aşağıdakı normativ qiymətləri və onlara tədqiq edilən təhsis əmsalları müəyyən edilmişdir. Dünya təcrübəsinə əsasən təsərrüfat münasibətlərinin tənzimlənməsi kadastr qiymətləndirilməsi prosesinin tətbiqinə əsaslanır. Kadastr qiymətləndirilməsi torpaqların keyfiyyəti və onların yerləşməsi ilə bağlı məlumatların yıqılması və işlənməsi məsələlərini özündə əks etdirir. “Torpaqların kadastr qiymətləndirilməsi öz mahiyyətinə görə, əsasən iqtisadi qiymətləndirmə prosesini özündə əks etdirir. Bu zaman bir qayda olaraq, kənd təsərrüfatında istehsal vasitəsi kimi torpaq resurslarının spesfik xüsusiyyətləri nəzərə alınır. Torpaqların keyfiyyəti bir qayda olaraq, əmək vasitələri və əmək predmeti kimi xüsusiyyətlərdən bilavasitə asılı olur. Torpaqların qiymətləndirilməsi zamanı ilkin olaraq, əslində torpaq resurslarının əmək predmeti kimi çıxış etməsi qiymətləndirmə göstəriciləri və kriteriyasının hazırlanmasında əsas götürülür [2, s.74].

Şəki-Zaqatala iqtisadi rayonuna ölkənin ən məhsuldar inzibati ərazilərindən olan Balakən, Qax, Qəbələ, Oğuz, Zaqatala, Şəki daxildir və 2011-ci ildə rayonda istehsal həcmi 1,055 mlrd.man. 2012-ci ildə 1,418 mlrd. man.təşkil etmişdir ki, bu da bir il əvvəllə müqayisədə 34,4% yuxarıdır. Tədqiqatlar nəticəsində məlum olmuşdur ki, 2004-2012-ci illər ərzində Şəki-Zaqatala İqtisadi rayonunda təxminən 54 min yeni iş yeri, həmçinin 1,4 mindən artıq yeni müəssisə yaradılmışdır.

Şəki-Zaqatala iqtisadi rayonu yeyinti sənayesi bağçılıq, tütünçülük və heyvandarlıq məhsullarının emalına əsaslanır. Süd, konserv, tütün, şərab, quşçuluq, çörək, taxıl, fındıq, yağ-pendir, ət is-

tehsalı ilə məşğul olan müəssisələr fəaliyyət göstərir. Şəki yeyinti kombinatı, ət kombinatı və şərab zavodları, Qəbələ, Qax, Balakən, Nic meyvə-tərəvəz konserv zavodları, Zaqatala fındıq emalı zavodu və çay fabriki yeyinti sənayesinin əsas müəssisələridir. Bundan başqa yerli tələbatı ödəyən çörəkbişirmə, şərq şirniyyatı, spirtsiz içkilər istehsal edən kiçik müəssisələr də fəaliyyət göstərir. Tütünçülüyün inkişafı ilə əlaqədar Şəki, Qəbələ, Balakən və Zaqatalada tütün-fermentləmə zavodları fəaliyyət göstərir.

Şəki rayonunun iqtisadiyyatında tütünçülük və heyvandarlıq mühüm yer tutur. Rayonda meyvəçilik, üzümçülük, baramaçılıqla məşğul olunur, üzüm emalı müəssisəsi, tütün emalı, ət-süd məhsulları istehsalı ilə məşğul olan sahibkarlıq subyektləri fəaliyyət göstərir.

Balakən çoxsahəli təsərrüfata malikdir. Burada tütünçülük, baramaçılıq, arıçılıq, meyvəçilik (əsasən qərzəkli meyvəçilik) daha çox inkişaf etmişdir. İqtisadiyyatında heyvandarlıq və taxılçılıq da mühüm yer tutur. Balakən ölkənin ən çox qarğıdalı tədarük edən rayonudur. Sənayesi əsasən kənd təsərrüfatı məhsullarını emal edir. Rayonda tütün fermentləşdirmə, konserv zavodları, fındıq emalı müəssisəsi, kərpic zavodu, istehsalat və meşə kombinatları vardır.

Qəbələ iqtisadiyyatının əsasını təşkil edən sahələr – qərzəkli meyvəçilik, heyvandarlıq, taxılçılıq və baramaçılıq təşkil edir. İqtisadiyyatında taxılçılıq və heyvandarlıq da mühüm yer tutur. Heyvandarlıq üzrə əsasən Vəndam, Hacıallı və Bayramkoxalı kəndləri ixtisaslaşmışdır. Rayonda xalçaçılıq sexi, konserv zavodu, fındıq emalı zavodu, şərab zavodu, süfrə suları istehsal edən müəssisələr və s. fəaliyyət göstərir. Son illər rayonun iqtisadiyatında yüksəliş nəzərə çarpmaqdadır.

Oğuz rayonunda əsas fəaliyyət sahəsi tütünçülükdür. İqtisadiyyatında taxılçılıq, heyvandarlıq, meyvəçilik və baramaçılıq da mühüm yer tutur. Oğuz rayonu respublikanın qarğıdalı əkilən (əsasən silos üçün) mühüm rayonlarındandır, burada quşçuluq müəssisəsi də var.

Qarğıdalı istehsalı ilə rayonun əhalisi uzun illərdir ki, məşğul olur. 2012-ci ildə rayonda 695 hektar sahədə dən üçün qarğıdalı əkilmişdir. Əhalinin bu növ məhsul istehsalı ilə məşğul olmasına səbəb Azərbaycan Respublikasının regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) icrası ilə əlaqədar rayonda yeni tikilib istifadəyə verilmiş Qlükoza zavodunun istifadəyə verilməsidir. Zavodun rayonda işə düşməsi qarğıdalı istehsalının artırılmasına imkan vermişdir. Müəssisədə qarğıdalı emal olunaraq qlükoza və mal-qara üçün yem məhsulları istehsal olunur. Bu müəssisənin tikintisi rayonda istehsal olunmuş qarğıdalının emalında mövcud olan problemlərin aradan qalxmasına və heyvandarlığın inkişafına əlavə imkanlar yaratmışdır**.** Oğuz rayonunun iqtisadiyyatında mühüm yer tutan qarğıdalı emalı zavodu dövlətin maliyyə dəstəyi sayəsində yeni texnologiyalara və müasir standartlara uyğun qurulub. Ümumi dəyəri 18 milyon manat olan bu layihənin gerçəkləşdirilməsi üçün Sahibkarlığa Kömək Milli Fondundan 3 milyon manat məbləğində güzəştli kredit alınmış, layihənin icrası nəticəsində 64 nəfər işlə təmin olunmuşdur. Gündə 80 ton qarğıdalı emal edən zavod 55 ton yüksək keyfiyyətli qida qlükozası və 20 tona qədər müxtəlif növ yem məhsulları istehsal etmək gücündədir.

Hazırda zavodda istehsal edilən qlükoza ölkədə bu məhsula olan tələbatın tamamilə ödənilməsinə və qlükoza idxalına ehtiyacın qalmamasına, eyni zamanda, qonşu ölkələrə məhsul ixracına imkan yaradıb. Qlükozadan əsasən şirniyyat, konserv, süd məhsulları, dondurma və limonad istehsalında istifadə olunur.

Əhalinin pul gəlirlərində xüsusi yer tutan fındıq istehsalı iqtisadi rayon üzrə 23854 ton olmuşdur. Bu növ məhsul üçün rayonda əlverişli bazar, eləcə də emal sexləri olması əhalinin fındıq istehsalının artırılması üçün əlaqədar tədbirlərin (fındıq bağların salınması, mövcud bağlara xidmət göstərilməsi və s.) həyata keçirilməsinə marağı artırır. Rayonda fəaliyyət göstərən Fındıq emalı zavodunda fındıqdan müxtəlif növ keyfiyyətli məhsullar hazırlanır.

İqtisadiyyatının əsasını tütünçülük, baramaçılıq, qərzəkli meyvəçilik, heyvandarlıq, taxılçılıq (dənlik qarğıdalı) təşkil edən Zaqatala rayonu gözəl və zəngin təbiətə, yeraltı sərvətlərə, münbit torpağa malikdir. Zaqatala respublikanın ən böyük tütünçülük, baramaçılıq və qərzəkli meyvəçilik rayonlarındandır. İqtisadiyyatında həmçinin taxılçılıq, heyvandarlıq və kənd təsərrüfatı məhsullarının emalı əsas yer tutur. Rayonun ərazisində əsasən qərzəkli (başlıca olaraq fındıq ) və tumlu (alma, armud) meyvələr yetişdirilir. Rayonda həmçinin üzüm, çay, efir yağlı bitkilər (Qazangül, nanə) yetiş-

dirilir. Rayonda meyvə konservi, fındıq, tütün-fermentləmə, yağ-pendir, kərpic zavodları inqubator-quşçuluq stansiyaları vardır.

Zaqatala rayonunda çayçılığın özünəməxsus ənənələri var. Burada çay bitkisinin becərilməsinə ötən əsrin 40-cı illərindən başlanılıb. Şaxtaya davamlı və çoxgövdəli olduğuna görə Çin növünə üstünlük verilib. Zaqatala və Balakən rayonları ərazilərində 100-110 hektara yaxın çay plantasiyaları salınıb. Yığılan məhsul Zaqatala Çay Fabrikində emal olunub. Dövlət müstəqilliyinin bərpasının ilk illərində respublikada bir çox istehsal sahələri kimi çay plantasiyaları çox yerdə ləğv edildi. Balakən rayonu ərazisində mövcud olan 40 hektar çay plantasiyası da ləğv edildi. Zaqatalada isə bütün çətinliklərə baxmayaraq, çayçılığı qoruyub yaşatdılar. Hazırda rayonda iki fabrik – “Zaqatala Çay” MMC və “Çay Tala” fəaliyyət göstərir. Hazırda Zaqatalada 60 hektar çay plantasiyası var. Onun 40 hektarı məhsul verəndir, 20 hektarında isə kol-kosdan təmizləmə işləri aparılır.Yetərli investisiya qoyulsa, yeni plantasiyalar da salmaq, ildə 50-60 ton yox, 100 tona yaxın da çay istehsal etmək olar. Eyni zamanda plantasiyaların cavanlaşdırılması çox vacib məsələdir. Şri-Lankada çay plantasiyasının yaşı qırxı keçibsə, ləğv olunur və yenisi yaradılır. Bu isə keyfiyyətə də, kəmiyyətə də yüksək səviyyədə təsir edir.

Respublika ərazisinin 21,4%-i əkin yeri, 30,5%-i bişənək və otlaqlar, 12%-i meşələr, 2%-i çoxillik əkmələr, 33,4%-i digər torpaqlardır. Araşdırmalar göstərir ki, kənd təsərrüfatı bitkilərinin əkin sahəsi “2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”ına uyğun olaraq, kənd təsərrüfatı bitkilərinin əkin sahəsi ildən-ilə artır. Belə ki, 2000-ci ildə bitkiçilik üzrə əkin sahəsi cəmi 1041,5 min ha idisə, artıq 2010-cu ildə bu rəqəm 2000-ci ilə nisbətən artaraq, 1583,9 min ha (0,52%), 2011-ci ildə 1608,2 min ha (54,4%), 2012-ci ildə isə 1647,1 min ha (58%) təşkil etmişdir.

Cədvəl 2

**Şəki-Zaqatala iqtisadi rayonunda kənd təsərrüfatı bitkilərinin əkin sahəsi (1000 ha)**

| | 2000 | 2005 | 2009 | 2010 | 2011 | 2012 |
|---|---|---|---|---|---|---|
| Respublika üzrə | 1041542 | 1327922 | 1705449 | 1583874 | 1608184 | 1647121 |
| Şəki-Zaqatala iqtisadi rayonu üzrə cəmi | 126850 | 155496 | 221672 | 200806 | 198413 | 201811 |
| Balakən rayonu | 15080 | 10230 | 12892 | 12403 | 11724 | 12695 |
| Zaqatala rayonu | 19496 | 25474 | 30461 | 30750 | 30887 | 30907 |
| Qax rayonu | 9996 | 18343 | 20366 | 17906 | 17466 | 18510 |
| Şəki rayonu | 50107 | 61453 | 104383 | 86951 | 86836 | 85936 |
| Oğuz rayonu | 15029 | 17084 | 20965 | 20805 | 18685 | 21629 |
| Qəbələ rayonu | 17242 | 22910 | 32665 | 31982 | 32835 | 32135 |

Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsinin “Kənd təsərrüfatı 2013” məcmuəsi, səh. 190

Təhlillər göstərir ki, Şəki-Zaqatala iqtisadi rayonunda kənd təsərrüfatı bitkilərinin əkin sahəsi artan dinamika ilə inkişaf edir. 2000-ci idən 2012-ci ilə kimi əkin sahələri 76061 min ha (57%) genişləndirilmişdir. Son bir ildə yenə artım müşahidə olunmuş, 2011-ci ilə nisbətən kənd təsərrüfatı bitkilərinin əkin sahəsi 3388 min ha artırılmışdır (0,7%). 12 il ərzində kənd təsərrüfatı bitkilərinin əkin sahəsi Zaqatala rayonda 1,6 dəfə, Qax rayonunda 1,9 dəfə, Şəki rayonunda 1,7 dəfə, Qəbələ rayonunda 1,8 dəfə artmışdır. Oğuz rayonunda bu göstərici o biri rayonlara nisbətən azlıq təşkil edib - 1,2 dəfəyə bərabərdir. 2012-ci ildə Şəki-Zaqatala iqtisadi rayonunda mövcud olan kənd təsərrüfatı bitkilərinin əkin sahəsi respublika üzrə olan əkin sahəsinin 12,3%-ni təşkil edir.

Şəki-Zaqatala iqtisadi rayonu bitkiçiliyində üstünlük təşkil edən əkin sahələrinə dənli və paxlalılar, payızlıq və yazlıq buğda, payızlıq və yazlıq arpa, vələmir, dən üçün qarğıdalı və günəbaxan, kartof, tərəvəz, bostan bitkiəri, göy noxud, tütün, yaşıl cay və s. sahələrdir. Bundan əlavə çoxillik əkmə sahələrinə qoz, fındıq, şabalıd, alma, şaftalı sahələrini də şamil etmək olar.

Cədvəl 3

**Şəki-Zaqatala iqtisadi rayonu bitkiçiliyində üstünlük təşkil edən əkin sahəsi (ha)**

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Dənli və paxlalı əkin sahəsi, ha | | | | | | |
| | **2000** | **2005** | **2009** | **2010** | **2011** | **2012** |
| Respublika üzrə | 648229 | 802337 | 1125422 | 967967 | 967279 | 1031420 |
| Şəki-Zaqatala iqtisadi rayonu üzrə cəmi | 95916 | 126776 | 177527 | 158842 | 153413 | 160439 |
| Payızlıq və yazlıq buğda əkin sahəsi, ha | | | | | | |
| Respublika üzrə | 495406 | 802337 | 1125412 | 967967 | 967279 | 10314020 |
| Şəki-Zaqatala iqtisadi rayonu üzrə cəmi | 95916 | 126776 | 177527 | 158842 | 153413 | 160439 |
| Payızlıq və yazlıq arpa əkin sahəsi, ha | | | | | | |
| Respublika üzrə | 108552 | 1067130 | 268857 | 264669 | 202904 | 291572 |
| Şəki-Zaqatala iqtisadi rayonu üzrə cəmi | 27878 | 26972 | 38866 | 37402 | 37895 | 39619 |
| Vələmirin əkin sahəsi, ha | | | | | | |
| Respublika üzrə | 580 | 279 | 3789 | 1844 | 1841 | 1366 |
| Şəki-Zaqatala iqtisadi rayonu üzrə cəmi | 130 | 172 | 3410 | 846 | 1348 | 767 |
| Dən üçün qarğıdalı əkin sahəsi, ha | | | | | | |
| Respublika üzrə | 31870 | 31753 | 31527 | 29890 | 33635 | 35652 |
| Şəki-Zaqatala iqtisadi rayonu üzrə cəmi | 9766 | 12614 | 14867 | 14507 | 17305 | 17752 |
| Dən üçün günəbaxan, ha | | | | | | |
| Respublika üzrə | 4335 | 11134 | 8190 | 9046 | 11326 | 11027 |
| Şəki-Zaqatala iqtisadi rayonu üzrə cəmi | 463 | 473 | 958 | 453 | 1737 | 778 |
| Kartof, tərəvəz, bostan bitkiərinin əkin sahəsi, ha | | | | | | |
| Respublika üzrə | 136138 | 179706 | 177609 | 178709 | 17667 | 172969 |
| Şəki-Zaqatala iqtisadi rayonu üzrə cəmi | 9038 | 13890 | 14802 | 14641 | 14565 | 14387 |
| Göy noxudun əkin sahəsi, ha | | | | | | |
| Respublika üzrə | 281 | 597 | 238 | 1291 | 1048 | 1048 |
| Şəki-Zaqatala iqtisadi rayonu üzrə cəmi | 191 | 539 | - | 669 | 666 | 693 |
| Qoz bağları, cəmi əkmələr, ha | | | | | | |
| Respublika üzrə | 2548 | 3065 | 3259 | 3308 | 3334 | 3359 |
| Şəki-Zaqatala iqtisadi rayonu üzrə cəmi | 888 | 1027 | 1060 | 1074 | 1094 | 1103 |
| Fındıq bağları bağları, cəmi əkmələr, ha | | | | | | |
| Respublika üzrə | 18350 | 20366 | 28682 | 28975 | 29350 | 29695 |
| Şəki-Zaqatala iqtisadi rayonu üzrə cəmi | 16303 | 17857 | 22909 | 23131 | 23371 | 23504 |
| Şabalıd bağları bağları, cəmi əkmələr, ha | | | | | | |
| Respublika üzrə | 347 | 406 | 515 | 542 | 544 | 547 |
| Şəki-Zaqatala iqtisadi rayonu üzrə cəmi | 346 | 405 | 511 | 538 | 542 | 545 |

Cədvəl Azərbaycan Dövlət Statistika Komitəsinin “Kənd təsərrüfatı 2013” məcmuəsi əsasında (səh.190; 194; 197; 200; 204; 214; 215; 217; 240; 295; 299) müəllif tərəfindən hazırlanmışdır.

Cədvəl məlumatlarını təhlil edərkən aydın olur ki, Şəki-Zaqatala iqtisadi rayonunda dənli və paxlalı bitkilər üzrə əkin sahəsi 2005-ci ildə 126776 ha olmuşdur ki, bu da ölkə üzrə dənli və paxlalı bitkilərin əkin sahəsinin 15%-ni təşkil edirdi. 2012-ci ildə bu göstərici müvafiq olaraq 160439 ha olmuşdur ki, bu da 2000-ci ilə nisbətən 33666 ha çoxdur (67%). 2012-ci ildə ölkənin mövcud olduğu dənli və paxlalı bitkilərin əkin sahəsində iqtisadi rayonun payı 160432 ha, yaxud 16% təşkil etmişdir. 2012-ci ildə ölkədə mövcud olan payızlıq və yazlıq arpanın əkin sahəsi üzrə Şəki-Zaqatala

rayonunun payı 14%, dən üçün qarğıdalı əkin sahəsi üzrə 50%, tütün əkin sahəsi üzrə 100%, dən üçün günəbaxan 7%, kartof, tərəvəz və bostan bitkiləri üzrə 8%, göy noxudun əkin sahəsi üzrə 66%, çay əkmələri üzrə 7% təşkil etmişdir. Respublika üzrə bu regiona daha çox xarakterik qoz, fındıq, şabalıd bağları sahəsində də genişlənmə müşahidə olunur. Belə ki, qoz bağları respublikada 3359 ha təşkil edirsə bunun 1103 ha sahəsi bu regiona daxildir ki, bu da ümumi qoz bağlar sahəsinin 33%-ni təşkil edir. Ərazidə daha çox fındıq və şabalıd bağ sahələri geniş yayılmışdır. Zaqatala rayonunda 60 ha sahədə yaşıl çay əkmələri sahəsi mövcuddur ki, son 10 ildə bu sahələrin genişlənməsi baş verməmişdir. Respublika çay əkmələri sahəsində Zaqatala rayonunun payı 7% təşkil edir. İqtisadi rayonda mövcud olan əkinə yararlı sahələrdən səmərəli istifadə olunaraq, son illərdə kənd təsərrüfatı məhsullarının məhsuldar istehsalına nail olunmuşdur.

Cədvəl 4

**Şəki-Zaqatala iqtisadi rayonunda kənd təsərrüfatı bitkilərinin istehsalı, ton**

| Dənli və paxlalı, ton | | | | | | |
|---|---|---|---|---|---|---|
| | **2000** | **2005** | **2009** | **2010** | **2011** | **2012** |
| Respublika üzrə | 1540178 | 2126666 | 2988305 | 2000523 | 2458436 | 2402249 |
| Şəki-Zaqatala iqtisadi rayonu üzrə cəmi | 173012 | 271162 | 449441 | 318287 | 463367 | 515599 |
| Payızlıq və yazlıq buğda, ton | | | | | | |
| Respublika üzrə | 1174714 | 1565813 | 2140768 | 1308848 | 1641028 | 1847424 |
| Şəki-Zaqatala iqtisadi rayonu üzrə cəmi | 109772 | 162226 | 283182 | 185444 | 264956 | 297891 |
| Payızlıq və yazlıq arpa, ton | | | | | | |
| Respublika üzrə | 226163 | 279349 | 660039 | 526393 | 632690 | 740401 |
| Şəki-Zaqatala iqtisadi rayonu üzrə cəmi | 41936 | 52406 | 91042 | 67396 | 11640 | 119816 |
| Vələmirin əkin sahəsi, ton | | | | | | |
| Respublika üzrə | 613 | 495 | 8168 | 3143 | 3747 | 2784 |
| Şəki-Zaqatala iqtisadi rayonu üzrə cəmi | 43 | 207 | 7239 | 1357 | 2905 | 1654 |
| Dən üçün qarğıdalı əkin sahəsi, ton | | | | | | |
| Respublika üzrə | 103527 | 151389 | 151172 | 166061 | 152306 | 181930 |
| Şəki-Zaqatala iqtisadi rayonu üzrə cəmi | 20153 | 54324 | 66040 | 62257 | 75898 | 94531 |
| Dən üçün günəbaxan, ton | | | | | | |
| Respublika üzrə | 3748 | 16135 | 14442 | 15492 | 19608 | 19714 |
| Şəki-Zaqatala iqtisadi rayonu üzrə cəmi | | 387 | 911 | 413 | 1606 | 922 |
| Göy noxud, ton | | | | | | |
| Respublika üzrə | 598 | 2155 | 743 | 3141 | 4043 | 4473 |
| Şəki-Zaqatala iqtisadi rayonu üzrə cəmi | 170 | 1605 | - | 2319 | 2325 | 2458 |
| Qoz, ton | | | | | | |
| Respublika üzrə | 9983 | 12529 | 8658 | 8470 | 8923 | 9174 |
| Şəki-Zaqatala iqtisadi rayonu üzrə cəmi | 2291 | 2296 | 2218 | 2123 | 2209 | 2180 |
| Fındıq, ton | | | | | | |
| Respublika üzrə | 13334 | 27986 | 30430 | 29459 | 32922 | 29624 |
| Şəki-Zaqatala iqtisadi rayonu üzrə cəmi | 10564 | 22802 | 23719 | 23833 | 25819 | 23854 |
| Şabalıd, ton | | | | | | |
| Respublika üzrə | 991 | 1037 | 839 | 816 | 803 | 793 |
| Şəki-Zaqatala iqtisadi rayonu üzrə cəmi | 988 | 1934 | 826 | 802 | 793 | 783 |

Cədvəl Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin “Kənd təsərrüfatı 2013” məcmuəsi əsasında (səh.358; 359; 362; 361; 367; 378; 410; 428; 432) müəllif tərəfindən hazırlanmışdır.

Araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, Şəki-Zaqatala iqtisadi rayonunda kənd təsərrüfatı məhsullarının istehsalı son illər ərzində xeyli yüksəlmişdir. 2012-ci ildə iqtisadi rayonda 515599 ton dənli və paxlalı bitkilər istehsal olunmuşdur ki, bu da ölkə üzrə istehsal olunmuş məhsulun 18%-ni təşkil edir. 2009-cu ildə bu göstərici 15%, 2010-cu ildə isə 16%, 2011-ci ildə isə 19% olmuşdur. Təhlil apardıqda görürük ki, göstəricilərin belə dəyişməsi iqtisadi rayonda bu sahənin qeyri-sabit inkişafı ilə deyil, ölkə üzrə müvafiq göstəricilərin dəyişməsidir. Payızlıq və yazlıq buğda, arpa, vələmir, dən üçün günəbaxan, tərəvəz və bostan bitkiləri üzrə məhsul istehsalı iqtisadi rayonda artan dinamika ilə inkişaf etməkdədir. Belə ki, 2011-ci ildə payızlıq və yazlıq buğda istehsalı 264956 ton olduğu halda 2012-ci ildə 297881 ton, payızlıq və yazlıq arpa istehsalı 2000-ci ildə 41936 ton, 2010-cu ildə 67396 ton, 2011-ci ildə 117640 ton, 2012-ci ildə isə 119816 ton, vələmir istehsalı 2000-ci ildə 43 ton, 2010-cu ildə 1357 ton, 2011-ci ildə 2905 ton təşkil etmişdir. Əkin sahəsi azaldığı üçün 2012-ci ildə regionda vələmirin istehsalı xeyli azalmış, 1654 ton olmuşdur. Dən üçün qarğıdalı, göy noxud, yaşıl çay, istehsalı regionda daha prioritet sahə kimi inkişaf etdirilmişdir. Göy noxud istehsalı bu region üçün yeni olsa belə, sürətlə inkişaf etmiş və məhsuldar bir sahəyə çevrilmişdir. Belə ki, 2000-ci ildə cəmi 170 ton göy noxud istehsal edilmiş və sahə məhsuldar olduğu üçün əkin sahələri genişləndirilmiş, aqrotexniki amillər tətbiq edilmiş və 2010-cu ildən başlayaraq yüksək məhsuldarlıq əldə edilmişdir. 2010-cu ildə göy noxud istehsalı 2359 ton, 2011-ci ildə 2325 ton, 2012-ci ildə isə 2458 ton göy noxud tədarük edilmişdir.

Tütün istehsalı Şəki-Zaqatala rayonu üçün xarakterik sahə olub, yüksək gəlir gətirən sahələrdəndir. Respublika üzrə 2012-ci ildə 17258 ton, 2005-ci ildə 7035 ton, 2009-cu ildə 2609 ton, 2010-cu ildə 3343 ton, 2011-ci ildə 3587 ton, 2012-ci ildə isə 4278 ton tütün istehsal edilmışdir. 2011-ci ilə nisbətən tütün istehsalı 2012-ci ildə 17% artmış, lakin 2000-ci ilə nisbətən 73% azalmışdır. Tütün istehsalı 2002-ci ilə qədər sürətlə azalmış, sonra tədricən artaraq, 2005-ci ildə 70135 tona catmışdır. Düzgün olmayan islahatlar nəticəsində gəlirli bir sahə olan tütünçülük 2008 və 2009- cu illərdə ən zəif inkişaf dinamikasına malik olmuş, 2000-ci ilə nisbətən istehsal 92% aşağı enmişdir. Son 3 il ərzində digər sahələrdə olduğu kimi tütünçülükdə də xeyli irəliləyiş qeydə alınmışdır. Son 3 ildə tütün respublikada yalnız Şəki-Zaqatala iqtisadi rayonunda becərilir. 2011-ci ildə Balakəndə 5 ton, Zaqatalada 1370 ton, Qaxda 532 ton, Şəkidə 1675 ton, Oğuzda 5 ton olmaqla cəmi 3587 ton tütün istehsal edilmişdir. 2012-ci ildə müvafiq olaraq bu göstərici 1; 1365; 555; 1858; 2 ton olmaqla cəmi 4278 ton olmuşdur. Son 2 ildə Qəbələ rayonunda tütünün becərilməsi dayanmışdır.

Diaqram 1

**Şəki-Zaqatala iqtisadi rayonunda tütün istehsalı dinamikası**




| | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Ряд1 | 17,3 | 12,7 | 3,3 | 4,3 | 6,5 | 7,1 | 4,8 | 2,9 | 2,5 | 2,6 | 3,2 | 3,6 | 4,3 |

Mənbə: Cədvəl Azərbaycan Dövlət Statistika Komitəsinin “Kənd təsərrüfatı 2013” məcmuəsi əsasında müəllif tərəfindən hazırlanmışdır.

Uzun illər iqtisadi rayonunun əhalisinin əmək fəaliyyətinin əsasında tütünçülük üstünlük təşkil etmişdir. Deməli, əhali bu sahədə geniş təçrübəyə və ənənəyə malikdir. Bələdiyyələr mülkiyyətində olan torpaqlarda tütünçülük təsərrüfatları yarada, yerli əhalini, xüsusilə də, qadınları bu işlərə cəlb edə bilərlər. Bələdiyyə müəssisələrinin yaradılması, bələdiyyə büdcələrinin formalaşması, yoxsulluğun səviyyəsinin azalması istiqamətində bu inamlı və real bir istiqamət kimi bələdiyyələr tərəfindən qiymətləndirilməlidir. Rayon iqtisadiyyatında mühüm rol oynayan qoz, fındıq, şabalıd tədarükü ildən ilə artır. Belə ki, 2012-ci ilin statistikasına görə ölkədə istehsal olunan 9174 ton qozun 2180 tonu (23,8%), 29624 ton fındığın 23854 tonu (80,5%), 793 ton şabalıdın 783 tonu (99%) bu iqtisadi rayonda tədarük edilmişdir.

Şəki-Zaqatala iqtisadi rayonunda heyvandarlığın inkişaf dinamikası yüksəlməkdədir. Fəaliyyətdə olan Dövlət proqramlarına uyğun olaraq, iqtisadi rayonda iri və xırdabuynuzlu mal-qaranın sayı, istehsal olunan ət, süd, yumurta və digər heyvandarlıq məhsulları son 10 ildə sürətlə artmış və respublikada istehsal olunan ümumməhsulda xüsusi çəkiyə malik olmuşdur.

Cədvəl 5

**Şəki-Zaqatala iqtisadi rayonuna daxil olan rayonların əsas heyvandarlıq məhsulları istehsalı (2012)**

| | Balakən | Zaqatala | Qax | Şəki | Oğuz | Qəbələ | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| Ət istehsalı, ton | 2728 | 4721 | 1629 | 5589 | 1428 | 3259 | 19364 |
| Süd istehsalı, ton | 16420 | 41523 | 14964 | 64294 | 15953 | 27487 | 170646 |
| Yumurta, min ədəd | 8421 | 17412 | 7724 | 21600 | 3661 | 8554 | 67372 |
| Yun istehsalı, fiziki çəki ton | 970 | 291 | 124 | 417 | 110 | 453 | 1465 |
| İribuynuzlu heyvanlar, baş | 38497 | 60486 | 26305 | 78038 | 28613 | 54420 | 284459 |
| Camışların sayı, baş | 2984 | 3135 | 1644 | 6591 | 1392 | 1393 | 17139 |
| Arı ailələri | 7718 | 13827 | 8147 | 5055 | 1372 | 1597 | 37716 |

Cədvəl Azərbaycan Dövlət Statistika Komitəsinin “Kənd təsərrüfatı 2013” məcmuəsi əsasında (səh: 570, 573, 576, 597, 623) müəllif tərəfindən hazırlanmışdır.

İqtisadi rayonda 2012-ci ildə 19364 ton kəsilmiş çəkidə ət istehsal olunmuşdur ki, bunun da 2728 tonu (14%) Balakəndə, 4721 tonu Zaqatalada (24%), 5559 tonu (29%) Şəkidə, 1629 tonu (8%) Qaxda, 1428 tonu (7%) Oğuzda, 3259 tonu (17%) Qəbələdə istehsal olunmuşdur. Zaqatala və Şəki ət istehsalı sahəsi üzrə ixtisaslaşmış və inkişaf etmişdir. İqtisadi rayonda 2012-ci ildə 170646 min ton süd istehsal edilmişdir ki, 41523 min tonu Zaqatalanın (24%), 64294 min tonu Şəkinin (38%) payına düşür. Ən az süd istehsalı Qax rayonunda olmuşdur ki, cəmi 14964 min ton, yaxud 8%.

Son zamanlar dövlət tərəfindən qəbul olunan və uğurla icra edilən Dövlət Proqramları və aqrar sahədə keçirilən islahatlar Şəki-Zaqatala iqtisadi rayonunun da sosial-iqtisadi inkişafına təkan vermişdir. İqtisadi rayon üzrə prioritet sahələr kimi efir yağları olan bitkilərin yetişdirilməsi və emalının təşkili müəyyən edilmiş, bölgənin inkişafında kənd təsərrüfatı məhsullarının, o cümlədən taxılçılıq, tütünçülük, ipəkçilik, meyvəçilik, arıçılıq, tərəvəzçilik, gülçülük, həmçinin heyvandarlıq məhsullarının istehsalı və emalının genişləndirilməsi üçün bir sıra tədbirlər planlaşdırılmaqdadır. Eyni zamanda bu potensiallar iqtisadi rayonda istehsal kooperativlərinin yaradılmasını zəruri edir. Heyvandarlığın inkişafı üçün əlverişli şəraitin olması, özəl və bələdiyyə mülkiyyətində kifayət qədər torpaqların olduğunu dəyərləndirməklə yeni istehsal və emal müəssisələri yaratmaq mümkündür. Regionda xüsusilə, tütünçülüyün inkişafı üçün xeyli potensiallar mövcuddur. Planlı təsərrüfat zamanı iqtisadi rayonun kənd təsərrüfatı məhsulunun əsasını bu sahə təşkil edirdi. Kifayət qədər təcrübəli

işçi qüvvəsinin və torpaqların olduğu iqtisadi rayonda tütünçülüyü inkişaf etdirmək, özəl və bələdiyyə müəssisələrini yaratmaq realdır.

Şəki-Zaqatala iqtisadi rayonunda kifayət qədər cır meyvələr yetişir ki, emal müəssisələri yaratmaqla bu meyvələrin konservləşdirilməsi, mürəbbə və kompotların hazırlanması, qiymətli dərman bitkilərinin toplanmasını təşkil etməklə həm məşğulluq səviyyəsini yüksəltmək, həm də daha sürətli iqtisadi inkişafa malik olmaq olar.

**İstifadə olunmuş ədəbiyyat**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il tarixli, 158 saylı qərarı, http://e-qanun.az
2. Alıyev İ.H. Aqrar sahənın inkişafının təkmilləşdirilməsi və regionlarda islahatların keyfiyyətli və səmərəli aparılması. Bakı, Nurlan
3. Əlirzayev Ə.Q. Aqrar sferanin iqtisadiyyati və idarə edilməsi. Bakı, Avropa, 2013
4. Гордеев А. Экономические механизмы регулирования агропромышленного производства. // Экономист, № 6, 2006
5. Azərbaycanın statistik göstəriciləri. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Bakı, 9 №-li kiçik müəssisə, 2013
6. Azərbaycanın kənd təsərrüfatı. Stastistik məcmuə, Azərbaycan Dövlət Statistika Komitəsi. Bakı, 9 №-li kiçik müəssisə, 2013

**Нурангиз Микаилова**

**РОЛЬ АГРАРНОГО СЕКТОРА ЭКОНОМИКЕ В ШЕКИ-ЗАКАТАЛЬСКОМ ЭКОНОМИЧЕСКОМ РАЙОНЕ**

**Резюме**

В статье рассмотрена роль аграрного сектора в Шеки-Закатальском экономическом районе, и было проанализировано текущее состояние экономики. Автор проводил оценку потенциала развития сельскохозяйственного сектора и природных ресурсов, определил механизмы их использования.

**Nurangiz Mikailova**

**THE ROLE OF THE AGRICULTURAL SECTOR IN THE ECONOMY IN SHEKI-ZAKATALA ECONOMIC REGION**

**Summary**

In the article was examined role of the agricultural sector in Shaki region and the current state of the economy has been analyzed. Was assessed potential development of the agricultural sector and natural resources, defined methods of utilizing of them.

**УДК – 336.14**

**Натаван Исмайлова**
**АГЭУ, докторант**

# ПРОБЛЕМЫ ОПТИМИЗАЦИИ РАСХОДОВ ГОСУДАРСТВЕННОГО БЮДЖЕТА

**Ключевые слова:** бюджет, расходы, оптимизация, эффективность, ориентированное на результат
**Açar sözlər:** büdcə, xərclər, optimallaşma, səmərəlilik, nəticəyə orientasiya
**Keywords:** budget, expense, optimization, efficiency, result-oriented

«Министерство финансов Азербайджана начало подготовку сводного и государственного бюджета на 2014-2017 годы, который будет направлен на модернизацию и дифференциацию приоритетных направлений экономики, улучшение делового климата, увеличение бюджетных поступлений от налогов и пошлин, а также достижение целей, предусмотренных в концепции развития "Азербайджан-2020: взгляд в будущее",» - заявил на расширенном заседании коллегии ведомства министр финансов страны Самир Шарифов [3].

Деятельность государства связана с прямыми расходами государственных средств. Совокупность конкретных видов государственных расходов всех уровней бюджетов, взаимосвязанных между собой, представляет собой систему расходов бюджета любого государства.

Система расходов государственного бюджета обусловлена рядом факторов, основными из которых принято считать природу и функции государства, уровень социально-экономического развития страны, административно-территориальное устройство государства, формы предоставления бюджетных средств. Состав и структура расходов государственного бюджета определяется их экономическим содержанием и задачами, которые стоят перед государством по распределению валового внутреннего продукта.

В соответствии со стратегическими направлениями и приоритетами, а также первоочередными задачами бюджетной политики в области расходов, расходы государственного бюджета должны быть сформированы исходя из принципа их максимальной защищенности от влияния внешнеэкономической конъюнктуры и нацелены на концентрации бюджетных расходов для реализации ключевых проблем экономики, оптимизации и повышения эффективности использования расходов государственного бюджета, обеспечения сбалансированности бюджетных ресурсов.

Отсутствие действенного механизма управления государственными расходами, способного обеспечить достижение стратегических целей развития экономики без оценки их обоснованности, оптимальности и эффективности означает, что государство не может оценить и объяснить обществу на решение каких задач тратятся средства налогоплательщиков.

В науке и практике под оптимизацией понимается процесс выбора наилучшего варианта из возможных или же процесс приведения системы в наилучшее (оптимальное) состояние [8].

Исходя из этого, под оптимизацией расходов местного бюджета понимаются использование наименьшего объема бюджетных средств участниками бюджетного процесса для достижения заданных результатов. В качестве критериев оценки результативности мероприятий по оптимизации расходов бюджета рассматриваются: объем выполненных работ/услуг; общественно значимый результат деятельности; бюджетный эффект (экономия средств местного бюджета) [6].

В условиях нехватки мобилизуемых финансовых ресурсов (которое присуще экономике Азербайджана) эффективное использование государством свои ограниченные ресурсы оптимальным способом лишь на основе директивных предписаний субъектам хозяйствования представляется весьма затруднительным. Это подтверждает анализ расходов бюджетов раз-

ного уровня Азербайджана: объем и структура расходов, а также система бюджетного финансирования не соответствуют современным требованиям и не способствуют в полной мере преодолению негативных явлений в экономике и социальной сфере Азербайджана.

Одной из причин сложившейся в Азербайджане ситуации явилось недостаточное внимание, уделяемое исследованию проблем обоснованности и оптимальности расходов бюджета, несмотря на декларируемую Правительством политику по переходу на более экономичное использование имеющихся ресурсов, несмотря на ряд мер, принятых Правительством АР, касательно оптимизации бюджетных затрат (переход на новые системы оплаты труда, сокращение статей бюджетной классификации, упрощение процедуры внесения изменений в бюджетную роспись), которые способствовали некоторому повышению качества управления бюджетными средствами хотя не привело к значительному росту объема и качества оказываемых услуг.

Несоответствия структуры бюджетных расходов целевым ориентирам экономического развития Азербайджана делает необходимым решение задачи внедрения в бюджетное планирование оценку оптимальности расходов. Однако, отсутствие нормативно закрепленного порядка планирования и финансирования расходов бюджета затрудняет расчет расходов на базе такой оценки. Следовательно, государство должно выработать формализованные критерии, которые позволили бы определять, какие отрасли и сферы экономики инвестированы и в каком объеме. Не менее важно, чтобы параллельно с совершенствованием методик планирования расходов бюджета и формирования структуры государственных расходов в практику бюджетного финансирования внедрялись наиболее эффективные методы финансирования и формы расходов бюджета, которые позволят заинтересовать бюджетополучателя в целевом и рациональном использовании бюджетных средств [5].

Сохранение в Азербайджане существующей практики планирования и финансирования расходов бюджета чревато дальнейшей консервацией ситуации и имеющихся проблем, потерей времени для реализации намеченных мероприятий и стимулирования экономики. Поэтому необходимо использовать весь инструментарий государственного регулирования в условиях рыночной экономики, задействовать стимулы, заложенные не только в налоговой системе, но и в механизме бюджетных расходов.

Существующая в настоящее время бюджетная система сформирована в иных социально-экономических условиях и до сих пор функционирует в отрыве от принципов оптимальности и достаточности.

Результатом оптимизации бюджетных расходов должно стать повышение эффективности работы бюджета за счет внедрения конкурентных принципов и экономии бюджетных средств, возникающей вследствие устранения дублирующих функций [8].

Решение вопросов обеспечения эффективного (оптимального) использования бюджетных ресурсов требует определения основных принципов анализа их расходования, выявление степени соответствия расходования средств поставленным задачам, расчет соотношения между затратами и полученным результатом.

В настоящих условиях бюджетные средства продолжают расходоваться нерационально. Ожидается, что в 2014 году бюджетные затраты составят 20,1 млрд. манат. По сравнению с 2012 годом этот показатель больше на 15,2%. и будет равен 34,3% от ВВП, что на 2,0% выше 2012 года [2].

В связи с чем определенная разумная жесткость при проведении бюджетной политики становится условием сохранения бюджетной и социальной стабильности. При этом наряду с оптимизацией бюджетной сети более углубленно должна проводиться работа по установлению системы критериев и показателей оптимальности расходов бюджетов разного уровня.

Однако, полное решение проблемы оптимизации и эффективности расходов недостаточно для решения бюджетной сбалансированности и обеспечения всех поставленных целей. Необходим комплекс мероприятий, направленных на увеличение доходов бюджета и, в первую очередь, оптимизировать систему налогообложения.

Особое внимание должно быть обращено на контроль за результативностью данных расходов и состоянием статьи. Снижение отдачи, как и рост выплат по займам, представляются нежелательными тенденциями, способными в перспективе привести к серьезным социально-экономическим проблемам и негативным последствиям.

Последнее десятилетие в отдельных странах мира происходили своеобразные процессы в области государственных расходов. Поскольку чрезмерная концентрация расходов в руках государства зачастую становится препятствием для развития экономики, экономически развитые и развивающиеся страны стали уменьшать долю правительственных расходов –путем разгосударствления значительной части учреждений социальной сферы, содержащихся за счет средств государственного бюджета [7]. Хотя как показывают проведенные исследования в бюджетах всех стран мира увеличилась социальная составляющая: большая часть расходов типичного современного государственного бюджета - это расходы на здравоохранение, образование и социальную защиту граждан.

В Азербайджане на протяжении трех лет прослеживается относительно стабильная тенденция роста средств, направляемых на финансирование сугубо государственных функций (управление, международная деятельность, судебная власть), увеличение расходов на производственный сектор государственной экономики (строительство, промышленность, сельское хозяйство). При этом резко выделяются повышение расходов на социальную политику и финансовую помощь бюджетам других уровней, а также повышение затрат на обслуживание госдолга, национальную оборону и целевые бюджетные фонды

Для повышения устойчивости экономического и социального развития Азербайджана целесообразна оптимизация структуры государственных расходов (в том числе за счет сокращения отдельных статей бюджета).

Обеспечение оптимальности бюджетных расходов, предусматривает необходимость соблюдение ряд условий. Бюджетные расходы должны быть максимально конкретны, при этом они должны ориентироваться на достижение общественно-значимых целей, а не на финансирование организаций. Подконтрольным общественности должен быть и весь процесс составления плана расходования бюджетных средств и само расходование [6]. Иными словами, бюджет республики, его затратная часть должны быть более подробным, прозрачным, детализированным, открытым и понятным и выполняться гласно по каждому направлению бюджетных средств.

Для ориентации на оптимальное расходование бюджетных расходов на решение основных направлений государственной социально-экономической политики необходимо: -интеграция целей и задач стратегического, среднесрочного и бюджетного планирования; -ориентация процесса планирования и исполнения бюджета на эффективность и результативность бюджетных расходов, сокращение неэффективных затрат; -обеспечение прозрачности процесса формирования и исполнения бюджета; -усиление требований к администраторам бюджетных программ по соблюдению бюджетной дисциплины; -повышение качества управления бюджетными деньгами (наличностью) [8].

Смещение акцентов в деятельности государственных органов в сторону управления по результатам на основе проведения реформы бюджетных отношений, оптимизации сети бюджетных организаций и повышения результативности бюджетных расходов означает переход бюджетирования, ориентированное на результат Т.е. бюджетные ресурсы распределяются между их распорядителями и бюджетными программами в зависимости от поставленных перед ними целей, в соответствии со среднесрочными приоритетами социально-экономической политики и в пределах прогнозируемых на долгосрочную перспективу ресурсов бюджета. Такой подход предполагает оптимизацию бюджетных расходов, контроль результативности расходования бюджетных средств путем оценки выполнения количественных и качественных показателей госпрограмм [4].

Использование экономических, в том числе финансовых, методов позволяет государству отказаться от командного администрирования с присущими ему методами бюджетного

финансирования и дотирования, обеспечивавшими запланированные темпы развития общественного производства, и перейти к финансовому регулированию экономики путем создания принципиально иного, чем прежде, режима расходования финансовых ресурсов. Ориентировка на конечный результат предполагает возможность сокращения либо полного прекращения финансирования госпрограмм в случае их неэффективной реализации. Между министерствами и ведомствами возникает здоровая конкуренция за бюджетные ресурсы, которая способствует повышению качества государственных услуг и достижению поставленных целей.

Переход на новую систему государственного планирования предполагает также оптимизацию действующих программных документов путем их объединения, сокращения и передачи решения отдельных задач на уровень государственных органов, а так же оптимизацию и модернизацию действующих информационных систем с целью интеграции процедур бюджетного планирования и исполнения бюджета.

**Список использованной литературы**

1. Закон Азербайджанской Республики «О Государственном бюджете». Баку, 18.05.1999 // Азербайджан. 1999г.
2. Отчеты об исполнении государственного бюджета Азербайджана за 2010-2013г
3. Лавров А.М. Бюджетная реформа 2010-2012г.г.: от управления затратами к управлению результатами // Финансы. 2008, №9
4. Финансы, денежное обращение. Учеб. для вузов / Под ред. Г.М. Колпакова. М.; Финансы и статистика, 2005г.
5. Валеев А.Р. О необходимости системного подхода к оценке эффективности бюджетных расходов // Экономический вестник Республики Татарстан, Казань, 2008, № 1
6.Юсупов Ф.Г. Политика правительственных расходов в стабилизации экономики: Научно-методическое пособие. Калининград, Изд.БИЭФ, 2001
7.Государственный бюджет и проблема оптимизации ...ref.by/refs/91/21556/1.html

**Natavan İsmayılova**

**DÖVLƏT BÜDCƏSİ XƏRCLƏRİNİN OPTİMALLAŞDIRILMASI PROBLEMLƏRİ**

**Xülasə**

“Dövlət Büdcəsi xərclərinin optimallaşdırılması problemləri” adlı məqalədə dövlət büdcəsinin məsrəflərinin optimallaşdırılmasının nəzəri əsaslarının öyrənilməsi və inkişaf etdirilməsi, Azərbaycan reallığında büdcə sisteminin məsrəflərinin effektiv reallaşma mexanizmi nəzərdən keçirilib.

**Natavan Ismailova**

**PROBLEMS OF THE OPTIMIZATION OF STATE BUDGET EXPENSES**

**Summary**

The article “Problems of the optimization of state budget expenses” stidying and developmend of theoretical bases to optimize the expenses of the state budget, development of methodological recommendations and practical suggestions for the implementation of a mechanism to optimize expense in the realities of the Azerbaijan budget system.

**UOT – 336.025**

**Mobil Məcidov**
**AƏSMA, i.ü.f.d., dos.**

# XX ƏSRİN SONUNDA XARİCİ ÖLKƏLƏRİN ALİ TƏHSİL SİSTEMİNƏ DÖVLƏT TƏRƏFİNDƏN MALİYYƏ DƏSTƏYİNİN MƏHDUDLAŞDIRILDIĞI BİR ŞƏRAİTDƏ HƏYATA KEÇİRİLƏN İSLAHATLAR VƏ ONLARIN NƏTİCƏLƏRİ (AVROPA VƏ AMERİKA TƏCRÜBƏSİ)

**Açar sözlər:** maliyyələşmə, maliyyə yardımı, maliyyə problemi, maliyyələşmə mexanizmi
**Ключевые слова:** финансирование, финансовая помощь, финансовая проблема механизм финансирования
**Keywords:** financing, financial assistance, financial problem, funding mechanism

Ötən əsrin 90-cı illərində xarici ölkələrin əksəriyyətində müşahidə olunan iqtisadi sıxıntı təhsil sahəsində də özünü göstərirdi. Belə ki, xarici ölkələrin hökumətləri digər sahələrə olduğu kimi təhsil sahəsinə, xüsusilə ali təhsil müəssisələrinə ayrılan büdcə vəsaitlərini ixtisar etməyə çalışırdı. Büdcədən maliyyələşən ali təhsil müəssisələri ixtisar edilən vəsaitləri bərpa etmək üçün yeni maliyyə mənbələri axtarırdılar. Belə olan şəraitdə bəzi ali təhsil müəssisələri ilk növbədə öz maliyyə vəsaitlərindən səmərəli istifadə etməyə çalışır, bəziləri isə dövlətdən əlavə maliyyələşmə almaq üçün yollar axtarırdılar. Üçüncü tip ali təhsil müəssisələri isə ənənəvi maliyyə mənbələrinin həcminin artırılması və yeni maliyyə mənbələrinin tapılması üçün araşdırmalar aparırdılar. Ali təhsil müəssisələri təhsilalanların sayını artırmaqla, əlavə təhsil xidmətləri göstərməklə (yaşlıların təhsili, məsafədən təhsil, onlayn təhsil), elmi-tədqiqatlar aparmaqla (xüsusi şirkətlərin sifarişi ilə marketinq tədqiqatı və s.), ianələr cəlb etməklə (xüsusilə, keçmiş məzunlardan) maliyyə problemlərini həll etməyə çalışırdılar. Bəziləri isə sadəcə öz xərclərini azaltmaqla bu problemi həll edirdilər.

Ali təhsil sistemində maliyyələşmə sahəsində mövcud olan problemlər dünyanın hər yerində hiss olunurdu. İstər Avropa ölkələrində, istərsə də Amerikada problemlər islahatların aparılmasını tələb edirdi.

XX əsrin sonunda Qərbi Avropa ölkələrinin əksəriyyətində ali təhsil sistemi sərt maliyyə problemi ilə qarşılaşmışdı. Maliyyə böhranının dərinləşməsinə səbəb isə bu ölkələrin hökumətlərinin büdcə vəsaitlərini ildən-ilə azaltması idi. Bu dövrdə ali təhsil müəssisələri əsasən təminatlı ailələrin övladlarını oxutmaqda maraqlı idilər. Çünki bu təbəqənin nə təqaüdə, nə də digər maliyyə dəstəyinə ehtiyacı yox idi. Dövlət tərəfindən maliyyə dəstəyinin zəifləməsi ali təhsil müəssisələrinin qarşısına bir sıra vacib vəzifələr qoyurdu: yüksək keyfiyyətli ali təhsilə təminat və maliyyə vəsaitlərinin məhdudluğu şəraitində müxtəlif mənbələrdən maliyyə vəsaitlərini cəlb etmək.

Qərbi Avropa ölkələrinin ali təhsil sistemində əhəmiyyətli irəliləyişlər müharibədən sonrakı dövrdə müşahidə olunmuşdu. 40 il ərzində (50-ci illərdən 90-cı illərədək) təhsilalanların sayı 10 dəfəyədək artmış, orta məktəbi bitirənlərin 2/3-si ali təhsil müəssisələrinə üz tutmağa başlamışdı. Bu artım isə ali təhsil sistemində əhəmiyyətli struktur dəyişiklikləri ilə müşahidə olunurdu.

90-cı illərdə Qərbi Avropa ölkələrində ali təhsilin maliyyələşdirilməsində dövlətin payı olduqca yüksək idi. Belə ki, Almaniya, Avstriya və İtaliyada 90%, Böyük Britaniya, Portuqaliya və Finlandiyada 80%, Danimarka, İsveçrə və İslandiyada 65% xərclər dövlət tərəfindən ödənilirdi. Halbuki bu dövrdə ABŞ-da bu hədd 50%-i ötmürdü [1, s.34].

70-90-cı illərdə Qərbi Avropa ölkələrində ali təhsil sistemi iqtisadçı alimlər və siyasətçilər tərəfindən sərt tənqidlərə məruz qaldı. Onlar əmək bazarının tələbatının nəzərə alınmamasını, səmərə-

siz idarəetməni və yüksək xərcləri tənqid edirdilər. Məhz bu dönəmdə adambaşına maliyyələşmə mexanizmi, kortəbii də olsa fəaliyyətə başladı.

1980-ci ilədək Qərbi Avropa ölkələrində ali təhsil istisnalarla, demək olar ki, pulsuz idi. Hətta bəzi ali təhsil müəssisələrində əla qiymətlərlə oxuyan tələbələr aldıqları təqaüdlər hesabına öz şəxsi xərclərini də bağlayırdılar.

80-90-cı illərdə Qərbi Avropa ölkələrinin büdcələrində baş verən iqtisadi sıxıntılar əksər ölkələrdə pulsuz təhsili məhdudlaşdırdı. 90-cı illərin ikinci yarısında Qərbi Avropa ölkələrini şərti olaraq üç qrupa bölmək olardı: 1) pulsuz ali təhsil mövcud olan ölkələr - Almaniya, Avstriya, Danimarka, Finlandiya, Yunanıstan, Norveç, Böyük Britaniya, İsveç; 2) qismən təhsil haqqı olan ölkələr - Fransa; 3) yüksək təhsil haqqı olan ölkələr - Belçika, İspaniya, İrlandiya, İtaliya, Niderland, İsveçrə.

Ali təhsil müəssisələrinə maliyyə müstəqilliyinin verilməsi onların ümumi gəlirlərinin artımına gətirib çıxardı. Gəlirlərin tərkibində isə təhsil haqlarından, həmçinin ayrı-ayrı biznes müqavilələrindən daxilolmalarının payı yüksəldi. Bu dövrdə bəzi ölkələrdə təhsilin maliyyələşdirilməsi əvvəlcə elmi-tədqiqat işlərinə, sonradan isə müəllimlik fəaliyyətinə görə aparılırdı. 80-ci illərdə Qərbi Avropa ölkələrində müəllimlik və elmi-tədqiqat fəaliyyətinin qiymətləndirilməsi meyarları işlənib hazırlandı. Hazırda ali təhsil müəssisələrinin maliyyələşdirilməsi müəyyən mənada belə qiymətləndirmədən çox asılıdır (misal üçün, verilən təhsilin və aparılan elmi-tədqiqat işlərinin keyfiyyətindən əlavə maliyyələşmə almaq mümkündür).

Ali təhsilin maliyyələşdirilməsi sahəsində həyata keçirilən islahatlar ilk növbədə ali təhsilin hamı tərəfindən əldə olunmasına təsir göstərirdi. Belə ki, təhsil xərclərinin artması aztəminatlı ailələrdən olan gənclərin ali təhsil almasında müəyyən problemlər yaradırdı.

80-90-cı illərdə bir sıra xarıcı ölkələrdə ali təhsilin maliyyələşdirilməsi məqsədilə banklar tərəfindən təhsil kreditlərinin verilməsinə başlandı. Lakin bəzən verilən kreditlər ödəyiciləri problemlərlə üz-üzə qoyurdu. Birinci problem ondan ibarət idi ki, kredit götürən tələbə təhsilini başa vurub-vurmamasından asılı olmayaraq kredit borcunu müəyyən olunmuş müddətlərdə qaytarmalı idi. İkincisi, təhsilə yeni başlamış tələbə hələ bilmirdi ki, kredit məbləği onun gələcək gəlirlərinə necə təsir edəcək. Bu problemləri əvvəlcədən düşünən aztəminatlı ailələr isə çox vaxt təhsil almaqdan imtina edirdilər və təhsilin əldə olunması onlar üçün əlçatmaz olurdu.

Ali təhsil sisteminin səmərəliliyini yüksəltmək və eyni zamanda onu hamı üçün əldə olunan etmək məqsədilə ali təhsilin maliyyələşdirilməsi sahəsində aşağıdakı tədbirlərin görülməsi məqsədəuyğun hesab edilirdi:

- Birincisi, aztəminatlı ailələr üçün ali təhsilin əldə olması məqsədilə, xüsusi təhsil proqramlarının maliyyələşdirilməsini nəzərdə tutan ali təhsil müəssisələri ilə dövlət arasında uzunmüddətli müqavilələr bağlamaq;
- İkincisi, təhsil kreditləri verilərkən tələbələrin, onların ailələrinin gəlirləri, eyni zamanda ali təhsil müəssisəsini bitirənlərin təhsildən sonrakı gəlirlərini nəzərə almaq. Yəni təhsil kreditinin gəlirə uyğun verilməsini həyata keçirmək (belə sxem hələ 1989-cu ildə Avstraliyada tətbiq olunmuşdu. Gəlirləri minimum həddə çatmayanlara təhsil krediti verilmirdi).

90-cı illərdə ali təhsilin maliyyələşdirilməsi sahəsində Qərbi Avropa ölkələrində bir sira dəyişikliklər baş verdi. Böyük Britaniya, Almaniya (AFR), Danimarka kimi ölkələr ali təhsilin ödənişli əsaslarla həyata keçirilməsi barədə aktiv düşünməyə başladılar. Müzakirələrə sərt və davamlı başlayan Böyük Britaniya hökuməti 1997-ci ildə ali təhsilin maliyyələşdirilməsi sahəsində ilk addımı atdı. Bu islahata əsasən 1998-1999-cu tədris ilindən tam ödənişli təhsilə start verildi. Eyni zamanda təhsil haqqı yüksək olan İrlandiya və Portuqaliya kimi ölkələrdə onun aşağı salınması barədə müzakirələr gedirdi [4, s.77-87]. Digər Qərbi Avropa ölkələri olan Avstriya, Finlandiya və Fransada ali təhsilin maliyyələşdirilməsi sahəsində ciddi islahatlar hazırlanırdı.

Ödənişli təhsil sisteminin genişlənməsi Qərbi Avropa ölkələrindən Almaniyada özəl ali təhsil müəssisələrinin sürətlə artmasına səbəb oldu. Lakin özəl ali təhsil müəssisələrinin yaranmasına baxmayaraq, onlar çox çətinliklə rəqabətə dözürdülər. 1998-ci ildə “Bosh”, “Daimler Chrysler”, “Siemens”, “Trumpt” şirkətlərinin maliyyə dəstəyi ilə “Ştutqart Menecment və Texnologiya İnstitutu” və Proqram təminatı sahəsində böyük təcrübəyə malik olan SAP və Karlsrue Ticarət-Sənaye palatasının dəstəyilə “Almaniya Beynəlxalq Universiteti” fəaliyyətə başladı. 1999-cu ildə “Hamburq Texniki Universiteti” özəl “Qərbi Texnologiya İnstitutu”nu, Hamburq Universiteti isə “Diplom layihələrinin Beynəlxalq Mərkəzi”ni təsis etdi. Bundan əlavə bu illərdə “Die Zeit” fondu “Bucerius hüquq məktəbi”ni təsis etdi. Bu dövrdə özəl ali təhsil müəssisələrinin yaranması müsbət hal idi. Lakin problem onların rəqabətə tab gətirə bilməməsində idi. Belə ki, 2000-ci ildə “Ştutqart Menecment və Texnologiya İnstitutu”nda cəmi 114, “Almaniya Beynəlxalq Universiteti”ndə 250, “Qərbi Texnologiya İnstitutu”nda 65, “Diplom layihələrinin Beynəlxalq Mərkəzi”ndə 34, “Bucerius hüquq məktəbi”ndə 189 tələbə təhsil alırdı. Tələbə kontingentinin azlığı isə ali təhsil müəssisələrini maliyyə sıxıntıları ilə üz-üzə qoyurdu. İqtisadi sıxıntıya dözə bilməyən ali təhsil müəssisələri sıradan çıxır, digərləri isə maliyyə problemlərini həll etmək üçün müxtəlif yollar axtarırdı. Qeyd edək ki, hazırda yalnız “Bucerius hüquq məktəbi” və “Ştutqart Menecment və Texnologiya İnstitutu” öz fəaliyyətlərini davam etdirirlər.

Qərbi Avropa ölkələrində yaşlıların fasiləsiz təhsilinin təşkilinə geniş yer verilirdi. Qısa müddətli seminarlar, treninqlər, axşam kursları şəklində təşkil olunan bu təhsil forması ali təhsil müəssisəsinə dövlət qayğısının azaldığı şəraitdə əlavə vəsaitlər əldə etməyə imkan yaradırdı.

Universitetlərin bəziləri fasiləsiz təhsil proqramını hamı üçün təşkil etdiyi halda, bəziləri bu ödənişli xidməti xüsusi kompaniyaların müəyyən işçiləri üçün göstərirdilər. Hələ 1991-ci ildə fasiləsiz təhsili inkişaf etdirmək məqsədilə Avropa universitetləri 27 ölkənin 160 təhsil müəssisəsini özündə birləşdirən “Avropa universitetlərinin fasiləsiz təhsil şəbəkəsini” yaratdı. Bu təşkilatın əsas məqsədi isə fasiləsiz təhsil proqramını inkişaf etdirmək, onu həm milli, həm də Avropa səviyyəsində təmsil etmək olmuşdur. Fasiləsiz təhsil eyni zamanda Avropa Universitetlər Assosasiyasının da diqqət mərkəzində idi.

Qərbi Avropa ölkələri arasında fasiləsiz təhsil sahəsində ən geniş inkişaf edəni Finlandiya idi. Finlandiyada 1980-ci ildən 21 dövlət universitetində fasiləsiz təhsil mərkəzləri fəaliyyət göstərirdi. Belə ki, o dövrdə 5 milyonadək əhalisi olan bu ölkədə 150 min nəfər təhsil alan olduğu halda, 200 minədək fasiləsiz təhsil proqramına cəlb edilmiş “böyüklər” var idi. Finlandiya ilə yanaşı Norveç, Böyük Britaniya və Fransa da fasiləsiz təhsil mərkəzlərinin sayına görə liderlik edirdilər.

Bütün bunlara baxmayaraq fasiləsiz təhsil proqramına artan tələbatı ödəmək üçün davamlı islahatlar həyata keçirilirdi.

Artıq Avropa universitetləri bir reallığı qəbul edirdilər ki, fasiləsiz təhsil yalnız universitetlərə gəlir gətirmir, o, eyni zamanda universitetlərlə ayrı-ayrı kompaniyalar arasında sıx əlaqələr yaradır ki, bu da əksər hallarda elmi-tədqiqat işləri üzrə yeni müqavilələrin bağlanması ilə nəticələnir. Çünki universitet müəllimləri ilə fasiləsiz təhsil proqramına cəlb edilən “şəxs” arasında yaranan müəllim-tələbə münasibəti, tezliklə işgüzar münasibətlərə çevrilirdi.

Qərbi Avropa ölkələri ilə müqayisədə Şərqi Avropa ölkələrinin ali təhsil müəssisələrində maliyyə vəsaitlərinin çatışmazlığı daha çox hiss olunurdu. 90-cı illərdə Şərqi Avropa ölkələrinin təhsil sistemində əhəmiyyətli dəyişikliklər baş verdi. Şərqi Avropa ölkələrinin əksəriyyəti universitetlərin müstəqilliyi və onların fəaliyyətinə dövlət müdaxiləsinin məhdudlaşdırılması haqqında qanun qəbul etdi. İslahatlar universitetlərin daxilində də hiss olundu. Universitetlərin rəhbərliyi islahatçılarla əvəz olundu, elmi-tədqiqat fəaliyyətinə qoyulan məhdudiyyətlər aradan qaldırıldı. Universitetlərə verilən müstəqillik əsasən onların maliyyə resurslarının idarə edilməsi ilə əlaqədar idi. Universitetlərə maliyyə vəsaitlərini idarə etməkdə müstəqillik verən Şərqi Avropa ölkələrinin hökumətlərinin

əsas məqsədi ali təhsil müəssisələrinin işinin səmərəliliyini artırmaq, iqtisadiyyatın və cəmiyyətin kadr təminatını ödəmək idi. Şərqi Avropa ölkələrindən ilk olaraq Macarıstan ənənəvi sistemdən imtina etdi və unversitetlərə müstəqillik (dövlət vəsaitlərini müstəqil idarə etmək) hüququ verdi. 1999-cu ildən isə Rumıniya da bu təcrübədən istifadə etdi. Şərqi Avropa ölkələrinin ali təhsil sistemində həyata keçirilən islahatlar nəticəsində bir sıra uğurlar əldə edilmişdir: ilk növbədə təhsilalanların sayı özəl təhsil müəssisələrinin sayının artması hesabına iki dəfəyədək artmış, ali təhsil alanların sayı 30%-i ötmüşdür. (Qeyd: Polşa və Rumıniyada ali təhsil alanların 25%-dən çoxu özəl təhsil müəssisələrində təhsil alır). Hətta bəzi özəl ali təhsil müəssisələri böyük elmi-tədqiqat mərkəzlərinə çevrilmişdir.

Şərqi Avropa ölkələrində özəl təhsil sisteminin sürətlə inkişafına səbəb isə dövlət təhsil müəssisələrində qəbul planlarının azaldılması və regionda təhsilə olan artan tələbat olmuşdur. Lakin özəl ali təhsil müəssisələrinin yaranması tələbatı ödəməklə yanaşı regionda təhsil rəqabətinin formalaşmasına da səbəb olmuşdur. 90-cı illərdə regionda sürətlə özəl təhsil müəssisələrinin artması eyni tipli ali təhsil müəssisələrinin yaranmasına səbəb oldu. Bəzi özəl təhsil müəssisələri dövlət ali təhsil müəssisələrinin proqramlarını təkrarlayır, bəziləri isə dövlət təhsil sektorunda olan boşluqlardan istifadə edib kadr hazırlığı aparılmayan sahələrə mütəxəssis hazırlayırdılar. Bu dönəmdə, əsasən, daha çox “biznes” məktəbləri yaradıldı.

Lakin ümumilikdə təhsil sisteminin inkişafı və təkmilləşdirilməsi naminə çalışan özəl təhsil müəssisələri də az deyildi. Bu dövrdə regionda özəl təhsil sisteminin yaranması eyni zamanda təhsilin dövlət tərəfindən maliyyələşdirilməsində də özünü göstərirdi. Artıq 90-cı illərin sonunda dövlətdən təhsilə ayrılan vəsaitlər minimuma endirildi.

Şərqi Avropa ölkələrinin dövlət ali təhsil müəssisələrinin nümayəndələri hesab edirdilər ki, təhsil sahəsində islahatlar və dövlət ali təhsil müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsinin qeyri-mümkünlüyü maliyyə vəsaitinin çatışmazlığı ilə əlaqədardır. Çünki onlar (universitetlər) nə yeni avadanlıq ala bilir, nə cari təmiri həyata keçirə bilir, nə də öz əməkdaşlarına layiqli əmək haqqı verə bilirdilər.

Bu dövrdə Şərqi Avropa ölkələrində ən kəskin müzakirələr dövlət ali təhsil müəssisələrində təhsilin ödənişlə həyata keçirilməsi ətrafında gedirdi. İslahatlara Polşa hökuməti başladı və bütün tələbələrdən təhsilə görə ödəniş alınmasını nəzərdə tutan qanun layihəsi hazırlandı. Bu təcrübə tezliklə digər ölkələrə də yayıldı. Çexiyada dövlət ali təhsil müəssisələrində təhsil haqlarının alınmasını nəzərdə tutan qanun qəbul edildi. Macarıstanda isə tələbələrdən üç il ərzində hər ay 10 dollar həcmində alınan təhsil haqqı ləğv edildi. Lakin Macarıstan hökumətinin bu addımını Dünya Bankı narazılıqla qarşıladı və ali təhsilin idarə edilməsinin yaxşılaşdırılması üçün nəzərdə tutduğu 150 milyon dollar kreditin verilməsini dayandırdı.

Tədricən ali təhsil müəssisələri bazar münasibətlərinin əsas subyektinə çevrilirdi. Bu isə ilk növbədə yeni maliyyə mənbələrinin tapılmasını, müəllim-tələbə münasibətlərinin dəyişdirilməsini, mənimsəməni artırmaq üçün yeni metodikaların tətbiqini zəruri edirdi. Eyni zamanda bu dövrdə informasiya cəmiyyətinin tələblərinə cavab verən təhsil siyasətini həyata keçirmək də ali təhsil müəssisələrinə ciddi problemlər yaradırdı.

Şərqi Avropa ölkələrində hələ də hansı təhsil modelinin daha səmərəli olması və bazar şərtlərinə uyğun gəlməsi haqqında mübahisələr gedir.

Hazırda Şərqi Avropa ölkələrinin ali təhsil müəssisələri həm maliyyə, həm də hüquqi cəhətdən müstəqillik əldə ediblər. Artıq onlar maliyyə vəsaitlərini öz maraqlarına uyğun xərcləməkdə sərbəstdirlər. Lakin dövlət eyni zamanda ali təhsil müəssisələrinin ümumi fəaliyyətinə nəzarət etməyə çalışır.

Bununla belə, ali təhsilin əldə olunması sahəsində dövlətin və ali təhsil müəssisələrinin hüquq və məsuliyyət (cavabdehlik) balansının qorunması istiqamətində hələ də həllini gözləyən problemlər qalmaqdadır.

Şərqi Avropa ölkələrində özəl ali təhsilin inkişafı şərq bloku ölkələrinin tənəzzülündən sonra daha da sürətləndi. Sərfəli qiymət və dövlət ali təhsil müəssisələrində daim əlçatmaz olan ixtisasları təqdim edən özəl ali təhsil müəssisələri qısa müddətdə cəmiyyətdə öz nüfuzunu qazandı. Artıq insanlar başa düşürdülər ki, mövcud iqtisadi şəraitdə uğur qazanmağın yolu ali təhsildən asılıdır. Özəl ali təhsil müəssisələri daha çox ehtiyac olan ixtisaslar üzrə kadr hazırlamağa üstünlük verirdilər. Bu dövrdə biznes, menecment, informatika və xarici dil ixtisaslarına tələbat daha yüksək idi. Təhsil proqramında “təcrübəyə” daha çox yer ayıran özəl ali təhsil müəssisələri dövlət ali təhsil müəssisələrini bu sahədə qabaqladı. Özəl ali təhsil müəssisələrində daha çox imkanlı təbəqənin övladlarının təhsil alması isə bu sistemin inkişafına təkan oldu. İldən-ilə təhsil haqlarının artırılmasına baxmayaraq, tələbə kontingentində heç bir dəyişiklik olmurdu, əksinə tələbə sayı getdikcə artırdı. Halbuki dövlət ali təhsil müəssisələrində cüzi artım etirazlara və yuxarı təşkilatlara şikayətlərə səbəb olurdu. Özəl ali təhsil müəssisələrinin ən zəif nöqtəsi təsisçilərlə bağlı idi. Belə ki, o dövrdə özəl təhsil müəssisəsi təsis edənlərin böyük əksəriyyəti təhsildən xəbəri olmayan iş adamları idi və onları, əsasən, götürəcəkləri mənfəət maraqlandırırdı. Özəl ali təhsil müəssisələrində təhsilalanların əksəriyyəti dövlət ali təhsil müəssisələrinə qəbul ola bilməyən və ya onların tələblərinə cavab verməyənlər idi. Bu isə dövlət və özəl təhsil sektorunu bir-birindən fərqləndirən əsas xüsusiyyət idi. Özəl ali təhsil müəssisələrin ən üstün cəhəti onların ənənəvi metodlardan imtina edərək daim yeniliklər axtarışında olmaları idi. Bu da təsadüfi deyildi, çünki əmək bazarı elə yüksək təzyiqlə təhsil sistemini sıxırdı ki, onun tələblərinə uyğün kadr hazırlamaq daim inkişaf tələb edirdi.

Dövlət ali təhsil müəssisələrinin büdcə maliyyələşdirilməsinin məhdudlaşdırıldığı bir şəraitdə özəl ali təhsil müəssisələri təhsil xidmətlərini daha da genişləndirdi və keyfiyyətli təhsilin verilməsi istiqamətində islahatlar aparmağa başladı. Keyfiyyətli təhsil tezliklə özünü kəmiyyətdə də göstərdi. Belə ki, 1990-cı ildən 1997-ci ilədək Macarıstan, Polşa və Rumıniyanın özəl təhsil müəssisələrində təhsil alanların sayı 12 mindən 320 minədək artdı. Artıq 1997-ci ildə Macarıstanda 26 min, Polşada 209 min, Rumıniyada 85 min nəfər özəl ali təhsil müəssisələrində təhsil alırdı. Özəl təhsil sisteminin ümumi təhsil xidməti bazarında payı isə Macarıstanda 14%, Polşada 25%, Rumıniyada 27% təşkil edirdi. Bu dövrdə artıq Yaponiyada 2.064 min (və ya 80%), Cənubi Koreyada 1.155 min (və ya 77%), Braziliyada 1.206 min (və ya 66%), Belçikada 300 min (və ya 70%), Portuqaliyada 450 min (və ya 52%) nəfər özəl ali təhsil müəssisələrində təhsil alırdı. Özəl ali təhsil müəssisələrində təhsilalanların sayı ən az olan ölkə isə Çexiya idi. Belə ki, Çexiyada cəmi 7 min nəfər özəl ali təhsil müəssisələrində təhsil alırdı ki, bu da ali təhsil xidməti bazarının 0,5%-ni təşkil edirdi.

Tədricən tədris proqramlarında hazırlıq proqramlarının metod və strukturunun yenilənməsi istiqamətində irimiqyaslı keyfiyyət dəyişiklikləri baş verirdi. Lakin əsas inkişaf sənaye müəssisələrinin, peşəkar assosiasiyaların və cəmiyyətin tələbinə cavab verən kadr hazırlığını həyata keçirən tədris proqramlarında hiss olunurdu.

Keyfiyyətli kadr hazırlığı daha çox yeni informasiya və kommunikasiya texnologiyalarının əldə edilməsinə, eyni zamanda distant və virtual təhsilə ali təhsil müəssisələri tərəfindən yetirilən diqqətdən asılı idi. Bununla belə əsas problem ali təhsil müəssisələrinin maliyyə çatışmazlığı ilə əlaqədar idi. Bu baxımdan bəzi ali təhsil müəssisələri yüksək təhsil haqları tətbiq etməklə yanaşı daha qısamüddətli təhsil növünü seçir, müəllimləri saathesabı ödəniş üzrə işə cəlb etməyə çalışır, ixtisaslaşmanı məhdudlaşdırırdılar.

Şərqi Avropa ölkələrində ali təhsil müəssisələri maliyyə problemlərini həll etmək üçün distant təhsildən geniş istifadə edirdi. Çünki, bu təhsil formasında nə auditoriyaya, nə avadanlığa, nə də inzibati-nəzarət mexanizmlərinə ehtiyac olmurdu.

Şərqi Avropa ölkələrində ən ciddi problemlərdən biri professor-müəllim heyətinin və elmi personalın tərkibini formalaşdırmaqdır. Çünki stimullaşdırıcı ödəniş mexanizminin olmaması əsl müəllimləri sosial problemlərlə üz-üzə qoyur və onların keyfiyyətli fəaliyyət göstərməsinə mane olur. Əksinə, “müəllim” lər bu vəziyyətdən səmərə götürür. Hazırda Şərqi Avropa ölkələrinin ali təhsil müəssisələrində müəllimlərin əməyinin keyfiyyəti həyata keçirilən əməyin stimullaşdırılması siyasətindən birbaşa asılıdır.

Ali təhsil müəssisələrinin gəliri bilavasitə təhsil haqlarından asılı olduğu üçün demoqrafik vəziyyətdə və bazarda baş verən dəyişikliklər onlara birbaşa təsir göstərir. Özəl ali təhsil müəssisələrinin əksəriyyəti bazara və siyasi vəziyyətə o qədər həssasdırlar ki, vəziyyətin dəyişməsindən asılı olaraq onlar hər an fəaliyyətlərini dayandıra bilərlər.

Amerika standarları ilə müqayisədə təhsil haqları aşağı olmasına baxmayaraq, artıq insanlar illik gəlirlərinin yarısını təhsil haqqı şəklində ödəyirlər. Təhsilin keyfiyyətinin yüksəldilməsi və ona hamının yiyələnə bilməsi sahəsində həyata keçirilən islahatlar olduqca irihəcmli vəsaitlər tələb edir. Çünki təhsil sistemi bilavasitə sosial-iqtisadi və maliyyə problemləri ilə əhatə olunan cəmiyyətlə əlaqədardır. Bu problemlər isə, əsasən, Mərkəzi və Şərqi Avropa ölkələrinə xas olan xüsusiyyətdir. Lakin nəzərə almaq lazımdır ki, dövlət o zaman qüdrətli olur ki, onun vətəndaşları normal təhsil səviyyəsinə yiyələnə bilir.

90-cı illərdə ABŞ hökuməti və ştatlar ali təhsilin inkişafına yönəldilən vəsaitlərə “qənaət” etməyə başladı. 1987-ci ildən başlayaraq hər bir təhsilalana ayrılan federal büdcə vəsaiti azaldıldı. Federal hökumət və ştatlar büdcə vəsaitlərinin hərəkətinə ciddi nəzarət etməklə təhsil xərclərini tənzimləməyə cəhd göstərirdilər. Əsas məqsəd isə ali təhsil müəssisələrinin maliyyə sahəsində və ümumi fəaliyyətində məsuliyyətini artırmaq idi. Lakin bu tədbirlər ali təhsil müəssisələrini öz fəaliyyətlərini maliyyələşdirmək üçün yeni maliyyə mənbələri cəlb etməyə sövq etdi.

Məlum olduğu kimi, dövlət ali təhsil müəssisələrinin maliyyələşdirilməsində ştatların rolu olduqca böyük idi. Düzdür, 80-90-cı illərdə büdcə vəsaitlərinin həcmi ixtisar edilirdi (1980-ci ildə 46,2%, 1990-cı ildə 41,7%, 1996-cı ildə 35,9%), lakin buna baxmayaraq ştatlar, dövlət təhsil müəssisələrini nəzarətdə saxlamağa çalışırdılar.

Son onilliklərdə maliyyələşmə mexanizmlərində də ciddi dəyişikliklər aparılmışdı. Belə ki, 1996-cı ildə Cənubi Karolina ştatında ali təhsil müəssisələrinin maliyyələşdirilməsinin yeni metodunu nəzərdə tutan qanun qəbul edildi. “Fəaliyyətin nəticələrinə görə maliyyələşmə” (“performance funding”) adlanan bu modelin müəyyən standartları mövcud idi ki, məhz bu standartlara əsasən fəaliyyətin nəticələrinə görə hökumət dövlət kollecłərinə (onların sayı 33 idi) ayrılacaq maliyyə vəsaitlərinin həcmini müəyyən edirdi [3, s.26-28]. ABŞ-ın əksər ştatları bu modelin tətbiq olunmasının və təhsil müəssisələrinin maliyyə məsuliyyətinin artırılmasının tərəfdarı idi. Qısa müddət ərzində ştatların 1/3-də fəaliyyətin nəticələrinə görə maliyyələşmə mexanizmi tətbiq olunmağa başladı. Ali təhsil müəssisələrinin fəaliyyətinin nəticələri 37 göstərici üzrə qiymətləndirilirdi. Bu göstəricilərə təhsilin keyfiyyəti və müəllim heyətinin kvalifikasiyası, müəyyən olunmuş müddətdə bakalavr və ya magistr diplomu alanların ümumi tələbələrin sayında xüsusi çəkisi, ümumi məzunların sayında işlə təmin olunan məzunların xüsusi çəkisi və s. aid idi. Artıq bu qanun imkan vermirdi ki, ali təhsil müəssisələri yalnız tələbələrin sayına görə vəsait alsınlar. Düzdür, ilk vaxtlarda bu qanun xeyli tənqidə məruz qaldı. Təhsil müəssisələrinin rəhbərləri bu qanunu ədalətsiz və ağlasığmaz hesab edir, onun işləməyəcəyini iddia edirdilər. Bəziləri isə müəyyən olunmuş standartlardan ehtiyat edərək, maliyyə sıxıntıları yaşayacaqlarını düşünürdülər. Lakin Cənubi Karolina ştatının dövlət kollecləri gözləniləndən artıq uğur əldə etməyi bacardılar və fəaliyyətlərini müəyyən olunmuş göstəricilərə uyğun qura bildilər. Artıq 1998/1999-cu tədris ilində 33 dövlət təhsil müəssisələrindən 18-i (16 texniki kollecdən - 11-i, 3 elmi-tədqiqat universitetindən 2-i, 9 universitetdən 3-ü, 5 ikiillik kollecdən 2-si) müəyyən olunmuş standartlara və qiymətləndirmə göstəricilərinə uyğun öz fəaliyyətlərini qurdu.

Yeni maliyyələşmə mexanizminin tətbiqinin müsbət nəticəsi isə qısa müddətdə akreditə olunmuş akademik proqramların sayının artması, müəyyən olunmuş müddətlərdə diplom alanların xüsusi çəkisinin yüksəlməsi və nəhayət, təhsilin keyfiyyətinin və nəticələrinin yaxşılaşdırılması idi.

Yeni maliyyələşmə mexanizminin tətbiqində digər müsbət cəhət stimullaşdırıcı əlavə mükafatların verilməsi idi. Belə ki, ən yüksək nəticə göstərən ali təhsil müəssisələrinə 5%, müəyyən olunmuş standartları üstələyən ali təhsil müəssisələrinə əlavə 3%, standartlara tam cavab verən ali təhsil müəssisələrinə əlavə 1% mükafat verilirdi. Standatlara cavab verməyən və ya müəyyən olunmuş göstəricilər üzrə bal toplamayan ali təhsil müəssisələrinin vəsaitləri isə 3-5% ixtisar edilirdi (Qeyd: tədqiq olunan dövrdə (2000-ci il) nə 5%-lik mükafat alan, nə də vəsaitləri ixtisar edilən ali təhsil müəssisələri olmamışdır).

Yeni maliyyələşmə mexanizminin tətbiqi bir sıra zəif inkişaf etmiş ali təhsil müəssisələrinin də sürətli inkişafına səbəb oldu. Belə ki, bəzi ali təhsil müəssisələri reytinqdən düşməmək, kütləvi informasiya vasitələrində adlarının aşağı nəticələrilə hallanmaması və ən nəhayət, kənar maliyyə yardımlarından məhrum olmamaq üçün müəyyən olunmuş standartlara çatmağa çalışır və buna nail olurdular.

Bu dövrdə təhsilin maliyyələşdirilməsi sahəsində həyata keçirilən islahatlardan biri də ali təhsil müəssisələri üçün qrantların müəyyən edilməsi idi. Məsələn, Pensilvaniya ştatının qubernatoru 2000-ci ildə stimullaşdırıcı qrant proqramı elan etdi. Proqramın əsas şərti isə tələbələrin tədris planı ilə müəyyən olunmuş müddətdə (4 il) təhsillərini bitirməsi ilə əlaqədar idi. Belə ki, bu qrantı almaq üçün azı 40% tələbə təhsilini müəyyən olunmuş müddətdə bitirməli idi. Qrantın məbləği isə ali təhsil müəssisələrinin faiz sıralanması yerinə görə müəyyən olunurdu. (Qeyd: tədqiq olunan dövrdə ali təhsil müəssisələrində tələbələrin yalnız 24%-i təhsillərini 4 ilə başa vura bilmişdi. Özəl ali təhsil müəssisələrində isə bu göstərici 60%-ə bərabər olmuşdu).

Ali təhsilə maliyyə dəstəyi göstərmək üçün ABŞ-da həyata keçirilən digər bir islahat isə dövriyyəyə adlı qiymətli kağızların buraxılması idi. Bu təklif tezliklə ictimaiyyət tərəfindən də dəstəkləndi. 1999-cu ildə Men, Ohayo və Texas ştatlarınının seçiciləri hökumətin bu planını dəstəklədilər. Men ştatında 70% seçici ştatın texniki kolleclərinin infrastrukturunun yaxşılaşdrılması üçün 26,4 milyon dollar dəyərində səhmin dövriyyəyə buraxılmasına səs verdilər. Ohayo ştatında 60% seçici dövlət təhsil müəssisələrinin təmirinin və yenilənməsinin maliyyələşdirilməsi üçün səhmlərin buraxılmasına səs verdilər. Texas ştatında isə 71% seçici tələbələrə kredit verilməsi məqsədilə 400 milyon dollar dəyərində səhmin buraxılmasını nəzərdə tutan proqramın həyata keçirilməsinə səs verdi. Bu proqram vasitəsilə 16 minə yaxın tələbə təhsil haqqını ödəmək üçün maliyyə yardımı aldı.

90-cı illərdə dövlətdən alınan maliyyə dəstəyinin ixtisarı ilə qarşılaşan ABŞ-ın ali təhsil müəssisələri çıxış yolunu kənar maliyyə vəsaitlərini cəlb etməkdə tapdılar. ABŞ universitetlərinin və kolleclərinin bu sahədəki fəaliyyəti çoxsahəlidir. Belə ki, onlar maliyyə vəsaitlərini cəlb etmək məqsədilə xüsusi kampaniyalar təşkil edir, elmi-tədqiqat işləri aparmaq üçün fərdi şirkətlərlə müqavilələr bağlayırdılar.

ABŞ-da fərdi şirkətlər uzun illərdir ki, ali təhsil müəssisələrinə maliyyə yardımı göstərir və bu xidmətin müqabilində kadr mübadiləsi aparır, onların məzunlarını işə cəlb edirlər. Şirkətlərlə ali təhsil müəssisələri elmi-tədqiqat işlərinin aparılmasında və məsafəli təhsilin təşkilində də əməkdaşlıq edirdi. Hətta böyük şirkətlərdə maliyyə yardımı fəaliyyətini tənzimləyən xüsusi strukturlar da fəaliyyət göstərirdi.

Fərdi ianələrin cəlb edilməsi təcrübəsi ABŞ-nın qədim ənənələrindəndir. İlk Amerika kollecləri ayrı-ayrı sponsorlardan maliyyə dəstəyi aldıqdan sonra dirçəlməyə başladılar. Əvəzində isə bu təhsil müəssisələri həmin sponsorların şərəfinə kolleclərinə onların adlarını verir və onların adına əsaslı kitabxanalar yaradırdılar. XIX əsrin sonunda aparıcı universitetlərin (Harvard və Yel) məzunları maliyyə yardımını cəlb etmək məqsədilə “məzunlar assosiasiyası” təşkil etdilər. Bu məzunlar

yalnız özləri yardım etməklə kifayətlənmir, eyni zamanda kənardan və ya dövlətdən yardımın alınmasında da yaxından iştirak edirdilər. ABŞ-da özəl ali təhsil müəssisələri ilə yanaşı dövlət ali təhsil müəssisələri də maliyyə yardımı cəlb etməyə çalışırdılar. Hətta bəzi ştatlarda dövlət ali təhsil müəssisələrinə maliyyə yardımını stimullaşdıran xüsusi maliyyələşmə mexanizmləri də yaradılmışdı.

ABŞ-ın ali təhsil müəssisələrində maliyyə yardımının cəlb edilməsi sahəsində xüsusi struktur bölmələr fəaliyyət göstərirdi. “İnkişaf xidməti” (“development offices”) adlanan bu bölmənin səyi nəticəsində artan maliyyə yardımları təhsilalanların sayına da ciddi təsir göstərirdi. Hətta universitetlərdə “inkişaf üzrə vitse-prezident” vəzifəsi də nəzərdə tutulurdu.

Amerika universitetləri və kollecləri fərdi yardımları cəlb etmək üçün 6-7 il perspektivdə nəzərdə tutulan məqsədyönlü kampaniyalar keçirirdilər. Bu kampaniyaların ən xırda detalları, həmçinin mərhələləri və qarşıya qoyulan məqsədləri öncədən planlaşdırılırdı. Hətta bəzən əldə olunacaq vəsaitlər də proqnozlaşdırılırdı. Belə ki, 80-ci illərdə Stenford özəl tədqiqat universiteti kampaniya çərçivəsində 1 milyard dollar, 90-cı illərdə Harvard universiteti (özəl) artıq 2 milyard dollar ianə toplamağı bacardı. Dövlət universitetlərindən isə Miçiqan universiteti 1996-cı ildə planlaşdırılan 1 milyard dollar vəsaiti uğurla toplaya bilmişdi [2, s.122].

Ali təhsil müəssisələri tərəfindən ianələrin cəlb edilməsi uğrunda rəqabətin dərinləşdiyini görən Amerika hökuməti stimullaşdırıcı addımlar atdı. Vergi güzəştləri ilə müşahidə olunan ianə kompaniyaları getdikcə daha da genişləndi. Artıq 90-cı illərin sonunda ümumi vergi yükünün 50%-ni ianə şəklində ali təhsil müəssisələrinə verən vergi ödəyiciləri vergi ödəməkdən azad edilirdi.

Təhlillər göstərir ki, ianələrin böyük hissəsini keçmiş məzunlar ödəyirdi. Belə ki, 1998-ci ildə amerika ali təhsil müəssisələrinə yığılan 18,4 milyard dollar ianə fondunun 30%-i (5,5 milyard dollar) məzunlar tərəfindən ödənilib. Qalan məbləğin 24%-i fərdi şəxslərin (4,5 milyard dollar), 21%-i ayrı-ayrı fondların (3,8 milyard dollar), 18%-i fərdi korporasiyaların (3,25 milyard dollar), 7%-i isə digər mənbələrin payına düşür. Lakin qeyd etməliyik ki, ianələrin böyük hissəsi tədqiqat universitetlərinə ödənilir. Bu vəsaitin 9,5 milyard dolları (4,6 milyard dollar özəl təhsil müəssisələrinə, 4,9 milyard dollar dövlət təhsil müəssisələrinə) tədqiqat universitetlərinə verilmişdi. Magistr hazırlamaq hüququ olan ali təhsil müəssisələrinə 1,4 milyard dollar (926,6 milyon dollar özəl təhsil müəssisələrinə, 493 milyon dollar dövlət təhsil müəssisələrinə), dördillik kolleclərə 2,02 milyard dollar (2 milyard dollar özəl kolleclərə, 20,6 milyon dollar dövlət kolleclərinə), ikiillik kollecərə 124 milyon dollar (17,8 milyon dollar özəl kollecərə, 106,2 milyon dollar dövlət kollecərinə) verilmişdi.

1997-1998-ci tədris ilində bir ali təhsil müəssisəsinə verilən ianələr orta hesabla 13 milyon dollar təşkil etmişdi. Tədqiqat universitetlərində bu göstərici 48,1 milyon dollara, magistr hazırlamaq hüququ olan ali təhsil müəssisələrində 4,7 milyon dollara, dördillik kolleclərdə 6,2 milyon dollara, ikiillik kolleclərdə 1,3 milyon dollara bərabər olmuşdu.

1997-1998-ci tədris ilində ən çox maliyyə yardımı alan təhsil müəssisələri Amerikanın aparıcı universitetləri – Harvard Universiteti (312,6 milyon dollar), Stenford Universiteti (312.6 milyon dollar), Kolumbiya Universiteti (267 milyon dollar), Dyuk Universiteti (254,8 milyon dollar), Kornel Universiteti (253,2 milyon dollar), Medison Universiteti (230,4 milyon dollar), Yel Universiteti (223 milyon dollar), Prinston Universiteti 218,9 milyon dollar), Pensilvaniya Universiteti (199,8 milyon dollar), Koliforniya Universiteti (197,2 milyon dollar) olmuşdur. Eyni zamanda bu universitetlərdən Harvard, Kornel, Prinston və Stenford məzunlarından ən çox yardım alan təhsil müəssisələrindən idi.

Lakin ali təhsil müəssisələri heç də hər zaman hədiyyə olunan vəsaitləri istədikləri kimi xərcləyə bilmirdilər. Belə ki, 1998-ci ildə ali təhsil müəssisələrinə verilən vəsaitlərin 10%-i cari xərclərin ödənilməsinə, 38,9%-i isə hədiyyə edənlərin qoyduğu şərtlərə əsasən xərclənmişdi. Çünki hədiyyə edənlərin əksəriyyəti ali təhsil müəssisələrinin qarşısına müəyyən şərtlər qoymaqla bərabər, vəsaitlərin hara və necə xərclənməsinə də nəzarət edirdilər.

İanələrin toplanmasında lider olan və ABŞ-ın, eyni zamanda dünyanın ən aparıcı universitetlərindən olan Harvard Universitetinin ianə toplama fəaliyyətinin üzərində dayanaq. 1994-cü ildə Harvard Universitetinin prezidenti Amerika ali təhsili tarixində ən böyük ianə fondunun toplanmasına start verdi. Harvard Universitetinin digər ali təhsil müəssisələri ilə müqayisədə mövqeyinin möhkəmləndirilməsini nəzərdə tutan kampaniyaya görə 1999-cu ilin sonuna 2,1 milyard dollar maliyyə vəsaiti toplanmalı idi. Düzdür, bu kampaniyanın uğurla yekunlaşacağına çoxları inanmırdı. Əksəriyyət belə hesab edirdi ki, universitetin tərkibinə daxil olan 9 müstəqil kollec bu işi yerinə yetirə bilməyəcək. Çünki bu kolleclərin heç də hamısı ianə toplanmaq fəaliyyətini düzgün həyata keçirə bilmirdilər. Digər bir problem isə həddindən artıq varlı olan Harvard Universitetinə vəsait toplamaq olduqca çətin idi. Belə ki, Harvard Universitetinin bu vəsaitlərə (2,1 milyard dollar) ehtiyacı olduğuna sponsorları inandırmaq olduqca çətin idi. Təşkilatçılar kampaniyanın uğurla keçməsi üçün bütün diqqəti Amerika cəmiyyətinin mövcud problemlərinin həllində Universitetin roluna yönəldirdilər. Potensial sponsorlara müraciət olunanda vəsaitlərin hara xərclənəcəyi barədə tədbirlər planı təqdim olunur, “slayd-şou”lar nümayiş etdirilirdi. Tədbirlər planında vəsaitlərin xərclənmə istiqamətinin ön sıralarında bəşəriyyətin ən acı xəstəliyi hesab olunan AİDS və xərçəngin müalicəsi üçün tədqiqatların aparılması, ətraf mühitin çirklənməsinin qarşısının alınması, müəllim hazırlayan bölmələrinin işinin gücləndirilməsi dayanırdı. Artıq Universitetin sərvəti və onun artırılması məqsədi heç kimi düşündürmürdü. Nəticədə kampaniya proqnozlaşdırılandan daha uğurlu oldu və 1999-cu ilin sonuna ianə fonduna 2,3 milyard dollar vəsait yığıldı. Sonradan maliyyə yardımı göstərmək bir ənənəyə çevrildi və hazırda Harvard Universitetinin büdcəsinə ildə 450 milyon dollar əlavə vəsait daxil olur.

Ali təhsil müəssisələrində elmi-tədqiqat işlərinin maliyyələşdirilməsində kənar fərdi vəsaitlərin rolu olduqca böyükdür. Məsələn, ABŞ-ın Masaçusets Texnologiya İnstitutu elmi-tədqiqat işlərinin kənardan maliyyələşdirilməsi istiqamətində aktiv siyasət həyata keçirir. Belə ki, yalnız 1999-2005-ci illərdə dünyanın ən qabaqcıl şirkəti olan “Microsoft” şirkəti universitet təhsilində informasiya texnologiyalarından istifadə etmək imkanlarının tədqiqinə 25 milyon dollar vəsait ayırıb. Əməkdaşlıq çərçivəsində 15 iri layihə həyata keçirilib ki, bunlardan multimedia materialları hesabına elektron arxivlərin genişləndirilməsini, məsafəli təhsil proqramının həyata keçirilməsi üçün proqram təminınatının işlənib hazırlanmasını qeyd etmək kifayətdir ki, layihələrin səviyyəsi barədə təsəvvürümüz olsun. “Microsoft” şirkətinin bu layihələri maliyyələşdirməsinə baxmayaraq o, Masaçusets Texnologiya İnstitututuna tədqiqatların nəticələrindən sərbəst istifadə etmək imkanı verdi. Bu intellektual mülkiyyət isə milyonlarla əlavə gəlirin təhsil müəssisələrinə axınına səbəb oldu.

Beləliklə, tədqiq olunan dövrdə maliyyələşmə sahəsində bəzi rəqəmlərə nəzər yetirək. 70-ci illərdə keçmiş SSRİ təhsilə ən çox vəsait ayıran ölkələrdən idi. Belə ki, bu ölkənin milli gəlirinin 10-12%-i təhsil sahəsinə xərcləyirdi. Bu dövrdə hər 10 min nəfərə düşən təhsil alanın sayına görə ABŞ SSRİ-dən geridə qalırdı. 80-ci illərdə SSRİ öz liderliyini itirdi. Bu dövrdə artıq ABŞ-da orta məktəblərə 12 dəfə, ali təhsil müəssisələrinə SSRİ-dən 6 dəfə artıq vəsait xərclənirdi. 90-cı illərdə vəziyyət bir az da ağırlaşdı. SSRİ-də təhsil xərcləri tamamilə məhdudlaşdırıldığı halda, ABŞ-da hələ uzun illər təhsilə dövlət qayğısı hiss olundu. ABŞ hökuməti vergi güzətləri tətbiq edərək təhsilə yardım edənlərin fəaliyyətini stimullaşdırdı.

1991-ci ildə SSRİ-nin varisi olan Rusiya daha ağır vəziyyətlə üzləşdi. Bu dövrdə Rusiyada təhsil xərcləri Ümum Daxili Məhsulun 0,5%-nə bərabər idi. Ali təhsil müəssisələrində bir təhsilalanın illik xərci isə ABŞ-da 8,4, Böyük Britaniyada 6,4, Yaponiyada 6,3, Almaniyada 5,4 dəfə Rusiyadan çox idi. Təsəvvür edin ki, 1990-cı ildə ABŞ-ın Merilend Universitetinin illik büdcəsi 1 milyard dollar olduğu halda, Moskva Dövlət Universitetinin büdcəsi 10 milyard rubl təşkil edirdi. 1992-ci ildə Rusiyada milli gəlirin 3%-ni, ABŞ-da 12,2%-ni, Almaniyada 12,1%-ni təhsil xərcləri təşkil edirdi. Qeyd edək ki, ABŞ-da təhsil xərcləri 30 il (1960-1990) ərzində 24 milyard dollardan

353 milyard dollaradək (14,7 dəfə) artmışdı. Xərclərin tərkibində ali təhsil xərcləri isə 20 dəfəyədək artmışdır. 90-cı illərin sonunda qabaqcıl dünya ölkələrində təhsil xərclərinin ÜDM-da payı sürətlə azalırdı. Belə ki, ABŞ-da bu göstərici 2,61%-ə, Yaponiyada 2,83%-ə, Fransada 2,32%-ə, Almaniyada 2,28%-ə, Böyük Britaniyada 1,94%, Rusiyada 0,94%-ə bərabər idi.

Bu dövrdə inkişaf etmiş ölkələr təhsillə paralel elmin inkişafına da ciddi fikir verirdilər. Belə ki, ABŞ-da elmi-tədqiqat xərcləri 1994-cü ildə 173 milyard dollar, 1995-ci ildə 170,8 milyard dollar, 1996-cı ildə 184,7 milyard dollar, Yaponiyada 1994-cü ildə 74,9 milyard dollar, 1995-ci ildə 75,2 milyard dollar, 1996-cı ildə 82 milyard dollar, Almaniyada 1994-cü ildə 37,3 milyard dollar, 1995-ci ildə 36,2 milyard dollar, 1996-cı ildə 36,4 milyard dollar, Fransada 1994-cü ildə 26 milyard dollar, 1995-ci ildə 26,5 milyard dollar, 1996-cı ildə 27,1 milyard dollar, Rusiyada 1994-cü ildə 6 milyard dollar, 1995-ci ildə 4,6 milyard dollar, 1996-cı ildə 5,3 milyard dollar təşkil etmişdi.

Müasir şəraitdə ali təhsilin dövlət tərəfindən əhəmiyyətli maliyyələşdirilməsi olmadığına görə ali təhsil müəssisələri müxtəlif yollarla xərclərini bağlamaq üçün maliyyə vəsaiti axtarışındadırlar. Hazırda ali təhsil müəssisələri çalışırlar ki, daha çox fərdi vəsait və fərdi ianə cəlb etsinlər. Avropa universitetlərində əlavə vəsaitlərin cəlb edilməsi ABŞ universitetlərilə nisbətdə çox aşağıdır. Bunun da həm mədəni, həm də tarixi əsasları vardır. Belə ki, Avropada universitetlərin əksəriyyəti dövlətə məxsusdur və ali təhsil müəssisələrinin şəxsi mülkiyyəti mövcud deyil. Bu baxımdan xeyriyyəçilik məqsədilə hər hansı ianənin verilməsi Avropa ölkələrində çox aşağı səviyyədədir. Məsələn, imkanlı bir şəxs universitetə bina hədiyyə etmək istəyirsə, o, bu binanı dövlətə hədiyyə kimi rəsmiləşdirməli və dövlətin balansına keçirməlidir. Əgər ABŞ-da imkanlı şəxslər xeyriyyəçiliyin müqabilində müəyyən vergi güzəştləri əldə edirlərsə, Avropada yüksək vergitutma bu imkanları məhdudlaşdırır.

Avropada xeyriyyəçilik təcrübəsi ABŞ-a nisbətən çox geridə qalır. Əgər ABŞ universitetlərində seçilmək, fərqlənmək ideyası ön planda dayanırsa, Avropa universitetlərinin belə bir iddiası yoxdur. Bundan əlavə, Avropa universitetləri (xüsusilə Qərbi Avropa universitetləri) öz tələbələrinə və məzunlarına daha az diqqət yetirirlər. Bəzi ali təhsil müəssisələri isə, ümumiyyətlə, məzunları ilə maraqlanmır və qısa müddətdə məzunlar da öz universitetlərini unudurlar. Halbuki Amerika universitetlərinə göstərilən ən böyük maliyyə yardımları məhz məzunlar tərəfindən edilir.

Qeyd etdiyimiz kimi, Avropada kənar vəsaitlərin cəlb edilməsi mədəni və irsi Avropa mədəniyyəti ilə əlaqədardır, hansını ki, dəyişmək olduqca çətindir. Bu baxımdan Avropada ABŞ səviyyəsində xeyriyyəçiliyin formalaşması qeyri-mümkündür. Lakin bütün bunlara baxmayaraq, bu istiqamətdə fəaliyyəti genişləndirməyə çalışmaq lazımdır. Belə ki, yaxın vaxtlara qədər hətta ABŞ-da da dövlət universitetləri kənar vəsaitlərin cəlb edilməsi istiqamətində elə də genişmiqyaslı və təşkilati fəaliyyət göstərmirdi.

Buna baxmayaraq, son 20-25 ildə ABŞ-da ali təhsil müəssisələrinin cəlb etdiyi həm fərdi yardımların həcmi, həm də peşəkarlıq səviyyəsi artıb. Həmçinin Avropa təhsil sistemində əlavə yardımların cəlb edilməsinə qarşı olan bəzi maneələr nə universitetlərə, nə də orada təhsil alan tələbələrə inkişaf etməyə imkan vermir. Fikrimizcə, Avropa ali təhsil müəssisələrinə əlavə vəsaitlərin cəlb edilməsini stimullaşdırmaq üçün həm dövlət, həm də ali təhsil müəssisələri tərəfindən mütərəqqi addımlar atılmalıdır.

Qərb ekspertləri hesab edirlər ki, Avropa ölkələrinin hökumətləri ali təhsil müəssisələrinə əlavə vəsaitlərin cəlb edilməsini özündə əks etdirən, eyni zamanda onlar arasında rəqabət stimullaşdıra biləcək qanunvericilik yaratmalıdırlar.

Belə ki, Qərbi Avropa ölkələrinin əksəriyyətində universitetlərin əlavə maliyyə yardımı (ianə) almasını qanun məhdudlaşdırır, hətta mümkünsüz edir. Əslində isə qanunvericilik ali təhsil müəssisələrinə yardım edən ayrı-ayrı şəxslərə və korporasiyalara müəyyən vergi güzəştləri təqdim etməklə bu fəaliyyəti stimullaşdırmalıdır.

Universitet - tələbə münasibətinə gəldikdə isə, tələbələrə təhsilalan kimi deyil, universitetin bir üzvü, tərkib və ayrılmaz hissəsi kimi yanaşmaq lazımdır. Bu münasibətlər isə getdikcə məzunlara da şamil edilməli, onlarla əlaqələr möhkəmləndirilməlidir. Qeyd edək ki, ABŞ ali təhsil müəssisələrinin əksəriyyətində məzun assosiasiyaları fəaliyyət göstərir.

Qərb ekspertləri düşünürlər ki, kənardan edilən maliyyə yardımı əsrlərlə formalaşmış Avropa akademik dəyərlərinə, eyni zamanda elmi-tədqiqat və müəllimlik fəaliyyətinə mənfi təsir göstərər. Bütün məhdudiyyətlərə baxmayaraq, Avropa universitetləri maliyyə yardımı cəlb etməyə borcludur və bunu həyata keçirmək üçün onların kifayət qədər imkanı vardır. Lakin ilk növbədə tələbə və məzunlarla iş möhkəmləndirilməli, yardım etməkdə maraqlı olanlarla iqtisadi və sosial münasibətlər qurulmalıdır.

**İstifadə olunmuş ədəbiyyat**

1. Eicher J. The costs and financing of higher education in Europe // European journal of education. Oxford, 1998, vol 33, №1, p. 31-39
2. Mora Y. Nugent M. Seeking new resources for European universities: the example of fund-raising in the US // European journal of education. Oxford, 1998, vol 33, №1, p. 113-129
3 Schmidt P. A state transforms colleges with “performance funding”// The chronicle of higher education. Wash. 1999, vol XLV, №43, p 26-28
4.Willams G. Current debates on the funding mass higher education in the United Kingdom // European journal of education. Oxford, 1998, vol 33, №1, p. 77-87
5. www.harvard.edu

**Мобиль Меджидов**

## РЕФОРМЫ И ЕГО РЕЗУЛЬТАТЫ СИСТЕМЫ ВЫСШЕГО ОБРАЗОВАНИЯ В ЗАРУБЕЖНЫХ СТРАНАХ В УСЛОВИЯХ ОГРАНИЧЕНИЯ ГОСУДАРСТВЕННОЙ ПОДДЕРЖКИ В КОНЦЕ XX ВЕКА (ОПЫТ ЕВРОПЫ И США)

### РЕЗЮМЕ

В статье рассматриваются вопросы проведения реформ системы высшего образования в зарубежных странах, а также проанализированы его результаты в условиях ограничения государственной поддержки в конце XX века. По мнению автора, финансирование образовательных учреждений со стороны государства должны быть ограничены. Как показывает исследование, такой подход привел с одной стороны, к развитию образовательных учреждений в Америке, а с другой – наблюдался обратный процесс в Европе.

**Mobil Medjidov**

## THE REFORMS AND THEIR RESULTS REALIZING IN THE CONDİTION OF LIMITING FINANCE AID BY THE STATE TO THE EDUCATION SYSTEM OF FOREIGN COUNTRIES AT THE END OF THE 20$^{TH}$ CENTURY (THE EXPERIENCE OF EUROPE AND AMERICA)

### SUMMARY

In the article the reforms and their results realizing in the condition of limiting finance aid by the state to the education system of foreign countries were analysed. The author's limiting financial support to a higher education by the state is caused for the development of USA education institutions, but the lagging of European educational institutions.

# "ƏMƏK və SOSİAL MÜNASİBƏTLƏR"

**Elmi-praktiki jurnal**

**№ 1 (01), 2014**

**Redaktorlar:**

***Raziyyə Maniyeva, Lətifə Məcidova, Qızılgül Hacıyeva***

**Kompyuter tərtibatı:**

***Mehparə Hidayətova***

**Dizayn:**